**Cild: 13 Say: 2** **ISSN 2218 – 0346**
**2010**

# AZƏRBAYCAN ARXEOLOGIYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş Redaktor**
Qüdrət İsmayılzadə

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev

**Məsul katib**
Sevda Hüseynova
Bəhlul İbrahimli

**Redaksiya heyəti**
Alp Arslan (Türkiyə)
İsmayıl Hacıyev (Azərbaycan)
Vadim Masson (Rusiya)
Bertyill Lyonnet (Fransa)
Rauf Munçayev (Rusiya)
Mehmet Ösdoğan (Türkiyə)
Vəli Baxşəliyev (Azərbaycan)
Otar Caparidze (Gürcüstan)
Övez Gündoğdiyev (Türkmənistan)
Maya Rəhimova (Azərbaycan)
Mehmet İşıqlı (Türkiyə)
Viktor Sarianidi (Rusiya)
Lauren Listven (ABŞ)
Andreas Şaxner (Almaniya)

**Volume: 13 Number: 2 2010** **ISSN 2218-0346**

# AZERBAIJAN ARCHEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor in Chief**
Qudrat Ismayilzadeh

**Editorial Assistants**
Roza Arazova
Tarikh Dostiyev

**Deputy Editors**
Sevda Huseynova
Bahlul Ibrahimli

**Editorial Board**

Alp Arslan (Turkey)
İsmail Haciyev (Azerbaijan)
Vadim Masson (Russia)
Bertille Lyonnet (France)
Rauf Munchayev (Russia)
Mehmet Ozdoghan (Turkey)
Vali Baxshaliyev (Azerbaijan)
Otar Japaridzeh (Georgian)
Ovez Gundoghdiyev (Turkmenistan)
Maya Rahimova (Azerbaijan)
Mehmet Ishikli (Turkey)
Viktor Sarianidi (Russia)
Lauren Listvest (USA)
Andreas Schachner (Germany)

© COPYRIGHT©1999 BY KHAZAR UNIVERSITY PRESS
ALL RIGHTS RESERVED

AZ1096 Azərbaycan Respublikası
Bakı şəhəri, Məhsəti küçəsi, 11
Xəzər Universitəsi

Khazar University 11 Mehseti str.,
Baku AZ1096 Republic of
Azerbaijan

Üz qabığında: Xaraba-Gilandan tapılmış tunc amulet.
Cover page depicts: The Bronze Amulet from Kharaba-Gilan.
На обложке: Бронзовый амулет из Хараба-Гилана.

Telefon: (99412) 4217927
Faks: (99412) 4989379
E-mail: contact@khazar.org
jaa@khazar.org
website: http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRESS



***Hər daşın qəlbində ox nişanı var...***

***Məmməd Kərim Cavadovun "Naxçıvan" şeirindən.***

***Each heart of stone has a sign of arrow...***

***From Mammad Karim Javadov`s "Nakhchivan" pooem.***

***На каждом камне следы стрел...***

***Из стиха "Нахчыван" Мамеда Карима Джавадова.***

## İŞINDƏKILƏR

### TƏDQİQATLAR

*Vəli Əliyev.*Gəmiqaya abidələrində Naxçıvan tarixinin səhifələri. .........9
*Azad Zeynalov.*Qazma mağarası Naxçıvanda ilk paleolit düşərgəsidir. .22
*Müzəffər Hüseynov.* Naxçıvanın ilkin əkinçilik mədəniyyəti. ................35
*Anar Ələsgərov.*Azərbaycanın tunc dövrü nəqliyyat vasitələrinin öyrənilməsində Naxçıvan abidələrinin rolu. ..........................................44
*Bəhlul İbrahimli.*Gilançay vadisinin arxeoloji abidələri (e.ə. I minillik – b.e. XIV əsri). .......................................................................51
*Zeynəb Quliyeva.*Arpaçay vadisinin qəbir abidələri. ..............................73
*Əkbər Bədəlov.*Meydantəpə yaşayış yerində 2008-2010-cu illərdə aparılmış arxeoloji tədqiqat işləri. .........................................................80

### MARAQLI TAPINTILAR

*Hacı Fəxrəddin Səfərli.*Naxçıvanda kəhrizlər: yaranması və inkişaf yolu. ..............................................................................................84
*Lena Fialko.*Pont çöllərində skif amazonları. .......................................91
*Sevda Hüseynova.*Abbasabad qalası Azərbaycan ərazisində son feodal dövrünün memarlıq nümunəsidir. ................................................104

### ELM TARİXİ

*Toğrul Xəlilov.*Müstəqillik dövründə Naxçıvanda arxeoloji tədqiqatlar. ........................................................................................108
*Afaq Quluzadə.*Epiqrafik irsin toplanılmasında Azərbaycan tədqiq və tətəbbö cəmiyyəti Naxçıvan şöbəsinin və Naxçıvan Dövlət Tarix muzeyinin rolu. ..........................................................................115
*Hüseyn Həşimli.*Naxçıvan milli dəyərlərimizin xəzinəsidir....................128

### BÖYÜK ARXEOLOJİ KƏŞFLƏR

*Elşad Bağırov.*Qüdrətli hökmdarin saxsi ordusu ...................................131

### KÖMƏKÇİTARİXİ FƏNLƏR

*Qənirə Pirquliyeva.* Naxçıvan zərbxanasının Azərbaycanın dövlətçilik tarixində yeri və əhəmiyyəti. ................................................135

### TƏLƏBƏLƏRƏ KÖMƏK

*Tarix Dostiyev.*Arxeoloji lüğətin tərtibinə dair (yaşayiş yerləri mövzusu üzrə). .......................................................................140

**BİZİM MÜSAHİBƏ**
*Bəhlul İbrahimli.* Azərbaycan Milli Elmlər Akademiyasının Müxbir üzvü, tarix elmləri doktoru Hacı Qadir Qadirzadə ilə müsahibə.............150

**BİZİM ARXİVDƏN**
*Bəhlul İbrahimli.* Bir arxeoloq var idi…..................................................154

**XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR** ................................................158

## CONTENTS

**RESEARCHES.**
*VeliAliev.* The Palace of Gamigaya Monuments in the Culture of Nakhchivan. ....................................................................................9
*Azad Zeynalov.*Cave Gazma - the first paleolithiccamp ın Nakhchıvan. ..................................................................................22
*MuzaffarGuseynov.*The early agreculture culture of Nakhchivan. .........35
*Anar Ələsgərov.*Role of Nakhchivan monuments instudyingofthetransportMeans in Azerbaijan in Bronze Age................44
*Bahlul Ibrahimli.*Archaeological monuments of the valley of the Gilanchay (I millenium B.C. – XIV century). .......................................51
*ZejnabKulieva.*Funeral monuments of a valley of the river Arpachay. ..................................................................................73
*Akbar Badalov.*ArcheologicalexcavationsonsettlementMejdantepeinyears 2008-2010. ..............................................................................80

**INTERESTING EXPLORATİONS.**
*Haji FakhraddinSafarli.*Kahrizes in Nakhchivan: their evolution and development. ......................................................................84
*Yelena Fialko.*Seythian amazons of Pontus step...................................93
*Sevda Huseynova.*Abbasabad fortress - example of architecture of late feudal period in Azerbaijan. ...........................................................104

**HISTORY OF SCIENCE**
*TogrulKhalilov.*Archaeological investigations in the epoch ofindependence of Nakhchivan. ............................................................108
*AfaqGuluzadeh.*The role of the Nakhchivan Branch of Azerbaijan Research and Society and Nakhchivan State History Museum in collecting of Epigraphic heritage. .........................................................115
*HusseynHashimli.*Nakhchivan is a treasure of our national values ........128

**GREAT ARCHAEOLOGİCAL DİSCOVERİES**
*ElshadBagirov.* The Clay Army of Powerful Chief...............................131

**SUBSIDIAIRES**
*Ganira Pirguliyeva.*The significance and spot for statement history in mint of Nakhchivan.......................................................................135
**FOR STUDENTS**
*TarikhDostiyev.*Archeological Dictionary. ............................................140

**OUR INTERVIEW**

The interview with notable etnograph, Haji Gadir Gadirzadeh, thecorrespondentmember of AzerbaijanNationalAcademy of Science. ....................................................................................................150

**FROM OUR ARCHIVE**

*Bahlul Ibrahimli*. Therewasonearchaeologist... .....................................154

**CHRONICLES, REVIEWS, INFORMATIONS** ................................158

## СОДЕРЖАНИЕ

### ИССЛЕДОВАНИЯ

*Вели Алиев.*Памятники Гямигая – источники культуры Нахчывана. ....................9
*АзадЗейналов.*Пещера Газма – первая палеолитическая стоянка в Нахчыване. ....................22
*МузаффарГусейнов.*Ранняяземледельческая культура Нахчывана. ....................35
*АнарАлескеров.*Роль Нахчыванских памятников в изучении транспортных средств в Азербайджане в период бронзы. ................44
*Бахлул Ибрагимли.* Археологические памятники долины реки Гиланчай (I тыс. до н.э. – XIV в.н.э.). ....................51
*Зейнаб Кулиева.*Погребальные памятники долины реки Арпачай. ....................73
*Акбар Бадалов.*Археологические раскопки на поселение Мейдантепе. ....................80

### ИНТЕРЕСНЫЕ НАХОДКИ

*Гаджи ФахраддинСафарли.*Кякризы в Нахчыване: становление и пути развития. ....................84
*Лена Фиалко.*Скифские амазонки в понтийских степях. ................91
*Севда Гусейнова.*Крепость Аббасабад - пример зодчества позднефеодального периода на территории Азербайджана. ............104

### ИСТОРИЯ НАУКИ

*Тогрул Халилов.*Археологические исследования в Нахчыване в эпоху независимости....................108
*Афаг Гулузаде.*Роль Нахчыванского отдела Общества обследования и изучения Азербайджана и Нахчыванского Государственного исторического музея в собрании эпиграфического наследия. ....................115
*ГусейнГашимли.*Нахчыван – кладезьнациональныхценностей........128

### ВЕЛИКИЕ АРХЕОЛОГИЧЕСКИЕ ОТКРЫТИЯ

*ЕльшадБагиров.* Глиняная армия могущественного императора.....131

### ВСПОМОГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ

*ГaнираПиргулиева.*Место и значение Нахчыванского монетного двора в истории государственности Азербайджана. ....135

### ПОМОЩЬ СТУДЕНТАМ

*ТарихДостиев.*К составлению археологического словаря (по теме «Поселения»). ....................................................................140

**НАШЕ ИНТЕРВЬЮ**
Интервью с видным этнографом, доктором исторических наук, член-корреспондентом Национальной Академии Наук Азербайджана Гаджи ГадиромГадирзаде. ..........................................150

**ИЗ НАШЕГО АРХИВА**
*БахлулИбрагимли.*Был один археолог… ............................................154

**ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ**.....................................158

TƏDQİQATLAR
RESARCHES
ИССЛЕДОВАНИЯ

# GƏMİQAYA ABİDƏLƏRİNDƏ NAXÇIVAN TARİXİNİN SƏHİFƏLƏRİ

**Vəli Əliyev**
velialiev@mail.ru
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Naxçıvan, Gəmiqaya, Qapıcıq, qayaüstü rəsm, tunc dövrü.**

Azərbaycanda ulu nəsillərin ilkin məskunlaşdığı ərazilərdən biri qədim Naxçıvan diyarı olmuşdur.

Xalqımızın milli mənəvi dəyər qaynağı sayılan «Dədə Qorqud» dastanında tarixən əbədiləşən Şərurun Tənənəm kəndi yaxınlığındakı Qazma daş dövrü məskənində aparılmış arxeoloji qazıntılar, eləcə də Naxçıvançay, Əlincəçay və Gilançay vadisində araşdırmalar nəticəsində əldə edilən zəngin arxeoloji materiallar göstərir ki, 100-80 min il bundan əvvəllərdən başlaya-



raq Naxçıvan diyarında ardıcıl həyat tərzi davam etmiş, burada ümumbəşəri dəyərlərə malik olan qədim mədəniyyətlər yaranmışdır.

Naxçıvanın ilkin sivilizasiya mərkəzləri e.ə. IV-I minilliklərdə yüksək səviyyədə təkamül tapmış, Yaxın Şərq və Ön Asiya ölkələri ilə qarşılıqlı iqtisadi, mədəni əlaqələr yaratmışdır. Məhz bu tarixi mərhələdə qədim Azərbaycanın Urmiya, Naxçıvan və Qarabağ regionlarında güclü tayfa ittifaqları – ilkin şəhər dövlət qurumları yaranmışdır.

Naxçıvan öz coğrafi mövqeyinə görə, Azərbaycanın cənub və şimal regionlarını, eləcə də bütövlükdə Cənubi Qafqazı Ön Asiya və Yaxın Şərq ölkələri ilə əlaqələndirən mühüm ticarət-karvan yolu üzərində yerləşən əsas mədəniyyət mərkəzi olduğundan iqtisadi, mədəni cəhətdən sürətlə inkişaf etmiş və qədim dünyanın sivilizasiya ocaqlarından biri kimi tanınmışdır. Qədim Naxçıvan əhalisi arasında mənəvi mədəniyyətin müxtəlif sahələri ilə yanaşı incəsənət və piktoqrafik «yazı» mədəniyyəti də inkişaf tapmışdır. Bu baxımdan Gəmiqaya petroqlifləri, qayaüstü təsvirləri və piktoqrafik «yazı» nümunələri qədim Naxçıvanın mədəniyyət tarixini öyrənmək üçün çox dəyərli qaynaqlardır.

Gəmiqayada 1968-1990-cı illərdə qədim mövsümi yurd yerləri, müxtəlif siklopik tikintilər, qəbir abidələri, ibadətgahlar, qayaüstü təsvirlər qeydə alınmış, arxeoloji qazıntılar aparılmış və bu abidələr haqqında elmi əsərlər yazılmışdır. Lakin Gəmiqaya abidələri zəngin tarixi xəzinəyə malik olduğundan burada daha geniş planda elmi axtarışlar, arxeoloji qazıntılar aparılmasına çox böyük ehtiyac vardı.

Azərbaycanın maddi və mənəvi mədəniyyətini dərindən bilən, Heydər Əliyev Naxçıvanın maddi-mədəniyyətinin, xüsusilə Gəmiqaya abidələrinin ümumibəşəri dəyərlərini və xalqımızın tarixinin öyrənilməsi üçün böyük elmi əhəmiyyətini yüksək qiymətləndirərək 2001-ci ildə MR-nın ərazisində geniş arxeoloji tədqiqatlar aparılmasını çox vacib bir vəzifə olaraq qarşıya qoydu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov «Ordubad rayonundakı Gəmiqaya abidələrinin tədqiq edilməsi haqqında» 2001-ci il 26 aprel tarixli sərəncamı verdi və lazımi işlərin görülməsi üçün şərait yaradıldı. Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları Gəmiqayada və Muxtar Respublikanın ərazisində geniş arxeoloji tədqiqatlar aparmağa başladılar.

Gəmiqaya petroqlifləri və onlarla bilavasitə bağlı olan dağətəyi düzən ərazilərdəki e.ə. IV-I minilliklərə aid olan tunc, ilk dəmir və antik dövrü abidələrinin daha geniş planda tədqiqi erməni tarixçilərinin Naxçıvanla bağlı saxtakarlığını bir daha üzə çıxarıb, onların bu qədim Azərbaycan diyarına ərazi iddiasını ifşa etməyə imkan verir.

Azərbaycan tarixinin problem məsələlərini daim diqqət mərkəzində saxlayan, əbədi öndərimiz Heydər Əliyevin xüsusi qayğısı sayəsində 2001-2003-cü illərdə Gəmiqayada, onun ətraf ərazilərində geniş planda arxeoloji,

etnoqrafik, toponimik, folklor tədqiqatları aparılmış və milli mənəvi dəyərlərimizin tarixi köklərini araşdırmaq üçün çox əhəmiyyətli yeni materiallar toplanmışdır.

Qayaüstü rəsmlər-petroqliflər qədim incəsənətin yaranması və təkamülü kimi mühüm elmi problem məsələlərin öyrənilməsi üçün əsas mənbələrdir. Qədim insanların sosial həyat tərzi, ideologiyası, müxtəlif adət-ənənələri, estetik və fəlsəfi baxışları ilə əlaqədar yaranmış qayaüstü rəsmlər, qiymətli təsviri sənət əsərləri olmaqla yanaşı, bir növ bəşəriyyətin ilkin inkişaf mərhələlərini əks etdirən sirli piktoqrafik yazılardır. Dünyanın əksər ərazilərində mövcud olan petroqliflər arxeoloqları, sənətşünasları və linqvist tədqiqatçıları ən çox maraqlandıran abidələrdir.

Qayaüstü rəsmlərə Avropa və Asiyada geniş miqyasda - Qafqazda, Ön Asiyada (Anadoluda), İranda (Qaradağda), Uralda, Sibirdə, Altayda, Kareliyada, Ağ dəniz, Oneqa gölünün sahillərində və dünyanın bir çox ərazilərində məlumdur.

Cənubi Qafqaz, Anadolu, Şimali Qafqaz qayaüstü rəsmləri Orta Asiya, Sibir petroqlifləri ilə müəyyən cəhətlərdən oxşarlıq təşkil etsə də, özünəməxsus xüsusiyyətləri vardır. Cənubi Qafqazda qayaüstü rəsmlər əsasən Azərbaycanda – Qobustanda, Abşeronda, Kəlbəcər, Sünik və Ordubaddakı Gəmiqaya yaylaqlarındadır.

Gəmiqaya petroqlifləri Azərbaycan qayaüstü təsvirləri içərisində öz orijinallığı ilə seçilir. Bu abidə qədim Naxçıvan mədəniyyətinin geniş tədqiqində yeni söz deməyə imkan verir.

Naxçıvan diyarının şimal ərazisi boyunca uzanan, Kiçik Qafqazın Zəngəzur dağ silsiləsinin ən hündür zirvəsi Qapıcıq (3906 m.) xalq arasında Gəmiqaya adlandırılır. Daim qar və buz örtüklü bu zirvə, səma aydın olanda Naxçıvanın hər yerindən aydın görünür. Maraqlıdır ki, mavi səma fonunda Qapıcıq dağı bir növ üfüqdə görünən gəmini xatırladır. Kim bilir, bəlkə elə Qapıcıq zirvəsi bu mənzərəsinə görə Gəmiqaya adlandırılmışdır. Araz çayının bol sulu qollarından biri olan Gilançay öz mənbəyini Gəmiqayanın cənub, şərq və qərb yamaclarındakı bulaqlardan və əsasən bu ərazidəki Göy göldən alır. Gilançayın və onun qolları Saqqarsu çayı, Nəsirvazçayı və Parağa çayı vadilərində qədim tayfaların mədəniyyət izləri, yaşayış yerləri və nekropollar vardır.

Naxçıvan ərazisində əhalinin əsas məskənləşdiyi ərazilərdən biri də Gilançay vadisi olmuşdur. Bunun üçün Gilançay vadisində təbii zənginliklər, bol ov məskənləri, yaşayış üçün əlverişli, füsunkar mənzərəli yerlər vardır. Gilançay vadisinin Araz sahili düzənlə qovuşduğu ərazidə e.ə. II-I minilliklərdə əhali daha sıx məskunlaşmışdır. Bu qədim yaşayış yerlərinin inkişaf etməsində Yaxın Şərq ölkələri ilə Naxçıvanın iqtisadi-mədəni əlaqələri mühüm rol oynamışdır. Gilançay vadisində tunc, ilk dəmir və antik dövrlərdə (e.ə. XV-IV əsrlərdə) şəhər mədəniyyəti inkişaf tapmışdır. Orta əsrlər döv-

ründə bu şəhər Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuşdur.

Gilançayın yuxarı axarı boyunca – Gilankənd, Biləv, Parağa, Tivi, Nəsirvaz, Xurs kəndləri ərazisində e.ə. IV-I minilliklərə və orta əsrlər dövrünə aid yaşayış yerləri, qalalar, istehkamlar və s. abidələr vardır. Bu maddi-mədəniyyət abidələri Gəmiqaya petroqlifləri ilə bilavasitə bağlıdır.

Gəmiqayanın cənub, qərb və şərq yamaclarında, dəniz səviyyəsindən 3500-3700 m hündürlükdə yerləşən Qaranquş, Nəbi yurdu, Qız-gəlin çuxuru, Camışölən, Dəlibulaq yaylaqları və Ayıdərəsindəki alp çəmənlikləri çox qədim zamanlardan Naxçıvanın, əsasən Gilançay və Əlincəçay vadilərində yaşamış ibtidai insanların ov məskənləri və yaylaqları olmuşdur.

Qədim şumer mənşəli Nuh əfsanəsi Gəmiqaya ilə də əlaqələndirilir. Bu mifoloji mülahizəyə görə, guya ümumdünya daşqını zamanı (e.ə. IV-III minilliklərdə) Nuh peyğəmbər öz gəmisi ilə üzüb Gəmiqaya dağı ərazisinə çatmışdır. Burada suyun səviyyəsi çox hündürə qalxdığından Gəmiqayanın zirvəsi belə görünməz olmuşdur. Gəmi dağın zirvəsi üstündən ötüb keçərkən ona toxunmuş və bərk silkələnmişdi. Nuh peyğəmbər bu toxunmaya narahat olmayıb demiş, gəmçi qayadır, yəni gəm-kiçik qayadır. Odur ki, bu dağ el arasında Kəmçi adlandırılmışdır. Kəmçi adlı digər bir dağ Ordubaddan cənubda, Arazın sağ sahilində, Cənubi Azərbaycanda Qaradağ silsiləsində yerləşir.

Həmin əfsanəyə görə, Nuh peyğəmbərin gəmisi bir qədər sonra Naxçıvan istiqamətində üzərək başqa bir dağa toxunmuş və peyğəmbərin gəmisi onun zirvəsini kəsib keçmiş, bərk löngər vurmuşdur. Nuh demişdir: İnan dağdır. Odur ki, hazırda Naxçıvanın rəmzi sayılan Əlincəçay vadisində vüqarla ucalan əzəmətli Haçadağ – İlandağ el arasında İnandağ da adlandırılır.

Nuh əfsanəsinin Gilançay və Əlincəçay vadisi ilə bağlı olması da elmi cəhətdən çox maraqlıdır. Belə ki. bu çayların vadilərindəki e.ə. IV-I minilliklərə aid abidələrdən əldə edilən maddi-mədəniyyət qalıqları Gəmiqaya petroqlifləri ilə sıx vəhdət təşkil edir.

Əfsanənin sonu qədim Naxçıvan şəhəri ilə bağlıdır. Belə nəql edilir ki, nəhayət Nuhun gəmisi dayanmış. Quru torpaq sahəsi görünmüşdür. O, gəmidən çıxmış və ilk ayaq basdığı yer Nuhçıxan adlanmışdır. Nuh ailəsi ilə burada məskən salmış, yeni nəsillər yaranmış və dünyaya yayılmışdır. Bu qədim yaşayış yeri sonralar Naxçıvan (Nuhçıxan) adlanmışdır.

Minillər boyu Naxçıvan əhalisinin iqtisadi həyatı üçün əhəmiyyətli olan Gəmiqaya ətrafındakı buradakı yaylaqlarının ərazisi Nuh əfsanəsi ilə bağlı bir növ müqəddəsləşmişdir, hətta burada təbii ibadətgahlar meydana gəlmişdir. Belə qədim inanc yerləri ibadətgahlardan biri Gəmiqayanın cənub yamacındakı əzəmətli görünüşə malik qayalıqda yerləşən Bibqətəl piri adı ilə tanınan qədim ibadətgahdır. Bu qədim mağara – məbədə insanlar baharın gəlişilə, həyatın təzələnməsi ilə əlaqədar ibadətə gəlir, məhsuldarlığın, nəslin artması diləyi ilə sitayiş edirlər. Hələ sirləri tam açılmamış Gəmiqaya

petroqliflərinin bir qismi məhz nəsil artımını, məhsuldarlığı, həyatın yeniləşməsini əks etdirir.

Qapıcıq – Gəmiqaya zirvəsi dördüncü geoloji dövrdə yaranmış və əsasən sıldırımlı qayalıqdan ibarətdir. Qaranquş yaylağı ərazisində olan belə qayalıqların demək olar ki, əksəriyyəti ən qədim zamanlarda təbii aşınma sayəsində parçalanıb Gəmiqayanın cənub yamaclarına səpələnmişdir. Qayaların qismən salamat qalmış aşağı hissəsi uzaqdan nəhəng monumental-heykəllərə bənzəyir. Parçalanmış iri qaya parçaları yamaclara səpələnmişdir. Metamorfit tuf, qranit, bazalt tərkibli bu qaya parçalarının əksəriyyətinin üst səthi dördüncü dövrdə buzlaqların sürüşməsi nəticəsində parıltı verənədək cilalanmışdır.

Bu qayalar üzərində müxtəlif süjetli rəsmlər həkk olunmuşdur. Gəmiqaya təsvirlərinin böyük əksəriyyəti Qapıcığın cənub-şərq yamacındakı Qaranquş yaylağı ərazisindəki saysız-hesabsız iri qaya parçaları üzərindədir.

Gəmiqayada 2002-ci ildən etibarən bizim tərəfimizdən yeni arxeoloji tədqiqatlar aparılmışdır. Qaranquş və Nəbiyurdu yaylaqlarında mövsümi məskunlaşan tunc və ilk dəmir dövrü maldar ailələrin dairəvi plana malik yurd-dəyə yerləri, siklopik tipli istehkamlar-qalaçalar, dəfn abidələri və qayaüstü təsvirlər aşkara çıxarıldı. Yaşayış tikintilərinin (diametri 5-12 m), qalaçaların divarları iri və orta həcmli qaya parçalarından qurulmuşdur.

Dairəvi planlı yaşayış tikintilərində və kurqan tipli abidələrdə arxeoloji qazıntılar aparılmış, gil və daş məmulatları, obsidian qəlpələri əldə edilmişdir. Nəbiyurdundakı qalaçaların yaxınlığından e.ə. IV-III minilliklərə aid gil qab nümunələri tapılmışdır. Belə keramika məmulatı e.ə. IV-III minilliklərdə Naxçıvanın düzən ərazisində yaşayan oturaq əkinçi və maldar tayfalarının məişətində geniş istifadə olunmuşdur.

Qayaüstü rəsmlər əsasən həmin yurd yerlərinin və qalaçaların ətrafındakı qayalar üzərindədir. Gəmiqayada sərt qranit, bazalt cinsli qayalar üzərində adam, keçi, maral, it, at, öküz, bəbir, quş təsvirləri və müxtəlif şərti işarələr həkk olunmuşdur. Bu qədim təsviri sənət əsərlərinin böyük əksəriyyətini heyvan rəsmləri təşkil edir. Bir qayda olaraq, heyvan rəsmləri tək-tək, qoşa, sürü halında və kompozisiyalı səhnələrdə təsvir olunmuşdur. Onların böyük əksəriyyəti keçi rəsmləridir.

Gəmiqaya təsvirləri kompozisiyalarının sadə və mürəkkəbliyinə, eləcə də süjetlərinə görə müxtəlif məzmunlara malikdir. Kompozisiyalı bir təsvirdə keçi ilə yırtıcı heyvan (qurd-canavar) qarşı-qarşıya dayanmışdır. Keçi rəsmi qarşı tərəfdən yarımdairəvi planda cızılmış dalğavari xətlə əhatələnmişdir. Xəttin yuxarı ucu ovalvari, aşağı ucu isə üç istiqamətdə şaxələnmişdir. Yırtıcı heyvan qulaqlarını şəkləyib keçiyə doğru hərəkət edir. Keçi isə bu təhlükəli vəziyyətdən sarsılıb dayanmışdır. Yırtıcı heyvandan arxada günəş simvolu olan dairə vardır.

Bu motivdə rəsmlər Naxçıvanın boyalı qabları üzərində də çəkilmişdir. Şahtaxtıdan tapılmış polixrom boyalı qabın üzərindəki kompozisiyalı rəsmdə yırtıcı heyvanın-canavarın keçi üzərinə hücumu təsvir edilmişdir.

Görünür, bu qədim təsviri sənət nümunələrində qədim qurdağzı bağlamaq ovsunu təsvir olunmuşdur. Etnoqrafik tədqiqatlar göstərir ki, Azərbaycanın maldarlıqla məşğul olan əhalisi arasında bu ovsun sürüdən ayrı düşüb gecə çöldə tək qalan, tapılmayan heyvanla əlaqədardır. Heyvan tapılmadıqda, onun gecə yırtıcıya rast gələcəyini nəzərə alan sahibi qaranlıq düşəndə ovsunçu kahinə müraciət edir, qurdun ağzını bağlamağı xahiş edir. Kahin dua oxuyub iplə ya bıçağın ağzını bağlayır, yaxud qazanı ağzı aşağı çevirir. Bununla da vəhşi heyvanın ağzı bağlanır, heyvan xilas olunur. Gəmiqaya səhnəsindəki dalğavari xəttin-ipin bir ucunun düyünlənməsini qurdun ağzının bağlanması, digər ucunun şaxələnməsini onun yolunun azdırılması, günəş simvolu olan dairəni isə keçinin səhər açılanədək salamat qalacağı kimi izah etmək olar.

Deməli, Gəmiqaya rəsmlərində şər qüvvələrdən qorunmaq və xilas olunmaqla bağlı ibtidai təsəvvürlər, humanist ideyalar əks etdirilmişdir.

Gəmiqayada həkk olunmuş öküz rəsmlərinin buynuzları uzun və qövsvari əyilmiş şəkildədir. Bu öküz rəsmləri II Kültəpə qədim yaşayış yerindən tapılmış e.ə. II minilliyə aid olan polixrom boyalı qabın üzərindəki öküz rəsmlərinə oxşayır. Öküz rəsmləri öküz toteminə sitayişlə əlaqədardır.

Naxçıvan ərazisində yaşamış qədim tayfalar arasında hələ e.ə. IV-III minilliklərdə ilk tunc dövründə öküz toteminə sitayiş çox güclü olmuşdur. I Kültəpə, II Kültəpə, Maxta və Şortəpə yaşayış yerlərindən tapılmış Kür-Araz mədəniyyətinə (e.ə. IV-III minilliklərə) aid gil öküz fiqurları və öküz başı formalı gil ocaq qurğuları bunu sübut edir. Qədim tayfaların inamına görə, öküz totemi güc, həyat mənbəyi və məhsuldarlıq rəmzi sayılmışdır. İri buynuzlu heyvanlar iqtisadiyyatda qoşqu qüvvəsi kimi çox mühüm rol oynamışdır. Xış əkinçiliyinin və arabanın meydana gəlməsi qoşqu qüvvəsinə böyük tələbat doğurdu. Həmçinin yarımköçəri maldarların yaylaqlara və arana (qışlaqlara) köçmə zamanı yük daşımaq üçün qüvvə kimi istifadə edilmişdir. Naxçıvan ərazisində əkinçilik və maldarlıq mədəniyyətinin intensiv inkişaf etdiyi tunc dövründə öküz toteminə sitayiş geniş yayılmışdır. Odur ki, Gəmiqayada öküz rəsmləri öküz qoşulmuş araba təsvirləri da vardır.

At təsvirləri, adam rəsmi ilə birlikdə və arabaya qoşulmuş vəziyyətdə verilmişdir. Deməli, tunc dövründə Naxçıvan tayfaları atçılıqla məşğul olmuşlar.

Kompozisiyalı təsvirlərdə it rəsminə təsadüf edilmişdir. Maraqlıdır ki, Kültəpə yaşayış yerinin eneolit dövrü qəbirlərindən birində adamla it birgə dəfn olunmuşdur. Həmçinin burada ilk tunc dövrü təbəqəsindən gil it fiquru əldə edilmişdir. Qədim tayfaların əmlakının, sürülərinin qorunmasında və ov zamanı it insanın ən yaxın köməkçisi olmuşdur. Maldarların və ovçuların

həyat tərzi ilə olan bu bağlılığı onların inamlarında, dini ideologiyasında sitayişə çevrilmişdir.

Gəmiqayada qoşa və tək ilan rəsmləri təsvir olunmuşdur. Naxçıvanın qədim tayfaları arasında ilan mifi yayılmışdır. Gəmiqaya ilan təsvirləri və Əlincəçay vadisindəki İlandağın adı bu qədim miflə bağlıdır.

Gəmiqayada adam rəsmləri tək halda və kompozisiyalı səhnələrdə verilmişdir. Bəzi adam rəsmləri zoomorfik əlamətlərlə fantastik şəkildə təsvir olunmuşdur. Qartal başlı və insan bədənli təsvir xüsusi maraq doğurur.

Gəmiqayada bitişik üçbucaqlar formasında sxematikləşdirilmiş keçi və başqa heyvan rəsmlərinə rast gəlinir. Maraqlıdır ki, bitişik üçbucaqlardan ibarət belə simvolik şərti işarələr – piktoqramlar qədim Naxçıvan və Urmiya mədəniyyətləri üçün səciyyəvi olan boyalı qablar üzərində də verilmişdir.

Gəmiqayada çox maraqlı ov səhnələri təsvir olunmuşdur. Qədim ovçular ox və kamanla, kəməndlə və s. ilə silahlanmışlar. Gəmiqaya ərazisində dağ keçiləri, tur, dağ kəli, maral və b. heyvanlar ovlanmışdır.

Gəmiqaya petroqliflərinin bir qismində qədim rəqs səhnələri təsvir olunmuşdur. Maraqlı kollektiv rəqs səhnələrindən birində adam təsvirinin başında buynuzvari çıxıntılar var. Görünür, həmin adam başına öküz və yaxud keçi maskası geymişdir. Adamlar qollarını və qıçlarını geniş açaraq hərə bir tərəfdə fərdi şəkildə rəqs edir. Rəqs meydanının mərkəzində verilən, günəş və yaxud od rəmzi sayılan dairədən şüaşəkilli xətlər çıxır. Bir qədər aşağıda həmin dairəyə doğru hərəkət edən keçi təsvir olunmuşdur. Keçinin yaxınlığındakı adam əlini dairəyə doğru uzatmışdır. Onun əli üç barmaqla verilmişdir. Görünür, bu təsvirdə qədim ovçuluq və yaxud heyvandarlıqla əlaqədar müqəddəs sayılan od-ocaq ətrafında icra edilən maraqlı mərasim əks etdirilmişdir.

Gəmiqayada çox maraqlı piktoqrafik səciyyəli simvolik işarələr-dairələr, dördbücaqlı, üçbucaqlı, çərxifələk (svastika) nişanı və s. həkk olunmuşdur. Çərxifələk (svastika) işarəsi diqqəti xüsusilə cəlb edir. Naxçıvanda I Kültəpənin e.ə. II minilliyə aid orta tunc dövrü təbəqəsindən əldə edilmiş gil lövhə üzərində çərxifələk (svastika) işarəsi cızılmışdır. Bu işarə boyalı qablar üzərində də çəkilmişdir.

Azərbaycanda Xocalı-Gədəbəy mədəniyyətinə (e.ə. XIV-VII əsrlər) aid keramika məmulatı və gil pintaderlər üzərində çərxifələk nişanına çox təsadüf olunur. Gəmiqayada və Qobustanda Yazılı təpədəki bir neçə daş üzərində çərxifələk nişanı qayaüstü rəsmlərlə yanaşı həkk olunmuşdur. Gəmiqaya qayaüstü rəsmləri qədim insanların bədii təfəkkürünü, estetik baxışlarını və dini-ideoloji təsəvvürlərini əks etdirən qiymətli sənət əsərləridir.

Gəmiqaya petroqlifləri Azərbaycanın qədim əhalisinin mənəvi mədəniyyəti və incəsənəti haqqında bir sıra maraqlı elmi nəticələr söyləməyə imkan verir.

Qədim Naxçıvanda e.ə.IV-I minilliklərdə incəsənətin əsas növlərindən biri sayılan təsviri sənət geniş inkişaf tapmışdır. Qayaların, bədii keramika-

nın, metal məmulatların və müxtəlif minerallardan hazırlanan bəzək əşyalarının üzərində həyatla bağlı olan rəsmlər, naxışlar və simvolik məna kəsb edən maraqlı işarələr yaradılmışdır.

Təsviri sənətin inkişafı ilkin yazı nümunələrinin, piktoqrafik mətnlərin yaranmasına gətirib çıxarmışdır. Odur ki, istər Gəmiqaya rəsmləri, istərsə də Naxçıvanın tunc dövrü bədii keramikası və silindrik möhürlər üzərindəki mürəkkəb süjetli rəsmlər-işarələr qədim tayfaların həyatı ilə bağlı maraqlı məzmuna malik piktoqrafik yazılardır.

Naxçıvan ərazisində aşkar edilmiş təsviri sənət əsərlərinin mövzusu real həyatdan götürülmüşdür. Onların əksəriyyəti insanların həyat mənbəyi saydıqları əkinçilik, maldarlıq, ovçuluqla bağlıdır. Bir qisim rəsmlər isə totemlərə və astral cisimlərə aid olub, ibtidai insanları ilkin dini görüşlərini və ideoloji baxışlarını əks etdirir.

Tunc dövründə (e.ə. IV-II minilliklərdə) Naxçıvan ərazisində yaşayan əhalinin mədəni inkişaf səviyyəsi xeyli yüksəlmiş. Müəyyən mərasimlərlə əlaqədar rəqslərin icra olunması, ilkin musiqinin yaranması ilə nəticələnmişdir. Gəmiqayadakı və Naxçıvanın boyalı qabları üzərindəki rəqs səhnələri, eləcə də Qobustandakı qaval daşlar, yallı təsvirləri eneolit və tunc dövründə Azərbaycanda musiqi mədəniyyətinin inkişaf etdiyini göstərir.

Gəmiqaya, Sünik, Kəlbəcər qayaüstü rəsmlərinin eyni üslubda icra olunması, süjetlərin yaxınlığı göstərir ki, qədim Naxçıvan diyarında və onunla qonşuluqda yerləşən Kiçik Qafqazın müxtəlif ərazilərində, e.ə. IV-I minilliklərdə mədəniyyət və etnik cəhətdən yaxın olan tayfalar yaşamışdır. Bu qədim yerli tayfalar Azərbaycan xalqının etnogenezinin tədricən formalaşmasında mühüm rol oynamışlar.

Gəmiqaya təsvirlərinin piktoqrafik işarələrinin Qədim Mesopotamiya, Anadolu, Qaradağ (İran) piktoqrafik mətnləri ilə müqayisəli tədqiqi Naxçıvanın, bütövlükdə Azərbaycanın Yaxın Şərq və Ön Asiya ilə qədim iqtisadi, mədəni əlaqələri tarixinin öyrənilməsi üçün çox dəyərli elmi imkanlar yaradacaq.

Gəmiqaya petroqliflərinin piktoqrafik işarələri Qədim Mesopotamiya, Anadolu, Qaradağ (İran-Leycəlan, Ərəsbaran bölgələri) piktoqrafik işarələri ilə eyniyyət təşkil etməsi xüsusi elmi maraq doğurur. Bu piktoqrafik materiallar Yaxın Şərq və Ön asiya ilkin şəhər dövlətlərinin Naxçıvanla və Cənubi Qafqazla qədim iqtisadi- mədəni əlaqələri tarixini öyrənmək üçün çox dəyərli mənbələrdir.

Gəmiqaya panteonu qədim Naxçıvanın ilkin tayfa birliklərinin, dövlətçilik münasibətlərinin yaranmağa başladığı dövrdə vahid dini inam mərkəzi olmuşdur.

Qədim Mesopotamiyada olduğu kimi, Naxçıvanda da ilkin dövlətçilik qurumlarının meydana gəlməsi nəticəsində dini ibadətlərin (totemizm, animizm, fetişim dini təsəvvürlərin) birləşdirilməsi zəruriyyətini doğurdu.

Gəmiqaya abidələri kompleks şəkildə (yaşayış məskənləri, müdafiə istehkamları, qayaüstü təsvirlər, ibadətgahlar) Cənubi Qafqaz, Cənubi Azərbaycan və Ön Asiyanın həmdövr analoji abidələri ilə birlikdə bütövlükdə bu regionların e.ə. IV-I minillikləri əhatə edən qədim mədəniyyətlərinin öyrənilməsində mühüm elmi əhəmiyyət kəsb edir.

Gəmiqaya, Qərbi Azərbaycanın Sünik, Göyəm, Kəlbəcər, Cənubi Azərbaycanın Qaradağ regionu və Anadolunun qayaüstü təsvirlərinin bir-birilə tam vəhdət təşkil etməsi bu qədim mədəniyyət ocaqlarında eyni etnik soykökə bağlı tayfaların yaşadığından xəbər verir. Bu piktoqrafik abidələr öz işarələrinə, süjetlərinə və semantik mənalarına görə e.ə. IV-I minilliklərdə Asiya və Avropa ərazilərində geniş miqyasda məskunlaşmış qədim türkdilli tayfalara məxsus olan qayaüstü təsvirlərdən ibarət mədəniyyət abidələri ilə sıx bağlıdır. Deməli, bəşər tarixində ilkin sivilizasiyanın müxtəlif səviyyələrdə yarandığı həmin dövrlərdə bütövlükdə Cənubi Qafqaz, Cənubi Azərbaycan-Urmiya, Qaradağ və Anadolu əraziləri türk mənşəli tayfaların əsas vətənləri olmuşdur.

## THE PALACE OF GAMIGAYA MONUMENTS IN THE CULTURE OF NAKHCHIVAN

**Veli Aliev**

**Summary**

The petrogliphs of Gamigaya, pictographical characters are remarkable for their singularity in the chain of ancient cultural monuments of Azerbaijan. Combining in themselves all peculiarities of culture and art of ancient Nakhchivan Gamigaya petroglips, karate about the way of life of ancient Azerbaijani tribes in IV – I millennia B.C., who inhabited on a seasonal basis a vast territory stretching from summer dwelling sites of Goycha, Sunik and Kalbajar, situated in the Small Caucasus to Ordubad sites, and immortalize rich historical traditions.
**Keywords: Nakhchivan, Gamiqaya, Gapichik, Rock drawings, Bronze Age.**

# ПАМЯТНИКИ ГЯМИГАЯ - ИСТОЧНИКИ КУЛЬТУРЫ НАХЧЫВАНА

**Вели Алиев**

## Резюме

Пиктографические письмена (петроглифы) Гямигая отличаются своей оригинальностью среди древних тюркских памятников Азербайджана. Наскальные изображения, совмещающие в себе все особенности культуры, искусства древнего Нахчывана, говорят об образе жизни древних азербайджанских племен сезонно населявших обширную территорию, пролегающую от летних стоянок Гёкче, Сюник, Кельбеджар Малого Кавказа к Ордубадским стоянкам и увековечивших богатые исторические традиции.

**Ключевые слова: Нахчыван, Гямикая, Капыджык, наскальные изображения, эпоха Бронзы.**







.





.





.

# ПЕЩЕРА ГАЗМА – ПЕРВАЯ ПАЛЕОЛИТИЧЕСКАЯ СТОЯНКА В НАХЧЫВАНЕ

**Азад Зейналов**
azad2007@mail.ru
*(Институт Археологии и Этнографии НАНА)*

**Ключевые слова: Газма, пещерная стоянка, мустье, леваллуа, остроконечники, скребла, очаг, фауна, плейстоценовый.**

В 1983 году при проведении разведочных работ в Нахчыванской Автономной Республике палеолитической экспедицией Института истории АН Азербайджана под руководством М.М. Гусейнова и А.К. Джафарова была открыта мустьерская пещерная стоянка Газма – первая стоянка каменного века в Нахчыване [1, 484].

Пещера Газма расположена в Шарурском районе Нахчыванской Автономной Республики, в 3-х км юго-восточнее селения Тананам и в 11-ти км северо-восточнее селения Гарабаглар на левом склоне сухой долины в бассейне реки Арпачай, на абсолютной высоте 1508 м[1] над уровнем моря, относительной 30 м над уровнем реки Арпачай [2, 78-85].

Пещера Газма сохранилась в реликтово-известняковом останцовом массиве (рис. 1). Она образована из доломитизированных известняков верхнего триаса. Пещера коридорного типа, высота привходовой части чуть более 2 м, ширина около 6 м. В 12 м от капельной линии пещера расходится на два рукава. Левый рукав продолжается горизонтально около 7 м, а правый рукав около 13 м ступенчатообразный (высота ступеней 0,5-1 м), поднимаясь к кровле пещеры под углом в 60º, завершается тупиком. Разница в высоте между концом и началом пещеры достигает 10 м [3, 41-46]. Пещера имеет северо-восточную экспозицию. Вход в нее обращен к ущелью Газма.

Важным этапом в исследовании пещеры было проведение палинологического и гранулометрического анализа. Палинологическому исследованию подверглись 12 образцов, взятых из поперечного разреза пещеры. Для гранулометрического анализа было исследовано 6 образцов из пещерных отложений. По одному образцу из III и VI слоев и по 2 образца из IV и V слоев отложений пещеры. По данным палинологического и гранулометрического анализа отложений пещеры Газма, район пещеры представлял собой светлые дубовые леса и аридные можжевеловые редколесья с ксерофильными травами. Условия проживания для человека были намного благоприятнее современных. Климат был хоть и аридным, но намного влажным, чем сейчас. Вполне воз-

---

[1] Абсолютная высота пещеры над уровнем моря уточнена по системе GPS

можно, что несколько выше протягивался и лесной пояс. Интересен и тот факт, что обитание человека в пещере Газма совпадает с процессом увеличения влажности климата всего района. Когда же эта влажность стала уменьшаться, то человек покидает пещеру.

В настоящее время раскопками вскрыто более 35 кв. м площади пещеры на уровне мустьерских слоев (Рис. 2). Получен 6-ти метровый поперечный разрез в привходовой части пещеры и почти 3-х метровый в глубине пещеры. На раскопанной площади было достигнуто скальное дно пещеры. Оно имеет наклонную форму, опускающуюся ко входу в пещеру. В результате чего глубина отложений в привходовой части более чем в два раза превышает уровень отложений в глубине пещеры.

Археологическими раскопками в пещере вскрыто 6 слоев мощностью около трех метров. I слой - позднеголоценовый, содержит фрагменты керамики энеолитического, бронзового и средневекового периодов и небольшой остеологический материал, принадлежащий домашним животным. II и III слои представляют собой суглинок различных оттенков содержащих большое количество мелкообломочного материала.

Наибольший интерес представляют IV-VI слои содержащие каменные артефакты мустьерского периода и следы охотничьей и хозяйственной деятельности. В целом вся толща палеолитических культурных слоев (слои IV-VI) литологически тождественна: это легкий суглинок, незначительно варьирующий по цвету, с очажными и илистыми прослойками и с известняковым щебнем.

Во время полевого сезона 2010 года, в пещере Газма был обнаружен четвертый по счету очаг. Он распологался в V слое на глубине 280 см от нулевой линии на стыке квадратов F-6, F-5 у западной стены пещеры (Рис. 3). На плане находок V слоя хорошо видно, что, как кости, так и каменные артефакты сконцентрированы вокруг очага, что собственно говоря, и не противоречит логике значения огня в жизни первобытного человека. Диаметр очага достигал 43 см, толщина пепельного слоя 13 см. Очаг, помимо затвердевшей золы содержал обугленные кости (Рис. 4).

Ранее в пещере уже раскапывались очаги в V и VI слоях. Один из них, самый большой, был обнаружен в V слое на стыке квадратов C-6, D-6. Диаметр очага достигал 1.5 метров, а толщина пепла 20см. Второй очаг был обнаружен в VI слое в квадрате C-4. Особенностью данного очага было то, что он с трех сторон был обложен плоскими камнями, для предохранения от ветра. Открытая сторона очага была обращена в пещеру. Площадь очага в диаметре достигала 0,5 метров. Сама очажная прослойка превышала 10 см. Третий очаг, самый маленький, был

обнаружен в VI слое в квадрате А-3, впритык к восточной стене пещеры.

*Фауна*

В культурных отложениях пещеры Газма найдено свыше 17000 костей животных. Фауна отложений пещеры представлена в основном остатками крупных млекопитающих, грызунов и птиц, принадлежащих 24 видам животных. Видовой состав фауны пещеры Газма определен Д.В. Гаджиевым и С.Д. Алиевым. Большинство остеологического материала принадлежит крупным млекопитающим, представленным в основном фрагментами или мелкими обломками диафизов трубчатых костей, что затрудняло определение их видовой принадлежности. В составе фауны определены: собака (Canis), барсук (Meles), пещерный лев (Panthera speiaeus Goldf.), пещерный медведь (Ursus spelaeus Ros. et Hein.), лошадь (Equus), плейстоценовый осел (E. hydruntinus Reg.), олень (Cervidae), первобытный бык (Bos primigenius Bojan.), джейран (Gasella subguttorosa Güld.), козел (Capra), баран (Ovis), заяц (Lepus), пищуха (Ochotona), грызуны (Rodentia) и другие виды териофауны [4,343].

Исследования показывают явное преобладание среди остатков фауны костей крупных млекопитающих, промысел которых, по-видимому, являлся главнейшим видом охотничьей деятельности первобытного человека. В частности к этим видам крупных млекопитающих можно отнести плейстоценового осла, джейрана, оленя и козла - остатки которых были обнаружены во всех трех мустьерских слоях пещеры и, по-видимому, они же являлись основными объектами охоты первобытных обитателей пещеры Газма.

Распределение костей по слоям неравномерно. На графике 1 видно, что наибольшее количество костей содержится в культурных слоях 4, 5 и 6, содержащих каменный инвентарь палеолитического времени.

График 1



Однако неравномерное распределение костей в мустьерских слоях пещеры, еще не говорит о разноинтенсивном заселении пещеры. В частности значительно меньшее количество костей в VI слое скорее связано с меньшей раскопочной площадью этого слоя. Как было отмечено выше, скальное дно пещеры имеет наклонную поверхность, вследствие чего, по мере углубления в пещеру мощность VI слоя, лежащего на скальном дне, значительно уменьшается, а в 7-8 метрах от капельной линии он вообще отсутствует.

В остеологической коллекции пещеры обнаружено несколько костей подвергшихся обработке. Часть из них имеет только следы изношенности, а три изделия имеют явные следы преднамеренной обработки. Все три изделия были подвергнуты сверлению. На одной из костей VI слоя отверстие несквозное (Рис. 5, № 3). Другая кость из того же VI слоя имеет сквозное отверстие, оно выполнено на таранной кости джейрана, часть косточки сломана еще в древности (Рис. 5, № 2). На косточке имеется неглубокая насечка, по-видимому, отверстие пытались просверлить и там. По всей вероятности кость была использована в качестве украшения либо амулета. На краю отверстия имеется небольшое углубление, возможно оставшееся от шнурка, на котором висела подвеска. Следующее отверстие просверлено на верхнем краю тонкой расколотой трубчатой кости из IV слоя (Рис. 5, № 1). Отверстие имеет форму правильного круга диаметром 3 мм. Кость имеет трапециевидную форму, по краю она утончена и отшлифована. Длина кости 3 см. возможно также была использована в качестве амулета. Судя по качеству исполнения, находки в Газме свидетельствуют об уже устоявшемся навыке сверления, хотя они пока и единичны.

*Каменная индустрия*

В мустьерских слоях пещеры Газма обнаружено 874 каменных артефакта, 83% из них обнаружены в V и VI слоях - 732 изделия. Динамику количества артефактов от слоя к слою наглядно демонстрирует График 2, на котором хорошо видно, что по мере омоложения слоев уменьшается и количество артефактов.

По характеру сырья преобладающую часть коллекции составляет обсидиан – 780 экз., незначительную часть кремень и кремнистый сланец – 93 экз. и 1 экз. из окремнелого туфа. Обсидиан обитатели пещеры находили в аллювиальных отложениях реки Арпачай, находящейся в 14 км от пещеры. Коренные же источники обсидиана находятся в верховьях реки Арпачай в Кельбаджарском вулканическом нагорье.

В коллекции пещеры Газма насчитывается всего 3 нуклеуса. Изготовлены они из обсидиана (2 экз.) и кремня (1 экз.) Два из них предельно сработаны и представляют собой остаточные формы. В силу значительной утилизации ядрища, их форма настолько видоизменилась, что

о первичной его форме - как ядрище леваллуа, мы можем судить только по наличию в инвентаре стоянки леваллуазских заготовок (отщепов, пластин, и треугольных сколов). Одно из них представляет собой остаточное двустороннее двуплощадочное ядрище на фрагменте крупного скола. Нуклеус из кремня является наиболее крупным и представляет собой массивную двухфронтальную, двуплощадочную форму ядрища. (Рис. 5, № 11). На одной из сторон нуклеуса сохранена естественная корка.

График 2




*Первичная обработка.*

*Сколы*

В коллекции пещерной стоянки Газма насчитывается 871 скол и различные обломки и осколки. Все имеющиеся заготовки разделены на две большие группы: сколы леваллуа и сколы нелеваллуа, их соотношение демонстрирует График 3.

График 3




На круговой диаграмме, видно значительное преобладание сколов нелеваллуа (62%) против сколов леваллуа (38%) в пещере Газма, что собственно характерно для любой мустьерской коллекции полного состава. [Любин, 1965].

*Типологическая характеристика*

По характеру вторичной обработки каменные изделия можно разделить на несколько групп, характеризующих технико-типологические особенности каменной индустрии. Среди них выявлены леваллуазские и мустьерские остроконечники, различные скребла, лимасы, ножи, скребки, отщепы, пластины, отходы производства (Рис. 5 № 4-10). Заготовкой в основном служили отщепы, треугольные сколы и пластины. Ниже дана характеристика некоторых образцов этих орудий.

Остроконечники леваллуазские (5 экз.). Все изделия из кремня и кремнистого сланца. Изделия выполнены на треугольных сколах, без следов вторичной обработки. Хорошо сохранены ударная площадка и ударный бугорок. Одно из изделий массивное как по длине, так и по толщине (4,7х3,1х0,9).

Остроконечники леваллуазские ретушированные (17 экз.). 9 изделий из обсидиана, 8 – из кремня и кремнистого сланца. При обработке орудий применены различные виды ретуши – тонкая приостряющая, мелкая, высокая, крутая, полукрутая, субпараллельная. На одном из орудий из обсидиана сохранена только базальная часть, дистальная часть сломана в древности. Другое орудие из кремнистого сланца, обработанное мелкой ретушью, могло быть использовано в качестве проколки.

Остроконечники мустьерские (12 экз.). 11 орудий изготовлено из обсидиана, 1 – из кремня. Поверхность остроконечников полностью отретуширована. Рабочие края обработаны крутой приостряющей, полукрутой и тонкой ретушью. На двух орудиях отсутствует базальная часть. Один из мустьерских остроконечников представляет собой очень массивное изделие из обсидиана с полностью обработанной поверхностью (Рис. 5, № 8). Рабочий край орудия обработан высокой полукрутой ретушью. Другое орудие представляет собой удлиненный мустьерский остроконечник, рабочий край которого обработан высокой крутой приостряющей ретушью.

Скребла простые (10 экз.). 6 орудий из обсидиана, 4 из кремня. В коллекции встречаются прямые, выпуклые и вогнутые разновидности простых скребел. Большинство простых скребел изготовлены на пластинах, некоторые на отщепах. Рабочие края орудий обработаны мелкой приостряющей, крутой и полукрутой ретушью. На одном из скребел, изготовленном из кремня сохранена естественная корка. Другое орудие, изготовленное на пластине из обсидиана, представляет собой простое выпуклое скребло, обработанное полукрутой ретушью.

Скребла двойные (24 экз.) 19 орудий из обсидиана, 5 – из кремня. Орудия изготовлены в основном на пластинах (7 экз.), и отщепах (16 экз.). В коллекции встречаются различные типы двойных скребел. Рабочие края орудий обработаны приостряющей тонкой и высокой рету-

шью. Одно из орудий из обсидиана на отщепе, представляет собой выпуклое скребло с противолежащей ретушью. Другое скребло изготовлено на массивном удлиненном отщепе из обсидиана, рабочий край которого обработан крутой ретушью.

Угловатые скребла (15 экз.). 12 орудий из обсидиана, 3 – из кремня. Изделия изготовлены как на треугольных сколах, так и на отщепах и пластинах. При вторичной обработке орудий использована крутая, мелкая приостряющая и параллельная ретушь. На одном из изделий ретушь нанесена с брюшка.

Скребки (5 экз.). Все изделия из обсидиана изготовлены как на пластинах, так и на отщепах. Рабочие края скребков обработаны очень мелкой ретушью. Базальная часть одного из скребков сломана.

Ножи (2 экз.) Один из ножей изготовлен из обсидиана, второй из кремня. Орудия изготовлены на пластинах и обработаны очень мелкой приостряющей ретушью. На одном из ножей из кремня сохранена естественная корка.

Лимасы (7 экз.). Все изделия из обсидиана на пластине. Орудия обработаны мелкой приостряющей и высокой ретушью. Два орудия были обломаны в древности.

Наряду с вышеописанными изделиями, на стоянке были выявлены также фрагментированные орудия, как непреднамеренно фрагментированные изделия, так и сознательно фрагментированные. В большинстве своем это непреднамеренно фрагментированные орудия, которые были сломаны либо при вторичной обработке, либо в процессе утилизации, а в последствии обломанные края были обработаны.

Основное место среди орудий из палеолитической пещерной стоянки Газма занимают леваллуазские и мустьерские остроконечники и скребла. По технико-типологическим особенностям они могут быть отнесены к мустьерской культуре. Некоторые из вышеописанных орудий были обнаружены как в III слое Азыха, так и в Тагларской пещере. В частности угловатые скребла, одна из самых многочисленных разновидностей скребел в тагларской коллекции (6,96). Интерес представляет также единственное скребло с противолежащей ретушью из V слоя Газмы. Аналогичное орудие в тагларской коллекции также представлено в единичном экземпляре (6, 96). Каменный инвентарь пещеры Газма имеет с индустриями Закавказья и Ближнего Востока, некоторые параллели относимых к типично мустьерской линии развития.

*Заключение*

В период накопления мустьерских слоев климат был хоть и аридным, но более влажным, чем сейчас. Обитание человека в пещере Газма совпадает с процессом увеличения влажности климата всего района, когда же эта влажность стала уменьшаться, то человек покидает пещеру.

Основными объектами охоты первобытных обитателей пещеры Газма были плейстоценовый осел, джейран, олень и козел - остатки которых были обнаружены во всех трех мустьерских слоях пещеры.

Выявленные материалы из пещеры Газма позволяют говорить о том, что мустьерцы жили здесь на протяжении длительного времени и основным видом хозяйственной деятельности у них была охота.

Пещерная стоянка Газма является первой и пока единственной хорошо стратифицированной палеолитической стоянкой на территории Нахчыванской Автономной Республики Азербайджана. Однако наличие в этом регионе карстовых пещер, благоприятных палеоэкологических условий дает основание предположить о наличие здесь других палеолитических стоянок.

**Список литературы:**

1. Гусейнов М.М. Работы в Нахичеванской АССР. Археологические открытия 1983 года. М., Наука, 1985, с. 484
2. Hüseynov M.M., Cəfərov A.Q., Zeynalov A.Ə. Qazma paleolit düşərgəsi. Azərbaycan SSR EA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1991, № 1, s. 78-85
3. Əyyubov F.C., Əliyev A.Ə. Naxçıvan MSSR-də karst mağaraların əmələgəlmə şəraiti və əsas morfoloji xüsusiyyətləri. Azərbaycan SSR EA-nın Xəbərləri. Yer haqqında elmlər seriyası, 1973, № 3, s. 41-46
4. Джафаров А.К. Средний палеолит Азербайджана. Баку: Элм,1999,343 с.
5. Любин В.П. К вопросу о методике изучения нижнепалеолитических каменных орудий. МИА, 1965, № 131, с. 7-75
6. Джафаров А.К. Мустьерская культура Азербайджана (по материалам Тагларской пещеры). Баку, Элм, 1983, 96 с.

## QAZMA MAĞARASI NAXÇIVANDA İLK PALEOLİT DÜŞƏRGƏSİDİR

**Azad Zeynalov**

### Xülasə

Gazma mağarası Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Şərrur rayonun, Tənənəm kəndinin 3 kilometr şimal-şərqində və Garabaglar kəndinin 11 kilometr şimal-qərbində yerləşir. Dəniz səviyyəsindən 1508 metr hündürlükdə yerləşir. Arxeoloji qazıntılar nəticəsində mağarada 6 mədəni qat aşkar edildi. Bu qatlardan külli miqdarda heyvan sümükləri tapıldı.

4-cü və 6-cı qatlardan insanların təsərrüfat fəaliyyətinin nəticəsi olan müxtəlif daş alətlər, osteoloji qalıqlar və ocaq yerləri aşkar edildi.

Hal-hazırda,Qazma mağarası Naxçıvanda yeganə Paleolit düşərgədir. Buna baxmayaraq, qədim insanların yaşayışı üçün əlverişli karst mağaralarının və digər obyektiv şərtlərin mövcudluğu burada başqa, kəşf edilməmiş Paleolit dövrü düşərgələrinin olduğunu ehtimal etməyə əsas verir.

**Açar sözlər: Qazma, mağara düşərgəsi, oçaq, müstye, itiuclular.**

## CAVE GAZMA - THE FIRST PALEOLITHIC CAMP IN NAKHCHIVAN

**Azad Zeynalov**

### Summary

Cave Gazma is a situated in the Sharur district of the Nakhchivan Autonomous Republic of Azerbaijan, 3 kilometers north-east of settlement Tananam and 11 kilometers north-west of settlement Garabaghlar, at the absolute height of 1,508 meters above sea level.

The excavations unearthed 6 layers in the cave. Layer #1 contained no discoveries, and Layer #2 and Layer #3 represent a loam of differrent shades containing a large number of small remnants and bones of animals.

Of utmost interest are Layers #4-#6 containing stone artifacts of the Moustier period and traces of hunts and economic activity of Mustees, in particular, a great number of Osteological material. The entire thickness of Paleolithic cultural layers (layers #4-#6) is lithologically identical: this is a light loam with insignificantly varying colors and with hearth and oozy streaks and limes.

At the moment, Gazma cave is the only Paleolithic site in Nakhchivan; however, the existence of karst caves and favorable conditions for ancient people's living in them make it possible to assume existence of other, still undiscovered Paleolithic sites in this area.

**Keywords: Gazma, cave camp, fire place, mustye, sharp-pointed.**



Рис. 1. Общий вид пещеры Газма



Рис. 2. План пещеры Газма. (Джафаров А.К. Новая многослойная мустьерская стоянка Газма в Азербайджане // Российская археология, 1992, № 2, с. 270-274)




Рис. 3. План находок пещеры Газма




Рис. 4. Очаг в V слое




Рис. 5. Пещера Газма. (1-3) Обработанные кости, (4-11) образцы каменных орудий.

# NAXÇIVANIN İLKİN ƏKİNÇİLİK MƏDƏNİYYƏTİ

**Müzəffər Hüseynov**
muzaffarhuseynov@yahoo.com
(Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Naxçıvan, əkinçilik, mədəniyyət, eneolit, Kültəpə.**

Naxçıvan Muxtar Respublikasının ərazisi e.ə. VI-I minilliklərdə Azərbaycanın əkinçilik mədəniyyəti ocaqlarından biri olmuşdur. Əkinçilik təsərrüfatının inkişafı üçün Naxçıvan diyarında hər cür əlverişli təbii şərait mövcuddur. Münbit torpaq sahələrinə malik olan Naxçıvan dənli bitki növlərinin - yabanı buğda və arpanın ən qədim vətəni hesab edilir. İri tayfa ittifaqlarının yarandığı tunc dövründə Naxçıvanda əkinçilik təsərrüfatı daha intensiv şəkildə inkişaf etmişdir.

Eneolit və tunc dövründə Naxçıvanın Araz çayının sol sahili boyunca uzanan Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində oturaq əkinçi tayfalar məskunlaşmışdılar. Belə əlverişli şərait isti və kontinental iqlimə malik olan Naxçıvan diyarında süni suvarma əkinçiliyinin inkişafına səbəb olmuşdur.

Muxtar Respublika ərazisində qeydə alınan eneolit dövrü abidələri əkinçiliyin və maldarlığın inkişafı üçün əlverişli olan dağətəyi və düzən ərazilərdə, su mənbələrinə yaxın yerlərdə, çay kənarlarında salınmışdır. Bu günədək aşkar edilən tam və ya qismən öyrənilmiş abidələrin tədqiqi göstərir ki, Naxçıvan ərazisindəki abidələr eneolit dövrünün bütün mərhələlərini keçmişdir (4).

Naxçıvanın Kür-Araz mədəniyyətinə aid yaşayış yerləri, əsasən, Araz çayının və ona qovuşan Arpaçay və Naxçıvançay kimi çayların hövzələrində aşkar edilmişdir. Muxtar Respublika ərazisində tədqiq edilən ilk tunc dövrü abidələrinin sayı eneolit dövrünə nisbətən iki dəfədən çox artmışdır (10 abidə). Yaşayış yerlərinin bəzisi əvvəlki eneolit məskəninin üzərində (I Kültəpə, Ovçular təpəsi, Xələc), digərləri isə yeni yerlərdə salınmışdır (II Kültəpə, I Maxta, Ərəbyengicə və s.). Tədqiqatlar göstərir ki, bir qayda olaraq qədim yaşayış yerlərinin hamısı su mənbələrinin yaxınlığında, əkinçilik və maldarlıq üçün münasib ərazilərdə yerləşmişdir. Yaşayış yerlərinin bəzisi hündür təbii təpənin üzərində salınmışdır (Ovçular təpəsi). Bir çox hallarda isə onların yerləşdiyi ərazidə süni təpələr yaranmışdır (8, 290-297).

Naxçıvanın ilk tunc dövrü abidələrinin əksəriyyəti çoxtəbəqəlidir. Bəzi abidələrdə eneolit və ilk tunc dövrü (Ovçular təpəsi, Xələc və s.), bəzilərində isə orta, son tunc – ilk dəmir dövrü mədəniyyəti izlənilir (II Kültəpə, Şahtaxtı, Şortəpə və s.). Naxçıvan abidələrinə hərtərəfli yaxın olan Urmiya gölü hövzəsində yerləşən abidələrdir.

Naxçıvanın ilk tunc dövrü abidələri Arpaçayın vadisi ilə eyni səviyyədə olan (Ovçular təpəsi istisna olmaqla) düzən hissədə yerləşmişdir.

Orta tunc dövrü iqtisadiyyatının sürətlə inkişafı tayfalararası münasibətlərin kəskinləşməsi ilə müşahidə olunur. Bu dövrə aid yaşayış yerlərinin ətrafında müdafiə divarlarına rast gəlinməsi də məhz bununla bağlıdır. Belə müdafiə divarları II Kültəpə, Şahtaxtı, həmçinin Azərbaycanın digər ərazilərində – Qaraköpəktəpə, Üzərliktəpə, Urmiya gölü ətrafında yerləşən Göytəpə yaşayış yerində aydın şəkildə izlənmişdir.

Naxçıvanın son tunc-ilk dəmir dövrü abidələrinin bir neçəsi orta tunc dövrü yaşayış yerlərinin üzərində, əksəriyyəti isə əkinçilik və maldarlıq üçün yararlı, strateji cəhətdən əlverişli mövqelərdə salınmışdır. Bu baxımdan Qalacıq və Şahtaxtı yaşayış yerləri fərqlənir. Bu yaşayış yerlərini Şərur düzü və Araz vadisində izləmək mümkündür. Son tunc dövründə tayfalararası ziddiyyətlərin, xarici basqın təhlükəsinin çoxaldığı bir zamanda belə yaşayış yerlərinin əhəmiyyəti daha da artmışdır.

Arxeoloji tədqiqatlar göstərmişdir ki, eneolit dövründə Naxçıvan ərazisində yerli əhalinin əkinçilik mədəniyyətində müəyyən irəliləyişlər olmuşdur. Güman edilmişdir ki, bu dövrdə Qafqazın və o cümlədən Azərbaycanın əkinçilik üçün yararlı əraziləri tamamilə məskunlaşmışdır. Əhalinin əsas məşğuliyyəti olan oturaq əkinçilik mədəniyyətinin inkişafında əkinçilik-maldarlıq təsərrüfatı əsas yer tuturdu [26, 95-96].

Oturaq əkinçiliyin inkişafı yeni əmək alətlərinin meydana gəlməsinə tələbat doğurmuşdur. Məhz belə bir şəraitdə ibtidai toxalar kimi əmək alətləri yaranmışdır. Toxa meydana gələndən yeni əkinçilik forması – toxa əkinçiliyi inkişaf etməyə başlamışdır [17, 72]. Şübhəsiz ki, əkinçilik təsərrüfatının başlanğıc mərhələsində toxalardan əvvəl daha ibtidai şum alətlərindən (ağac, sümük və s.) istifadə edilmişdir. Toxa əkinçiliyi əkinçilik mədəniyyətinin ən qədim forması hesab olunur. Bu fikri Azərbaycanın eneolit abidələrindən aşkar olunmuş qədim toxa nümunələri bir daha sübut edir [12, 20-21]. Toxa əkin üçün nisbətən formalaşmış alət idi və qədim əkinçinin işini yüngülləşdirirdi. Toxanın uzun minilliklər boyu əsas şum aləti olmasına baxmayaraq, onun hazırlanmasında istifadə olunan material dəyişikliyə uğramışdır. Tədricən o, quraşdırma toxalara çevrilmişdir. Ağac dəstəyə daşdan, sümükdən, kəsici hissə bərkidilirdi [17, 73].

Naxçıvanın qədim əkinçi yaşayış məskəni I Kültəpədən daş toxa nümunələri əldə edilmişdir (5, 44-46). I Kültəpədə əldə edilmiş daş toxa nümunələri Azərbaycanın digər abidələri - Baba-Dərviş [16, 17; 11, 230-231], Xanlar [15, 72], Rəsul-təpəsi [21, 417] abidələrindən və Füzuli rayonunda Quruçay və Köndələnçay hövzəsindən [3, 67-72], Gürcüstanın cənub rayonlarından [25, 118-120], Şimali Qafqazda Dalinski və Alxastinskidə [18; 20], Dağıstanda Yuxarı Qunib abidəsindən aşkar edilmişdir.

Qafqaz ərazisi üçün nadir tapıntı sayılan dişli toxaların oxşarlarına Yaxın şərqin sinxron abidələrində rast gəlirik [18, 81].

Müxtəlif materiallardan hazırlanmış toxalar qədim Şərqdə e.ə. VI-V minilliklərdən mövcud olmuşdur [14, 107-108, 117-120]. Dünay hövzəsində

və mərkəzi Avopada isə daş ucluqlu toxalardan ilk dəfə neolit dövründə istifadə edilmişdir [24, 48].

Qədim əkinçilik diyarı Naxçıvanda eneolit dövründən başlayaraq torpağın şumlanmasında əsas material kimi ağacdan istifadə olunmuşdur. Bu dövrün toxa əkinçiliyi məhz ağacdan düzəldilmiş əmək alətlərinə əsaslanırdı. Naxçıvanda, eləcə də, Azərbaycanın digər abidələrində aşkar olunmuş daş və sümük toxaların dəstəyi, heç şübhəsiz ki, ağacdan düzəldilmişdir. Bu həmin alətlərin küp hissəsindəki dəstək yerindən aydın görünür. Heyvandan qoşqu qüvvəsi kimi istifadə olunması toxa əkinçiliyindən şumlama üsuluna keçilməsinə imkan vermişdir. Bununla əlaqədar olaraq ağacdan hazırlanan əmək alətlərinin rolu daha da artmış, onların yeni tipoloji növləri (xış, mala, vəl, şana, kürək, qoşqu ləvazimatı və s.) yaranmışdır [9, 161].

Eneolit dövründə Naxçıvanın qədim əkinçi tayfalarının istifadə etdikləri daşdan hazırlanmış şum alətləri özündən sonra gələn tunc dövrü ilə müqayisədə xeyli iri ölçülü olmuşdur. Lakin yuxarıda göstərilənlərdən aydın olur ki, daha erkən dövrdə eneolit dövrünün başlanğıcında ibtidai şum alətləri kiçik və yüngül olmuşdur. Ehtimal ki, bu hər şeydən əvvəl, ibtidai əkinçilik təsərrüfatında qadınların üstün yer tutması ilə bağlı olmuşdur. Yerin şumlanması qadınlar tərəfindən aparıldığından əmək alətləri yüngül materiallardan - ağac, sümük və buynuzdan və ya daşdan kiçik ölçüdə hazırlanmışdır (5,44-46).

Əkinçiliyin ilk mərhələsindən sonra daş, sümük və buynuz toxaları ilə yanaşı, bütünlükdə ağacdan düzəldilmiş toxalar da mövcud olmuşdur. Maraqlıdır ki, hazırda dünyanın bir çox yerində belə ibtidai ağac toxalardan istifadə olunur. Şübhəsiz ki, toxa kimi ibtidai şum alətlərinin mövcud olduğu dövrdə əkin sahələrini əkin üçün lazımi səviyyədə hazırlamaq qeyri-mümkün olmuşdur. Naxçıvanın qədim əkinçi tayfalarının eneolit və tunc dövrlərində istifadə etdikləri şum alətləri hazırlandıqları materiallara görə üç qrupa ayrılmışdır: daşdan, sümükdən və buynuzdan hazırlanmış toxalar.

Naxçıvan MR-nın qədim əkinçi yaşayış yerlərindən əldə edilən buğda və arpa növlərinə aid dən qalıqları Cənubi Qafqazın eneolit və tunc dövrü əkinçilik təsərrüfatı tarixinin öyrənilməsində xüsusi elmi əhəmiyyət kəsb edir. Tədqiqatçı O.H.Həbibullayevin apardığı tədqiqatlar zamanı I Kültəpənin I və II mədəni təbəqəsinin müxtəlif laylarında kömürləşmiş dənli bitki qalıqları aşkar edilmişdir. I Kültəpədən əldə edilmiş buğdanın 4 növü müəyyənləşdirilmişdir. Yumşaq və xırda dənli (Friticum sativum L), bərk (Friticum Compactum Dest), dəyirmişəkilli (Fricitum Compactum Hest) və şarşəkilli (Friticum steriococum) [10, 211]. Eyni zamanda bir neçə növdə darı da (uzunsov, dəyirmi - Hordeum satireum L) və butulkaşəkilli - Hordeum lagunuliforme Bacht) əldə edilmişdir[10, 211].

O.H.Həbibullayevin apardığı tədqiqatlar nəticəsində qarışıq halda buğda əldə edilmişdir ki, [74, 212] bu da Cənubi Qafqazın ilkin əkinçilik dövrü üçün xarakterik xüsusiyyətdir.

I Kültəpədən həmçinin dəyirmi formalı bitki növü də əldə edilmişdir. Laboratoriya analizinə əsasən həmin bitkinin noxud növlü (Gicor archinum) paxlalı bitkilərə aid olması güman edilir [10, 212]. Oxşar dənli bitki qalıqları Azərbaycanın digər eneolit abidələri - Töyrətəpə [23, 140], Baba-Dərviş, Şomutəpə, Rustəpəsi, İlanlıtəpə və s. yaşayış məskənlərindən də aşkar edilmişdir [22, 3-5].

I Kültəpənin Kür-Araz mədəniyyətinə aid təbəqəsindən də kömürləşmiş və yanmış buğda növləri aşkar olunmuşdur. Beləliklə, I Kültəpənin Kür-Araz mədəniyyəti tayfaları eneolit dövrü əkinçilik ənənələrini davam etdirmişlər.

II Kültəpənin qədim əkinçi sakinləri yumşaq buğda (F.Aestivum), onun müxtəlif formalarını və arpa – (H.Sativum) becərirdilər [12, 130]. Tədqiqatlar nəticəsində II Kültəpədə yabanı iki cərgəli arpa - H.Spanteneum və yabanı çölnoxudu - Vika Villosa aşkar* edilmişdir [12, 130].

Yumşaq buğda qalıqları I Kültəpədən də əldə edilmişdir [10, 212]. Orta tunc dövrünə aid yumşaq və bərk buğda həmçinin arpa qalıqları Azərbaycanın digər abidələrindən də məlumdur. Buğda dənələri, çovdar və arpa Üzərliktəpə qədim yaşayış məskənindən də əldə edilmişdir [21, 415]..

Naxçıvanın qədim əkinçi yaşayış məskənlərindən əldə edilmiş buğda qalıqlarının laborator tədqiqi göstərmişdir ki, əgər eneolit təbəqəsində və ilk tunc dövrünə aid təbəqənin aşağı qatlarında buğda, digər toxumlar və arpa qarışıq halda idisə, yuxarı laylarda onlar ayrı-ayrılıqda əldə edilmişdir [10, 213]. Bu onu göstərir ki, qədim Naxçıvan sakinləri buğda və arpa dənlərini bir-birinə qarışdırmadan səpirdilər. Bu fakt isə bir daha əkinçiliyin yüksək inkişaf etdiyini göstərir.

Naxçıvanın qədim əkinçi yaşayış məskənləri I Kültəpə, II Kültəpə və digər eneolit və tunc dövrünə aid abidələrin müəyyən qatlarında təsərrüfat quyularına rast gəlinmişdir. Taxıl qalıqları əldə edilən iri təsərrüfat quyuları və küplərin varlığı göstərir ki, eneolit və tunc dövrlərində Naxçıvanın qədim əkinçi sakinləri öz illik ehtiyaclarını ödəmək üçün və daha artıq dənli bitkilər istehsal etmiş və göstərdiyimiz quyu və küplərdə saxlamışlar.

Naxçıvanın tunc dövrünə aid əkinçi yaşayış yerlərində, içərisində taxıl qalıqları olan kiçik ölçülü küplərə də rast gəlinmişdir. Çox güman ki, bu küplərdə seçilmiş, təmizlənmiş toxumluq taxıl saxlanmışdır. Bu fikri orta və son tunc dövrünə aid yaşayış yerlərindən əldə edilmiş taxıl qalıqlarının tərkibi də sübut edir.

Naxçıvanın qədim əkinçi tayfaları eneolit və tunc dövrlərində, yəni e.ə. VI-II minilliklərdə əldə olunmuş taxılın döyülüb emal olunmasında müxtəlif döyüm və taxıl emalı alətlərindən – vəllər, dən daşları (alt dən daşları, üst dən daşları - sürtgəclər), həvəng və dəstələrdən istifadə etmişlər. Dən daşları

* Taxıl qalığını akademik İ.D.Mustafayev müəyyənləşdirmişdir.

və sürtgəclər Naxçıvanın eneolit və tunc dövrü abidələrinin demək olar ki, hamısından aşkar edilmişdir.

Əkinçilik təsərrüfatı ilə bağlı mühüm mərhələlərdən biri biçilmiş taxılın sünbüldən çıxarılması və döyülməsi prosesidir. İbtidai əkinçilik təsərrüfatı üçün hansı döyüm proseslərinin tətbiq edilməsi etnoqrafik tədqiqatlar və arxeoloji qazıntılar nəticəsində əldə edilmiş döyüm alətləri – vəllər əsasında müəyyənləşdirilmişdir. O.H.Həbibullayev I Kültəpə tapıntılarına əsasən göstərir ki, biçindən sonra taxıl dərz şəklində bağlanmış və yaşayış yerinə gətirilmişdir [10, 214]. Etnoqrafik tədqiqatlara əsasən müəyyən edilmişdir ki, qədim və orta əsrlər dövründə əkinçiliklə məşğul olan əhali ayrı-ayrı regionlarda müxtəlif taxıl döyümü üsullarından istifadə etmişlər. Bunların ən sadəsi hələ XX əsrin 50-60-cı illərinə qədər ev şəraitində taxıl döyülərkən tətbiq edilmiş üsul-taxılın ağac payalar vasitəsilə döyülməsi olmuşdur [1, 142]. T.A.Bünyadovun fikrincə, hələ ən qədim dövrlərdə taxıl xüsusi meydançalarda ağac payalarla döyülməklə sünbüldən ayrılmışdır [13, 127]. Sonrakı dövrlərdə taxılın döyülməsində həmin üsul saxlanılmaqla, başqa yeniliklər də tətbiq olunmuşdur.

Naxçıvanın qədim əkinçilik yaşayış yerlərindən qoşqu qüvvəsinin köməyi ilə işlədilən xış nümunələri indiyə qədər tapılmamışdır. Lakin heç şübhəsiz ki, tunc dövründə Naxçıvanda xış əkinçiliyi inkişaf tapmışdır. Hələ ilk tunc dövründən başlayaraq əhalinin sayının sürətlə artması, geniş əkin sahələrinin mənimsənilməsi həmin dövrdə torpağın daha keyfiyyətli becərilməsini tələb edirdi. Bu işi qoşqu qüvvəsi və xış vasitəsilə görmək mümkün ola bilərdi.

Naxçıvanın eneolit və tunc dövrü əkinçi tayfaları müxtəlif biçin alətlərindən istifadə etmişlər. Onlar əsasən ağac və sümük çərçivə əsasında düzəldilmiş quraşdırma oraqlardan ibarətdir.

Tunc dövründən etibarən metal oraqlardan da istifadə olunmağa başlanmışdır. I Kültəpə yaşayış yerindən bu növ əmək alətləri aşkar edilmişdir. Metal oraqların əkinçilik təsərrüfatında istifadə olunmasına baxmayaraq orta və son tunc dövrlərində də belə quraşdırma oraqlar əsas biçin alətləri olmuşdur.

«Kür-Araz» mədəniyyəti Şimali Qafqazdan Suriya-Fələstinə, Xəzər dənizindən Qara dənizə qədər olan geniş əraziləri əhatə etmişdir. Lakin bu mədəniyyət yayıldığı ərazilərin adına uyğun olaraq Xirbet-Kerak, Yanik, Karaz mədəniyyəti də adlanmışdır. Kür-Araz mədəniyyəti hüdudlarında yaşayan qədim əkinçi tayfalar bir-biri ilə sıx iqtisadi-mədəni əlaqə saxlamışlar (7,263-264). Bu əlaqələrin genişlənməsində Naxçıvanın əkinçi tayfaları xüsusi rol oynamışlar. Çünki Qafqazda Yaxın Şərq və Ön Asiya ölkələrini əlaqələndirən ən qısa və asan yol məhz Naxçıvandan keçirdi. Naxçıvanın ilk tunc dövrü yaşayış yerlərindən əldə edilən Şərq mənşəli müxtəlif materiallar bu qədim diyarın Mesopotamiya və Anadolu ilə sıx əlaqələri olduğunu göstərir.

Orta tunc dövründə Naxçıvanın qədim əkinçi tayfalarının iqtisadi və mədəni inkişafında çox mühüm mərhələ başlanmışdır. İri tayfa ittifaqlarının yarandığı bu dövrdə ayrı-ayrı bölgələrdə kiçik əkinçi tayfalar vahid bir mərkəz ətrafında birləşərək daha intensiv fəaliyyət göstərmişlər. Əkinçiliyin inkişafında əsaslı dönüş əmələ gəlmiş, Arpaçay, Naxçıvançay, Əlincəçay və Gilançay vadilərindəki münbit torpaqlar becərilmişdir. Bununla əlaqədar olaraq Naxçıvanın əkinçi tayfaları əkin sahələrindən daha bol məhsul əldə etmək üçün geniş süni suvarma sistemləri yaratmışlar. Şübhəsiz ki, bu işdə Naxçıvanın əkinçi tayfalarının Yaxın Şərqin, Mesopotamiyanın, Ön Asiyanın süni suvarma sistemləri ilə tanışlığı öz müsbət təsirini göstərmişdir.

Naxçıvanın orta tunc dövrü tayfaları yüksək texniki üsullarla hazırlanmış daha keyfiyyətli əkin, biçin, şum əmək alətlərindən istifadə etmişlər. II Kültəpədən əldə edilmiş daş vəllər artıq orta tunc dövründən etibarən əkinçilikdə qoşqu qüvvəsindən geniş istifadə olunduğunu sübut edir.

Son tunc-ilk dəmir dövründə yüksək keyfiyyətli tunc və dəmir metallardan hazırlanmış əmək alətləri, xüsusilə xış və gavahının tətbiqi nəticəsində əkinçilik təsərrüfatı özünün daha yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Əldə edilən izafi taxıl məhsulu qonşu maldar tayfalarla əsas mübadilə vasitəsi olmuşdur.

Naxçıvanın qədim əkinçi tayfaları eneolit və tunc dövrlərində, Ön Asiya, İkiçayarası, Urmiya gölü hövzəsi və Qafqazın qonşu əkinçi-maldar tayfaları ilə geniş iqtisadi-mədəni əlaqələr saxlamışlar. Bu qarşılıqlı əlaqələr Naxçıvanın qədim əkinçi tayfalarının iqtisadi cəhətdən güclənməsinə və mədəni səviyyəsinin yüksəlməsinə mütərəqqi təsir göstərmişdir.

Əkinçiliyin inkişafında olan irəliləyiş – toxa əkinçiliyindən xış əkinçiliyinə keçid, süni suvarmadan istifadə, daha təkmilləşmiş (quraşdırma, dişli və tunc) oraqlardan, dən daşlarından istifadə, Naxçıvanın I Kültəpə, Qızılburun və s. yaşayış yerlərindən aşkar edilmiş əkinçilik əmək alətləri, bu dövrdə əhalinin sayının artması nəticəsində maddi tələbatın çoxalması, geniş əkin sahələrinin (dərin və keyfiyyətli) şumlanması üçün xışdan və qaramaldan qoşqu qüvvəsi kimi istifadə olunduğunu göstərir.

## ƏDƏBİYYAT

1. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı I minilliyin əvvəllərində. B., Elm, 2000, 187 s.
2. Dadaşov Ə.N., Əhmədov R. Eneolit dövrünün şum aləti. Elm və həyat jurn., 1985, №3, s.20-21.
3. İsmayılov Q.S. Zərgərtəpə abidəsi və Azərbaycanda qədim toxa əkinçiliyinin bəzi məsələlərinə dair Azərb. SSR EA Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 1968, №1, s.65-73.
4. Hüseynov.M.M. Naxçıvanın qədom əkinçilik təsərrüfatı və onun inkişaf mərhələləri(e.ə VI-I minilliklər) tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı 2003.

5. Hüseynov.M.M. Naxçıvanın qədim əkinçi tayfalarının şum alətləri haqqında. Pedaqoji universitetin xəbərləri(humanitar, pedaqoji, psixolji elmləri seriysı). № 4. Bakı ADPU,2001. s 44-46.
6. Hüseynov.M.M. Naxçıvanın qədim əkinçi tayfalarının biçin alətləri haqqında. Eimi axtarışlar.VI toplu. Filologiya, tarix, incəsənət. Bakı2001 s237-240.
7. Hüseynov.M.M. Naxçıvanın eneoloit dövrü tayfalarının Yaxın şərq ölkələri ilə əlaqələri. Eimi axtarışlar.VIII toplu.Bakı 2002.s 263-264.
8. Hüseynov.M.M. Naxçıvanda qədim çörək bişirmə. Pedaqoji universitetin xəbərləri. № 1-2. bakı ADPU,2003. s 290-297.
9. Mustafayev A.H. Azərbaycanda sənətkarlıq. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilən dissertasiya. B., 1993
10. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, 1982, 314 с.
11. Алиев В.Г. Археологические раскопки в урочище Баба-Дервиш. СА, 1971, №2, с.223-231.
12. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991, 256 с.
13. Бунятов Т.А. Земледелие и скотоводство в Азербайджане в эпоху бронзы. Баку, Изд-во АН Аз.ССР, 1957, 138 с.
14. Всемирная История. т.I, М., 1949, 747 с.
15. Гуммель Я.И. Раскопки поселения I на западе от Ханлара. КСИИМК, вып. XXIII, 1948, с.67-79.
16. Исмаилов Г.С. Из истории древнейшей культуры Западного Азербайджана (медно-бронзовая эпоха). Автореф. на соиск. канд. ист. наук, Тбилиси, 1963, 16 с.
17. Косвен М.О. Очерки истории первобытной культуры. М., 1957, 240 с.
18. Крамер С.Н. История начинается в Шумере. М., 1965, 235 с.
19. Круглов А.П., Подгаельний Г.В. Долинское поселение у г.Нальчика. МИА ССР, 33, М-Л., 1941, с.147-212.
20. Крупнов Е.И. Археологические памятники верховьев р. Терека и бассейна р. Сунжи. Тр. ГИМ вып. XVII, МКИМ, 1947,/обл 1948,с.5-25.
21. Кушнарева К.Х. Поселение эпохи бронзы на холме Узерликтепе около Агдама. МИА ССР, №67, М-Л., 1959, с.338-430.
22. Нариманов И.Г. О земледелии энеолита в Азербайджане. **СА,** 1971, №3, с.3-14.
23. Нариманов И.Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпохи энеолита VI-IV тыс. до н.э.) Баку, 1987, 260 с.
24. Чайлд Г. Прогресс и археология. М., 1949, 195 с.
25. Чубинишвили Т.Н., Татишвили Т.И., Гамбашидзе О.С. Археологические разведки в южной Грузии (Месхети Джавахети) в 1953-1955 гг. Сов. Археология, 1957, №4, с.116-127.
26. Энеолит ССР. Археология ССР. М., Наука, 1982, 359 с.

# THE EARLY AGRECULTURE CULTURE OF NAKHCHIVAN

**M.M. Guseynov**

## Summary

Scientific value and necessity of development are proved; the purposes and problems, scientific novelty of research are specified.

Review of studying of the monuments belonging to tribes, by engaged agricultural facilities in eneolith and bronze epoch in Nakhchivan.

For that it is necessary to get information on territories of dwelling of agricultural tribes" eneolith and bronze epoch in Nakhchivan, prominent features of places of dwelling, stratigraphy of cultural layers and the extracted tools of work of agriculture.

Information is given on tools of agriculture, a harvest, processing of the thrash and grain, cultivated grades of a grain, rules ancient bread cooking. For the first time tools of work which ancient agricultural tribes of Nakhchivan are divided into groups and subgroups under forms, is pursued dynamics of their development.

Afterward deep researches it is possible about mutual economic, cultural relations of ancient agricultural tribes of Nakhchivan in eneolith and bronze epoch with different regions of Southern Caucasus, and also with the countries of the Near East and Front Asia. Positive action of such attitudes is determined on intensive development of ancient agricultural economy of Nakhchivan and to increase of productivity.

In a final part of the dissertation is spoken scientific reasons and ideas about a way of life, a life of ancient agricultural tribes of Nakhchivan, about stages, changes of development of an agricultural economy could specialize the important way for rightly classifying materials.

**Keywords: Nakhchivan, agriculture, culture, eneolith, Kultepe.**

# РАННЯЯ ЗЕМЛЕДЕЛЬЧЕСКАЯ КУЛЬТУРА НАХЧЫВАНА

**М.М.Гусейнов**

## Резюме

В статье рассматриваются древнее земледельческое хозяйство Нахчывана и этапы его развития (VI-I тысячелетия до н.э).

Дается подробное сведение о месте обитания древних земледельческих племен Нахчывана, характерные особенности мест обитания, стратиграфия культурных слоев и характерные особенности орудия труда древних земледельцев. Излагается методы молочения и переработки зерна.

Впервые, орудия труда древних земледельцев классифицируется.

В статье также говорится об экономических культурных взаимоотношениях древних земледельческих племен Нахчывана эпохи энеолита и бронзы с различными регионами Южного Кавказа, а также со странами Ближнего Востока и передней Азии.

**Ключевые слова: Нахчыван, земледелие, культура, энеолит, Кюльтепе.**

.

# AZƏRBAYCANIN TUNC DÖVRÜ NƏQLIYYAT VASITƏLƏRININ ÖYRƏNILMƏSINDƏ NAXÇIVAN ABIDƏLƏRININ ROLU

**Anar Ələsgərov**
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Naxçıvan, Gəmiqaya, Maxta, araba, at.**

Naxçıvan ərazisi Yaxın Şərq, Cənubi Qafqaz və ondan şimalda yerləşən ölkələri birləşdirən qədim ticarət yollarının üzərində yerləşmişdir. Bunun nəticəsində yerli əhali nəqliyyat vasitələrindən istifadə etməklə qonşu ölkələrlə mədəni-iqtisadi əlaqələr saxlamışdır. I Kültəpə, II Kültəpə, Gəmiqaya, Şahtaxtı, Maxta abidələrinin arexoloji təqiqi nəticəsində tapılmış qədim nəqliyyat vasitələri ilə bağlı materiallar bunu söyləməyə imkan verir [5, 7].

O.A.Həbibullayev tərəfindən I Kültəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar (1951-1964-cü illər) zamanı nəqliyyat vasitələri ilə bağlı zəngin maddi-mədəniyyət nümunələri - gil təkər modelləri (I təbəqədən) öküz fiqurları və iri buynuzlu heyvanlara məxsus osteoloji qalıqlar əldə edilmişdir [5, 19].

O.A.Həbibullayevin «Şaxtaxtı qəbirinin materialları» adlı məqaləsində (1961) Azərbaycanda ilk tunc dövründən başlayaraq yarımköçəri yaylaq maldarlığının yaranması ilə əlaqədar olaraq nəqliyyat vasitələrindən, öküz qoşulmuş arabalardan və atlardan minik vasitəsi kimi istifadə edilməsinin əhəmiyyətinin artdığından bəhs edilir.

V.H.Əliyev tərəfindən II Kültəpə abidəsində aparılan arxeoloji tədqiqat işləri nəticəsində tunc dövrü nəqliyyat vasitələrini əks etdirən maddi mədəniyyət nümunələri (təkər modelləri, polixorm boyalı qab üzərində at təsviri, osteoloji qalıqlar) aşkar edilmişdir. Burada e.ə. III minillikdə atçılıq özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Bunu qazıntılar zamanı əldə edilmiş əhliləşdirilmiş at sümükləri sübut edir [2, 21].

Son illərdə aparılan arxeoloji tədqiqat işləri də daxil olmaqla, hələ XX əsrin 60-cı illərinin sonlarından başlayaraq Ordubad rayonu ərazisindəki Gəmiqaya (Qapıcıq) abidəsinin qayaüstü təsvirlərinin tədqiqi nəticəsində bəhs etdiyimiz problemlə bağlı kifayət qədər qayaüstü təsvirlər aşkar edilib öyrənilmişdir.

2002-ci ildə müəllifin özünün də daxil olduğu «Naxçıvan-Gəmiqaya arxeoloji ekspedisiyası»nın apardığı arxeoloji tədqiqatlar nəticəsində Gəmiqayadakı Nəbiyurdu və Qaranquş yaylaqlarında qayaüstü təsvirlərin öyrənilməsi bu sahədə daha geniş məlumatın əldə edilməsinə kömək etmişdi.

Tədqiq olunan qayaüstü təsvirlərin sayı mindən çoxdur. Burada o dövr köçəri maldar tayfaların təsərrüfatının ən müxtəlif sahələrini əks etdirən geniş məzmunlu rəsmlərə rast gəlmək mümkündür. Əksər hissəsi orta tunc və

son tunc dövrünə aid edilən bu qayaüstü təsvirlər içərisində daha çox diqqəti cəlb edən qədim nəqliyyat vasitələri və onlardan istifadəni əks etdirən maddi mədəniyyət nümunələrinin olmasıdır.

Gəmiqaya Azərbaycanda tunc dövrü nəqliyyat vasitələri tarixinin, xüsusilə də araba nəqliyyatının öyrənilməsində ən zəngin arxeoloji abidədir. Burada 40-dan çox araba təsviri aşkar edilmişdir. Bu təsvirlər ölçülərinə görə biri birindən o qədər də fərqlənmir.

Ərazidə xeyli sayda öküz qoşulmuş iki və dörd təkərli araba təsvirlərinə, eyni zamanda ayrılıqda təsvir edilmiş öküz və araba rəsmlərinə rast gəlinmişdir.

Qoşqu heyvanı ilə birlikdə təsvir edilmiş araba rəsmləri sübut edir ki, bu nəqliyyat vasitəsinin ilkin yarandığı mərkəzlərdən biri Naxçıvan olmuşdur [3, 45].

Bir qayda olaraq Gəmiqayada araba rəsmləri düzbucaqlı şəkildə təsvir edilmişdir. Burada bir daş üzərində sxematik şəkildə araba rəsmi verilmişdir. Arabanın sandıq hissəsi düz xətlərlə şəbəkələrə bölünmüşdür. Şəbəkələrin sayı dörddən altıya qədərdir. Belə araba rəsmlərində təkərlər göstərilməmişdir. Lakin boyunduruq və onun birləşdirildiyi hissə verilmişdir. Yarımçıq çəkilmiş araba rəsminin dairəvi formalı bir təkəri göstərilmişdir. Üç araba rəsmində boyunduruğun bir tərəfində tək qoşqu qüvvəsi verilmişdir [3, 45].

Qayaüstü təsvirlərdəki araba rəsmləri müəyyən məzmun kəsb edən rəmzi simvollar şəklində verilmişdir.

Əsas sandıq hissəsi kvadratşəkilli olan, 49 №-li daşda həkk edilmiş ikitəkərli araba təsviri böyük maraq doğurur. Ondan ayrılan boyunduruq tək, düz xətlə göstərilmiş boyunduruq öküzlərlə müqayisədə irəli çıxır və ucu haçalanır. Təkərlərin daxilində onun milləri də təsvir edilmişdir [6, s. 18]. Beş oxlu təkərləri olan araba iki adamın yerləşə biləcəyi qədim hərb arabalarına bənzəyir. Gəmiqayadakı bu tip araba təsvirləri (e.ə. II minilliyin II yarısına aid edilir) Mərkəzi Asiyada, Saymalı-Taş [10, 15] qayaüstü təsvirlərində rast gəlmək mümkündür.

Arabaların böyük əksəriyyəti dörd təkərlidir. Onların bəzilərində bir qayda olaraq sandıq hissə düzbucaq və ya kvadratşəkilli olub daxildə çəkilən xətlərlə bir neçə hissəyə bölünmüşdür [6, s. 18]. 179 №-li daş üzərində təsvir edilmiş dörd təkərli araba təsviri ilə 424 №-li daş üzərində təsvir edilmiş iki öküz qoşulmuş araba təsviri sxematik quruluşuna görə bir-birinə daha yaxındır. Hər iki təsvir ölçülərinə görə demək olar ki, eynidir. Öküzlərə qoşulmuş arabaların təkərləri lövhəvari olmaqla tam oxşarlıq təşkil edir. Arabanın boyunduruğa qoşulması mexanizmindəki eynilik deyilənləri bir daha sübut edir.

Digərlərindən fərqli olaraq daha incə zövqlə çəkilmiş hər iki araba təsvirini yarımköçəri yaylaq maldarlığının yüksək inkişaf etdiyi e.ə. II minilliyin başlanğıcına aid etmək olar.

Gəmiqayada yarımköçəri yaylaq maldarlığının yarandığı ilkin dövrlərə aid edilən araba təsvirlərinə də rast gəlmək mümkündür. 381, 382 və 387 №-li daşlar üzərində qalın xətlərlə çəkilmiş araba təsvirləri bu qəbildəndir. Burada arabalar öküzə qoşulmuş formada və boyunduruqla birlikdə təsvir edilmişdir. Hər üçündə arabanın sandıq hissəsi düzbucaqlıdır və dörd bərabər hissəyə bölünmüşdür. E.ə. III minilliyin II yarısına aid edilən bu arabaların təsvirləri çəkilmə üslubuna və böyüklüyünə görə biri-birinə çox yaxındır. Onların hər üçü iri lövhəvari təkərlərə malik olan köç arabalarını xatırladır. Bu cür lövhəvari arabaların təkərlərini isə ağac materiallarını biri-birinə bərkitməklə hazırlayırdılar.

Araba rəsmləri içərisində daha çox diqqət cəlb edən Naxçıvanın yarımköçəri maldar tayfalarının Gəmiqaya yaylaqlarına köç səhnəsinin təsvir edilməsidir.

268 və 387 №-li daşlar üzərində iki öküz qoşulmuş araba və əlini qaldırmış vəziyyətdə çəkilmiş insan təsviri bir kompozisiyada verilmişdir. 268 №-li daşda təsvir edilmiş insan demək olar ki, öküzlərə və arabaya bitişik vəziyyətdə verilmişdir. Buradakı arabanın sandıq hissəsi digərlərindən fərqli olaraq altı hissəyə bölünmüşdür. Boyunduruq qısa çıxıntılı xətlə göstərilmişdir. 387 №-li daşda rəsm edilmiş insan arabadan bir qədər aralıda göstərilsə də hər iki təsvir mahiyyətcə bir-birinə çox yaxındır.

Bəzi araba rəsmlərində sandıq hissə təsvir edilməmiş, yalnız təkərlər və onları birləşdirən oxlar göstərilmişdir. 245 №-li daş üzərində çəkilmiş dörd təkərli iki öküz qoşulmuş arabanın sandıq hissəsi bir düzxətlidir. İri lövhəvari təkərlərə malik olan bu araba qalın xətlərlə verilmişdir (7. 8.18).

Nəbi yurdunda, ərazinin şimal qərbində kiçik sal daş üzərində dörd təkərli araba təsviri vardır. Lövhəvari təkərlərə malik olan bu araba iki öküzə qoşulmuşdur. Nəbi yurdunda dörd sayda bu cür araba təsvirinə rast gəlinmişdir.

Qaranquş yaylağının cənub tərəfindəki dərənin qurtaracağında qayalar üzərində iki öküz qoşulmuş araba təsvirləri aşkar edilmişdir. Daşların bəzilərinin üzərində iki və daha artıq araba təsvirləri vardır. Yüksəkliyə qalxdıqca təsvirlərin sayı xeyli azalır. Araba təsvirlərinin daha çox olduğu ərazi Gəmiqayanın zirvəsinə doğru gedən yolun sol tərəfindədir. Qarışıq olan bu təsviri sənət nümunələri ola bilsin ki, o dövr maldarlarına məxsus olmuşdur. Müxtəlif istiqamətlərdə çəkilmiş bu arabaların təsvir olunduğu daşlar bir-birinə çox yaxın yerləşmişdir. Burada 8-9 ədəd iki öküz qoşulmuş araba təsviri vardır.

Maraqlı cəhətdir ki, Gəmiqayadakı araba təsvirləri böyük-kiçikliyinə görə bir-birindən kəskin fərqlənmir.

Bu yaylaqlar çox yüksək dağlıq ərazidə yerləşir. Burada arabadan nəqliyyat vasitəsi kimi istifadə çox çətindir. Lakin araba təsvirlərinin bu qədər çoxluğu sübut edir ki, dağətəyi və düzənlik ərazilərdə arabadan istifadə xü-

susi əhəmiyyət kəsb etmiş, çox güman ki, yerli tayfalar köç zamanı ərazinin xeyli hissəsini öküz qoşulmuş arabaların köməyi ilə qət etmişlər.

Naxçıvan tayfalarının təsərrüfat fəaliyyətində yarımköçəri yaylaq maldarlığı üstünlük təşkil etmiş, Gəmiqaya ərazisi bu tayfaların müvəqqəti yaşayış məskəni olmuşdur.

Gəmiqaya qayaüstü rəsmilərində minik və qoşqu qüvvəsi kimi istifadə edilən atla bağlı səhnələrə də rast gəlinmişdi. Atlı rəsmlərindən biri nisbətən realist üslubda həkk edilmişdi. Qalın xətlərlə döymə qaydası ilə təsvir edilmiş atın bədəni və quyruğu uzun, qulaqları şəklənmiş vəziyyətdə təsvir edilmiş, onun belində dik vəziyyətdə oturmuş insanın başı azca aşağı əyilmişdi (daş №140). Atlı rəsmləri (daş № 322) sxematik verilmişdi. Hərəkətdə olan atın belindəki insanın qolları dirsəkdən qatlanaraq yuxarıya yönəlmişdir. Atın quyruğu düz istiqamətdə arxaya uzanmış, qabaq ayaqları isə bir qədər irəliyə yönəlmişdir ki, bunlar da onun qaçış vəziyyətində olmasına dəlalət edir. Başqa bir daşda (daş №70) sxematik verilən üç atlı təsviri də böyük maraq doğurur [7, 22].

Bu dövrdə atların tutulub əhliləşdirilməsində, heyvan dərisindən hazırlanmış kəmənddən istifadə etmişlər.

İlk tunc dövründən başlayaraq insanlar atdan minik vasitəsi kimi istifadə etməyə başlamışlar. Bunu I Maxtadan tapılmış at fiquru və II Kültəpədən əldə edilmiş osteoloji qalıqlar içərisində əhliləşdirilmiş at sümüklərinin olması, II Kültəpənin alt mədəni təbəqəsindən əldə olunmuş dördkünc formalı kərpicin üzərində cızma üsulu ilə çəkilmiş sxematik at təsviri deyilənləri təsdiq edir [1, 70].

II kültəpədən tapılmış polixorm boyalı qab üzərindəki atlı rəsmi sübut edir ki, e.ə. III minillikdə və II minilliyin əvvəllərində Azərbaycanda at nəinki əhliləşdirilmiş, hətta ondan minik və qoşqu vasitəsi kimi istifadə edilmişdir. Deməli, Cənubi Qafqazda atçılıq gəlmə etnik qruplarla deyil, yerli şəraitdə formalaşıb inkişaf tapmışdır [4, 53].

Naxçıvan MR ərazisində Şahtaxtı ərazisində 1936-cı ildə Ə.Ələkərov tərəfindən arxeoloji qazıntı işləri aparılmış və daş qutu tipli qəbirdən bütöv bir at skeleti əldə edilmişdir. Qəbirin diametri 7,70 sm, skletin yerləşdiyi sahə isə 4,30x0,90 metrə qədərdir. Qəbirdən aşkar edilmiş arxeoloji materiallar arasında 30-a qədər saxsı qab var idi. Qablar götürüldükdən sonra məlum oldu ki, burada sol böyrü üstə bir at basdırılmışdır.

Gəmiqayada son tunc ilk dəmir dövrünə aid bir və iki hürgüclü dəvə rəsmləri aşkar edilmişdir. Bu rəsmlər Naxçıvan bölgəsində dəvələrdən istifadəyə aid ən qədim məlumatlardır [7, 73]. Çox güman ki, Gilançay boyunca üzüyuxarı qalxan köçəri maldarlar köç zamanı etibarlı nəqliyyat vasitələri kimi dəvələrdən istifadə etmişlər. Onlar tək xətlə sxematik üslubda, uzun bədənli, ayaqları hündür təsvir edilmişdir. Abidədə həm bir, həm də iki hörgüclü dəvə rəsmləri qeydə alınmışdır. Daşların birində qalın, tək xətlə bir qədər əyri boynu yuxarıya qalxmış, başı irəli yönəlmiş düz, qısa xətlə göstə-

rilmişdir. Uzun ayaqları, qısa quyruğu bədəninə mütənasib təsvir edilmişdir. Başqa bir daşda (daş № 158) keçi ilə üz-üzə təsvir edilmiş tək hörgüclü dəvənin əyri boynu, uzun bədəni və ayaqları daha da qabarıq şəkildə ifadə olunmuşdur (daş № 260). Onun tək hörgücü olduqca şərti göstərilmişdir, ayaqlarının ikisi təsvir edilmiş sxematik dəvə rəsminə də rast gəlinmişdir (daş №275, s.1). Onun tək hörgücü belinin üstündə dik qalxan xətlə ifadə olunmuşdur [7, 23].

Gəmiqayadakı dəvə təsvirlərindən ən maraqlısı realist üslubda verilmiş iki hörgüclü dəvənin siluet rəsmidir (daş № 282). Ayaqları düz nazik xətlə, uzun və əyri boynu isə qalın xətlə icra olunmuşdur. Abidədə başqa bir daşda isə dəvənin kontur rəsmi qeydə alınmışdır (daş №456). İki hörgüclü bu dəvənin hörgücləri xüsusilə qabarıq verilmişdir. Uzun əyri boynu göstərilsə də başı rəsm edilməmiş, lakin, ayaqlarının dördü də təsvir edilmişdir. Bu təsvirdə dəvənin hərəktdə olmasını müşahidə etmək mümükündür [7, 23].

Naxçıvan abidələrindən öküz fiqurları və təkər modelləri də tapılmışdır. Bu abidələr maldarlıq təsərrüfatının inkişaf etdiyi, xüsusən iri buynuzlu heyvanlardan istifadənin geniş yayıldığı ərazilər üçün xarakterikdir. Tədqiqatçıların əksəriyyəti onları yerli tayfaların təsərrüfat həyatında öküzün və arabanın mühüm mövqeyə malik olması nəqliyyat və qoşquda əsaslı rol oynaması ilə izah edirlər. I Kültəpənin tədqiqatçısı O.Ahəbibullayev I Kültəpənin ikinci təbəqəsindən tapılmış araba təkəri modelləri və Yaxın Şərqin bir sıra abidələrindən oxşar materialların aşkar edilməsi faktına əsaslanaraq e.ə. IV minilliyin sonlarında lövhəvari ağır təkərləri olan arabalardan istifadə edildiyini qeyd edir [5, s.116]. Ehtimal ki, bunlar dördtəkərli arabalar olmuşlar. I Kültəpədən tapılmış təkər modellərinin ən qədimi eneolitin sonu, tunc dövrünün əvvələrinə aid edilir. Naxçıvan ərazisində II Kültəpə və Maxta abidələrindən bu cür gil təkər modelləri əldə edilmişdir.

Ümumiyyətlə, təkər modellərinin forması quruluşu, həcmi bir-birinə çox yaxındır. Bu təkər modelləri dairəvi formada olub, hər iki üzü diskvari qabarıqdır, orta hissədə silindirik çıxıntılıdır. Təkərlərin ortasından ox keçirilmək üçün deşik açılmışdır [9, s.13]. Əksəriyyətinin üzü hamardır, sığallanmışdır. Ölçülərinə gəldikdə isə ən kiçiyi 3-9 sm, ən böyüyünün diametri 15 sm-dir. Narın qum qatılmış gildən yoğrulmuş bu təkər modellərinə I Kültəpədən (15 ədəd), II Kültəpədən (10 ədəd), Maxtadan (2 ədəd), Baba-Dərvişdən (10 ədəd) və s. rast gəlinmişdir).

V.H.Əliyevin fikrincə, e.ə. III minillikdə II Kültəpənin əhalisi arabadan nəqliyyat vasitəsi kimi istifadə etmişdir.

II Kültəpə yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində əldə edilmiş gil təkər modelləri əsasən Kür-Araz mədəniyyəti təbəqəsindən İlk tunc dövrünə aid olan digər maddi mədəniyyət nümunələri ilə birlikdə tapılmışdır. Narın qum qatışıqlı gildən hazırlanmışdır, əsasən qəhvəyi və çəhrayı rəngdədir.

V.H.Əliyev Gəmiqayadakı araba təsvirlərinə və I-II Kültəpədə tapılmış təkər modellərinə, cəng araba təsvirlərinə əsaslanaraq qeyd edir ki, e.ə. IV-III minillikərdə Naxçıvanda Şumer və Göytəpə cəng arabalarına oxşar arabalardan istifadə olunmuşdur [8, s.11-14].

İlk tunc dövrünə aid edilən (e.ə. IV minilliyin sonu, III minilliyin başlanğıcı) Aşağı Daşarx yaşayış yerindən də gildən hazırlanmış araba təkəri modeli aşkar edilmişdir. Diametri 2,5 sm olan bu qonur rəngli kiçik araba təkəri modeli odun təsirindən zəif yanmışdır. Mərkəzi ox hissəsi nisbətən qabarıqdır. Ox hissədəki deşiyin diametri 0,3 santimetrdir [5, s.23].

S.Aşurov Kür-Araz mədəniyyəti dövründə ilk nəqliyyat vasitəsi kimi təkərli arabaların meydana çıxmasını və onlardan kənd təsərrüfatı məhsullarının daşınması məqsədilə istifadə edildiyini qeyd edir. Yəqin ki, bu arabalara dartı qüvvəsi kimi öküz qoşmuşlar. Müəllifin Maxta ilk tunc dövrü yaşayış yerində apardığı arxeoloji qazıntılar nəticəsində əldə etdiyi 3 ədəd təkər modelinin diametri 6 sm, ortadakı deşiyin diametri isə 0,6 sm-dir. Bu təkərlər yaxşı bişirilmiş, azacıq cilalanmışdır [1, s.61].

Naxçıvan ərazisində uzun illər aparılan arxeoloji qazıntılar və tunc dövrü abidələrinin öyrənilməsi nəticəsində əldə olunan tapıntılar nəqliyyat vasitələri haqqında geniş təsəvvür yaratmağa imkan verir. Naxçıvanın coğrafi-strateji mövqeyi, yəni ticarət yolları üzərində yerləşməsi, nəqliyyat vasitələrinin hazırlanması üçün lazım olan xammal ehtiyatının olması ərazinin qədim nəqliyyat vasitələrindən istifadənin mərkəzlərindən biri olmasına şərait yaratmışdır.

## ƏDƏBİYYAT:

1. Aşurov S.H. «Naxçıvanın ilk tunc dövrü keramikası», Bakı, Nafta-Press, 2002
2. Əliyev V.H., Seyidov A. «II Kültəpədə 1980-cı ildə aparılmış arxeoloji qazıntıların hesabatı», H-202.
3. Əliyev V.H. «Gəmiqaya abidələri», Bakı, Azərnəşr, 1992.
4. Əliyev V.H. «Qədim Naxçıvan», Bakı, Elm, 1979.
5. Həbibullayev O.A. «Kültəpə arxeoloji qazıntıları», Bakı, Elm, 1959.
6. Müseyibli N.Ə. «Gəmiqaya rəsmləri», Bakı, 2002.
7. Müseyibli N.Ə. «Gəmiqaya», Bakı, 2004.
8. Алиев В.Г. «Новые археологические находки по древней металлургии Нахчывана». Археологические и этнографические изыскания в Азербайджане (1980-1981 гг) Баку, Елм, 1986.
9. Джапаридзе О.М. «Археологические раскопки в Триалети в 1959-62» Советская Археология, 1964, №2.
10. Шер Л.П. «Петроглифы Средней и Центральной Азии». Москва, Наука, 1980.

# ROLE OF NAKHCHIVAN MONUMENTS IN STUDYING OF THE TRANSPORT MEANS IN AZERBAIJAN IN BRONZE AGE

**Anar Aleskerov**

## Summary

Along with use of vehicles is an important stage in the history of society development, they also are considered group of technical progress. Monuments of Nakhchivan of the season of Bronze (Kultepe I, Kultepe II, Shahtahty, Gemigaya, Makhta) are very important from the point of view of studying of this problem. The found stuffs during archaeological excavations effected on these monuments allow to create representation about different vehicles (a bull, a horse, a camel, a vehicle) the bronze season. In article classification is yielded, and are stated mark above problems.

**Keywords: Nakhchivan, Gamigaya, Makhta, waggon, horse.**

# РОЛЬ НАХЧЫВАНСКИХ ПАМЯТНИКОВ В ИЗУЧЕНИИ ТРАНСПОРТНЫХ СРЕДСТВ В АЗЕРБАЙДЖАНЕ В ПЕРИОД БРОНЗЫ

**Анар Алескеров**

## Резюме

Наряду с тем, что использование транспортных средств является важным этапом в истории развития общества, они также считаются кагалом технического прогресса. Памятники Нахчывана периода бронзы (Кюльтепе I, Кюльтепе II, Шахтахты, Гемигая, Махта) очень важны с точки зрения изучения этой проблемы. Найденные материалы в ходе археологических раскопок произведенных на этих памятниках позволяют создать представление о разных транспортных средствах (бык, лошадь, верблюд, повозка) периода бронзы. В статье дается классификация, и излагаются вышеотмеченные проблемы.

**Ключевые слова: Нахчыван, Гямикая, Махта, повозка, лощадь.**

# GİLAN ÇAY VADİSİNİN ARXEOLOJİ ABİDƏLƏRİ
## (E.ə. I minillik – b.e. XIV əsri)

**Bəhlul İbrahimli**
ibrahimlib@mail.ru
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Naxçıvan, Gilan çay, Sumbatan-Dızə, Rəsul dərəsi, Xaraba-Gilan.**

Naxçıvanın qədim şəhərlərinin quruluşunda əsaslı dəyişikliklər e.ə. II minilliyin sonlarında əmələ gəlir. Güclü müdafiə qabliyyətinə malik möhtəşəm qalalar tikilir, köhnə şəhərlərin ətrafına müdafiə divarları çəkilir. Bu proses Manna və Midiya ərazilərində bir neçə əsr davam etmişdir. Bu dəyişikliklərin səbəbi təcavüzkar Assuriya və sonra Urartu dövlətlərinin işğalçı hücumları olmuşdur. Çox ehtimal ki, möhtəşəm qalalara malik, döyüş qabiliyyəti gücləndirilmiş qədim Naxçıvan qəbilələrinin də ətraf regionlara yürüşləri olmuşdur.

E.ə. II minilliyin sonlarında Naxçıvan bölgəsində ətrafı müdafiə divarları ilə möhkəmləndirilmiş şəhərlərdən biri də Gilançayın mənsəbində yerləşən Sumbatan-Dizə olmuşdur. Bir neçə əsr ərzində şəhər genişlənərək qala divarlarından xeyli kənara çıxmış və 20 hektara qədər ərazini əhatə etmişdir. Sumbatan-Dizə şəhəri bir neçə dəfə dağıntıya məruz qalsa da bərpa edilmiş və sasanilər dövrünə qədər şəhər kimi mövcud olmuşdur. Əhəmənilər dövründən sonra ikinci dəfə sasanilər zamanı güclü dağıntıya məruz qalmış Sumbatan-Dizə şəhər kimi öz funksiyasını itirmiş və kiçik yaşayış məskəninə çevrilmişdir. Bu qədim şəhər öz adını günümüzə qədər qoruyub saxlamışdır. 1936-cı ildə yaşayış yerinin adı dəyişdirilib Sabir kəndi qoyulsa da ətraf kəndlərin əhalisi onu indiyədək Sumbatan-Dizə adlandırır.

**Sumbatan-Dizə yaşayış yeri.** Sumbatan – Dizə yaşayış yeri Naxçıvan MR Ordubad rayonu ərazisində, Araz çayının qolu olan Gilan çayın sağ sahilində, Sumbatan dağının üzərində və ətəklərində yerləşir. Şərq tərəfindən Gilan çay, qərb tərəfindən isə Yaycı arxı keçdiyindən Sumbatan dağının ətrafı yaşıllıqdır. Dağın şimal və cənub ətəklərindəki bulaqlar və təbii müdafiə sistemi qədim zamanlardan insanların burada məskən salmasına şərait yaratmışdır. Sumbatan dağının üzərində və ətəklərində abidələrin tutduğu ərazi 6-7 ha-ya qədərdir və onların çoxu orta əsrlərdə və sonrakı dövrlərdə güclü dağıntıya məruz qalmışdır. Xüsusən, XIV-XV əsrlərdə dağın şimal-qərb tərəfində kənd salınarkən antik dövrə aid qalanın müdafiə divarları və digər tikililəri dağıdılmışdır. Arxeoloji tədqiqatlar göstərir ki, Sumbatan yaşayış yeri e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərində Sumbatan dağının zirvəsini və yamaclarını əhatə edən kiçik şəhər olmuşdur. Azərbaycan ərazisində bu tip, relyefə uyğunlaşdırılmış şəhərlər çox olmuşdur (1.108). Qəbilə birləş-

mələrinin mərkəzi olan bu yaşayış yerləri, tədricən müdafiə divarları ilə möhkəmləndirilərək şəhərlərə çevrilmişlər (2.51, 191).

**Birinci qazıntı sahəsi.** (3.69-74) Sumbatan - Dizə yaşayış yerində arxeoloji tədqiqat işləri 2008-ci ildə dağın şimal-şərq tərəfində aparılmış və abidənin çoxtəbəqəli olduğu, yaşayış yerinin yaxınlığında kurqanların və plitəli qəbirlərin yerləşdiyi müəyyən edilmişdir. Qazıntının dağın şimal-şərq tərəfində aparılmasına səbəb çökəkliyin Gilançaya tərəf olan hissəsində siklopik divar qalıqlarının izlənməsi oldu. Siklopik divarın tikintisində istifadə olunan iri həcmli dağ daşları elə burada, dağın təkindən qazılıb çıxarılmışdır. Hörgü zamanı ən iri daşlar özülə qoyulmuşdur. Divarın özülü (himi) dərində deyildir. Burada dağın yamacı 3,5 m enində və divarın uzunluğu boyunda üfüqi vəziyyətdə 30 sm dərinlikdə qazılmış və divar işlənmişdir. Divarın eni 3,5 m, salamat qalmış hissəsinin uzunluğu isə 23, 5 m-dir. Müdafiə divarının xarici tərəfinin tikintisində iri həcmli dağ daşlarından istifadə olunmuşdur. Bəzi daşların çəkisi 1,5-2 tona yaxındır. Buna baxmayaraq müdafiə divarının bu tərəfi dağın yamacına tərəf olduğundan dağıntıya daha çox məruz qalmışdır. Divardan uçub tökülən iri həcmli daşlar aşağıdakı divarların da bir hissəsini dağıtmışdır.

Müdafiə divarının cənub hissəsinin içəri tərəfində 50x50 sm ölçülərində taxça olmuş, sonuncu bərpa dövründə daşla işlənərək tutulmuşdur. Taxçaya işlənmiş daşlar uzun müddət oda məruz qaldığından onlar qəhvəyi rəng alaraq çat-çat olmuşdur.

Divarın şimal tərəfində 1,3 m enində giriş yolu olmuş, sonuncu bərpa dövründə daşla işlənərək tutulmuşdur. Həm taxça yerinin, həm qapı yerinin bərpa zamanı işlənərək tutulması, kompleksin təyinatının dəyişdiyini göstərir.

Məlumdur ki, Azərbaycanın qədim, antik dövr və hətta, orta əsr şəhərlərinin böyük əksəriyyəti əvvəlcədən düşünülmüş plan əsasında deyil, yaşayış yerlərinin inkişafı və genişlənməsi nəticəsində yaranmışdır (4.67).

Tədqiqatlar göstərir ki, Sumbatan-Dizə yaşayış yerində qədim sakinlər yaşayış yerinin müxtəlif təyinatlı tikililərində coğrafi şəraiti və relyefi maksimum nəzərə almışlar. Digər tərəfdən relyef özü tikililərin müəyyən plan əsasında salınmasını şərtləndirmişdir. Bu isə tikililərin necə gəldi salınmasının qarşısını almışdır. Ən azından Sumbatan-Dızə şəhərinin mərkəzi hissəsinin – inzibati binanın və ətraf tikililərin Sumbatan dağının relyefinə uyğunlaşdırılaraq tikildiyini arxeoloji tədqiqatlar sübut edir. Beləliklə, Azərbaycanın bəzi Antik dövr şəhərlərinin əvvəlcədən düşünülmüş plan əsasında salındığını ehtimal etmək olar. Arxeoloji ədəbiyyatda antik dövr və orta əsr şəhərlərini əsasən üç qrupa bölürlər. 1. Narınqalası və ətraf tikilliləri olan şəhərlər; 2. Narınqalasız, lakin bir hissəsi müdafiə divarları ilə əhatə olunmuş şəhərlər; 3. Müdafiə divarlarından kənarda tikililəri olmayan şəhərlərdir ki, onları qala da adlandırmaq olar. (5.65-67).

**İkinci qazıntı sahəsi** (6.138-142) Sumbatan dağının zirvəsinin şərqə tərəf çıxıntısı üzərində 300 kv. m sahəni əhatə edir. Dağın bu hissəsi çaya tərəf getdikcə ensizləşir. Burada eni cənub-şərq tərəfdə 1,8 m, şimal-qərb tərəfdə isə 1 m olan daşla işlənmiş divar aşkar edildi. Bu divara perpendikulyar, lakin onu kəsməyən eni 1,3-1,35 m olan daha bir divar vardır. Ola bilsin ki, bu divarlar nə vaxtsa birləşik olmuş, sonradan onların dağın yamacına tərəf olan hissələri uçulub dağılmışdır. Divarın uzunluğu 6,8 m-dir, 0,7-0,8 m hündürlükdə salamat qalmışdır. Qərb tərəfdə ona 0,7 m enində bir divar perpendikulyar işlənmişdir. Qazıntı sahəsinin təqribən ortasında eni 1m olan daha bir divar aşkar edildi. Bu divar əvvəlki divarlardan sonrakı dövrlərə aiddir. Qazıntının şərq tərəfdəki divarından 1,2 m aralı, diametri 2,2 m olan, müxtəlif həcmli daşlarla işlənmiş yarımdairəvi bir tikili aşkar edildi. Qazıntı sahəsində daş qutu və küp qəbirlər aşkar edildi ki, onlardan aşağıda geniş bəhs ediləcəkdir.

**Üçüncü qazıntı sahəsi.** (Xaraba-Gilan arxeoloji ekspedisiyasının 2010-cu il hesabatından) 2010-cu ildə dağın zirvəsində, 480 kv.m. sahədə aparılan arxeoloji qazıntılar burada dini-inzibati təyinatlı tikili kompleksinin olduğunu gostərdi. Kompleks, antik dövrdə, orta əsrlərdə və müasir dövrdə dəfələrlə dağıntıya məruz qalmışdır. Hər dəfə dağıntıya məruz qaldıqdan sonra bərpa olunmuşdur ki, bərpa izləri, xüsusilə kompleksin şərq tərəfində daha aydın görünür. Kompleksin yaşayış yerinə tərəf olan hissəsinə nisbətən, sıldırım qayalığa tərəf olan hissəsindəki divarlarının özülü o dövrdəki yer səthindən 1,8-2,0 m hündürlüyündə (6-8 daş hündürlükdə) salamat qalmışdır. Axırıncı dağıntıdan sonra – təqribən eramızın III əsrində tikintinin təyinatı dəyişdirilmişdir.

Tikilinin əsas divarı şimal-cənub istiqamətində olub, eni cənub tərəfdə 3,0 m, şimal tərəfdə isə 2,8 m-dir. Kontrforslarla təchiz olunmuş bu divarı həm tikilinin, həm də şəhərin müdafiə divarı hesab etmək olar. Bu siklopik divarın mərkəzi hissəsində çəkisi 5-8 tona qədər olan qaya parçaları vardır. Qazıntı zamanı müəyyən edildi ki, müdafiə divarı işlənərkən dağın zirvəsindəki qaya parçalarından səmərəli şəkildə istifadə olunmuşdur. Kompleksin divarları da nəhəng qaya parçalarının üzərində işlənmiş, onların tikintisində bərkidici maddə kimi palçıq məhlulundan istifadə olunmuşdur. 2-3 metrlik divarların hər iki tərəfinə işlənmiş iri daşların arası müxtəlif həcmli daşlarla və palçıqla doldurulmuşdur. Bu zaman ən iri həcmli daşlar yaşayış yerinə tərəf deyil, divarın əks tərəfinə düzülmüşdür. Müdafiə divarının şərq tərəfdən dörd kontrforsu (eni 1,5 m, uzunluğu isə 3 m-ə qədər olduğundan onları rizalit də adlandırmaq olar) qismən salamat qalmışdır. Bu kontrforslar şimal divarındakı kontrforslardan fərqlənirlər, belə ki, şimal divarındakı kontrforslar divardan 50 sm qabağa çıxdığı halda bu kontrforslar 2,5-3,0 m qabağa çıxmış və eyni zamanda rizalit funksiyasını daşımışdır. Kontrforsların (rizalitlərin) arası 1,5 m hündürlüyü olan əlavə divarlarla bağlanmışdır ki, bu da kompleksin müdafiə qabliyyətini əhəmiyyətli dərəcədə artırmışdır.

Əgər nəzərə alsaq ki, Sumbatan dağının bu tərəfi 50 m-ə qədər hündürlüyü olan sərt yamac və yamacın da zirvəyə tərəf olan hissəsi 9-10 m hündürlüyündə sıldırım qayalıqdır, onda kompleksin necə güclü müdafiə qabliyyətinə malik olduğu aydın olar. Müdafiə divarları dağın ətəyində, dağın ortasında və zirvəsinə yaxın yerləşmişdir. Sumbatan dağının quruluşu elədir ki, onun aşağısından zirvəsinə qədər, 15-20 m-dən bir, 2-3 m qalınlığında təbii daş qatı keçir.

Müdafiə divarları da bu daş qatlarına uyğun işlənmiş, eyni zamanda tikinti zamanı bu qaya parçalarından istifadə olunmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi dağın bir çox yerində bu daşların qabağı işlənərək ona divar görkəmi verilmişdir. Maraqlıdır ki, bu bir tərəfli divarların da kontrforsları vardır. Qazıntı zamanı, təqribən e.ə. I minilliyin ortalarına yaxın baş vermiş dağıntıdan sonra müdafiə divarlarının daha da möhkəmləndirildiyi nəzərə çarpır. Belə ki, bərpa zamanı dağın zirvəsindəki axırıncı müdafiə divarının kontrforslarının arası işlənmiş, ehtimal ki, bu zaman divarların hündürlüyü də bir qədər artırılmışdır. Əks-təqdirdə kontrforsların arasının işlənməsi müdafiə qabiliyyətini azaltmış olardı.

Kontrforsların quruluşuna və dağın ətəyindəki bir tərəfli müdafiə divarlarının tikilişinə əsaslanaraq ehtimal etmək olar ki, qayalıqların arasındakı boşluqlar və çıxıntıların ətrafı daşla işlənərək möhkəmləndirilmişdi. Ümumiyyətlə, Sumbatan qalası memarlıq üslubu və tikinti texnikasına görə e.ə. I minilliyin birinci yarısına aid Manna və Midiya qalalarını xatırladır (1, 64-65, tab.13).

Məbəd hesab etdiyimiz tikilidən 15-16 m şimal-şərq tərəfdə 6 qəbir aşkar edilmişdir ki, onlardan dördü küp qəbridir. Bu qəbirlərdən bir daş qutu və bir küp qəbrin təsvirini veririk.

**1N-li qəbir.** Qazıntı sahəsinin cənub-qərb küncündə, uzunluğu 1,6 m, eni 0,9 m olan daş qutu (plitəli) qəbri aşkar edildi. Qəbir cənub-şərq, şimal-qərb istiqamətdədir, kamerası yanı üstdə qoyulmuş 4-5 sm qalınlığı olan sal daşlardan qurulmuşdur. Cənub tərəfdəki divarı və örtük daşları yoxdur. Qəbirdə üç skelet aşkar edildi. Onlardan qəbrin qərb tərəfində, başı şimal-qərb istiqamətində, sol yanı üstdə yarımbükülü vəziyyətdə aşkar edilmiş skelet kişiyə aiddir. Qəbrin şərq tərəfindəki skeletin anatomik vəziyyəti pozulduğundan onun ilkin vəziyyətini müəyyənləşdirmək mümkün olmadı. Skeletin yalnız kəllə sümüyü sonradan vəziyyətini dəyişərək sol yanı üstdə düşmüşdü. Belə ki, kəllənin təpə sümüyünə bitişik muncuq düzümünün aşkar edilməsi kəllənin əvvəlcə sağ yanı üstdə olduğunu göstərir. Ola bilsin ki, qəbir qarət olunarkən kəllə sümüyünün də vəziyyəti dəyişmişdir. Skelet sümüklərinə və muncuqlara əsasən ikinci skeletin qadına məxsus olduğunu söyləmək olar.

Üçüncü skeletin yalnız aşağı ətraf sümükləri, döş qəfəsinin bir hissəsi və kəllənin qapaq hissəsi aşkar edildi. Sümüklərə və onların yanında aşkar edilmiş kiçik üzüklərə əsasən skeletin 10-12 yaşlarında qız uşağına məxsus

olduğunu ehtimal etmək olar. Qəribədir ki, uşaq skeleti kişi və qadın skeletlərinin üstündə, arxası üstdə, ayaqları yanlara açılmış və dizdən bükülü vəziyyətdə dəfn olunmuşdur. Döş qəfəsindən bir qədər aşağıda, qarın nahiyyəsində romb şəkilli dəmir parçası tapıldı. Lakin korroziyaya uğradığından tam formasını və hansı əşyaya aid olduğunu aydınaşdırmaq mümkün olmadı. Ola bilər ki, uşaq oxla vurularaq öldürülmüşdür. Qəbrin tənha olmağı, üç ölünün eyni vaxtda bir qəbirdə dəfn edilməsi və uşaq skeletinin vəziyyəti dəfnin fövqəladə vəziyyətdə keçirildiyini göstərir. Onların Sumbatan qalasının müdafiəsi zamanı həlak olduqlarını da ehtimal etmək olar.

Qəbrin şimal divarına yaxın sarımtıl rəngli şüşə qabın oturacaq hissəsi aşkar edildi. Ona yaxın və ondan bir neçə sm aşağıda muncuqlar tapıldı. Bu muncuqlar ya qadına, ya da qıza məxsus boyunbağıdan düşmüşdür. Onların içərisində iki ədəd dağ billurundan, bir ədəd ağ mərmərdən, dörd ədəd qırmızı əqiqdən, beş ədəd tuncdan, iyirmi yeddi ədəd isə pasta və qlazurdan hazırlanmış muncuqlar vardır. AMEA müxbir üzvü, antik dövr üzrə görkəmli mütəxəssis İ.Babayev qəbirdən çıxan tapıntılara əsasən onun e.ə. I əsrə aid olduğunu müəyyənləşdirdi.

Gilan çayın vadisində mövcud olmuş dəfn adətinin dövrlər üzrə xronoloji ardıcıllıqla öyrənilməsində bu qəbrin mühüm əhəmiyyəti vardır. Belə ki, Gilan çay vadisində indiyədək ilk tunc dövründən e.ə. VI əsrə qədər və IX əsrdən sonrakı dövrlərə aid qəbir abidələri öyrənilmişdi. Antik dövrdə küp qəbirlərlə yanaşı hansı qəbir tiplərinin olması bir qədər şübhəli idi. Sumbatan yaşayış yerində aşkar edilmiş qəbir, daş qutu tipli qəbirlərin son tunc dövründən orta əsrlərin sonunadək davam etdiyini göstərir.

Beləliklə, Naxçıvanın qəbir abidələrində ənənəviliyin tunc dövründən son orta əsrlərə qədər davam etdiyi aydın olur. Bu zaman qəbir kameralarının istiqamətində və qəbrə qoyulmuş avadanlıqda müəyyən dəyişikliklər olmuşdur.

**5 N-li qəbir**. Bu qəbir ilk dəmir dövrünə aid mədəni təbəqənin üzərində aşkar edildi. 12-14 yaşında oğlan uşağına məxsus küp qəbridir. Küpün ətrafında iki cərgə müxtəlif dağ daşları ilə işlənmiş kromlexi vardır (çaydaşlarına da rast gəlinir). Kromlexin ortasına tökülən daş və torpağın vəziyyəti qəbrin üstünün təpəcik formasında olduğunu ehtimal etməyə əsas verir. Belə ki, ətrafına səliqə ilə düzülmüş daşlardan fərqli olaraq bu daşlar koma ilə tökülənə oxşayır. Qəbrin üstü kromlex daşları səviyyəsində təmizləndikdən sonra 24-25 sm dərinlikdə, şərq-qərb istiqamətində yanı üstə qoyulmuş təsərrüfat küpünün gövdəsi aşkar olundu. Çəhrayı gilli küpün boğazı şərq tərəfdədir. Lakin ölü küpə ağız tərəfdən yox, oturacaq tərəfdən qoyulmuşdur. Məlumdur ki, bu küplərin oturacaq və ona yaxın hissəsi ayrıca hazırlanırdı. Ona görə də bu hissənin sındırılması o qədər də çətinlik törətməmişdir. Küpün həm ağzı, həm də oturacağının sındırılmış hissəsi sal daşlarla tutulmuşdu. Lakin sındırılmış hissə daşla tutulub, palçıqla suvansa da, sonradan bəzi yerlər rütubətdən ovulmuş (quzulamış) və bundan küpün içərisinə torpaq

dolmuşdur. Torpaq yağış suları ilə birlikdə daxil olmuşdur. Küpün ağız hissəsinə yaxın yağış sularının gətirdiyi lil qat-qat izlənirdi. Küpün gövdə hissəsində iki deşik açılmışdır. Bu deşiklərdən sızıb tökülmüş torpaq təpəcikləri aşkar izlənirdi. Küpün gövdə hissəsi çat-çat olmuşdu. Bu yəqin ki, zəlzələ zamanı baş vermişdir. Küpün içərisi üst tərəfdəki sınıqlar götürüldükdən sonra təmizləndi.

Ölü bükülü vəziyyətdə, sağ yanı üstdə, başı qərb istiqamətində dəfn edilmişdir. Skelet yaxşı saxlanmışdır. Kəlləsinin arxa tərəfində bir ədəd kasa aşkar edildi. Ağız hissəsi şaquli olub, kənarları sivridir. Çəhrayı gilli bu kasalar antik dövr üçün xarakterikdir. Bu bir ədəd gil qabdan başqa ölünün ətrafında heç bir avadanlıq əldə edilmədi.

Sumbatan yaşayış yerində dörd qəbir tipi aşkar edilib öyrənilmişdir. Hələlik daha çox küp qəbirlərinə rast gəlinmişdir. Arxeoloji ədəbiyyatdan məlumdur ki, islama qədərki Azərbaycan şəhərlərində ən geniş yayılan qəbir tipi küp qəbirlərdir (7.122).

Sumbatan yaşayış yeri və nekropolu Sumbatan dağı, Dəyirman dağının şimal-şərq ətəklərini Rəsul (8.150-154) və Süleyman dərələrini əhatə edir və sahəsi ümumilikdə 20 ha-dan artıqdır. Burada çox təbəqəli qədim yaşayış yeri ilə həmdövr və onun üzərində yerləşən müxtəlif tipli qəbir abidələri, 3,5 enində siklopik müdafiə divarı və s. əlamətlər bu abidənin e.ə. I minillik ərzində şəhər tipli yaşayış yeri olduğunu göstərir. Eyni zamanda Sumbatan yaşayış yerinə yaxın daha bir qalanın - (həmdövr) Dəlmə qalasının mövcudluğu bu ehtimalı daha da möhkəmləndirir.

Sumbatan abidəsinin Naxçıvanın qədim şəhərlərindən birinin qalıqları olduğunu Gilançay vadisində aparılan arxeoloji tədqiqatlar bir daha sübut edir.

**Rəsul dərəsi yaşayış yeri.** (6. 150-154) AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Xaraba-Gilan arxeoloji ekspedisiyasının İkinci dəstəsi (Dəstənin rəhbəri professor Qüdrət İsmayılzadədir) Naxçıvan MR Ordubad rayonunun Sabir kəndi ərazisində, Dəyirman dağının şimalında yerləşən Rəsul dərəsi yaşayış yerində arxeoloji qazıntı işləri aparmışdır. Arxeoloji tədqiqatlar göstərdi ki, Rəsul dərəsi yaşayış yeri çoxtəbəqəli abidədir və e.ə. I minilliyin əvvəllərindən eramızın əvvəllərinə qədər uzun bir xronoloji dövrü əhatə edir. Rəsul dərəsinin mərkəzi hissəsində və cənub tərəfində tunc dövrünə aid keramika nümunələrinə rast gəlinsə də hələlik qazıntı sahəsində bu dövrə aid mədəni təbəqə aşkar edilməmişdir. Bu yaşayış yeri Sumbatan yaşayış yerindən 100-150 m qərbdə yerləşir və əslində qədimdə Sumbatan-Dizə yaşayış yerinin bir hissəsi olmuşdur. Lakin müasir kənd evləri və Yaycı arxı onları bir-birindən ayırdığından onlar ayrı-ayrı abidələr kimi qeydə alınmışdır.

Rəsul dərəsi yaşayış yerində arxeoloji tədqiqatların əsas məqsədi e.ə. I minilliyə aid yaşayış evlərinin plan quruluşunu, memarlıq üslubunu, tikinti

materialları və tikinti texnikasını, təsərrüfatda istifadə olunmuş avadanlığın çeşidini, keyfiyyətini və lokal xüsusiyyətlərini öyrənmək idi.

Qazıntı işləri 560 kv.m-ə qədər sahədə aparılmış, 9 otağı, iki həyəti və daş döşənmiş yolu olan yaşayış evi aşkar edilib öyrənilmişdir. Yaşayış evi kompleksi Rəsul dərəsi yaşayış yerinin cənub-qərbində, Dəyirman dağının döşündə, olduqca əlverişli bir yerdə yerləşir. Yaşayış evi kompleksinin arxası cənuba – Dəyirman dağına, fasadı isə şimala – Rəsul dərəsinə tərəfdir. Yaşayış evinin şimal-qərb tərəfdə, fasadın qarşısında olan həyətinin sahəsi 70 kv.m, cənub-şərq tərəfdə olan həyətinin sahəsi isə 150 kv.m-dir.

Yaşayış evinin şərq-qərb istiqamətində daşla işlənmiş hasarının 18 m uzunluğunda olan hissəsi təmizləndi. Hasar dağ daşı və palçıq məhlulu ilə işlənmişdir. Eni 80 sm olan bu hasar bəzi yerlərdə 1,1 m, bəzi yerlərdə isə 40 sm hündürlüyündə salamat qalmışdır. Təsərrüfat təyinatlı otaq və daha bir məişət otağı kompleksin cənub-qərb tərfindədir. Qazıntının gedişində məlum oldu ki, təsərrüfat və məişət təyinatlı tikililər yaşayış evi kompleksinin cənub tərəfində yerləşmişdir və binanın şimal – fasad tərəfində belə tikililər yoxdur.

Yaşayış evinin giriş yolu kompleksin şərq tərəfindədir, eni 2 m, uzunluğu 7,3 m-dir. Giriş yoluna müxtəlif ölçülü sal daşlar döşənmişdir. Ehtimal ki, giriş yolunun binaya yaxın, cənub tərəfinin üstü örtülü olmuşdur. Döşəmənin daşları qərb divarına yaxın yerlərdə saxlanmamışdır. Mərkəzi hissədə, şərq divarına yaxın qara rəngli gil qazan sınmış və döşəməyə yayılmış vəziyyətdə aşkar edildi. Qazana yaxın, giriş yolunun döşəmə daşları oddan yanıb qızarmışdır. Qeyd etmək lazımdır ki, daş döşənmiş küçə, dalan və həyətlərə e.ə. I minilliyə aid yaşayış yerlərində tez-tez rast gəlinir. Giriş yolu səkkiz və doqquz nömrəli otaqların arasından qərbə (7 nömrəli otağa) tərəf dönür. Təsərrüfat təyinatlı tikililər və məişət otaqları daxili yolun cənub tərəfində, yaşayış otaqları isə şimal tərəfində yerləşmişdir. Giriş yolunun cənub tərəfində, 9№-li otaqla üzbəüz, eni ortada 2,2 m, uzunluğu 4 m olan yarımdairəvi planda işlənmiş bir otaq aşkar edildi. Otağın 70 sm eni olan divarları 80-90 sm hündürlükdə salamat qalmışdır. Qazıntı zamanı otağın təyinatının müəyyən edilməsinə yardım edəcək heç bir əşya tapılmadı. Yaşayış evi kompleksinin ümumi planına və bu otağın əsas yaşayış otaqlarından kənarda yerləşməsinə əsaslanaraq onun təsərrüfat təyinatlı olduğunu qərara aldıq. Ehtimal ki, təsərrüfat əhəmiyyətli bu otaqda odun, kərmə-təzək, müxtəlif alətlər və s. saxlanmışdır.

Yaşayış evinin qərb tərəfindəki otaqlara yaxın, mətbəx olduğu güman edilən yarımdairəvi plana malik tikilinin bir hissəsi və qədim divar qalıqları aşkar edildi. Otağın qalan hissəsi, ətrafı və içərisi tam qazıldı. Cənub tərəfi yarımdairəvi planda işlənmişdir, ortadan eni 55 sm olan daş divarla iki hissəyə bölünmüşdür. Daş divar yarımdairəvi divarın davamı olmayıb sonradan ona bitişik işlənmişdir. Bu səbəbdən də divarın sonradan işləndiyini ehtimal etmək olar. Ehtimal ki, antik dövrə aid tikililərin bir hissəsi yaşayış evi

kompleksinin altında qalmışdır. Bunu qazıntı zamanı tək-tük rast gələnən keramika nümunələri də təsdiq edir.

Otağın cənub divarı yanında və mərkəzi hissəsində, içərisində 5-6 sm qalınlığında kül qatı olan ocaq yeri və gil qazan fraqmentləri aşkar edildi. Ocaq yerləri və qazan fraqmentlərinin tapılması buranın mətbəx olduğunu bir daha təsdiq edir. Maraqlıdır ki, bu otaq yaşayış evinin qərb divarından 1,5-1,8 m aralıda yerləşir. Mətbəxlə yataq otaqları arasında, eni 1,8m, uzunluğu 2,8 m olan dar bir otaq vardır. Bu otağın döşəməsində xüsusi seçilmiş uzunsov çay daşları, təsərrüfat küpünün qalıqları və əhəng suvaqlı, yarımdairəvi işlənmiş möhrə divarın bir hissəsi (eni 18 sm, uzunluğu 1m-ə qədər) aşkar edildi. Otaqdan iri həcmli, kub şəkilli dübək daşı, ondan 70 sm aralı isə qırmızımtıl rəngli, kiçik məsamələri olan dördbucaqlı formada, qalınlığı 12 sm, çuxuru dayaz (3 sm) olan daha bir dübək daşı da tapıldı. Bu tikilinin möhrədən işlənmiş divarının bir tərəfi, 2 nömrəli otağın cənub-qərb küncündə divarların altındadır və həmin otaqlardan əvvəlki dövrə aiddir. 2 nömrəli otaq inşa edilərkən antik dövrə aid tikililərin şərqə tərəf olan divarları uçurulub dağıdılmış və ola bilsin ki, qədim dövrün istifadə üçün yararlı tikililəri bərpa edilərək onlardan təkrar istifadə olunmuşdur.

Hələlik, qazıntı sahəsinin iki yerində - 2 nömrəli otağın cənub-qərb küncünə yaxın və bir də bu otaqla 1 nömrəli otağın birləşdiyi yerdə antik dövrə aid mədəni təbəqəyə rast gəlinmişdir. 1 və 2 nömrəli otaqların birləşdiyi yerdə üç dövrə aid mədəni təbəqə ardıcıllıqla öyrənilmişdir ki, bu haqda aşağıda ətraflı bəhs olunacaqdır.

Yaşayış evinin əsas tikililəri, kompleksin mərkəzində aşkar edilmiş dördbucaqlı planda işlənmiş otaqlardır. Planda bu otaqlar 1, 2, 7 və 9 nömrələri ilə qeyd olunmuşdur. 1nömrəli otaq yaşayış evi kompleksinin şimal-qərb küncündə yerləşir. Divarlarının eni 70 sm-dir, 0,8-1,1 m hündürlüyündə salamat qalmışdır. Qapı yerinin eni 80 sm-dir. Axırıncı bərpa dövründə işlənərək tutulmuşdur. Otağın içərisində ocaq və ya digər təyinatlı heç bir qurğu, yaxud tikiliyə rast gəlinmədi. Cənub-qərb küncündə divara bitişik, eni 1,9 m, uzunluğu 2,4 m olan, daş və gillə işlənmiş, hündürlüyü 65-70 sm olan bir tikili aşkar edildi.

Kompleksin arxeoloji tədqiqi göstərdi ki, ocaq yerləri otaqların cənub-qərb küncündə olmuşdur. Yataq otaqlarının döşəməsinə qalın gil suvaq çəkilmişdir. Yaşayış evinin divarları ən çox 1,0-1,5 m hündürlükdə salamat qaldığından pəncərə və taxça yerlərini izləmək mümkün olmadı. Pəncərə yeri həyətə tərəfki divarda olmalıydı, burada isə otağın divarı yalnız 1 m hündürlüyündə salamat qalmışdır. Qazıntı zamanı yaşayış evi kompleksinin 1-ci və 2-ci otaqlarında torpaq qatı daha 0,5 m qazılaraq götürüldü. Antik dövrə aid keramika fraqmentlərindən və kömür qırıntılarından başqa heç nə tapılmadı. Rəsul dərəsi yaşayış yerinin evləri, ehtimal ki, dağıntıya məruz qaldıqdan az müddət sonra sökülərək tikinti materiallarından başqa yerdə istifadə olunmuşdur. Bu səbəbdən də dam örtüklərinin qalıqlarına rast gəlin-

mədi. 9 nömrəli otağın şimal divarından qərbə tərəf, 0,8 m eni və 1,5 m uzunluğu olan olan daha bir daş divarın qalıqları aşkar edildi. Ehtimal ki, bu divar həyətin hasarıdır. Maraqlıdır ki, yaşayış evinin şimalda və cənubda yerləşən hər iki həyəti hasara alınmışdır. Şimaldakı həyətin daş döşəməsinin qalıqları 9 nömrəli otaqla 7 nömrəli otaqların divarlarının birləşdiyi yerdə 1,8 kv.m sahədə saxlanmışdır. 7 nömrəli otaq 1, 8 və 9 nömrəli otaqların arasında yerləşir. Divarları 1,2-1,3 m hündürlüyündə salamat qalmışdır. Şərq və qərb divarlarının eni 60 sm, cənub divarının eni 70 sm, şimal divarının eni isə 80 sm-dir. Giriş yolu otağın şimal-şərq kücündəndir.

9 nömrəli otaq kompleksin şimal tərəfindəki həyətlə daş döşənmiş yolun arasında yerləşir. Divarları cənub tərəfdə daha yaxşı saxlanmışdır, eni hər yerdə 80 sm-dir. Otağın cənub divarının eni 80 sm, uzunluğu 2,8 m, şimal divarının eni 80 m, uzunluğu 3 m, şərq divarının eni 80 sm, uzunluğu 6,1 m, qərb divarının isə eni 80 sm, uzunluğu 6,75 m-dir. Otağın giriş yolu şərq divarının cənub tərəfindədir. 7 və 8 nömrəli otaqlardan cənuba, 2 nömrəli otaqdan şərqə tərəf olan sahə cənub tərəfdən qövs şəkilli hasara alınmışdır. Tikilinin eni 4,6 m, uzunluğu təqribən 12,8 m-dir. Bu qapalı tikilinin içərisinin qazıntısı zamanı nə bir tikili nə də daş döşəmə aşkar edilmədi. Yaşayış evi kompleksinin cənubdakı daş hasarla bu tikili arasında eni 3 m-ə yaxın və uzunluğu 18 m olan sahəni şərti olaraq kompleksin cənub həyəti adlandırdıq. Bu həyətin bəzi yerlərində iri həcmli sal daşlardan döşəmənin qalıqları aşkar edildi.

Rəsul dərəsi yaşayış yerinin qazıntısı zamanı yaşayış evi kompleksinin qərb tərəfində üç mədəni təbəqə aşkar edildi. 1 nömrəli otağın qərb divarı yanında dairəvi planda işlənmiş bir tikilinin qalıqları 70 sm hündürlüyündə və 2,3 m uzunluğunda saxlanmışdır. Özülü daşdan olan bu möhrə divarın eni 30-32 sm-dir. Arxeoloji qazıntılar nəticəsində məlum oldu ki, dairəvi planda işlənmiş tikilinin altında qərbə tərəf, eni 65 sm olan daş divar vardır. Səliqə ilə işlənmiş bu divar 1 nömrəli otağa yaxın yerlərdə 60-65 sm, qərb tərəfdə isə 90 sm hündürlüyündə salamat qalmışdır. Ondan 50-60 sm şimala tərəf kvadrat formalı çiy kərpiclər koma şəklində tökülmüşdür. Bu kərpiclər yaşayış evi kompleksinin cənub-qərb tərəfində aşkar edilmiş, mətbəx hesab etdiyimiz tikilinin yanında rast gəldiyimiz çiy kərpiclərin eynidir. Daş divarın şərq tərəfi 1 nömrəli otağın tikintisi zamanı dağıdılmışdır, qərbə tərəf 3,4m davam etdikdən sonra şimala tərəf dönür. Rəsul dərəsi yaşayış yerinin ilk mərhələsinə aid olan bu divarın təyinatı haqqında fikir söyləmək üçün qazıntı sahəsi bu hissədə genişləndirilməlidir.

Əvvəlki dövrlərə aid mədəni təbəqələrin qazıntı sahəsinin şərq və cənub tərəflərində aşkar edilməməsi onu göstərir ki, yaşayış yerinin son dövrlərinə aid olan tikililər daha geniş ərazini əhatə etmişdir. Belə aydın olur ki, yaşayış yeri e.ə. I minilliyin əvvəllərindən ta Antik dövrə qədər Sumbatan dağı və onun ətrafında olmuş, həmin vaxtdan isə genişlənərək Rəsul dərəsinin hər yerini tutmuşdur. İlk yaşayış yerinin qəbristanlığı Sumbatan dağı ilə Rə-

sul dərəsi arasındakı təpənin üzərində yerləşmişdir. Maraqlıdır ki, yaşayış yerinin ərazisi genişlənsə də qəbristanlıq olan təpəyə toxunulmamış, oradan bütün dövrlərdə yalnız qəbristanlıq kimi istifadə olunmuşdur. Bu isə qədim Sumbatan şəhərində həyatın fasiləsiz davam etdiyinə daha bir sübutdur.

Rəsul dərəsində aşkar edilmiş yaşayış evi kompleksinin arxeoloji tədqiqi aşağıdakı ilkin elmi nəticələrə gəlməyə imkan verir:

1. Rəsul dərəsində tədqiq olunan yaşayış evi, e.ə. I minilliyə aid Sumbatan-Dizə şəhər tipli yaşayış məskəninin varlı ailəsinə məxsus olmuşdur.

2. Yaşayış evi kompleksində aşkar edilən müxtəlif təyinatlı tikililər, daş döşənmiş yol və həyətlərin yerləşməsi, e.ə. I minillikdə, Naxçıvan ərazisində yaşayış məskənlərinin düşünülmüş plan əsasında salındığını sübut edir.

3. Rəsul dərəsində aşkar edilmiş yaşayış evlərinin və küçələrin quruluşu, memarlıq üslubu Urmiya gölü yaxınlığında yerləşən Həsənli abidəsi ilə çox oxşardır.

4. Yaşayış evi kompleksinin arxeoloji tədqiqi göstərdi ki, Naxçıvan bölgəsində memarlıq üslubu və tikinti texnikası öz ənənələrini min illərlə qoruyub saxlamış və nəsildən-nəslə ötürülmüşdür.

5. Rəsul dərəsi və Sumbatan-Dizə yaşayış yerlərinin qazıntıları nəticəsində məlum oldu ki, Yaycı arxı ilk dəmir dövrünə aid yaşayış yerindən daha əvvəl salınmışdır. Yaycı arxı Araz çayının axdığı istiqamətin əksinə axaraq yüz hektarlarla sahəni su ilə təmin edir. Bu eyni zamanda Gilan çay vadisində mükəmməl süni suvarma sisteminin mövcud olduğunu sübut edir.

Rəsul dərəsi, Sumbatan-dizə, Plovdağ, Dəlmə qalası və Xaraba-Gilan abidələrinin geniş və planlı arxeoloji tədqiqi Naxçıvanın qədim şəhər mədəniyyətinin və memarlığının tədqiqində mühüm addım olacaqdır.

**Dəlmə Qalası.** (9. 76-77) Dəlmə qalası Gilançayın sol sahilində, Dəlmə nekropolundan 700-750 m qərbdə, şimal tərəfindən başqa hər tərəfi sıldırım qayalıq olan dağın zirvəsində yerləşir. Şərq divarının eni 2 m-ə qədərdir. Bir neçə keramika fraqmentlərindən başqa yer üstü materiala demək olar ki, rast gəlinmir. Coğrafi mövqeyini əsas götürsək qala sanki gizlədilmişdir. Qaladan qısa müddətdə, ən çoxu bir əsr istifadə olunmuşdur. Bir təbəqəli abidədir. Qalanın yerləşdiyi dağın cənub ətəklərində dairəvi plana malik iki kürənin qalıqları vardır. Tədqiqat işləri aparılmadığından kürələrin təyinatı haqqında müəyyən bir fikir söyləmək çətindir. Lakin onların qala ilə əlaqədar olduğu şübhəsizdir. Ola bilsin ki, kürələrdə istehsal olunan məmulat bir müddət qalada saxlanmışdır. Ümumiyyətlə, Gilançayın mənsəbində belə qalalar bir neçədir və onların nə məqsədlə inşa olunduğunu yalnız arxeoloji tədqiqatlar nəticəsində dəqiq müəyyən etmək olar.

**Dəlmə nekropolu.** (9. 77-78) Ordubad-Naxçıvan şosse yolunun 20-ci km-dən 450-500 m şimalda, Yaycı arxının sağ sahilində, hündürlüyü 8-10 m olan təpənin üzərində və qərb yamacında yerləşir. Nekropolun yerləşdiyi təpə inzibati bölgüyə görə Culfa rayonunun Yaycı kəndinin ərazisindədir. Su-

yunu Gilançaydan alan Yaycı arxı burada dağın altından açılmış tuneldən keçir. Əraziyə verilən «Dəlmə» adı da buradan götürülmüşdür. Nekropoldan 700-750 m qərbə tərəf, dağın üzərində Dəlmə nekropolunun yaşayış yeri yerləşir.

Nekropol (ümumi sahəsi 616 kv.m) 1983-cü ildə Xaraba-Gilan arxeoloji ekspedisiyası (rəis Q.M.Aslanov) tərəfindən öyrənilmişdir. Nekropolda olan 27 qəbrin 8-i uşaq qəbri idi. Qəbirlərin kameraları müxtəlif ölçülü daşlardan səliqə ilə işlənmişdir. Heç bir qəbirdə örtük daşları saxlanmamışdır. Dördbucaqlı planda olan qəbir kameralarının bir tərəfi nisbətən ensizdir. Qurbangahlar da qəbrə bu tərəfdən işlənmişdir. Qəbirlərin kameralarının ölçüləri müxtəlifdir (0,7- 0,9 m x 1,3 x 1,5). Qəbirlər çox da dərin deyildir (0,5m-dən 1m-ə qədər). Dağın yamacında yerləşdiyindən yağış və qar suları qəbirlərin qərb tərəflərini dağıtmışdır. Dəlmə nekropolunda toxunulmamış qəbrə rast gəlinmədi. Dağılmış qəbirlərdən çox az material əldə edildi. Təpənin üstündə olan qəbirlər nisbətən salamat qalmışdır. Nekropoldan əldə edilən materiallar müxtəlif çeşidli keramika məmulatından, tunc, mis və dəmir əşyalardan və müxtəlif muncuqlardan ibarətdir. Keramika məmulatı içərisində ördək və kəklik fiqurunu imitasiya edən çaynik tipli qablar formaca bir-birinə oxşasalar da, hər birinin ayrıca orijinal xüsusiyyətləri vardır. Bəzi çayniklərin silindirik formalı boğazı, gövdəsinə şaquli vəziyyətdə yapışdırılmış qulpu və qısa açıq lüləsi vardır. Boğazı olmayan çaynik tipli qabların lüləsi uzun olub gövdəsindən bir qədər hündürə qalxmışdır.

Vazaların silindirik formalı altlığı, yarımşar formalı gövdəsi və ağzının kənarına birləşdirilmiş düymə formalı çıxıntısı vardır. Keramika məmulatı içərisində tək qulplu fincanlara, tək qulplu boşqablara, dabanlı oturacağa malik kasalara və yastı gövdəli, düz oturacaqlı və tək qulplu kasalara da rast gəlinir. Adları çəkilən keramika məmulatında heç bir naxış və boya izləri yoxdur. Dəlmə nekropolundan əldə edilmiş keramikadan yalnız təkqulplu kuboklar boyanmışdır. Qabların, əsasən, boğaz və gövdə hissələrində iti bucağı aşağıya olan üçbucaqlar çəkilmiş və içərisi tor şəklində naxışlanmışdır. Analoji formalı və naxışlı qab Xalıkeşan nekropolundan əldə olunmuşdur. Süfrə qabları içərisində düz oturacaqlı, sıxılmış şar formalı gövdəsi və kənara açılan ağzı olan kiçik küpələr də vardır. Bəzilərinin çiyin hissəsində iti ucu qabın boğazına tərəf olan üçbucaqlar çəkilmiş və içərisi tor şəklində naxışlanmışdır.

Metal məmulatına tunc xəncər, tunc ox ucları, tunc bilərzik, tunc asma bəzək və qolbaqlar aiddir. Tunc xəncər bütüntökmə üsulu ilə hazırlanmışdır. Dəstəyi boru formasında olub baş tərəfi üçbucaq kəsmələrlə şəbəkələnmişdir. Tiyəsinin hər iki üzündə üç cızma xətt vardır. Buna oxşar xəncərlər Plovdağ II və Kolanı nekropollarından tapılmışdır. Ox ucluqları iki qanadlı, sulqunlu olub, qanadların arası sulqunun davamı olaraq relyefik formadadır. Asma bəzəklər iki gözlü olub üçbucaq kəsmələrlə şəbəkələnmişdir.

Tunc sırğaların diametri 10 sm-ə qədər olub bir tərəfi qatlanaraq meandır formasında zəncir əmələ gətirmişdir. Tunc məftilin qatlanan yerləri və onların arasında qalan boşluqlar üçbucaq formasındadır. 14 №-li qəbirdən aşkar edilmiş belə sırğalardan birinin üstündə ağ pastadan muncuqlar və bunların arasında yonulub dördbucaqlı şəklə salınmış balıqqulağı muncuqlar var idi. Ümumiyyətlə, Dəlmə nekropolundan əldə edilən muncuqlar əqiqdən, ağ pastadan, sümükdən, balıqqulağından və müxtəlif daşlardan hazırlanmışdır. Dördbucaq formalı, diaqonal deşiyi olan bir muncuğun üzərində hər iki tərəfdən, künclərdə və ortada olmaqla, beş ədəd konsentrik dairə cızılmışdır.

Dəlmə nekropolundan əldə edilmiş tapıntılar Xalıkeşan, Mərdangölü və Muncuqlutəpə nekropolları ilə çox oxşardır. Fincan, kubok və bu kimi süfrə qablarına, tunc xəncər və meandr naxışlı sırğalara analoji materiallara Kolanı nekropolu tapıntıları içərisində də rast gəlinir.

Əldə edilən tapıntıların müqayisəli təhlili Dəlmə nekropolunu e.ə. I minilliyin əvvəllərinə aid etməyə imkan verir.

**Xaraba-Gilan.** (9.185-189; 10. 9-141) Xaraba-Gilan adı orta əsr Kiran şəhəri XIV əsrin əvvəllərində zəlzələ nəticəsində dağıldıqdan sonra onun xarabalıqlarına yerli əhali tərəfindən verilən addır. «Gilan» sözünün etimologiyası haqqında müxtəlif fikirlər vardır. Bu söz «böyük», «möhtəşəm» (ibn əl-Əsir, Həmdullah Qəzvini), «giləklərin yaşadığı yer» (A.Oleari), «gilli torpaq» (C.Rəfiyev), kadusilərin bir qolu olan «gellərin yaşadığı yer» (V.Bartold) mənalarında izah edilir.

«Kiran» sözü isə Türk dilində «sınır» - sərhəd mənasında işlədilir. Xaraba Gilan şəhər yeri və ətraf ərazinin yazılı mənbələrdən məlum olan ən qədim adı Azadır.

IV-X əsrlər erməni dilli mənbələr bu ərazini Qoqtn, Qoltn, Qoxtn, Qoxtan adlandırsalar da ərəb mənbələri bu ərazini öz tarixi adı ilə – Aza-Ciran (Haciran) kimi qeyd etmişdilər. Fars dilli mənbələrdə də vilayət «Azad-Ciran» adı ilə tanınır.

Orta əsrlərdə Naxçıvan bölgəsində yaşayan əhalinin erməni olmamasının səbəblərini əfsanələr və uydurma «tarixi faktlarla» izah etməyə çalışan erməni dilli mənbələr «Nuhun tufanı haqqında əfsanədən», «Midiya çarı Astiaqın ailəsi ilə birlikdə çoxlu Midiyalının I Tiqran tərəfindən buraya köçürülməsi» kimi, M.Xorenatsidən başqa heç bir yazılı mənbədə rast gəlinməyən uydurma məlumatlardan istifadə etmişlər.

Erməni mənbələrində rast gəlinən Qoqtn, Qoxtn, Qoltan adının da tarixi köklərini izah etmək mümkündür. Bibliyada adı çəkilən Qoq və Maqoq tayfaları, Qurani-Kərimdə adı gedən Yəcus və Məcuslar haqqındakı məlumatların bir hissəsi Mete dövrünün hun və yüeci tayfalarına aid məlumatlardır. Qurani-Kərimdə bu adlar onlara dini mənsubiyyətinə görə verilmiş, «yəcus» dedikdə bütpərəstlər, «məcus» dedikdə isə atəşpərəstlər nəzərdə tutulmuşdur. Qoqtn adı da qoqların - yəcusların – yüecilərin yaşadığı yer deməkdir.

Yüecilərin adı «Yacı» («Yaycı» - yazılsa da xalq dilində «yacı» deyilir) kəndlərinin adında indiyə qədər qorunub saxlanmışdır.

Xaraba-Gilan şəhər yeri Gilançayın sol sahilində, Ordubad-Naxçıvan şosse yolunun 17 km-də yerləşir. Təpələr və dağlar üzərində yerləşən şəhər xarabalıqları 100 ha-dan artıq ərazini əhatə edir. Qərb tərəfdə, ətrafdakı dağlardan 70-80 m hündür və üzəri nisbətən düz olan dağın üstündə şəhərin narınqalası yerləşir. Dağın şimal-qərb tərəfindən başqa hər tərəfi sıldırım qayalıqdır. Dağın eni bəzi yerlərdə 300 m-ə çatır. Beləliklə, təkcə narınqalanın sahəsi 30 hektara qədərdir. Qədim yunan şəhərləri akropollarının planına uyğun inşa edilmişdir. Narınqalanın mərkəzi hissəsində qala qarnizonunun yerləşdiyi çoxlu kiçik otaqlardan ibarət kompleks, seçmə daşlarla və əhəngkövrə ilə işlənmiş, şəhər hakimi və qoşun başçılarının olduqları bir neçə iri həcmli kompleks və iki örtülü su anbarı yerləşmişdir.

Su ambarlarından biri bərabəryanlı xaç planında, ikincisi isə dördbucaqlı planda işlənmişdir. Narınqalaya yeganə giriş yolu şəhərin birinci və ikinci məhəllələrinin qalaya yaxınlaşdığı yerdəndir. Şəhərin Narınqalası və məhəllələri dairəvi, dördbucaqlı və altıbucaqlı planda bürcləri olan möhkəm müdafiə divarları ilə əhatə olunmuşdur. Məhəllələr arasındakı çökəkliklərdə karvansara, dəyirman, hamam və b. ictimai binalar yerləşmişdi.

Şəhərin şimal tərəfi sıldırım qayalar olduğundan burada müdafiə divarlarına istehkamlara və başqa müdafiə qurğularına ehtiyac olmamışdır.

Şəhərin müdafiə sistemində yaxınlıqdakı kiçik qalalar və qarovul məntəqələri də mühüm rol oynamışdır. Xaraba-Gilan yaxınlığındakı beş kəndin adında saxlanmış «Dizə» sözü sasanilər dövründə (III-VII əsrlər) «qala» mənasında işlənmişdir. Məhz bu ərazilərdə şəhərin forpostları yerləşirdi.

Şəhər dağlıq ərazidə və böyük çaylardan aralı yerləşdiyindən onun olduqca mürəkkəb su təchizatı sistemi olmuşdur. Ən böyük su anbarı şəhərin şimal-şərqində Narınqalaya yaxın yerləşmişdir. Burada eni 500 m-dən artıq olan dərənin qabağı 20-22 m enində daşdan işlənmiş bəndlə kəsilmişdir. Bu bənd həm də müdafiə divarı rolunu oynamış, onun şərq tərəfdəki axırıncı bürcündən divarın üstü ilə Narınqalaya yol olmuşdur. Bu su anbarı Düylünçaydan çəkilmiş arx vasitəsilə və yağış suları ilə doldurulurdu.

Şəhər içməli su ilə, əsasən kəhrizlər vasitəsilə təmin olunurdu. Bu kəhrizlərdən ikisinin ayağı indi də şəhər yerindən cənubda və qərbdə bulaq kimi üzə çıxır. Su itkisinə yol verməmək üçün şəhər daxilində saxsı borulardan (güyüm) istifadə olunmuşdur.

Şəhərin memorial abidələri onun şimalında və şimal-şərqindəki iki dağın üzərində yerləşmişdir. Burada Naxçıvan memarlıq məktəbinin X-XIII əsrlərə aid ən gözəl nümunələri toplanmışdır.

1980-ci ildə tədqiq edilmiş 1 №-li türbə tikinti materialları, tikinti texnikası və memarlıq üslubuna görə Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu (1162 il) və Möminə Xatun (1187-ci il) türbələrinin oxşarıdır. Burada giriş yollarının və dekorativ kərpiclərin forma və ölçülərinin eyni olması, üzlük-

lərin eyni motivlərlə naxışlanması, həndəsi naxış motivlərinin eyni olması və quruluşlarındakı ümumilik bu türbənin də dahi memar Əcəmi Əbubəkr oğlu tərəfindən yaradıldığını söyləməyə imkan verir. Konstruktiv həllinə, həcminə, kaşılardan istifadəsinə və naxışlarına görə 1 №-li türbənin XII əsrin 70-ci illərində inşa edildiyini söyləmək olar.

Beləliklə, dahi memar Əcəmi Əbubəkr oğlunun yaradıcılığında 25 illik fasilə olmamışdır. O, 1162-ci ildən sonra Kiran şəhərində, Naxçıvan Memarlıq məktəbinin inciləri sırasına daxil olan iki türbə inşa etmişdir. İndiyədək belə hesab olunurdu ki, Naxçıvan memarlıq məktəbi ustaları yalnız mürəkkəb kompozisiyalı qülləvari türbələrin yaradıcıları olmuşlar. Lakin Xaraba-Gilanda aşkar edilmiş 2 №-li türbə sübut edir ki, Naxçıvan memarları orijinallığı ilə seçilən kub şəkilli türbələr də inşa etmişlər. Xaraba-Gilanda tədqiq edilmiş kubşəkilli türbənin korpusu xaricdən yonulmuş daşlarla, içəridən isə bişmiş kərpiclərlə tikilmişdir. Türbənin portalı şərq tərəfdədir. Portalın mərkəzində çatma tağla tamamlanan girişi olmuşdur. Çatma tağın kənarları divara bitişik sütun formasında dekorativ bişmiş kərpiclərlə işlənmişdir. Portalın hər iki tərəfindəki pannolar dekorativ bişmiş kərpiclərdən və fayans kaşılardan ibarət həndəsi ornamentlərlə bəzədilmiş, kənarları isə bişmiş kərpiclərlə relyefik düzülüşdə işlənmişdir. Analoji ornamentlərə Marağadakı Kabud günbəzində (1196-1197), Termez hakimlərinin sarayında (XII əsr) və Buxaradakı Bayan Qulu xan türbəsində (XIV əsr) rast gəlinir.

Türbənin daxili iki qatdan ibarət olmuşdur. Alt qat, yəni sərdabə, ortasında dayaq sütunu olan tağ formasındadır. Marağadakı Qırmızı günbəzin (1148-ci il) və Naxçıvandakı Möminə Xatun (1187) türbəsinin sərdabələri eynilə bu quruluşdadır. Türbənin üst qatı ziyarətgah olmuşdur. Maraqlıdır ki, 2 №-li türbə təkcə memorial abidə olmamış, həm də kult xarakteri daşımışdır. Bunu üst qatın daxildən zəngin ornamentlərlə bəzədilməsi də göstərir. Türbənin qazıntısı zamanı üzərində «Məhəmməd», «Bəkr», «Əli» yazılmış dördbucaqlı və altıbucaqlı dekorativ kərpiclər tapılmışdır. Bu türbədə Orta Asiya memarlığının təsiri nəzərə çarpsa da, ümumiyyətlə, Naxçıvan Memarlıq məktəbinin ənənələrinə uyğun inşa edilmişdir.

Türbənin kimlərə məxsus olmasını hələlik müəyyən etmək mümkün olmamışdır. Lakin əldə olunan arxeoloji materiallar bu türbələrdə səlcuqlar və Hülakilər dövründə məşhur dövlət adamlarının, onların qohumlarının dəfn olunduğunu söyləməyə əsas verir.

1927-ci ildə Xaraba-Gilan türbələrindən Tiflisdəki Qafqaz muzeyinə 80 pud (1280 kq) ağırlığında üzərində ərəb əlifbası ilə kitabə olan iki ədəd ağ mərmərdən qəbir daşı aparmış arxeoloqun verdiyi məlumata görə bu daşlardan biri Səlcuq hökmdarı Məlik şahın anasının, ikincisi isə xalasının qəbir daşları olmuşdur.

1979-cu ildə, dəfinə axtaranlar tərəfindən dağıdılmış sərdabədə, ayaqlı taxta tabutlarda, mumiyalanmış, geyimləri, silahları və bəzəkləri ilə birlikdə

dəfn olunmuş səkkiz ölü aşkar edilmişdi. Onlardan ikisi dəfndən qabaq öldürülmüş qadınlara məxsus idi. Skeletləri tədqiq edən antropoloq R.Qasımova onların avropoid, neqroid və monqoloid irqlərinə mənsub olduğunu müəyyən etmişdi. Beləliklə, sərdabədə hansısa bir dövlət başçısının və ya sərkərdənin dəfn olunduğuna şübhə yoxdur. Ehtimal ki, bu Hülakü hökmdarlarından biri olmuşdur. Çünki qədim dəfn adəti islamı qəbul etməmiş (və ya etmiş) monqol əsilzadələrində XIV əsrə qədər saxlanmışdı. Tarixi məlumatlara görə Hülakü xan 1265-ci ilin fevral ayında öldüyü zaman «monqol adətinə görə onunla birlikdə qəbrə, gənc gözəl qızlar da qoyulmuşdu».

Naxçıvan memarlıq məktəbinin inciləri olan memorial abidələr öz konstruktiv həllinə, memarlıq üslubuna, ornamentlərinin mürəkkəbliyinə və zənginliyinə görə Azərbaycan və dünya memarlığında xüsusi yer tutur. Bu məktəbin təsiri təkcə Azərbaycanda deyil, Yaxın Şərqin bir çox şəhərlərində özünü göstərmişdir.

Xaraba-Gilanın ictimai tikililəri içərisində II və III məhəllələr arasındakı çökəklikdə yerləşən karvansaranı xüsusilə qeyd etmək olar. Karvansaradan şərq tərəfdə şəhər hamamlarından biri aşkar edilmişdir. Burada kənarları oyma üsulu ilə naxışlanmış daş vannalar və dağ daşları və əhəngkövrə (kirəc) ilə işlənmiş su çəni vardır. Karvansara kompleksinin fundamenti qaya üzərində dağ daşları ilə işlənmişdir. Bərkidici maddə kimi gildən istifadə olunmuşdur. Qapı və pəncərə başları bişmiş kərpiclərlə çatma tağ formasında işlənmişdir. Karvansaranın divarları 3 m. h-yə qədər daşla, sonra isə çiy kərpiclərlə (27x27x8 sm) işlənmiş, saman qarışıq gillə suvandıqdan sonra əhənglə ağardılmışdır. Divarların eni 60 sm-dən 2 m-ə qədərdir.

Türbələrdə, hamamlarda, müdafiə divarlarında və şəhərin başqa iri həcmli tikililərində olduğu kimi burada da antiseysmik tədbir kimi özülün yuxarı divarlara nisbətən bir neçə dəfə enli götürülməsi üsulundan istifadə olunmuşdur. Karvansara kompleksi yataq, məişət və təsərrüfat otaqlarından, anbarlardan, tövlə və həyətdən ibarətdir. Kompleksin otaqlarının hamısı dördbucaqlı plandadır. Yataq otaqlarının xarakterik cəhətləri bu otaqlarda küfləsiz təndir, buxarı və otağın bir tərəfində dördbucaqlı planda tikilmiş safanın olmasıdır.

Məişət otaqları həm bir-birilə əlaqəlidir, həm də onlardan təsərrüfat otaqlarına keçid vardır. Yataq və məişət otaqlarının pəncərə və qapı yanları, karnizləri əhəngdən tökmə üsulu ilə müxtəlif formalarda hazırlanmış həndəsi və nəbati ornamentlərlə, ərəb əlifbası ilə yazılmış dualarla bəzədilmişdi.

Xaraba-Gilanda aşkar edilmiş XII-XIII əsrlərə aid karvansara kompleksi öz mürəkkəb planına və konstruktiv həllinə görə Azərbaycanın orta əsrlər şəhər tipli karvansaralarının ən yaxşı nümunələrindən biri hesab edilə bilər.

Xaraba-Gilan tikililərində əsasən odda yaxşı bişirilmiş 20x20x5 sm və 19x19x5 sm ölçülərindəki kərpiclərdən istifadə olunmuşdur.

Xaraba-Gilan şəhər yerindən müxtəlif və zəngin keramika əldə edilmişdir. Buraya şirli və şirsiz qablar, müxtəlif fiqurlar, güyümlər, memarlıq nü-

munələri və s. daxildir. Şirsiz qablar içərisində IX-XI əsrlərə aid süfrə qabları da vardır. XI əsrdən başlayaraq kiçik həcmli küplərin bir qismi istisna olunmaqla qalan bütün süfrə qabları şirlə örtülürdü.

Şirsiz kasa, boşqab və fincanlar qırmızı gildən, küpə və vazalar isə boz və yaşıl-boz rəngli gildən hazırlanır və açıq-boz rəngli anqobla örtülürdü. Təsadüfi hallarda qırmızı rəngli anqobla örtülmüş qablara da rast gəlinir.

Şirsiz qablar içərisində mətbəx qabları xüsusi yer tutur. Bu qablar Azərbaycanın orta əsr şəhərləri üçün xarakterik olub, zaman-zaman az dəyişikliyə uğramışdır. Mətbəx qablarının ən xarakterik olanları qırmızı və ya yarımşar formalı gövdəsi, petləvari qulpları və yumru oturacağı vardır. Qazanlar, əsasən cızma üsulu ilə dalğavari və düz xətlərlə naxışlanmışdır.

Xaraba-Gilandan əldə olunmuş, həcminə görə ən böyük şirsiz qablar küplər (pifoslar) və küzələrdir. Onların əksəriyyəti qırmızı gilli olub üzərinə açıq boz rəngli anqob çəkilmişdir. Küzələr, əsasən xırda dişli alətlə cızma üsulu ilə parallel və dalğavari xətlərlə naxışlanmışdır. Təsərrüfat küplərinin naxışları daha zəngindir. Onlar cızma, yapma, basma üsulları ilə müxtəlif ornamentlərlə və gövdəsinin bir neçə yerindən keçən relyefik kəmərlərlə bəzədilmişdir.

Xüsusi təyinatlı qablara sferokonusları, şamdanları, çıraqları və üçayaqları göstərmək olar. IX-X əsrlərə aid sferokonuslar, əsasən şar gövdəli və ya yumurta formalı olurdular. XI-XIII əsrlərdə əvvəlkilərə nisbətən iri gövdəsi və biz oturacağı olan bədii tərtibatlı sferokonuslar geniş yayılmağa başlayır. Bunların üzəri zəngin naxışlanmışdır. Ornamentlər, əsasən relyefik formada, yapma üsulu ilə yerinə yetirilmişdir. Bu ornamentlər içərisində romblara, dairələrə, altıləçəkli güllərə, üzümün stilləşdirilmiş dənəsinə, çiçəyinə və yarpağına da rast gəlinir. Analoji yapma bəzəyi olan küplərdən və sferokonuslardan üzüm məhsullarının (xüsusən də şərabın) saxlanması və daşınmasında istifadə olunmuşdur. Elə sferokonuslar var ki, bütünlüklə üzüm salxımı formasında hazırlanmışdır. Beləliklə, orta əsr sferokonuslarından müxtəlif məqsədlər üçün (əl qumbarası kimi, civə və başqa təhlükəli maddələrin, şərab, sirkə və doşabın daşınmasında) istifadə olunmuşdur.

Xüsusi təyinatlı qablar içərisində çıraqlar və şamdanlar ayrıca qrup təşkil edirlər. Lüləli çıraqlar neftlə, açıq, kasa formalı çıraqlar isə yağla işləmişdir. Şirsiz qablar içərisində ləyən və aftafalar da vardır.

Xaraba-Gilandan əldə edilmiş keramikanın təqribən beşdən bir hissəsini şirli qablar təşkil edir ki, bunların da əksəriyyəti süfrə qablarına aiddir (boşqablar, kasalar, vazalar, duz qabları və s.).

XI-XIII əsrlərdə Yaxın Şərqin Müsəlman ölkələrində, o cümlədən Azərbaycanda da, şirli saxsı məmulatının istehsalı geniş vüsət almışdı. Şirli qabların böyük əksəriyyəti qırmızı gilli olub üzəri həndəsi, nəbati naxışlarla və yazılarla bəzədilirdi. Şirli qablardan başqa Kiran şəhərində (Xaraba-Gilanda) yüksək keyfiyyətli fayans qablar da istehsal olunurdu. Müxtəlif formalı və zəngin naxışlı bu qabların bir qisminin eksport olunduğuna şübhə

yoxdur. Kiranda (Xaraba-Gilanda) istehsal olunmuş qablara Naxçıvan və Ani şəhərlərindən əldə edilmiş keramika məmulatı içərisində rast gəlinir.

Qırmızı gilli qabların çox hissəsi yaşıl şirlə örtülür və «qraffito» üsulu ilə naxışlanırdı. Ağ anqob üzərindən rəngsiz (şəffaf) şirlə örtülən qablar da vardır. Rəngsiz şir qabların müxtəlif rənglərlə, istənilən ornamentlərlə bəzədilməsinə şərait yaradırdı. Bu zaman bütün rənglərdən və rəng çalarlarından istifadə olunmuşdur.

Şirli qablar içərisində kaşılı keramikanı-fayans məmulatını xüsusi qeyd etmək lazımdır. Qırmızı rəngli gilin kaşı ilə əvəz olunması yüksək keyfiyyətli şəffaf qlazurun əldə olunmasına şərait yaratmışdı. Kaşılı keramikanın, fayans qabların naxışlanmasında «qraffito» üsulundan istifadə olunmuşdur. Əsas naxışlama üsulu fırça ilə müxtəlif boyaların salınması və bundan başqa yapma bəzəklər və relyefik naxışlardır.

Fayans qablar (Kaşı məmulatı) şirli keramikanın təqribən 30%-ni təşkil edir ki, bu da onun Xaraba-Gilanda geniş yayıldığını göstərir. Boşqab tipli, naxışına və formasına görə eyni olan bir sıra qablar həm qırmızı gildən, həm də kaşıdan (fayansdan) hazırlanmışdır ki, bu da onların yerli istehsal olduğunu sübut edir. Xaraba Gilandan əldə edilmiş fayans qabların çeşidini və keyfiyyətini nəzərə alsaq burada fayans istehsalının müəyyən dövrlərdə Rey və Sultanabaddan geri qalmadığını söyləmək olar.

Xaraba-Gilanda metalişləmə sənəti də inkişaf etmişdi. Hələlik ən çox məişətdə işlənən əşyalar və bəzək əşyaları aşkar edilmişdir ki, bunların da böyük əksəriyyəti misdən və tuncdan hazırlanmışdır. Onlardan bilərzikləri, həlqə formalı üzükləri, bayquş və kərtənkələ formalı fiqurları, güzgüləri, qapı tutacaqlarını, zəngləri və s. göstərmək olar. Metal məmulatının hazırlanmasında tökmə, kəsmə, döymə, ştamplama və başqa üsullardan istifadə olunmuşdur.

Xaraba-Gilanda tapılmış bəzək əşyalarının əksəriyyətini şüşə bilərziklər və muncuqlar təşkil edir. Muncuqlar əqiqdən, lacıvərddən, kəhrəbadan, pastadan, gildən və sümükdən hazırlanmışdır. Müxtəlif texniki üsullarla hazırlanan bəzək əşyalarının çox hissəsi yerli istehsalın məhsuludur.

Numizmatik materiallar şəhərin iqtisadi, siyasi və mədəni həyatının öyrənilməsində mühüm rol oynamaqla yanaşı dövrün müəyyən edilməsində də əsas vasitədir. Xaraba-Gilan şəhər yerindən b.e.ə.II əsrdən XV əsrə qədər uzun bir xronoloji dövrü əhatə edən sikkələr əldə edilmişdir. Bunların içərisində II Mitridatın (b.e.ə.123-88-ci illər) arşaki gümüş drahması, imperator Honorinin (395-423-cü illər) qızıl solidi, IX-X əsrlərə aid ərəb xəlifələrinin qızıl sikkələri, XI-XII əsrlərə aid anonim Bizans sikkəsi və çoxlu miqdarda Eldəgizlərin (XII-XIII əsrlər) mis pulları, Şirvanşahların (XII əsr), I Məsudun (1180-1193-cü illər) mis sikkələri, Hülakuların mis və gümüş sikkələri vardır. Numizmatik materiallar içərisində üzərində «Kiran» yazılmış mis sikkədə vardır ki, bu da şəhərdə zərbxananın olduğunu sübut edir.

Xaraba-Gilandan əldə edilmiş epiqrafik materiallar içərisində aramey, sasani, fars, türk dillərində və naməlum dildə yazı nümunələri vardır. Bu yazılar yarımqiymətli və adi daşlar, keramika və metal əşyalar üzərində oyma üsulu ilə və qara tuşla yazılmışdır. Memarlıq yazılarını xüsusi qeyd etmək lazımdır. Bunlar seriya ilə hazırlanmış kəc plitələrdən, dekorativ bişmiş kərpiclərdən memarlıq köynəyi üzərində yığılmış mətnlərdən, kaşıdan hazırlanmış yazı nümunələrindən və daş üzərindəki kitabələrdən ibarətdir.

Xaraba-Gilanda aşkar edilmiş maddi mədəniyyətin qədim kökləri Plovdağ (e.ə.III-II minilliklər) və Muncuqlutəpə (e.ə.I minilliyin birinci yarısı) abidələrindən başlayır. Antik dövrdən şəhər kimi formalaşan Kiran XIV əsrin əvvəllərində süqut etdikdən sonra bu mədəniyyət öz ənənəvi inkişafını Aza (XIV-XV əsr) və Ordubad (XVI əsrdən sonra) şəhərlərində davam etdirmişdir.

## ƏDƏBIYYAT:

1. Вилаят Керимов. История развития оборонительного зодчества Азербайджана. Баку, 2007.
2. В.Г.Алиев. Культура эпохи Средней бронзы Азербайджана.1991.
3. Azərbaycanda arxeoloji tədqiqatlar.2008. Bakı, 2009.
4. И.А.Бабаев. Города Кавказской Албании. Баку, 1990.
5. М.С.Гаджиев. Древний город Дагестана. Москва, 2002.
6. Azərbaycanda arxeoloji tədqiqatlar.2009. Bakı, 2010.
7. Rəşid Göyüşov. Azərbaycan arxeologiyası. Bakı, 1986.
8. Q.İsmayılzadə, B.İbrahimli. Rəsul dərəsində arxeoloji tədqiqatlar. AAT.2009. Bakı, 2010.
9. Bəhlul İbrahimli. Dəlmə qalası. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008.
10. Б.И.Ибрагимов. Средневековый город Киран. Баку-Москва, 2000.

## ARCHAEOLOGICAL MONUMENTS OF THE VALLEY OF THE GILANCHAY (I millenium B.C. – XIV century)

**Bahlul İbrahimli**

### Summary

Excavations in the area of monument Sumbatan have illustrated that pycnidium interments were located compactly and existed simultaneously with stone boxes and ground interments. So, burial monuments along the extent of River Gilanchay give valuable information about history and culture of Nakhchivan’s ancient-era tribes.

Dalma necropolis is on the hill 8-10 in height and to its W slope, on the right side of Yayji aryk, near Sabirkand v., Ordubad r.

The discoveries found in Dalma necropolis are very alike with Khaly-Keshan, Mardangolu and Munjuglutapa necropolises. A cup and this type of tablewares, bronze dagger and ear-rings of meander design analogical materials are come across among Kolani necropolis discoveries as well. According to the comparative materials analysis of discovered materials Dalma necropolis is related to the beginning of I millenium B.C.

Kiran is the name of site of ancient town Kharaba-Gilan, which situated in the eastern part of Nakhchivan on the left bank of Araks river. There were found relics of bronze and iron periods – necropolises Plovdag, Mundzhuglutepe, Dalma, Khaly-Keshan in this place. These relics display a long and continuos lofe existing here.

A lot of ceramics of IX-XIII centuries were also found of Kiran. The dwelling, defensive, worship and public buildings of the Middle Ages including the mausoleum – one of remarkable creation of the founder of Nakhchivan architectural school Adjami Ibn Abu Bakr were investigated.

Archaeological finds and writing sources showed that Kiran was large handicraft and commercial town connected with Transcaucasian and with many towns of Near East and the Central Asia.

**Keywords: Nakhchivan, Gilanchay, Sumbatan-diza, Rasul darasi, Kharaba-Gilan.**

## АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ ДОЛИНЫ РЕКИ ГИЛАНЧАЙ (I тыс. до н.э. – XIV век н.э.)

**Бахлул Ибрагимли**

### Резюме

С конца II и начала I тысячелетия до. н. э. на территории Нахчыванского региона появляются города с мощной оборонительной системой. Одним из таких городов являлся Сумбатан-Диза, расположенный на естественной возвышенности. В центральной части поселения обнаружены останки храма, к которому ведет дорога шириной 2,2 м , выложенная каменными плитами. Вблизи храма находились плиточные могилы и кувшинные погребения.

Недалеко от поселения Сумбатан-Диза, на вершине горы расположена крепость Далма. Некрополь Далма находится у подножья горы.

Городище Хараба-Гилан (развалины средневекового города Киран) находится в 17-ти км от города Ордубада. В естественно-географическом отношении эта часть Ордубадского района представляет собой неширокую горную долину, входяшую в систему Зенгезурского хребта Малого Кавказа. Город Киран неоднократно упоминается в разнообразных письменных источниках.

Об этимологии названия города в научной литературе имеются разные мнения.

Источники позволяют говорить, что город был не только укреплением и центром большого района, но и крупным ремесленным и торговым пунктом, связанным не только с южнокавказскими и собственно азербайджанскими, но и со многими городами Ближнего Востока и Средней Азии.

**Ключевые слова: Нахчыван, Гилан чай, Сумбатан-диза, Расул дараси, Хараба-Гилан.**



Sumbatan. Məbədin qalıqları.



Sumbatan. Müdafiə divarının qalıqları.



Rəsul dərəsi. Yaşayış evinin qalıqları.



Rəsul dərəsi. Yaşayış evinin qərb tərəfi.




Sumbatan. Məbəddə aşkar edilmiş daş.



Xaraba-Gilanda aşkar edilmiş amulet.

# ARPAÇAY VADİSİNİN QƏBİR ABİDƏLƏRİ

**Zeynəb Quliyeva**
zeynebquliyeva@rambler.ru
(AMEA Naxçıvan Bölməsi)

**Açar sözlər: Naxçıvan, Arpaçay vadisi, qəbir abidələri, Şərur, nekropol.**

Naxçıvan bölgəsinin qərbində yerləşən Arpaçay vadisində yaşayan qədim tayfaların mədəni-iqtisadi əlaqələrinin öyrənilməsində yaşayış yerləri ilə bərabər, qəbir abidələri də mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Yaycı, Şortəpə və Dizə kurqanları daha əhəmiyyətlidir.

Şərur rayonunun Aşağı Yaycı kəndinin yaxınlığında yerləşən Yaycı nekropolu monoxrom boyalı qabları ilə xarakterizə edilir. Bu ərazidə su anbarı tikilərkən qəbirlərin bir qismi dağıdılmışdır. Ərazi ilə tanış olan tədqiqatçılar həmin qəbirlərin daş qutu tipli olduğunu ehtimal edirlər (2, s. 138). Əldə edilən materialların bir qismi Şərur rayon Tarix Diyarşünaslıq Muzeyinə verilmişdir. Bu tapıntılar başlıca olaraq keramika məmulatından ibarətdir. Bu keramika məmulatı iki qrupa ayrılır: I qrupa küpə tipli qablar; II qrupa isə badya tipli qablar daxildir.

Küplərin üzəri qırmızı rənglə örtülmüş, yuxarı hissəsi həndəsi fiqurlarla və quş şəkilləri ilə bəzədilmişdir. Həndəsi fiqurların arasında bəzən ilan rəsmi də çəkilmişdir. Küpənin üzərində çəkilmiş üçbucaqların içərisi və xarici kiçik ölçülü dairələrlə naxışlanmışdır. Qabın ağız kənarı xaricə doğru çıxıntılıdır, aşağı hissədə qara ləkələrin olmasına baxmayaraq naxışları aydın görünür. Boğazı iki sıra dalğavari xətlə, ağız hissəsi isə qırıq xətlərlə naxışlanmışdır. Bu tip küplərdən adətən taxıl və digər məhsullar saxlamaq üçün istifadə edilirdi. Aşağı Yaycı nekropolundan tapılan küpün hündürlüyü 54,5sm, oturacağı 21 sm, gövdəsi 44,5 sm, ağzının diametri 26,5 sm-dir. Ağzının kənarı bir tərəfdən sınsa da ümumi forması mühafizə olunmuşdur (inv.№ 45).

İkinci küpə hazırlanma, rəngləmə və naxışlama üsuluna görə əvvəlki ilə eyniyyət təşkil etsə də, həcminə görə fərqlənir. O, bir qədər kiçik ölçülüdür. Qabın hündürlüyü 16,5 sm, gövdəsinin diametri 17,5 sm, oturacağının diameti 8,5 sm, ağzının diametri isə 10 sm-dir. Məişətdə istifadə olunan bu qabın ağzının kənarı üç yerdən azacıq qırılmış, gövdəsinə qara ləkələr düşmüşdür. Boğaz hissəsindəki həndəsi fiqurların içərisi dalğalı xətlərlə doldurulmuşdur (inv.№ 47).

Yaycı nekropolundan tapılan badya tipli qablar da maraqlıdır. Badyalardan biri küpələr kimi qırmızı boya ilə boyanmış, üzəri qara rənglə və həndəsi fiqurlarla bəzədilmişdir. Geniş gövdəyə, qalın divara malik olan bu qabın ağzının kənarı iki sıra dalğavari və maili çəkilmiş qısa xətlərlə əhatə olunmuşdur. Gövdəsi qalın xətlə çəkilmiş ellipsvari ornamentlə bəzədilmiş, naxışların arasına dairələr, onların içərisinə isə dalğavari xətlər çəkilmişdir.

Tədqiqatçılar dalğavari xətləri suyun rəmzi hesab edirlər. Qabların üzərinə çəkilən şəkillər qədim tayfaların dini inancları ilə əlaqədardır. Aşağı Yaycı nekropolundan əldə edilən bu qab e.ə. III minilliyə aid edilir. Qabın hündürlüyü 19sm, gövdəsi 27,5 sm, oturacağının diametri 13 sm, ağzının diametri isə 18sm-dır (inv.№ 46).

İkinci badya da eyni formada naxışlanmış, ağız kənarı qısa xətlərlə əhatə olunmuş, qabın üzərindəki üçbucaqların aşağı hissələri kiçik dairələrlə tamamlanmış, içərisi isə üfüqi və şaquli xətlərlə bəzədilmişdir. Badyanın ağzının diameri 27,5 sm, gövdəsi 35 sm, oturacağı 16 sm, hündürlüyü 21,5 sm-dir (inv.№ 44). Yeri gəlmişkən demək lazımdır ki, Yaycı nekropolunun qabları mürəkkəb ornamenti və özünəməxsus çalarları ilə digər qablardan fərqlənirlər. Arxeoloqlar tərəfindən Yaycı qabları üzərindəki quş və heyvan rəsmləri qədim Şumer incəsənəti ilə əlaqələndirilmişdir. Bu əlaqələr Arpaçay vadisi əhalisinin ticarətini, mədəni-iqtisadi əlaqələrinin genişliyini, xüsusi ilə cənubdan gələn türkdilli tayfalardan əxz etdiyi mədəniyyətin Cənubi Qafqaza ötürülməsində vasitəçi rolunu oynadığını düşünməyə əsas verir.

Şortəpə nekropolu Şərur rayonunun İbadulla kəndi yaxınlığında eyniadlı yaşayış yerinin cənub-qərbində yerləşir. Təsadüf nəticəsində aşkar edilən bu abidə 1939-cu ildə kanal qazılarkən dağıdıldığından qəbirlərin forması və dəfn adətləri haqqında konkret fikrə gəlmək mümkün olmamışdır. Buna baxmayaraq nekropoldan əldə edilən monoxrom boyalı qablar əhalinin yaşayış tərzi, mədəni əlaqələri və inancları haqqında müəyyən təsəvvür yaratmağa imkan verir. Buradan tapılan küpə, çölmək və kasa tipli qablar Naxçıvan Dövlət Tarix Muzeyinə təhvil verilmişdir (2, s.132). R.Göyüşov buradan tapılan qabların Azərbaycanda Boyalı qablar mədəniyyətinin erkən nümunələri olduğunu qeyd etmişdir. Bu keramika nümunələrinə əsaslanaraq o, qeyd etmişdir ki, Azərbaycanda Boyalı qablar mədəniyyətinin nümunələri ilk dəfə Naxçıvan ərazisində aşkar edilmişdir (3, s. 50).

Şortəpə nekropolundan tapılan arxeoloji materiallar küpə, kasa, badya, parç, çölmək və s. qab fraqmentlərindən ibarətdir. Şortəpə keramikası tərkibinə görə müxtəlifdir. Küpələrdən birinin üzəri qırmızı boya ilə örtülmüş, Arpaçay vadisinin əksər keramikasında olduğu kimi qara rənglə naxışlanmışdır. Üzəri paralel dalğavari və həndəsi üçbucaqlarla bəzədilmişdir. Hündürlüyü 26 sm, gövdəsinin diametri 12,5 sm-dir (inv.№ 104).

İkinci küpənin üzəri bəzəksizdir, boğazı ilə gövdəsini birləşdirən qulpa və novşəkilli çıxıntılı ağıza malikdir. Hündürlüyü 27,4 sm, gövdəsi 21,3 sm, oturacağı 3,7 sm-dir (inv.№ 105).

Üçüncü küpə qara və qonur rəngdə olub gövdəsindən üç sıra dairəvi xətlər keçir. Hündürlüyü 16 sm, gövdəsinin diametri 17 sm-dir (inv.№ 106).

Dizə nekropolu Şərur rayonunun Dizə kəndindən qərbdə, Ovçulartəpəsi yaşayış yerinin şimalında yerləşir. 1969-cu ildə təsərrüfat işləri görülərkən təsadüf nəticəsində aşkar edilən bu qədim abidə erkən tunc dövrü abidəsi kimi təqdim olunmuşdur. Üzə çıxarılan iki qəbirin materiallarını toplayan R.

Göyüşov onlardan birini hərtərəfli tədqiq etmişdir. Divarları çay daşlarından palçıqla hörülmüş qəbir kamerası şərq-qərb istiqamətində olub tağşəkilli örtüklə tamamlanmışdır. Döşəməsi palçıqla suvanmış və kamerada iki nəfər dəfn olunmuşdur. Skeletlər bükülü vəziyyətdə olmuş başları isə cənub tərəfə qoyulmuşdur (4, s. 84).

Dizə nekropolundan əldə edilən keramika nümunələri özünəməxsus üsulla hazırlanmış parç və banka tipli qablardan ibarətdir. Xaricdən anqoblanmış və cilalanmış bu qabları tipinə görə tədqiqatçılar üç yerə bölürlər:

I tip parçların armudu formalı gövdəsindəki batıq oturacağına və ağzına doğru genişlənir. Gövdəsinin mərkəzində erkən tunc dövrünün qablarına məxsus olan yarımşarşəkilli qulp var.

II tip parçlar geniş ağızlı və yastı oturacaqlıdır. Yarımşarşəkilli qulpu şarşəkilli gövdəsinin yuxarı hissəsində yerləşir.

III tipə banka tipli qabı aid etmək olar. Yastı oturacaqlı bu qabın parçlardan fərqli cəhəti gövdəsinin silindrik olmasıdır. Dizə nekropolunda yerləşən ikinci qəbir digəri qədər şanslı olmamışdır. Belə ki, tamamilə dağıdıldığından bu qəbirdən təkcə bir ədəd parç tipli qab aşkar edilmişdir. Qabarıq gövdəsi, yastı oturacağı, üzərinin cilalanması ilə birinci qəbirdəki keramikanı xatırladan bu qabın ağzının kənarı uc tərəfdə dəyirmiləşmiş, xaricə doğru qatlanmışdır, boğazı konusvaridir.

Dizə nekropolundan əldə edilən materiallar Kür-Araz mədəniyyətinin ilk və orta mərhələsini əks etdirdiyindən tədqiqatçılar nekropolu e. ə. IV minilliyin sonu - III minilliyin əvvəllərinə aid edirlər (4, s. 84).

Dizə kurqanı Arpaçayın sağ sahilində, dağ silsiləsinin vadiyə yenən hissəsindədir. Dizə kurqanının keramika nümunələri naxışlanma üsuluna görə Yaycı materiallarına bənzəyir. Bunu küpənin timsalında aydın görmək olar. Uzunboğaz formada olan küpənin üzəri qırmızı boya ilə örtülmüş, qara rənglə naxışlanmışdır. Ağız hissəsində iki sıralı dalğavari xətlər çəkilmiş, boğazdan gövdəyə qədər çəkilmiş enli xətlərin araları qısa xətlər və dairələrlə doldurulmuşdur. Boğazla gövdə arasında iki sıralı dalğavari çəkilən xətlərdən aşağıda iki sıra üçbucaq çəkilmiş, onların da araları dalğavari qısa xətlərlə doldurulmuşdur. Yaycı qablarında olduğu kimi Dizə keramikasi üzərində çəkilmiş üçbucaqların sonları dairələrlə tamamlanmış, hər üçbucağın xaricində quş rəsmləri verilmişdir. E. ə. III minilliyə aid edilən küpənin hündürlüyü 20 sm, gövdəsi 15 sm, ağzının diametri 6,5 sm, ortasının diametri isə 7 sm-dir (inv.№ 122).

İkinci küpə də əvvəlkində olduğu kimi qırmızı rəngdə boyanmış, qara rənglə bəzədilmişdir. Ağız hissəsinə qısa xətlər çəkilmiş, boğaz hissədə beş yerdən üç sıra şaquli xətt çəkilmişdir. Gövdə hissədə dalğavari xətt, həndəsi üçbucaqlar çəkilmiş onların sonluqları və içəriləri kiçik dairələrlə doldurulmuşdur. Küpənin hündürlüyü 9,5 sm, gövdəsi 13 sm, oturacağı və ağzının diametri 7 sm-dir (inv.№ 120).

Dizə kurqanından tapılan kasalar qabarıq formalıdır. Birinci kasanın üzəri qırmızı boya ilə örtülmüş, başqa qablardan fərqli olaraq çəhrayı rənglə naxışlanmışdır. Ağız kənarında qısa xətlər, gövdəsində çoxluq təşkil edən qövsvari naxışların izləri cüzi şəkildə qalmışdır. Qabın hündürlüyü 11 sm, ağzının diametri 18,5 sm, gövdəsi 22 sm, oturacağının diametri isə10 sm-dir (inv.№ 119).

Digər kasa, küplərdə olduğu kimi qırmızı rəngə boyanmışdır. Ağız hissəsində qısa qara xətlər, bir qədər aşağıda isə üç sıra qövsvarı xətlər çəkilmişdir. Təqribən e. ə. III minilliyə aid edilən bu kasanın hündürlüyü 10 sm, ağız kənarı 14,5 sm, gövdəsi 16 sm, oturacağının diametri 8,5 sm-dir (inv.№ 120).

2008-ci ildə "Şərur arxeoloji ekspedisiyası" tərəfindən yenidən tədqiq olunan Dizə nekropolunda 3 kurqanın və çoxlu sayda yer üstündən yalnız daş düzümləri ilə seçilən qəbir abidələrinin qeydə alınması və orta tunc dövrünə aid boyalı qab qırıqların aşkar edilməsi abidə haqqında yeni fikir deməyə imkan verdi. Dizə kurqanları e. ə. III-II minilliklərə aid edilmişdir. Arpaçay vadisinin qədim tayfalarının həyat tərzi, mədəni iqtisadi əlaqələri və mənəviyyatını öyrənmək baxımından çox əhəmiyyətlidir. Qazıntılar nəticəsində diametri təqribən 8 m olan kurqanın mərkəzində daşlardan qurulan qəbir tədqiq edilmiş, üst qatlardan 1 kəsici alət, aşağı qatdan 1 ədəd küpə əldə edilmişdir, hansı ki, həmin qab Orta Tunc dövrünün erkən mərhələsinə aid edilir(1, s. 32).

Ümumiyyətlə, Arpaçay vadisində orta tunc dövrü qəbir abidələri - Yaycı, Dizə və Şortəpə nekropolları vadinin kompleks tədqiqində mühüm əhəmiyyət kəsb edir və təxminən eyni dövrü əks etdirirlər. Bu abidələrdə keramika məmulatları çoxluq təşkil etməklə bərabər, həm də boyanma, naxışlama üsuluna görə bir-birini təkrar edir (qırmızı rənglə boyama, qara rənglə naxışlama, həndəsi fiqurların və dalğalı xətlərin üstünlük təşkil etməsi və s.).

Arpaçay vadisində yerləşən qəbir abidələrindən tapılan materialların müqayisəli təhlili aşağıdakı nəticələri çıxarmağa imkan verir:

1. Boyalı Qablar mədəniyyətinin vətəninin qədim Naxçıvan diyarı olması haqqında tədqiqatçıların fikrini bir daha təsdiq edir.

2. Arpaçay vadisi tayfalarının Yaxın Şərq ölkələri ilə sıx əlaqəsi olduğunu isbatlayır.

3. Ən başlıcası yerli mədəniyyətin mövcud olması fikrini irəli sürməyə imkan verir. Bu fikri bir neçə faktla əsaslandırmaq mümkündür. Bütövlükdə Arpaçay vadisinin arxeoloji materialları bir-biri ilə bənzərdir. Bunu ən azından keramika məmulatında izləmək olur.

## ƏDƏBİYYAT:

1. Aşurov S., Baxşəliyev V. Şərurda arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. "Xəzər Universiteti" nəşriyyatı, Bakı, 2008, s. 29-32.

2. Baxşəliyev V. B . Azərbaycan arxeologiyası. Bakı, Elm, 2007, 240 s.
3. Göyüşov R . Azərbaycan arxeologiyası . Bakı, İşıq , 1986 , 186 s .
4. Novruzlu Ə. İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri, Bakı. Elm, 1993, 184 s.
5. Marro C., Bakhchaliyev V., Ashurov S. Excavations at Ovçular Tepesi (Nakhchivan, Azerbaijan). First preliminary report. the 2006-2008 seasons. Anatolia Antiqua, 2009, XVII, p. 31-87.
6. Seyidov A, Baxşəliyev V, Mahmudova V. Xələc. Bakı, Elm, 2010, 218 s

## FUNERAL MONUMENTS OF A VALLEY OF THE RIVER ARPACHAY

**Zejnab Kulieva**

### Summary

In studying of economic attitudes, stories and cultures of the ancient tribes invading a valley of the river Arpachay, along with multilayered settlements great value have also funeral monuments.

Burials of a necropolis of Ashagy Jajdzhy have yielded a rich stuff among which the ceramics which is rich with ornaments of different motives and plots precipitates out coloured.

Necropolis of Shortepe is known for the early copies coloured ceramics. They are presented, basically, jugs, bowls and pot.

Found by R.Gejushevym in 1969 in a necropolis of Diza burial, with a dome-shaped bridging and a twin burial place, is while a unique funeral ceremony of this kind.

In 2008 in a the necropolis of Diza some barrows which are falling into III-II to millenia BC are studied

Results of researches of funeral monuments of a valley of the river Arpachay have once again confirmed the assumption that ancient Nakhchivan was the culture of nativeland coloured ceramics.

**Keywords: Nakhchivan, valley of Arpachay, funeral monuments, Sharur, necropolis.**

# ПОГРЕБАЛЬНЫЕ ПАМЯТНИКИ ДОЛИНЫ РЕКИ АРПАЧАЙ

**Зейнаб Кулиева**

## Резюме

В изучении хозяйственных отношений, истории и культуры древних племён, заселявших долину реки Арпачай, наряду с многослойными поселениями большое значение имеют также погребальные памятники.

Погребения некрополя Ашагы Яйджы дали богатый материал, среди которого выделяется крашеная керамика, которая богата орнаментами разных мотивов и сюжетов.

Некрополь Шортепе известен своими ранними экземплярами крашеной керамики. Они представлены, в основном, кюпами, кувшинами, чашами и казанами.

Обнаруженное Р. Геюшевым в 1969 году в некрополе Диза погребение, с куполообразным перекрытием и парным захоронением, является пока единственным погребальным обрядом такого типа.

В 2008 году в некрополе Диза изучены несколько курганов, относящихся к III-II тысячелетиям до н.э.

Результаты исследований погребальных памятников долины реки Арпачай ещё раз подтвердили предположение о том, что родиной культуры крашеной керамики являлся древний Нахчыван.

**Ключевые слова: Нахчыван, долина реки Арпачай, погребальные памятники, Шарур, некрополь.**




Şəkil 2. Şortəpədən aşkar olunmuş boyalı küpələr

# MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ 2008-2010-CU İLLƏRDƏ APARILMIŞ ARXEOLOJİ TƏDQİQAT İŞLƏRİ

**ƏKBƏR BƏDƏLOV**
akbarbadal@mail.ru
(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu)

**Açar sözlər: Naxçıvan, arxeologiya, Meydantəpə, yaşayış yeri, keramika.**

AMEA Arxeologiya və Etnoqrafiya İnstitunun Antik Naxçıvan arxeoloji ekspedisiyası 2008-2010-cu illərdə Meydantəpə antik dövr yaşayış yerində planlı və sistematik tədqiqat işləri aparmışdır (1.75-77; 2.179-182). Meydantəpədə aparılan tədqiqatlar Azərbaycanın qədim dövlətləri olan Atropatenanın və Albaniyanın tarixini, iqtisadiyyatını və mədəniyyətini öyrənmək baxımından mühüm əhəmiyyətə malikdir. Əldə olunan arxeoloji tapıntılar eyni zamanda Naxçıvanın antik dövr tarixinin hələlik öyrənilməmiş problemlərin bir çoxunun həllində mühüm rol oynayacaqdır.

Meydantəpə olduqca əlverişli coğrafi mövqedə - Naxçıvan şəhərindən 14 km şimalda, Naxçıvan çayın sol sahilində, "Cin dərəsi"nin Naxçıvan çayla birləşdiyi yerdə, çox da hündür olmayan təpənin üzərində yerləşmişdir (3.297-298). V.Əliyevin mülahizələrinə görə, vaxtılə Cəhri çay Meydantəpənin yaxınlığından keçərək Naxçıvan çayla birləşmişdir. Hal-hazırda Cəhriçay öz əvvəlki məcrasını dəyişərək abidədən bir qədər aralıda Naxçıvan çaya tökülür. Lakin H.Q.Qədirzadənin fikrincə Cəhriçayın özü yox, ondan çəkilən arx Meydantəpənin yanından keçmişdir ki, bu da sonralar Cəhri çayın buradan axmasına dair mülahizələri doğurmuşdur.

Meydantəpə yaşayış yerinin ərazisi 2 ha-dan artıqdır. Naxçıvan-Şahbuz avtomobil yolu çəkilərkən abidənin mərkəzi hissəsi dağıdılmışdır. Arxeoloji tədqiqat işləri Meydantəpənin şimal-qərb tərəfində 400 kv.m. sahədə aparılmışdır. Nəticədə antik dövrün sənətkarlığını, məişət həyatını və memarlığını əks etdirən zəngin materiallar toplanmışdır. Qazıntılar Meydantəpənin möhtəşəm müdafiə divarları ilə əhatə olunduğunu, mudafiə divarlarından kənarda da müxtəlif təyinatlı tikililərin yayıldığını göstərdi. Müdafiə divarı 30 m uzunluğunda (1,5 m enində) və 2 m hündürlüyündə təmizlənmişdir. Abidənin bu hissəsində madafiə divarlarının istiqaməti Meydantəpənin mərkəzi hissəsinin bütünlüklə müdafiə divarları ilə əhatə olunduğunu göstətir. Mudafiə divarları çay daşı, möhrə və çiy kərpiclə işlənmişdir. Aşkar edilən müdafiə divarının dördbucaqlı formada, bir-birindən 5-6 m aralı kontrforsları vardır. Qazıntı sahəsinin qərb tərəfində, müdafiə divarına perpendikulyar, 3m uzunluğunda divar işlənmişdir. Divarın eni 0,8 m, hündürlüyü müdafiə divarına birləşən yerdə 1,1 m, şimal tərəfdə isə 0,5 m-dir. Şimal tərəfi uçduğundan ilkin vəziyyətdəki uzunluğunu müəyyən etmək mümkün olmadı.

Mudafiə divarı ilə bu divarın birləşdiyi yer dördkünc, səki formasında işlənmişdir. Bu divarın qurtaracağında, ona şərq tərəfdən bitişik daha bir divar işlənmişdir. Divarın uzunluğu 1,8 m, eni 0,6 m-dir, nə məqsədlə işləndiyini hələlik deмək çətindir. Eyni ilə həmin istiqamətdə, müdafiə divarına paralel, eni 0,6 m, ondan 2,5 m aralı daha bir divar aşkar olundu. Divar şərqə tərəf getdikcə müdafiə divarına yaxınlaşır (1,3 m). Divarın 4 m-ə qədər bir hissəsi nə vaxtsa dağıntıya məruz qalmışdır.

Qala divarının ikinci kontrforsu qarşısında, ona paralel olan divara şimal tərəfdən, sahəsi 1,3-1,4 m olan platforma işlənmişdir.

Müdafiə divarının kontrforsları bir-birinə simmetrik deyildir. Ola bilsin ki, bu asimmetriklik bərpa zamanı əmələ gəlmişdir. Qala divarı ilə ona paralel divar daha üç yerdə enləri 0,6m, 0,4 m və 0,5 m olan divarlarla birləşir. Beləliklə, bu iki divar arasında qapalı otaqlar əmələ gəlir ki, bunun da nə məqsədlə edildiyi hələlik müəyyən edilməmişdir. Ehtimal etmək olar ki, qala divarından kənarda aşkar edilən tikililər qala dağıldıqdan sonra işlənmişdir və onlar qaladan kənardakı yaşayış evləri ilə əlaqədardır. Gələcəkdə Narınqalada aparılacaq qazıntılar bir çox məsələlərə aydınlıq gətirəcək və daha zəngin arxeoloji tapıntılar verəcəkdir.

Arxeoloji qazıntılar zamanı Meydantəpənin qədim əhalisinin təsərrüfat həyatını, sənətkarlığını və məişətini xarakterizə edən çoxlu maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Tapıntılar, əsasən tikinti qalıqlarından, müxtəlif saxsı məmulatından, osteoloji qalıqlardan, daşdan hazırlanmış əmək alətlərindən və müxtəlif materiallardan hazırlanmış bəzək əşyalarından ibarətdir.

Osteoloji qalıqlar, əsasən ev hayvanlarına məxsus onurğa, qabırğa və ətraf sümüklərindən ibarətdir.

Saxsı qablar içərisində torpağa basdırılmış iri həcmli təsərrüfat küpləri diqqəti cəlb edir. Küplərdən bəzilərinin içərisi əhəng məhlulu ilə suvanmışdır. Ehtimal ki, bu kuplərdə saxlanılan ərzaq məhsullarını qurdlanmaqdan və gəmiricilərdən qorumaq məqsədilə edilmişdir. Əvvəlki illərdə aparılmış arxeoloji qazıntılar zamanı yalnız sınmış yerlərinin əhənglə təmir olunduğu iri həcmli təsərrüfat küplərinə rast gəlmişdik. Saxsı qablar içərisində orijinal formalı və yüksək keyfiyyətlə hazırlanmış kasa, bardaq, küpə, bokal və s. qablar da vardır. Keramika məmulatı içərisində, xaricdən gətirilmə qırmızı və çəhrayı gilli, bəzilərinin üzərində boya ilə naxışları olan nümunələrə də rast gəlinir.

Metal məmulatı içərisində dəmirdən hazırlanmış üzük diqqəti cəlb edir. Üzüyün üst hissəsi hamar olub 0,4 sm qalınlığındadır. Antik dövrdə bu cür üzüklərdən həm bəzək, həm də möhür kimi istifadə olunmuşdur. Korroziyaya uğradığından möhür yerindəki təsviri izləmək mümkün deyil.

Meydantəpə yaşayış yerində aşkar edilmiş tikinti qalıqlarının və maddi mədəniyyət nümunələrinin müqayisəli təhlili abidənin şəhər tipli yaşayış yerinin qalıqları olduğunu söyləməyə imkan verir. Yaşayış yerinin mərkəzi

hissəsinin (Narınqalanın) müdafiə divarları ilə əhatə olunması bu ehtimalı daha da gücləndirir. Çox güman ki, burada ilk vaxtlar kiçik yaşayış yeri olmuş, tədricən genişlənərək şəhər tipli yaşayış məskəninə çevrilmişdir (4. 67).

Meydantəpə yaşayış yerinin nekropolu hələlik aşkar edilməmişdir. Keçən əsrin 80-ci illərində, Meydantəpədən şərqə tərəf Naxçıvançayın sağ sahilində təsərrüfat işləri zamanı təsadüfən bir neçə torpaq qəbir aşkar olunmuşdu. Bu qəbirlərdən aşkar edilən şüşə qab qalıqları və muncuqlar onların e.ə. I minilliyin sonuna aid olduğunu, qəbirlərin Meydantəpəyə yaxın yerləşməsi və yaşayış yeri ilə eyni dövrə aid olması isə onların yaşayış yerinə aid olduğunu göstərir.

Meydantəpədə 2008-2010-cu illərdə aparılan arxeoloji tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan vermişdir:

1. Aparılan arxeoloji qazıntılar Meydantəpənin qala tipli şəhər yeri olduğunu və Naxçıvanın dəmir dövrü abidələrinin memarlıq ənənələrini qoruyub saxladığını bir daha təsdiq etdi. Qədim ənənələr müdafiə divarlarının (kontrforslar, tikintidə iri həcmli daşlardan istifadə olunması, divarların arasının doldurulması və s.) və müxtəlif təyinatlı tikililərin plan quruluşunda aydın nəzərə çarpır.

2. Abidədə bir neçə tikinti dövrünün olması, qədim bərpa izləri və mədəni təbəqələrin stratiqrafiyası, antik dövrdə, regionda yaşayış yerlərinin dağıdılması ilə nəticələnən vaxtaşırı müharibələrin baş verdiyini söyləməyə imkan verir.

3. Müdafiə divarı yanındakı tikililərin vəziyyəti, aşkar edilmiş təsərrüfat küplərinin əksəriyyətinin əhənglə təmir olunması, Meydantəpənin güman ki, eranın əvvəllərində baş vermiş hansısa müharibədə tamamilə dağıdıldığını və ondan sonra uzun müddət bərpa olunmadığını və regionun uzun tənəzzül dövrü keçirdiyini ehtimal etməyə əsas verir. Bu zaman dulusçuluq və digər sənətkarlıq sahələri ya çox zəifləmiş, ya da öz fəaliyyətini bir müddət dayandırmışdı. İstehsalın zəifləməsi sənətkarların müharibədə həlak olması və ya onların sürgünə aparılması ilə də bağlı ola bilərdi.

Müasir tikililər Naxçıvan şəhərinin qədim dövrlərini, xüsən də Antik dövrünü öyrənməyə imkan vermir. Bu baxımdan Meydantəpə abidəsinin arxeoloji tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Çox güman ki, Meydantəpə antik Naxçıvanın forpostlarından biri olmuşdur. Ona görə də bu tip abidələrin tədqiqi Naxçıvan şəhərinin tarixi və mədəniyyəti, təsərrüfat həyatı və sənətkarlılığı haqqında dəyərli məlumatlar əldə etməyə imkan verir.

## ƏDƏBİYYAT:

1. Meydantəpə. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008.
2. Azərbaycanda arxeoloji tədqiqatlar.2008. Bakı, 2009.
3. Azərbaycanda arxeoloji tədqiqatlar.2009. Bakı, 2010.
4. И.А.Бабаев. Города Кавказской Албании. Баку, 1990.

# ARCHEOLOGICAL EXCAVATIONS ON SETTLEMENT MEJDANTEPE IN YEARS 2008-2010

**Akbar Badalov**

## Summary

In 2008-2010 archeological excavations have been made on northern and northwest parts of settlement Mejdantepe. Here have been found some premises economic and a household purpose, ceramics, instruments of labour made of firm breeds of stones and osteological remains.

As a result of archeological excavations on a northwest part of a hill where the settlement is located, the part of a powerful defensive wall in length of 30 m, the width 1,2 m framing the central part of a hill is found.

Investigation of a monument and the analysis of the found stuffs allow to assume that Mejdantepe was settlement of city phylum.

The antique period of the city of Nakhchivan it is archaeological studied very poorly as ancient occupation layers are under modern constructions, on it research the fortified city of Mejdantepe (an outpost of Nakhchivan) has the special value.

**Keywords: Nakhchivan, archaeology, Mejdantepe, settlement, ceramics.**

# АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИЕ МЕЙДАНТЕПЕ В 2008-2010 ГГ

**Акбар Бадалов**

## Резюме

В 2008-2010 гг. археологические раскопки были проведены на северной и северо-западной частях поселение Мейдантепе. Здесь были обнаружены несколько помещений хозяйственного и бытового назначения, керамика, орудия труда изготовленная из твёрдых пород камней и остеологические останки.

В результате археологических раскопок на северо-западной части холма, где расположено поселение, обнаружена часть мощной оборонительной стены длиной 30 м, шириной 1,2 м, обрамляющей центральную часть холма.

Изучение памятника и анализ обнаруженных материалов позволяют предположить, что Мейдантепе являлся поселением городского типа.

Античный период города Нахчыван археологически изучен очень слабо, поскольку древние культурные слои находятся под современными постройками. Поэтому исследование городище Мейдантепе (форпоста Нахчывана) имеет особое значение.

**Ключевые слова: Нахчыван, археология, Мейдантепе, поселение, керамика.**

MARAQLI TAPINTILAR
INTERESTING EXPLORATIONS
ИНТЕРЕСНЫЕ НАХОДКИ

# NAXÇIVANDA KƏHRİZLƏR: YARANMASI VƏ İNKİŞAF YOLU

**Hacı Fəxrəddin Səfərli**
hacifexreddin@yahoo.com.tr
(AMEA Naxçıvan Bölməsi)

**Açar sözlər: Naxçıvan, kəhriz, su, Şərur, Ordubad.**

Azərbaycanın digər bölgələrində olduğu kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazisində də əhali qədim zamanlardan suvarma və içməli suya olan tələbatını ödəmək üçün digər vasitələrlə yanaşı kəhriz sistemlərindən də istifadə etmişdir. Ə.Quliyev doktorluq dissertasiyasında Naxçıvan kəhrizlərindən geniş bəhs etmişdir. 2008-ci ildə nəşr etdirdiyi «Naxçıvan kəhrizləri» kitabında o Naxçıvanın kəhriz sistemləri, onların tarixi, su sərfi, keyfiyyəti, bu su sistemləri üzərində yaradılan memarlıq abidələri və s. haqqında məlumat vermişdir (6; 7).

Naxçıvan bölgəsində mövcud olan kəhrizlərə xüsusi tədqiqat həsr etmiş sənətşünaslıq namizədi R.Salayeva kəhrizləri iki qrupa ayırır: birinci qrup kəhrizlərdə əsas su daşıyıcı qalareyalar çayların məcrasının altından keçir, bu kəhrizlərdə atmosfer təzyiqindən asılı olaraq suyun səviyyəsi qalxa bilər. Xalq arasında bu cür kəhrizləri «bel kəhrizi» adlandırırlar. Alimin fikrincə ikinci qrup kəhrizlərdə isə əsas sudaşıyıcı qalareya çayların məcrasından kənarda yerləşir. Bu kəhrizlərdə debit az dəyişilir. Bunu qeyd edən alim Azərbaycanda olan kəhrizlərin əksəriyyətini ikinci qrupa daxil olan kəhrizlər kimi xarakterizə edir (15, 183).

Bütün vaxtlarda yaşayış məskənləri üçün yer seçiləndə insanlar bir sıra amilləri nəzərə almışlar. Bu amillər içərisində təbii-coğrafi şərait, ərazinin relyefi əsas yer tutmuşdur. Həmçinin, bu zaman salınacaq yaşayış yerinin su mənbələrinə yaxın olması mütləq nəzərə alınmışdır. Məhz bu səbəbdən də bölgədə qədim və orta əsrlərdə yaradılan yaşayış məskənləri əsasən böyük və kiçik çayların vadisində salınmışdır. Naxçıvan bölgəsinin kəskin kontinental iqlimi, həddindən artıq isti keçən yay mövsümü, soyuq keçən qış ayları Arazboyu və dağətəyi ərazilərdə yerləşən yaşayış məskənlərində əhali özünün oturaq həyatını, daimi yaşayışını təmin etmək üçün kəhriz sistemlərindən istifadə etmişdir. Çünki bölgədəki çaylar və digər su mənbələrinin çoxu qışda donduğundan, yayda bəziləri quruduğundan kəhrizlər daha etibarlı su mənbəyi hesab edilmiş və onlardan istifadəyə üstünlük verilmişdir. Məhz bu səbəbdən də etnoqraf alim Ş.Quliyevin fikrincə, Naxçıvan

bölgəsi Azərbaycanda kəhriz suvarma şəbəkəsinin ən qədim və geniş yayılmış ərazisinə çevrilmişdir (8, 30).

Naxçıvanda müəyyən səbəblərdən hər tərəfdən susuz torpaqlarla əhatə olunmuş yaşayış məntəqələri də salınmışdır. Bu tip yaşayış məntəqələrində suvarma kəhrizlərin köməyi ilə həyata keçirilmişdir. Əhalinin içməli suya olan tələbatı da kəhrizlər vasitəsi ilə ödənilmişdir. Kəngərli rayonunun Xıncab kəndinin cənubunda yerləşən və orta tunc dövrünə (II minillik) aid olan Batankənd yaşayış yerində arxeoloji tədqiqat işləri aparan AMEA-nın müxbir üzvü V.Baxşəliyev yazır ki, yaşayış yerinin su qaynaqlarından uzaqda yerləşməsi olduqca maraq doğurur. Ehtimal ki, qədim dövrdə yeraltı suların düzənliklərə çıxarılması üçün xüsusi hidrotexniki qurğulardan istifadə olunmuşdur (2, 83-87). Arxeoloqun verdiyi bu məlumata əsasən Naxçıvanda, bütövlükdə Azərbaycanda kəhrizlərin meydana gəlməsini daha qədim dövrə, orta tunc dövrünə, eramızdan əvvəl II minilliyə aid etmək olar.

Naxçıvanın şərq ərazilərinin uzun müddət iqtisadi-mədəni mərkəzi olmuş Kiran şəhərinin olduqca mürəkkəb və çoxşaxəli su təchizatı sistemi olmuşdur. Tədqiqatçı B.İbrahimlinin fikrincə, şəhərin içməli su ilə təmin olunması, əsasən, kəhrizlər vasitəsilə həyata keçirilmişdir. Kiran şəhərində həyatın bir neçə əsr bundan əvvəl dayanmasına baxmayaraq qədim kəhrizlərdən ikisi indi də fəaliyyət göstərir. Kəhrizlərdə suyun paylanması (kəhrizdən qollar ayrılması), dövrü üçün yüksək standartlarda hazırlanmış güyümlər gil borular vasitəsilə həyata keçirilmişdir.

X əsrdə yaşamış ərəb səyyah və coğrafiyaşünası İbn Havqəlvin «Kitab əl-məsalik və-l-mamalik» əsərində yazdığına görə IX-X yüzilliklərdə Naxçıvan şəhərində bir sıra təsərrüfat sahələrinin, o cümlədən tarlaların, bostanların, bağların, əkin sahələrinin suvarılmasında şəhərdən bir az kənarda axan Araz və Naxçıvan çaylarının suyu ilə bərabər kəhriz və bulaq sularından da istifadə olunurmuş. XVII yüzillik müəllifi Məhəmməd Müfid Mustofi Yəzdi 1676-cı ildə yazdığı «Müxtəsər Müfid» əsərində qeyd edir ki, Ordubad şəhərində əla keyfiyyətli suyu olan 72 kəhriz fəaliyyət göstərir. Elə bir ev yoxdur ki, oradan su axmamış olsun (11, 71; 10). XIX yüzilliyin əvvəllərində Ordubadda olmuş Rus məmuru İ.Şopen isə şəhərdəki kəhrizlərin sayının 70-ə yaxın olduğunu yazır (16, 481). Əslən Ordubaddan olan etnoqraf alim M.Nəsirli isə özünün etnoqrafik müşahidələrinə əsaslanaraq XX yüzilliyin əvvəllərində şəhərdə 80 kəhrizin fəaliyyət göstərdiyini yazmışdır (13, 89).

Böyük əksəriyyəti indi də fəaliyyət göstərən bu kəhrizlər haqqında Səfəvi hökmdarı I Şah Abbasın tarixçisi İsgəndər bəy Münşi (Türkman) da maraqlı məlumatlar verir. O, «Tarixi aləm aray-i Abbasi» adlı əsərində qeyd edir ki, heç elə bir ölkə və yer yoxdur ki, oranın (Ordubad şəhərinin) suyu kimi soyuq və lətif suyu çıxan çeşmələri olsun. Tarixçi bu çeşmələrin suyunu «nüzhət və şadlıq artıran su» kimi xarakterizə edir (10).

Naxçıvan ərazisində kəhrizlərin sayına və su sərfinə görə yarıya qədəri Kəngərli və Böyükdüz maili düzənlikləri ərazisində yayılmışdır. AMEA-nın müxbir üzvü Səfərəli Babayevin öz hesablamalarına əsaslanaraq yazdığına görə XX yüzilliyin ortalarında Naxçıvanda 407 kəhriz olmuşdur (1, 225). Zaman keçdikcə bu kəhrizlərin bir hissəsi sıradan çıxmışdır. Keçən əsrin 50-ci illərində Naxçıvan bölgəsində fəaliyyət göstərən 356 kəhrizin ümumi sərfi saniyədə 2,722 kub metr olmuşdur. Bu il ərzində 85, 9 milyon kub metr su demək idi. Kəhrizlərdən axan bu miqdar su Babək rayonundakı Uzunoba su anbarının su tutumundan 10 dəfə, Sirab su anbarından təxminən 7 dəfə çoxdur. Hazırda 353 kəhriz fəaliyyətdədir. Bunlardan 151-i Şərur bölgəsində, 80-i Şahbuz rayonunda, 15-i isə Naxçıvan şəhərindədir, qalan kəhrizlər isə digər rayonların payına düşür. Bu hidrotexniki qurğularda quyuların sayı 3671-ə, tunellərin ümumi uzunluğu 142362 metrə, ümumi su sərfi isə 2003 litr/ saniyəyə çatır. Bu kəhrizlərin suyu ilə 1800 hektardan artıq əkin sahəsini su ilə təmin etmək mümkündür (1, 178).

Şərur bölgəsindəki kəhrizlərdən 147-si çaylardan kənarda, Kəngərli maili düzənliyində yerləşən, hazırda yeni yaradılan Kəngərli rayonuna daxil olan Qarabağlar, Qıvraq, Şahtaxtı, Xok və Yurtçu kəndlərindədir. Muxtar Respublikanın bu və digər kəndlərində subartezian quyuları qazılıb istifadəyə verilsə də, onlar kəhrizləri sıxışdırıb aradan çıxara bilmədiyindən, kəhrizlər yenə də su təchizatında həlledici rol oynayırlar.

Naxçıvan bölgəsində az meylliliyə malik olan düzənliklərdə qazılan kəhrizlərin tunellərinin ümumi uzunluğu bəzən 1000, tək-tək hallarda isə 2000 metrdən artıqdır. Meyllik çox olan ərazilərdə, o cümlədən Kəngərli rayonundakı Qarabağlar, Şahtaxtı, Babək rayonundakı Çalxanqala kəndlərində, həmçinin Ordubad və Şahbuz rayonlarında kəhrizlərin tunelləri olduqca qısadır.

Bu kəhrizlərin bəziləri böyük debitə malik olub geniş əkin sahələrini suvarmağa imkan verir. Kəngərli rayonunun Qarabağlar kəndindəki Asnı bulağı 162 litr/saniyə, Xok kəndindəki Çay kəhrizi 114 litr/ saniyə, Əliabad qəsəbəsindəki kəhriz 114 litr/saniyə debitə malikdir (1, 178).

Naxçıvan şəhəri daxil olmaqla Naxçıvan maili düzənliyində təqribən 25 yaşayış məntəqəsində kəhriz sistemi mövcud olmuşdur. XX yüzilliyin əvvəllərində bu ərazidə kəhrizlərin sayı 80-ə, kürələrinin uzunluğu 44804 metrə, quyularının sayı 1586 ədədə çatmışdı. Burada böyük sərfə malik olan çoxlu kəhrizlər vardır. Qeyd etmək lazımdır ki, Naxçıvan şəhərində fəaliyyət göstərən «Kalba Musa», «Qızdırma», «Əliabad» kəhrizlərinin su sərfi şəhərə borular vasitəsi ilə daxil olan sudan çoxdur.

Kəhrizlərin qazdırılması çox mürəkkəb və ağır əmək, böyük xərc tələb edən iş idi. Onlar çox vaxt imkanlı şəxslərin, bəzən isə yaşayış məskəninin camaatının vəsaiti ilə qazdırılırdı. Bəzən kəhrizlər ayrı-ayrı şəxslər tərəindən camaatın istifadəsi üçün xeyirxahlıq məqsədi ilə inşa etdirilirdi. Belə kəhrizlər el arasında «ehsan bulağı» və ya «ehsan çeşməsi» adlandı-

rılırdı. Əksər vaxtlarda isə kəhrizlər onu qazdıran adamın adı ilə adlandırılırdı. Məsələn, Naxçıvan şəhərində «Əkbərxan», «Mirzə Bədəl», «Hacı Hüseynəli», «Hacı Niyət» və s. kəhrizlər onları qazdıran adamların adı ilə adlandırılmışdır.

Naxçıvan zonasında, əhali arsında kəhrizlər həm də «çeşmə» adı ilə tanınır ki, bu da bulaq, mənbə anlamına gəlir və onu söyləməyə əsas verir ki, kəhrizlərin ilkin forması bulaqlar olmuşdur. Naxçıvan şəhərinin su təchizatındakı kəhriz sistemi öz yerləşmə mövqeyinə görə, sudaşıma qalarayesı çaylardan uzaqda yerləşən və buna görə də debitdə həmişə suyu olan kəhrizlər qrupuna daxildir.

Naxçıvan bölgəsindəki kəhriz sistemləri içərisində bir sıra kəhrizlər öz sululuğuna, əhəmiyyətinə görə digərlərindən çox fərqlənirlər. Belə kəhrizlərdən biri Cananbəy kəhrizidir. Kəhriz Şıxmahmud kəndinin cənubundan başlayaraq böyük bir məsafə qət edir və Xətayi qəsəbəsi yaxınlığında yerin səthinə çıxır. El arasında «Cananbər kəhrizi» adı ilə tanınan kəhrizi Canan bəy adlı adam qazdırmışdır. Canan bəy orta əsrlər zamanı Naxçıvan şəhərində fəaliyyət göstərən «Bəktaşiyyə» sufii təriqətinə mənsub olan və Naxçıvanda daimi yaşayan, mənsub olduqları təriqətin adı ilə Bəktaşilər adlanan nəslin nümayəndəsidir. Canan bəy (ad zaman keçdikcə təhrif olunaraq Cananbər şəklinə düşmüşdür) kəhrizi Naxçıvan şəhər əhalisinin içməli və təsərrüfat suyuna olan tələbatını ödəmək üçün Səfəvilər dövründə inşa etdirilmişdir (12, 131). Ancaq zaman keçdikcə uçub dağılmış, məhv olmaq təhlükəsi yarandığından onu qazdıran Canan bəyin nəslindən olan və onun adını daşıyan Canan bəy kəhrizi təmizlətdirmiş, bərpa etdirmişdir. Qədim və orta əsrlər zamanı kəhrizlər onu qazdıran adamın mülkiyyəti olduğundan, həmin şəxs öldükdən sonra mülkiyyət hüququ övladlarına keçirdi. XIX əsrdə də bu kəhriz onun xələflərinin nəzarətində olmuş, nəslin nümayəndəsi, ulu babasının adını daşıyan Canan bəy kəhrizdə bərpa işləri apartdırmışdır. Bəktaşilər kəhriz qazıldıqdan sonra şəhərin şimal-şərqində indiyədək qalan və el arasında «Bəktaş arxı» deyilən kanal da çəkdirmişlər. Canan bəy kəhrizindən başlayaraq çəkilən və Bazarçaydan da su götürən kanalın da tarixi Səfəvilər dövrünə gedib çıxır.

XX yüzilliyin 30-cu illərində Naxçıvanda olan rus alimi K.N.Smirnov bu kanal haqqında bəhs edir və yazır ki, görünür Naxçıvanda yaşayan Bəktaşi dərvişlərinin torpaq sahəsi olmuşdur və həmin sahəni suvarmaq üçün bu kanalı çəkdirmişlər. Etnoqraf-alim sözünə davam edərək rus alimi A.A.Qordlevskinin «Konyada sudan istifadə etmənin tarixindən» əsərinə istinad edir və göstərir ki, Bəktaşi dərvişləri Konyada sudan istifadəni öz əllərində saxlayırdılar. Bəktaşi dərvişlərinin hörmətli şeyxlərindən biri Pir-Ab-Sultan adlanmışdır (12, 131-132). Konyada sudan istifadəyə rəhbərlik və nəzarət edən Bəktaşi dərvişləri Naxçıvanda da suvarma işinə, sudan istifadəyə önəm vermiş, bu məqsədlə kəhriz qazdırmış, kanal çəkdirmişlər.

Uzunluğu 1067 metr, quyularının sayı 28, su sərfi saniyədə 25-45 litr (hazırda 15-20 l/san.) (3; 6, 25) olan, hətta quraqlıq illərdə saniyədə ən azı 15-20 litr su verən Canan bəy kəhrizinin suyu Naxçıvan şəhər əhalisinin su ilə təmin edilməsində və təsərrüfat məqsədləri üçün istifadə olunmuşdur. 10-15 metr dərinlikdən qidalanan çeşmənin suyu çox təmiz, yüngül və içmək üçün çox yararlıdır.

Kəhriz sistemindən istifadə olunması baxımından Ordubad şəhəri xüsusi ilə fərqlənir. Ordubad şəhərinin demək olar ki, bütün məhəllələrində kəhrizlər vardır (14, 65). Orta əsrlərdə şəhərin hər bir məhəlləsinin mərkəzi meydanı, həmin meydanda məscidi, kölgəsi bütün meydanı əhatə edən çinarı və kəhrizi- çeşməsi var idi. Bu kəhrizlər məhəllə əhalisinin içməli, məişət və suvarma suyu ilə təminatında əsas yer tuturdu.

Ordubad şəhərində şimaldan cənuba doğru uzanan kəhrizlər ayrı-ayrı həyətlərdən keçir. Bəzən bir kəhriz 6-7 qola şaxələnərək bir məhəllənin 30-40 həyətindən keçir. Hər bir evin sakinləri həmin kəhrizlərin suyundan istifadə edir. Şəhərdə kəhriz suyundan istifadə edən ailələr arasında möhkəm qayda olmuşdur. Belə ki, kəhriz kürəsində paltar və qab-qacaq yumaq olmazdı. Ailə üzvlərinin öz həyətində kəhrizin kürəsinə düşüb su götürməsi üçün el arasında «qırxpillə» adlanan xüsusi qurğulardan istifadə olunurdu.

«Qırxpillə» bəzi kəhriz sistemləri üzərində düzəldilmiş yeraltı abidələrdir. Əsasən bişmiş kərpicdən, yaxud da yerli daş materialından inşa olunmuşlar. Naxçıvan bölgəsinin bir sıra yerlərində, xüsusilə Kəngərli bölgəsinin Qarabağlar, Şahtaxtı, Ordubad şəhəri, Ordubad rayonunun Yuxarı Əylis kəndi və s. yaşayış məskənlərində bu tip abidələrə daha çox rast gəlinir. Kəhriz sisteminin dərinliyindən asılı olaraq dünyada analoqu olmayan qırxpillələrdə pillələrin sayı müxtəlif olur. Ona görə də kənd təsərrüfatı elmləri doktoru Ə.Quliyevin fikrincə «qırxpillə» sözü şərtidir. Çünki hər pillənin hündürlüyü 20 sm qəbul edilərsə onda Ordubaddakı kəhrizlərin orta dərinliyi 8 metr (40x0,20 m= 8 m) olmalıdır. Bu qurğularda pillələrin düzülüşü həyətin şəraitinə və kəhrizin dərinliyinə görə birbaşa yenən və ya döngəli, yəni 10-15 pillədən bir istiqamətini dəyişərək dolanan pilləli olur (9, 275-276).

Qırxpillələrdə həmişə sabit temperatur (+8-10$^0$ C) olduğundan, ilin fəslindən asılı olmayaraq oraya qoyulmuş ərzaq xarab olmur. Ona görə də şəxsi həyətlərdəki qırxpillələr ailələrin su təchizatı, ərzaq saxlamaq, həm də təbii sərinləşdirici– ventilyasiya xidmətini yerinə yetirir (6, 16; 14, 65-66). Hazırda Ordubad əhalisi bu abidələrdən təbii soyuducu kimi istifadə edir, tez xarab olan ərzaq məhsullarını orada saxlayırlar. Xalq arasında bu abidələr bəzən «qırxayaq» adlandırılır.

Naxçıvan bölgəsində kəhriz sistemi təkcə şəhərlərdə deyil, bir sıra kəndlərdə də geniş yayılmışdı. R.Salayeva uzun müddətli tədqiqatları nəticəsində bölgədə fəaliyyət göstərən, məhv olaraq sıradan çıxan, hətta unudulan kənd kəhrizlərinin bir çoxunu qeydə almış, onların bəzilərinin (Ordubad

rayonundakı Vənənd, Dırnıs, Əylis, Babək rayonundakı Cəhri, Nehrəm, Şərur rayonundakı Xanlıqlar, Sədərək qəsəbəsi və s.) sxematik planlarını işləmişdir (15,194).

Kəhrizlər müdafiə qalalarında, istehkamlarda da fəaliyyət göstərmiş, ən çətin vaxtlarda insanların suya olan tələbatını ödəmişdir. Əlincəçayın sağ sahilində yerləşən, 1387-1399-cu illərdə Teymur qoşunlarına qarşı mətanətlə mübarizə aparan Əlincəqalada olan adamların suya olan tələbatı qayalar üzərində çapılan hovuzlara toplanan yağış və qar suları ilə yanaşı qalanın cənub-şərq yamacında yerləşən və el arasında «Yuxarı çeşmə» adlanan kəhriz suları ilə ödənilmişdir.

Ə.Quliyevin fikrincə quruluşuna və qidalanma xüsusiyyətlərinə görə bu kəhriz dünyada analoqu olmayan kəhriz abidəsi kimi diqqəti cəlb edir (3; 5).

Göründüyü kimi, Azərbaycan ərazisində kəhrizlərin vətəni sayılan Naxçıvan bölgəsi həqiqətən bu su sistemləri ilə çox zəngindir. Bu kəhrizlər əhalinin su ilə təminatında və suvarma sistemində mühüm yer tutduqlarından onları qoruyub saxlamaq çox vacibdir.

## ƏDƏBİYYAT:

1. Babayev S. Naxçıvan Muxtar Respublikasının coğrafiyası. Bakı: Elm, 1999.
2. Baxşəliyev V. Naxçıvanda tunc dövrünə aid yeni abidələr. AMEA Naxçıvan Bölməsinin Xəbərləri. Naxçıvan: Tusi, 2008, № 3.
3. Quliyev Ə. İnsanın ilkin məskunlaşma diyarı- Naxçıvan. «Şərq qapısı» qəzeti, 4 mart 2006-cı il.
4. Quliyev Ə. Cananbəy, yoxsa Cananbər çeşməsi. «Şərq qapısı» qəzeti, 13 dekabr 2005.
5. Quliyev Ə. Kəhrizlər. «Şərq qapısı» qəzeti, 14 iyun 2006-cı il.
6. Quliyev Ə. Naxçıvan kəhrizləri. Bakı: Nurlan, 2008.
7. Quliyev Ə. Naxçıvan Muxtar Respublikasının Arazboyu və dağətəyi torpaqlarının ekomeliorativ qiymətləndirilməsi. Kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2008.
8. Quliyev Ş. Naxçıvanda ənənəvi suvarma əkinçiliyi. Azərbaycan etnoqrafik məcmuəsi, № 5. Bakı: Elm, 1985.
9. Naxçıvan abidələri ensiklopediyası. Naxçıvan, 2008.
10. Onullahi S.M. Ordubad. «Azərbaycan müəllimi» qəzeti, 5 iyun 1987.
11. Onullahi S. Azərbaycan tarixinə dair qaynaq. Az.SSR EA Məruzələri. T. XXXI, № 4. Bakı, 1975.
12. Səfərli H.Y. Naxçıvanda sosial-siyasi və ideoloji mərkəzlər. Bakı: Elm, 2003.
13. Насирли М. О некоторых источниках водоснабжения населенных пунктов Аз. ССР. Azərbaycan etnoqrafik məcmuəsi, № 4. Bakı: Elm, 1981.
14. Пашаев А. Город Ордубад в ХЫХ - начале ХХ вв. Баку, Элм, 1998, 200 с.
15. Салаева Р. Нахчыван – наследие архитектуры. Баку: Азербайджан, 2002.
16. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи. Санкт-Петербург. Типография Императорской АН, 1852.

# KAHRIZES İN NAKHCHIVAN: THEIR EVOLUTION AND DEVELOPMENT

**Haji Fakhraddin Safarli**

## Summary

In this article have been given information about kahrizes (underground pipes), which that it has an important place need at the paying to drinkable and water of economy of population in the Nakhchivan region. It has noticed that, the Nakhchivan region was the one of the first place where that, arose of the kahrizes (underground-pipes) and was spread in the some places, especially the Ordubad city and Kengerli region.
**Keywords: Nakhchivan, kahriz, water, Sharur, Ordubad.**

# КЯКРИЗЫ В НАХЧЫВАНЕ: СТАНОВЛЕНИЕ И ПУТИ РАЗВИТИЯ

**Гаджи Фахраддин Сафарли**

## Резюме

В статье исследуется кякризов, играющие важную роль потребности при выполнении питьевых и хозяйственных вод населений. Надо отметить, что Нахчыванский регион был один из первых территорий, которые устроились кякризы. Здесь в некоторых местах, в том числе в городе Ордубаде, и в районе Кенгерли широко распространены эти древние кякризы.
**Ключевые слова: Нахчыван, кякриз, вода, Шарур, Ордубад.**

# СКИФСКИЕ АМАЗОНКИ В ПОНТИЙСКИХ СТЕПЯХ

**Лена Фиалко**
ofialka@ukr.net
(г. Киев, Украина)

**Ключевые слова: Амазонки, скифы, Геродот, Фемискира, Фермадонт.**

Скифы – кочевой народ, оставивший яркий след в истории Евразии. Информация о событиях, связанных со Скифией и ее населением, сохранилась в ряде произведений античных авторов. Среди наиболее популярных персонажей в письменных источниках фигурируют и амазонки. В древних мифах выводится воинственный народ женщин – сильных, бесстрашных, прекрасных наездниц, отлично владеющих оружием. Их боевые качества ценились греками настолько высоко, что отряды воинственных дев призывались на помощь в сражениях с противником.

Предания об амазонках представлены как в фольклорной традиции многих народов, так и в географической, исторической и даже художественной литературе. Любопытные сведения этнографического характера об амазонках оставили многие древние авторы – Геродот, Гиппократ, Лисий, Палефат, Страбон, Диодор Сицилийский, Помпей Трог, Плутарх и другие. Причиной такого пристального внимания к амазонкам был их способ жизни, абсолютно отличный от привычного эллинским, как впрочем, и скифским женщинам быта.

В нарративных источниках сохранилось два варианта представлений об амазонках. Чаще упоминаются представительницы воинственного племени - равные мужчинам, принимающие активное участие в военных походах, но до определенного времени - до замужества. Реже речь идет о царстве женщин-мужеубийц, где мужчин либо нет вовсе, либо они занимают подчиненное положение и используются лишь для продолжения рода.

Свое происхождение амазонки ведут по материнской линии. Они считаются дочерьми бога войны Ареса и наяды Гармонии, вот почему они одновременно так воинственны и так красивы. Воинственные девы поклонялись главным образом Аресу - богу войны и Артемиде - богине охоты. За счет добычи от своих походов царицы амазонок воздвигали храмы этим богам. Кроме того, они поклонялись Зевсу, Посейдону и Гефесту.

Обитали амазонки, по сообщениям ряда авторов, на северо-востоке Малой Азии (между городами Синопа и Трапезунт), в Каппадокии, на берегах речки Фермодонт у города Фемискира (рис. 1). О том, каким образом амазонки оказались в Скифии, подробно рассказал Геродот.

После очередной битвы с греками корабли с плененными амазонками прибило к берегу Меотийского озера (Азовского моря), у гавани Кремны - земле скифов. Сойдя на берег, амазонки отправились вглубь страны, захватили табун коней и стали грабить скифские земли. Через какое-то время они, наконец, стали лагерем. Сначала скифы принимали их за мужчин. По прошествии некоторого времени, после сближения с молодыми скифами, они вместе ушли за Танаис (современный Дон), где стали называться савроматами (Геродот. IV, 110-116).

Умению верховой езды и военному делу амазонки овладевали едва ли не с младенчества. При этом женским работам они не обучались вовсе. Каждодневные тренировки были обязательны. Поэтому амазонки принимали участие и в боевых сражениях, и на охоте наравне с мужчинами, ничуть не уступая им в ловкости и смекалке. Вооружены они луком со стрелами, топором, дротиком и копьем. Кроме того, и в бою, и на охоте девы ловко управлялись арканом. Из защитного доспеха амазонки использовали лишь пояс (как это следует из мифологического сюжета, связанного с царицей Ипполитой) и небольшие легкие щиты в форме полумесяца.

Кроме упражнений, существовали и некие хозяйственные нагрузки. Большую часть года девушки сами исполняли все основные работы - пахали, сеяли, занимались садоводством, ухаживали за своими стадами, в особенности за лошадьми. Естественно это касалось рядовых амазонок. Самые же сильные из них занимались, главным образом, охотой, верховой ездой и военными упражнениями *(Страбон. XI.V, 1)*. Благодаря такому стилю жизни они были физически развиты и к тому же красивы. Александр Македонский в письме матери писал, что «...амазониды, значительно превосходящие ростом прочих женщин, отличающиеся красотою и здоровьем, ... сообразительностью и остроумием...» (Каллисфен. III, 27). А Диодор Сицилийский отмечал отличную силу, ум, военные таланты и красоту этих женщин (Диодор. II, 44, 45; XVII, 77, 2).

Несколько противоречива информация относительно одежды воинственных дев. Так, по Геродоту (IV, 116), амазонки носили мужскую одежду. При этом она была цветной (Каллисфен. III, 27). Из шкур диких зверей они изготовляли себе шлемы, плащи и пояса (Страбон. V, 1). У Евсевия Иеронима, в отличие от предыдущих авторов, амазонки «...с выставленной на показ грудью и голыми руками и коленами, вызывающие на состязание сладострастия идущих против них мужчин» (Евсевий Иероним. II, 37). А Палефат в книге «О невероятном» утверждает, что они «...носили хитоны до пят, а на головах – митры...» (Палефат. XXXII).

Замуж девушки могли выйти, как сообщает большинство древних авторов, только после того, как убьют трех врагов. Некоторые

так и доживали до старости в девичестве, по каким-то причинам не сумев выполнить сурового требования. А, выйдя замуж, амазонка по сведениям Гиппократа «перестает ездить верхом, пока не явится необходимость поголовно выступать в поход».

Подтверждением широкой популярности амазонок служит тот факт, что эти персонажи были широко задействованы не только в литературных опусах, но и в разнообразных произведениях изобразительного искусства. До наших дней сохранились мраморные копии бронзовых *статуй* амазонок работы Кресилая. Поликлета, Фидия, Фрадмона и других авторов. (рис.2) Известны и небольшие *бронзовые статуэтки* амазонок, служившие частью декора разных по назначению предметов [1-4]. Наиболее популярной в античном искусстве, начиная с эпохи архаики, была тема амазономахии - битвы между амазонками и греческими героями, иллюстрирующая общегреческие мифы (рис. 3). Многофигурные рельефные композиции широко использовались в орнаментике монументальных *архитектурных сооружений*. Они присутствуют на западных метопах Парфенона, метопах сокровищницы афинян в Дельфах начала 5 в. до н.э.; рельефах фриза храма Аполлона в Бассах 5 в. до н.э.; рельефах фриза Артемисиона в Магнесии 5-4 вв. до н.э.; рельефах западного фронтона святилища Асклепия в Эпидавре 4 в. до н.э.; рельефах западного фриза Галикарнасского мавзолея середины 4 в. до н.э. и других памятниках зодчества. Фризами с батальными сценами, в том числе и амазономахии, украшались *саркофаги*. Среди наиболее ярких образцов – известняковый саркофаг с расписными фризами из гробницы в Тарквиниях (4 в. до н.э.), хранящийся в Археологическом музее во Флоренции [5]; деревянный саркофаг с полихромной росписью из кургана № 9 близ с. Марьевка (4 в. до н.э.) [6]; мраморный саркофаг из коллекции экспонатов 2-3 вв. н.э. Музея в Салониках [7]. Этот сюжет воспроизводился и на различных *каменных рельефах*, типа хорошо известного экземпляра с Тамани [8].

Изображения амазонок встречаются и на *произведениях торевтики*. В их числе можно назвать золотое украшение калафа из кургана Большая Близница, бронзовый таз из ст. Темижбекская со сценой амазономахии [9], фрагменты случайно найденного в Елизаветовском могильнике декора, скорее всего, повозки с аналогичным сюжетом [10] и серебряный с позолотой сосуд с иллюстрацией мифа о похищении пояса Ипполиты из Рогозенского клада в Болгарии [11]. Известны изображения амазонок на коврах и мозаичных полах. Ярко представлены амазонки и в греческой *вазовой живописи*. Образ амазонки вазописцы стали использовать с конца 7 в. до н.э., к середине 6 в. до н.э. он становится в один ряд с наиболее популярными [12-13].

Произведения античного искусства, и прежде всего вазовая живопись, позволяют судить об облике и одежде амазонок. Чаще они пред-

ставлены подобно персонажам Геродота - одетыми в мужской «персидский» костюм (рис. 4). Как правило, это юная дева в мужском наряде - одежда (кафтан и узкие штаны с лампасами) облегает стройную фигуру; ступни ног либо босые, либо в мягких коротких сапожках (скификах); на голове шапочка в форме мягкого колпака, иногда со свисающими сзади и по бокам защитными «клапанами». Наряду с оружием (луком со стрелами, копьем, секирой) часто присутствует на изображениях и щит, обычно серповидной или овальной формы.

В произведениях искусства изредка представлены самостоятельные фигуры амазонок. Как правило, они выступают участницами баталий. Известно два варианта таких сюжетов. Сюжет амазономахии был широко распространен и отражал художественные ориентиры и пристрастия как эллинов и римлян, так и варварского населения. Сюжеты грифономахии более характерны для периферии античного мира. Здесь амазонки воспринимались как служительницы Великой богини и олицетворяли связи с загробным миром. Вероятно, эти изображения иллюстрировали какие-то местные варианты мифов об амазонках, не сохранившиеся в нарративных источниках.

Широкомасштабные археологические исследования второй половины 20-го столетия охватили территорию юга Украины, заселенной некогда древними номадами - киммерийцами, скифами, сарматами. В этот период было исследовано большое количество поселенческих структур и погребальных памятников скифов. В результате стало очевидным, что в среде кочевников действительно существовали женщины, которые подобно мужчинам (а возможно и наравне с ними) носили оружие и принимали участие в военных столкновениях, и потому были погребены также как и мужчины-воины. Могилы женщин с оружием достаточно широко распространены по всей территории юга Восточной Европы. Они обнаружены в Лесостепном Поднепровье, Северо-Западном Причерноморье, на Кавказе, Кубани.

По отношению к общему числу скифских погребений с оружием в Понтийских степях могилы женщин-воительниц составляют четвертую часть [14]. А это значит, что каждым четвертым воином у скифов Северного Причерноморья была женщина.

На землях современной Украины известно около 130 могил вооруженных женщин 5 - середины 4 вв. до н.э. Антропологический тип вооруженных женщин не отличен от основной массы населения Скифии. Никак не выделялся и обряд, по которому совершалось их погребение. Третья часть могил были основными под курганными насыпями скифского времени, остальные впущены в насыпи эпохи бронзы. Как правило, высота курганов, насыпанных над могилами амазонок, достигала 0,2-1,2 м. Исключение составляют три кургана больших размеров – курган № 11 близ г. Орджоникидзе (Днепропет-

ровская обл.), курган № 11 близ с. Львово (Херсонская обл.) и курган № 1 близ с. Солдатское (Николаевская обл.) – высота их соответственно 1.6; 2.3 и 2.5 м. Погребальные сооружения амазонок представлены тремя типами (рис. 5): бесспорно доминируют могилы подбойного типа (около 60 %), меньшее количество составляют катакомбы (коло 30 %) и простые ямы (около 10 %). В могиле погребенные лежали на спине, головой преимущественно на запад. Эти черты обряда полностью соответствуют погребальным традициям степных скифов.

Сопровождающий инвентарь скифских могил можно разделить на три группы: 1. универсальную, 2. женскую и 3. мужскую. К **1-ой группе** относится мясная пища на деревянном блюде или подносе, вместе с железным ножом и различные сосуды. **Женскую группу** представляют зеркала, серьги, бусы и сложные ожерелья, браслеты, булавки и косметика. Орудия труда – веретена, иглы и шилья. **Мужскую группу** составляют оружие – колчаны со стрелами, копья и дротики, клевцы, пращевые камни, защитный доспех; конская амуниция и нагайки; личные украшения – преимущественно гривны и перстни. Сочетание в одном вещевом наборе одиночной могилы нескольких групп инвентаря и маркирует усыпальницу амазонки (рис. 6).

Ассортимент оружия в комплексах вооруженных женщин ограничен. Практически каждая амазонка имела лук с набором стрел, у многих, кроме того, было копье или дротик (или то и другое вместе). Оружие ближнего боя не характерно для амазонок. Железные мечи встречены только в трех могилах - курган № 6 близ с. Марьевка (Днепропетровская обл.), курган № 38 близ с. Любимовка (Херсонская обл.) и курган № 22 близ с. Виноградное (Запорожская обл.). Не было у женщин и металлического защитного доспеха, равно как и боевых поясов. Только в трех могилах обнаружены пояса с наборными бронзовыми пластинами - курган № 16 близ с. Новофилиповка (Запорожская обл.), курган № 11 близ с. Львово (Херсонская обл.) и курган № 423 близ с. Журовка (Черкасская обл.). Такой набор оружия и отсутствие защитного облачения, скорее всего, свидетельствуют о том, что женщины принимали участие в легковооруженных отрядах кавалерии. Исключением является курган № 5 у с. Зеленое (Херсонская обл.) (рис. 7). В нем обнаружены три могилы девочек с оружием. Главной в кургане была могила девочки-подростка. Снаряжение девочки составили панцирный доспех, копье, дротик, три камня для пращи, зеркало, каменная зернотерка с деревянным растиральником, ожерелье из стеклянных бус. Маленьким девочкам из двух других могил положили лишь стеклянные бусы и 1-3 стрелы. Судя по планировке, в кургане погребена амазонка с двумя вооруженными служанками. Это подтверждает сведения античных авторов о том, что военному делу амазонки приу-

чаются с раннего детства. Курган уникален, поскольку других воительниц в полной амуниции в массиве скифских памятников нет.

В то же время, ни разу вооруженную женщину не похоронили вместе с боевым конем. И только в двух погребениях найдены металлические детали конской уздечки – курган № 447 близ с. Журовка и курган № 35 близ с. Бобрица (Черкасская обл.). Эта ситуация кажется довольно странной и непонятной. В соответствии с письменными источниками, мы настроены видеть в амазонках ловких наездниц - то есть представительниц легкой кавалерии. Этот казус возможно объяснить лишь словами Гиппократа, который говорит, что после замужества савроматские женщины садились на коня лишь в случае военной угрозы. Очевидно, высадившись на берег Азовского моря, первое время амазонки воевали еще на конях, захваченных в скифских табунах. Со временем - по археологическим материалам со второй половины 5 в. до н.э. - амазонки становятся менее воинственными и самостоятельными. По мере необходимости они принимали участие в скифских военных походах и оборонительных сражениях в составе отрядов легковооруженных пехотинцев.

Из животных в массиве погребальных комплексов амазонок можно отметить лишь собаку, лежавшую у входа в камеру погребения кургана № 5 в могильнике Мамай-Гора (Запорожская обл.), имевшую определенное сходство с небольшими южнорусскими овчарками.

Археологические источники молчат о том, каким кумирам поклонялись амазонки. Но свидетельствуют о социальном расслоении (в письменных источниках упоминались преимущественно царицы). Об этом говорят различия в размерах погребальных сооружений и ассортименте сопутствующего инвентаря. В большинстве же своем амазонки были представительницами так называемого среднего сословия [15]. Однако известно несколько погребальных комплексов амазонок, в инвентаре которых присутствуют золотые ювелирные украшения – серьги и кольца, а также дорогие импортные чернолаковые и краснофигурные сосуды. Среди таких комплексов можно упомянуть, к примеру, курганы № 2 и № 3 близ с. Акимовка и курган № 16 могильника Мамай-Гора (Запорожская обл.) (рис. 8). Эти вещи явно указывают на высокий социальный статус погребенных женщин. Кроме того, иногда в набор заупокойных вещей входит бронзовый котел (курган № 38 близ с. Любимовка, курган № 8 близ с. Волчанск, Запорожская обл.) и (или) металлическая гривна (курган № 16 могильника Мамай-Гора). Эти вещи маркируют захоронения военачальников - женщин, которые возглавляли военные подразделения.

Определенный интерес представляет амазонка из кургана № 2 близ с. Зеленое (Херсонская обл.). Ее погребли в одной могиле с мужчиной. Сложное погребальное сооружение представляет собой катакомбу, из

входной ямы которой параллельно отходят две погребальные камеры. Таким образом, каждому усопшему устроили отдельную погребальную камеру. Судя по размерам погребального сооружения и богатому набору сопровождающих вещей, оба покойника явно относятся к представителям социальной верхушки. У женщины на голове надета кожаная повязка, на ногах – кожаные сапоги с тисненым орнаментом. Из украшений - золотое ожерелье, серебряный перстень и браслет из стеклянных бусин. Кроме того, в наборе ее вещей: шкатулка с зеркалом, двумя пиксидами, веретеном и шилом; зернотерка с деревянным пестом, три импортных сосуда, копье и колчан со 107 стрелами. Скорее всего, в этой могиле похоронена семейная пара.

Количество женских погребений с оружием в могильниках довольно неравномерно. В некоторых могильниках погребения амазонок составляют целые группы (Елизаветовский могильник, могильники Мамай Гора, Чертомлыкский, близ сел Любимовка и Зеленое). В иных случаях в курганных группах обнаружено от одного до трех захоронений, в других их не было вообще. Наиболее представительная серия могил амазонок открыта в крупнейшем в Северном Причерноморье могильнике Мамай-Гора. Из 317 раскопанных скифских погребений 12 принадлежат амазонкам. С учетом того, что в могильнике исследовано 110 мужских и 135 женских погребений, можно заключить, что каждым десятым воином была женщина. В то же время каждая одиннадцатая женщина носила оружие, т.е. выполняла воинскую повинность.

Вооруженные женщины не составляли единой возрастной группы - их возраст колебался от 16 до 60 лет. Но все же половина из них - молодые женщины 25-35 лет. Захоронения практически всегда были одиночными. Лишь в четырех могилах рядом с молодой женщиной был похоронен грудной ребенок (курган №16 в группе Чертомлык, курган № 48 в группе Широкое-2, курган № 13 близ г. Орджоникидзе, курган № 14 близ с. Верхнетарасовка). Еще в четырех случаях амазонок сопровождали служанки (курган № 14 близ с. Верхнетарасовка, курган № 12 в курганной группе Носаки, курган № 18 близ с. Львово, курган № 48 близ с. Любимовка) (рис. 9). При этом десятая часть погребенных женщин с оружием - шестидесятилетние (для скифской эпохи это более чем преклонный возраст) и, судя по наличию оружия, незамужние. Возможно, подобная ситуация отражала относительно спокойный период скифской истории, во время которого не представлялось возможности проявить себя в бою и убить врагов.

Что касается первоначального обитания амазонок, то считается, что город Фемискира находился в Малой Азии, при устье речки Фермодонт (или Термодонт), которая отождествляется с речкой Терме-Чай, впадающей в Черное море.

Территориально в Понтийских степях погребения вооруженных женщин распадаются на три основных скопления (рис. 10). Значительная их часть сосредоточена в северо-западном Приазовье - в низовьях речки Молочной, недалеко от гавани Кремны; небольшая группа локализуется в левобережье Нижнего Днепра; а наибольшее скопление концентрируется вдоль правого берега Днепра, на участке от нижней кромки порогов до устья реки Базавлук [16]. Такая локализация могил амазонок вполне согласуется со свидетельствами Геродота. Наиболее многочисленная группа могил воительниц зафиксирована в районе Азовского моря – месте появления амазонок в Скифии. Вполне вероятно, что эти могилы отмечают начало их продвижения, связанное с вооруженными схватками со скифами. Две другие группы отмечают путь их продвижения вглубь территории обитания номадов.

Много погребений вооруженных женщин этого периода известно и в Подонье [17]. Среди последних находок можно упомянуть погребения вооруженных женщин в курганных могильниках близ сел Колбино и Терновое. Их можно рассматривать как захоронения амазонок, ушедших вместе с молодыми скифами на восток через реку Танаис, о которых писал Геродот, называя их савроматами.

В поисках ответа на вопрос о реальности существования института амазонок у скифов археологические источники пусть не прямо, но подтверждают в определенной степени более раннюю письменную традицию. Конечно, не приходится говорить о существовании царства амазонок в регионе Северного Причерноморья. Тем не менее, археологические источники фиксируют присутствие в скифской среде женщин, занимавшихся военным делом. В то же время феномен «амазонства» можно рассматривать как общеисторическое явление. В любом обществе, члены которого вовлечены в вооруженные конфликты, женщины вынуждены защищать свои дома, семьи (детей и стариков), стада и имущество. Таким образом, в то время как часть женщин занималась защитой крова, другие женщины с оружием в руках принимали участие в военных баталиях наравне с мужчинами. В мировой практике подобная ситуация отмечается у многих народов в разные периоды их исторического развития.

## ЛИТЕРАТУРА

1. Charbonneaux J., Martin R., Villard F. Grèce Classique (480-330 avant J.-C.). - Gallimard, 1969.
2. Charbonneaux J., Martin R., Villard F. Grèce Hellénistique (330-50 avant J.-C.). – Gallimard, 1970.
3. Фиалко Е.Е. Образ амазонки в античном изобразительном искусстве // Боспор Киммерийский и варварский мир в период античности и средневековья. Актуальные проблемы чтения. – Керчь, 2009, с. 459-464.

4. Фиалко Е.Е. Амазонки в памятниках античного искусства // Боспорские исследования № 24. - Симферополь-Керчь, 2010, с. 152-192.
5. Лосева Н.М., Сидорова Н.А. Искусство Этрурии и древней Италии. - М, 1988, с.55.
6. Бунятян К.П., Фіалко О.Є. Скіфський курган з розмальованим саркофагом // Археологія, № 3, 2009, с.55-69.
7. Andronicos M. Thessalonike Museum. - Athens, 1994, fig. 67.
8. Боспорский рельеф со сценой сражения (Амазономахия?) Под ред. Савостиной Е.А. - М, 2001.
9. Вахтина М.Ю. Греческое искусство и искусство Евроиейской Скифии в 7-4 вв. до н.э. // Греки и варвары Северного Причерноморья в скифскую эпоху. – СПб. 2005, рис. 44-45.
10. Копылов В.П. Накладка со сценой амазономахии из Елизаветовского могильника // РА, № 4, 2008, рис.1-2.
11. Фол А., Николов Б., Машов С., Иванов П. Тракийското съкровище от Рогозен. - София, 1988, с.119, № 154.
12. Bothmer D. Amazones in Greek Art. - Oxf., 1957, p.1-2.
13. Шталь И.В. Свод мифо-эпических сюжетов античной вазовой живописи по музеям Российской федерации и стран СНГ. Пелики. 4 в. до н.э., керченский стиль. - М, 2000.
14. Бунятян Е.П. Методика социальных реконструкций в археологии (на материале скифских могильников IV-III вв. до н.э.). – Киев, 1985.
15. Fialko E.E. Amazons’ burials in the lands of Steppe Scythia // Mousaios, XIV. The Necropolises and the Environment (1st mill. BC). – Buzău-Brăila, 2009, p. 47-59.
16. Фиалко Е.Е. Погребения женщин с оружием у скифов // Курганы Степной Скифии. – Киев, 1991, рис. 7.
17. Смирнов К.Ф. Савроматы. - М, 1964.
18. Андрух С., Тощев Г. Могильник Мамай-Гора. Книга 1. – Запорожье, 1999.
19. Андрух С. Могильник Мамай-Гора. Книга 2. - Запорожье, 2001

## PONT ÇÖLLƏRİNİN SKİF AMAZONKALARI

**Elena Fialko**

### Xülasə

Məqalə bir çox xalqların folkloru, tarixi mənbələr və ədəbiyyatda əks olunmuş və tarix boyunca böyük maraq doğuran döyüşkən qadınlar kimi tarixdə iz qoyan amazonkalara həsr olunub. Müəllif comərd qadınlar olan amazonkaların tarix boyunca bir sıra ərazilərdə yaşamasını qeyd edərək, onların Skifiya torpaqlarında məskunlaşmasına, həyat tərzi və dini inanclarının araşdırılmasına xüsusi diqqət yetirir. Sonda müəllif “amazon” fenomeninin ümumtarixi bir hal hesab etdiyini vurğulayaraq, bu cür döyüşkən qadınların bir çox xalqların tarixi inkişaf dövrlərinə xas olması fikrini bir daha təsdiqləyir.

**Açar sözlər: Amazonlar, skiflər, Herodot, Femiskira, Fermadont.**

## SEYTHIAN AMAZONS OF PONTUS STEP

**Yelena Fialko**

### Summary

This article is dedicated to female warriors – Amazons, who were widely mentioned in folklore, historical and belletristic literature of many nations throughout the history. The author pays special attention to Amazon's migration on Scythia, their way of life and religious beliefs on this region. In the issue the author arrives to the conclusion that "amazons" were commonly historical phenomenon and participation of all-female warriors in battles in course of history was the characteristic peculiarity of many nations in different periods of their historical progress.
**Keywords: Amazons, scythes, Herodotus, Phemiscira, Phermadont.**



Рис. 1. Локализация древнего города Фемискира и гавани Кремны.



1 2 3

Рис. 2. Изображения амазонок в произведениях античного искусства:
мраморные копии статуй Фидия (1) и Кресилая (2);
орнаментальный фриз Галикарнасского Мавзолея (3).



1 2 3 4

Рис. 3. Изображения амазонок в произведениях античного искусства.





Рис 4. Изображения амазонок в вазовой живописи.




Рис. 5 Типы погребальных сооружений могильника Мамай_Гора: 1. – курган № 40; 2. – курган № 139; 3. – курган № 54; 4. – курган № 16; 5. – курган № 100 [18-19].




Рис. 6. Курган № 3 близ с. Акимовка: погребение и набор вещей из него.

# КРЕПОСТЬ АББАСАБАД – ПРИМЕР ЗОДЧЕСТВА ПОЗДНЕФЕОДАЛЬНОГО ПЕРИОДА НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

**Севда Гусейнова**
(Институт Археологии и Этнографии НАНА)

**Ключевые слова: Аббасабад, крепость, Нахчыван, Аракс, Иран.**

В середине 80-х гг. XVIII в. в Иране власть перешла к основателю каджарской династии Ага Мухаммед-хану. Он направил всем закавказским и южноазербайджанским правителям фирманы с требованием покорности (4, 89). Угроза вновь оказаться под гнетом иранских шахов заставила многих правителей обратиться за помощью к Русскому государству. Большая часть ханов Азербайджана отказалась принять фирман, и летом 1795 года войска Ага Мухаммед-хана двинулись в пределы Закавказья. Русское правительство в апреле 1796 г. направило в Азербайджан войско и заняло Кубу, Баку, Шемаху, Гянджу и др. города (4,90).

После смерти Екатерины II, вступивший на престол Павел I, отозвал русские войска обратно. В 1797 г. Ага Мухаммед-хан вновь вторгся в Азербайджан, в Карабахское ханство, захватил Шушу. Но правил недолго. Был убит в результате заговора дворцовых вельмож и местных феодалов. Новый шах – Баба-хан, именуемый Фатали-шахом, вновь стал добиваться покорности закавказских правителей.

Началась реорганизация иранской армии. Для ее обучения из европейских стран были приглашены военные специалисты (4, 91). В 1805 г. наследник персидского престола Аббас-Мирза, с титулом наиб ас-салтана (наместник царства), управлял Азербайджаном, рекрутировал там пехоту и артиллерию и строил крепости по европейскому образцу (3, 186, 187).

По сообщению А.Бакиханова, в 1812 г. с разрешения Наиба ас-салтана Аббас-Мирзы были выстроены три крепости – в Ленкорани, Аркаване и Астаре. Крепости были укреплены необходимым гарнизоном, артиллерией, снарядами и др. запасами (3, 195).

Крепость Аббасабад же была построена на левом берегу реки Аракс в 12 км. юго-восточнее г. Нахчыван по плану французских военных инженеров в 1809-1820 гг. в период правления иранского шаха Фатали-шаха его любимым сыном Аббас-Мирзой. По данным источников узнаем, что юному Аббас-Мирзе было доверено многочисленное войско. Проиграв в первой русско-иранской войне 1804-1813 гг., Иран 12 октября 1813 г. подписал Гюлистанский мирный договор, по которому Иран признавал присоединение к России ханств Северного Азербайджана, кроме Нахчыванского.

В 1826 г. Иран вновь начал войну. Под Шамхором и Гянджой иранская армия была разгромлена. Отбросив ее за Аракс, русские войска перешли его и захватили Тебриз, Ардебиль и др. города. «Осада крепости Аббас-Абад увлекла в гущу, как Грибоедова, так и Бакиханова… После сдачи Аббас-Абадской крепости Аббас-Мирза через своего статс-секретаря Мирза-Сале обратился с предложением начать мирные переговоры.» (6, 21)

10 февраля 1828 г. в селении Туркменчай близ Тебриза был подписан мирный договор, по которому Иран подтвердил отказ от своих притязаний на Северный Азербайджан и признал присоединение его, включая Нахичеванское ханство, к России. Кроме того, Иран должен был выплатить России 20.000 русских золотых рублей контрибуции. «Как пишут иранские историки, это был самый унизительный договор в истории Ирана.»(7, 72)




План крепости Аббасабад:
1- ров,
2- крепостная стена,
3- ворота,
4- мост,
5- родник

При археологическом изучении крепости Астабад, расположенной в 12 км. к юго-востоку от г. Нахчыван, на левом берегу реки Аракс было выявлено, что крепость в плане имела форму пятиугольника. Крепостные стены были сооружены из булыжника, сырцового кирпича и глинобита. Снаружи, за крепостными стенами, прорыт широкий (10,9м., местами до 30м.) и довольно глубокий (3м.) ров. Площадь крепости составляла, примерно, 14,25га., с учетом крепостных стен – 17га., общая длина стен – 1850м. При расчистке крепостной стены было выявлено, что верхняя ее часть шириной 2,5м., толщиной 0,8м., сложена из сырцовых кирпичей, размером 22см. х 22см. х 5см., ниже сле-

довал глинобит с примесью соломы. Нижняя часть стены была укреплена земляной насыпью, фундамент которой состоял из гальки, скрепленной известью. Насыпь имела высоту 4,5 м. Общая высота стены изнутри – 7,5 м. Толщина оплывшей стены – 7,95м. Изнутри был оборудован высокий земляной банкет, подкрепленный контрфорсами. Расстояние между контрфорсами 2,3м. – 2,5м. Контрфорсы сооружены из глины и имеют в разрезе треугольную форму, их высота – 1,9м., ширина 0,9м. В кирпичной кладке стены было расчищено 3 бойницы. Две из них были расположены на одном уровне, третья – несколько выше. Бойницы имели прямоугольную (16см. х 10см.) расширяющуюся наружу (22см. х 15см.) форму. В крепостную стену было встроено 6 башен прямоугольной формы. В северо-западной и юго-восточной стене крепости имелись ворота. Расстояние между ними составляло 398м. (1, 4-8; 2, 4,8)

**ЛИТЕРАТУРА**

1- Vahidov R.M., Quliyev N.M., Araz ekspedisiyasının 1970-ci il hesabatı, НАИИ, ф.1, ш.17, д.7448, h-43.
2- Həbibullayev O.H., Qədirov F.V., Araz arxeoloji ekspedisiyasının 1969-cu ilin payız mövsümündə gördüyü işlərin elmi hesabatı, НАИИ, ф.1, ш.17, д.7448, h-43.
3- А. Бакиханов, Гюлистан-и Ирам, Баку, «Элм», 1991.
4- История Азербайджана, Баку, 1979.
5- Mirzə Adıgözəl bəy, Qarabağnamə, bax Qarabağnamələr, Bakı, "Yazıçı", 1989
6- Современники о Бакиханове, Баку, «Элм», 1975.
7- Чингиз Каджар, Каджары, Баку изд. XXIYNE, 2001.
8- Azərbaycan Sovet Ensiklopediyası, I cild, Bakı, 1976.

## ABBASABAD QALASI - AZƏRBAYCAN ƏRAZISINDƏ SON FEODAL DÖVRÜNÜN MEMARLIQ NÜMÜNƏSIDIR

**Sevda Hüseynova**

### Xülasə

Abbasabad qalası Araz çayının sol sahilində, Naxçıvan şəhərinin 12km cənub-şərqində yerləşir. 1809-10 illərdə tikilmişdi. Beşbucaq şəklində idi. Qalanın sahəsi 14,25ha-ya yaxın idi. Qala divarının daxildən hündürlüyü 7,5m., qalınlığı 0,8m. idi. İstehkamın düzbucaq formasında 6 bürcü var idi.

Arxeoloji işlər nəticəsində kərpiç divarın içində 3 düzbucaq formasında olan mazğal aşkar olunmuşdu. Onlar xaricə doğru enləşirdi. Qalanın xaricində enli (10,9m.) və dərin (3m.) xəndək qazılmışdı. Ş-q və c-ş divarlarda darvazalar var idi.

Rusiya və İran müharibəsində (1826-28) Abbasabad qalasında vuruşmalar olmuşdu. İndiki zamanda qalanın xarabalıqları Araz su qovşağının suları altındadır.

**Açar sözlər: Abbasabad, qala, Naxçıvan, Araz, İran.**

## ABBASABAD FORTRESS - EXAMPLE OF ARCHITECTURE OF LATE FEUDAL PERIOD IN AZERBAIJAN

**Sevda Huseynova**

### Summary

Abbasabad fortress was built on the left bank of the Araks river, 12 km. south-east of Nakhchivan in 1809-1810. Fortress had the shape of a pentagon. The area of the fortress was, approximately 14.25 hectares. The height of the fortress wall from the outside was 7,5 m., and the thickness was 0,8 m. In the fortress wall was built 6 rectangular towers. As a result of archeological excavations in the wall was found three rectangular loopholes. Outside the fortress walls was dug wide (10.9 m.) and deep (3m.) ditch. In the north-western and south-eastern wall of the fortress there were gates. During the Russian-Iranian war (1826-28) in the Abbasabad fort were fighting. Currently, the castle ruins flooded waters of the Arks reservoir.

**Keywords: Abbasabad, tower, Nakhchivan, Arax, Iran.**

# ELM TARİXİ
# SCIENTIFIC HISTORY
# ИСТОРИЯ НАУКИ

## MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVANDA ARXEOLOJİ TƏDQİQATLAR

**Toğrul Xəlilov**
x.toqrul@gmail.com
(AMEA Naxçıvan Bölməsi)

**Açar sözlər: Azərbaycan, Naxçıvan, müstəqillik dövrü, keramika.**

Qədim tariximizin öyrənilməsində arxeoloji abidələr mühüm yer tutur. Onların tədqiqinin, qədim tayfaların iqtisadi, ictimai və mədəni həyatının öyrənilməsində mühüm əhəmiyyəti vardır. Respublikamızın ərazisindəki arxeoloji abidələrin öyrənilməsinə XIX yüzilliyin ikinci yarısından başlanmış, geniş miqyaslı tədqiqatlar isə XX yüzilliyin ikinci yarısından sonra aparılmışdır.

Ümummilli liderimiz H.Ə.Əliyevin tarixi keçmişimizin elmi tədqiqinə və təbliğinə xüsusi diqqət və qayğısı sayəsində, 1969-cu ilin iyul ayında xüsusi tədbirlər planının qəbul edilməsi elmi-tədqiqat işlərinin keyfiyyətini daha da artırmışdır. 1974-cü ildə artıq kifayət qədər yerli kadrların olması nəzərə alınaraq, arxeologiya, etnoqrafiya və epiqrafika sahəsində elmi tədqiqat işlərinin keyfiyyətini artırmaq məqsədilə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutu nəzdində Arxeologiya və Etnoqrafiya Sektoru təşkil olunmuşdur.

1981-ci ilin sentyabr ayında ümummilli liderimiz H.Ə.Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK və Nazirlər Soveti " Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması və istifadəsinin yaxşılaşdırılması haqqında" qərar qəbul etmişdi. Bu qərarın Azərbaycan arxeologiyası və etnoqrafiyasının inkişafında böyük əhəmiyyəti olmuşdur. Azərbaycan Respublikası Nazirlər kabinetinin 1993-cü il 8 iyul tarixli qərarı ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitutu nəzdindəki Arxeologiya və Etnoqrafiya Sektoru bazasında Arxeologiya və Etnoqrafiya İnstitutu yaradılmışdır. Bu elmi-tədqiqat institutunun yaradılması Azərbaycanda arxeologiya, etnoqrafiya, epiqrafika və numizmatika elmləri üzrə fundamental tədqiqatlar aparılmasına şərait yaratmışdı.

Ümümmilli liderimiz H.Ə.Əliyevin siyasi hakimiyyətinin 1993-cü ildən başlayan ikinci dövründə də bu sahəyə xüsusi fikir verilmişdir. Onun yüksək

diqqət və qayğısı nəticəsində respublikamızın bütün bölgələrinə arxeoloji ekspedisiyalar təşkil edilmişdir. Azərbaycanda geniş miqyaslı arxeoloji tədqiqatların aparılması nəticəsində maddi və mənəvi mədəniyyətimiz daha dərindən öyrənilmişdir. Arxeoloji ekspedisiyaların nəticələri ilə bağlı xeyli monoqrafiyalar və elmi məqalələr nəşr olunmuşdur.

Müstəqillik dövründə Azərbaycanda qədim dövrə aid maddi mədəniyyət nümunələrimizin öyrənilməsi ilə bağlı V.H.Əliyev tərəfindən 1991-ci ildə "Azərbaycanın Orta tunc dövrü mədəniyyəti" (rus dilində) adlı monoqrafiyası nəşr olunmuşdur. Əsərdə müəllif Azərbaycan Respublikasının ərazisindəki Orta tunc dövrü abidələri (yaşayış yerləri, müdafiə tikililəri, qəbir abidələri, arxeoloji tapıntılar, əkinçilik, maldarlıq, sənətkarlıq və digər təsərrüfat sahələri) haqqında geniş məlumat vermiş, onlardan əldə olunmuş arxeoloji materialları müqayisəli şəkildə təhlil etmişdir. Gəmiqaya təsvirlərinə xüsusi yer vermiş, oradakı ritual rəqs səhnələrini, ovsunla və totemlə bağlı qayaüstü təsvirlərin elmi interpretasiyasını vermişdir. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, oradakı qayaüstü təsvirlər insanları əhatə edən ətraf mühitlə, onların məişət və təsərrüfat həyatıyla, dini-ideoloji görüşləri ilə bağlıdır və qədim insanların maddi və mənəvi mədəniyyətini əks etdirir (1, s. 76).

1992-ci ildə N.Rzayev tərəfindən nəşr olunmuş "Əcdadların izi ilə" adlı əsərdə respublikamızın ərazisindəki arxeoloji abidələrdən aşkar olunmuş mənəvi mədəniyyətimizlə bağlı maddi-mədəniyyət nümunələri öyrənilmişdir. Əsərdə Şahtaxtı nekropolundan tapılmış boyalı küpənin üzərindəki təsvirlərin ovsunla bağlı piktoqrafik yazı olduğu qeyd edilmişdir (2, s. 66).

V.Baxşəliyev və Ə.Novruzlu tərəfindən nəşr olunmuş "Şahbuz bölgəsinin arxeoloji abidələri" (1992) adlı kitabda Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisindəki müxtəlif abidələrin təsnifatı verilmişdir (3).

1993-cü ildə V.Əliyev tərəfindən nəşr olunmuş "Gəmiqaya abidələri" kitabında bu abidədəki qayaüstü təsvirlərin geniş təhlili verilmişdir. Oradakı ovsunla və totemlə bağlı ritual səhnələrin mənəvi mədəniyyətimizlə bağlılıq təşkil etdiyi göstərilmişdir. Bir qrup qayaüstü təsvirlərin qədim piktoqrafik yazı nümunələrindən olduğu qeyd edilmişdir (4).

T.Əliyev tərəfindən nəşr olunmuş "Azərbaycan ərazisindəki siklopik tikililər" (1993, rus dilində) kitabinda respublikamızin (o cümlədən Naxçıvan MR) ərazisindəki siklopik tikililərin tikinti texnikası, istifadə məqsədi və digər məsələlər müqayisəli şəkildə öyrənilmişdir (5).

Ə.Novruzlu, V.Baxşəliyev tərəfindən bu dövrdə nəşr olunmuş "Culfa bölgəsinin arxeoloji abidələri" (1993), "Şərurun arxeoloji abidələri" (1993) kitablarında Naxçıvan Muxtar Respublikasının Culfa və Şərur rayonları ərazisindəki müxtəlif dövrlərə aid abidələrin təsnifatı verilmişdir (6; 7).

1994-cü ildə A.İ.Ələkbərov tərəfindən nəşr olunmuş "Azərbaycanın qədim gil fiqurları" əsərində I Kültəpə yaşayış yerindən aşkar olunmuş gil

heyvan fiqurları öyrənilmişdir. Onların totemizmlə, ovsunla və məhsuldarlıqla bağlı olduğu müəyyənləşdirilmişdir (8, s.71-95).

Naxçıvan Muxtar Respublikası ərazisində aparılan arxeoloji tədqiqatlar sonrakı dövlərdə də davam etdirilərək yeni elmi məqalələr, kitab və monoqrafiyalar nəşr olunmuşdur. "Naxçıvanın və Babək bölgəsinin arxeoloji abidələri" (Ə.Novruzlu, V.Baxşəliyev, 1995) (9), "Qıvraq yaylasının arxeoloji abidələri" (V.Baxşəliyev, A.Seyidov, V.Babayev, 1995, (rus dilində) (10), "Naxçıvan arxeologiyası" (V.Baxşəliyev, 1997, türk dilində) (11), "Tarixdən səhifələr" (A.Seyidov, 1999) (12), "Naxçıvan tunc dövründə" (A.Seyidov, 2000) (13), "Naxçıvanın ilk tunc dövrü abidələri və onların dövrləşdirilməsi" (A.Seyidov, 2000, azərbaycan və ingilis dillərində) (14), B.İbrahimov "Orta əsr Kiran şəhəri" (2000, rus dilində) (15) və s. kitab və monoqrafiyalarda Naxçıvanın qədim mədəniyyət nümunələri haqqında geniş məlumat verilmiş, onların mənşəyi və dövrləşməsi haqqında yeni fikirlər irəli sürülmüşdür.

1998-ci ildə V.Kərimov tərəfindən nəşr olunmuş "Azərbaycanın müdafiə tikililəri"(rus dilində) kitabında respublikamızın (o cümlədən Naxçıvan) ərazisindəki qədim siklopik tikililər, müdafiə istehkamları öyrənilmişdir. Onların tikinti texnikası, istifadə məqsədi və digər məsələlər haqqında fikirlər söylənilmişdir (16).

2001-2002-ci illərdə H.Ə.Əliyevin şəxsi təşəbbüsü və köməkliyi ilə kompleks şəkildə Naxçıvan-Gəmiqaya ekspedisiyası təşkil olunmuşdur. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri V.Talıbov tərəfindən 2001-ci ilin aprelin 26-da N26-01/S nömrəli sərəncam imzalanmışdır. Ekspedisiya zamanı Kiçik Qafqazın ən yüksək zirvəsində yerləşən Gəmiqaya qayaüstü təsvirləri öyrənilmişdir. Abidədə aparılan arxeoloji tədqiqatlar sonrakı dövrlərdə də davam etdirilmişdir.

2001-ci ildən başlayaraq respublikamızda paleolit problemləri üzrə aparılan elmi tədqiqat işləri beynəlxalq xarakter almışdır. Azərbaycan, Fransa, İtaliya, İspaniya, Rusiya, Gürcüstan və Hollandiya alimlərinin birgə iştirakı ilə beynəlxalq İNTAŞ-2000 adlı proqram hazırlanmışdır. Proqrama uyğun olaraq 2002-ci ilin sentyabr ayının 7-dən oktyabrın 1-dək Avropa alimləri Bakıya gələrək Azıx, Tağlar, Qazma və digər paleolit abidələrindən tapılmış arxeoloji, paleontoloji və paleoantropoloji materialları tədqiq etmişlər. 2001-2005-ci illərdə Ə. Cəfərovun Avropa alimləri ilə birlikdə apardığı elmi-tədqiqat işləri nəticəsində respublikamızda ibtidai insanların məskunlaşması tarixi daha dərindən öyrənilmişdir.

"Naxçıvanın İlk Tunc dövrü keramikası" (S.Aşurov, 2002) (17), "Şahtaxtı son tunc-erkən dəmir dövründə" (Q.Ağayev, 2002, rus dilində) (18), "Xaraba Gilanın qədim nekropolları" (Q.Aslanov, B.İbrahimov, S.Qaşqay, 2002, rus dilində) (19), "Nəhəcirdə arxeoloji araşdırmalar" (A.Seyidov, V.Baxşəliyev, 2002) (20), "Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti" (V.Baxşəliyev, 2002) (21), "Gəmiqaya təsvirlərinin poetikası" (V.Baxşəli-

yev, 2002) (22). "Qədim Sədərək" (N.Müseyibli, 2003) (23), "Gəmiqaya" (N.Müseyibli, 2004) (24), "Naxçıvanın qədim tayfalarının mənəvi mədəniyyəti" (V.Baxşəliyev, 2004) (25) və s. kitab və monoqrafiyalarda Naxçıvan arxeoloji abidələri haqqında məlumat verilmiş, onlardan tapılmış maddi-mədəniyyət nümunələri öyrənilmişdir. 2004-cü illərdə Naxçıvanda aparılan arxeoloji araşdırmalar zamanı B.İbrahimov tərəfindən e.ə. II minilliyin sonu-I minilliyin ortalarına aid Dəyirman dağı və Car nekropolları qeydə alınmışdır. 2004-2009-cı illərdə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba Gilan arxeoloji ekspedisiyası II Plovdağ nekropolunda geniş miqyaslı arxeoloji tədqiqatlar aparmış və Naxçıvanın Mesapotamiya ilə mədəni-iqtisadi əlaqələrinə aid yeni faktlar aşkar etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri V.Talıbov tərəfindən, 2005-ci ilin dekabrın 6-da imzalanmış «Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında» sərəncamına əsasən muxtar respublikamızın bütün abidələrinə arxeoloji ekspedisiyalar təşkil edilmişdir. Ekspedisiyaların fəaliyyəti nəticəsində 1173 abidə qeydə alınaraq pasportlaşdırılmışdır ki, onların da əksəriyyətini yeni arxeoloji abidələr təşkil edir.

2005-ci ildə V.Baxşəliyev və T.Xəlilov tərəfindən aparılan arxeoloji tədqiqatlar zamanı Gəmiqaya ətrafında e.ə. II-I minilliyə aid yeni arxeoloji abidələr (Dəmyələr, İlikliqaya, Qumluq yaşayış yeri və nekropolları) aşkar olunaraq öyrənilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2008-ci ilin fevralın 5-də imzaladığı «Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən 2008-2009-cu illərdə aparılması nəzərdə tutulan arxeoloji ekspedisiyaların maliyyələşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamına əsasən respublikamızın bütün bölgələrində arxeoloji qazıntılar aparılmışdır. Göytəpə (T.Axundov), Kərimli (N.Muxtarov), Goranboy (M.Hüseynov), Gədəbəy (T.Göyüşova), Şortəpə (A.Məmmədov), Şəmkir (T.Dostuyev) və s. arxeoloji ekspedisiyaları təşkil olunmuşdur. Kamiltəpə (T.Əliyev), Şəmkir-Qaraçəmənli (İ.Babayev) abidələrində aparılan arxeoloji tədqiqatlar beynəlxalq səviyyəli olmuş ABŞ, Almaniya və Fransa arxeoloqlarının iştirakı ilə aparılmışdır. Naxçıvan MR ərazisində arxeoloji tədqiqatlar genişləndirilmiş, 8 ekspedisiya daş dövründən orta əsrlər dövrünə aid 13 abidədə qazıntı işləri aparmışdır.

2008-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının ərazisində, Şahtaxtı (Q.H.Ağayev), Plovdağ və Sumbatan (B.İ.İbrahimli), Ovçulartəpəsi (V.B.Baxşəliyev, C.Marro, S.H.Aşurov), Oğlanqala (V.B.Baxşəliyev, L.Ristvet, S.H.Aşurov), I Maxta Kültəpəsi (S.H.Aşurov), Ərəbyengicə (A.Q.Seyidov, V.B.Baxşəliyev), Xələc (A.Q.Seyidov, V.B.Baxşəliyev), I Kültəpə (V.H.Əliyev), Meydantəpə (Ə.H.Bədəlov) Qazma mağarası (A.Zeynalov), Rəsul dərəsi (Q. İsmayılzadə, B.İbrahimli) kimi arxeoloji abidələrdə tədqiqat işləri davam etdirilərək maddi və mənəvi mədəniyyətimizin öyrənilməsi

sahəsində yeni elmi biliklər əldə olunmuşdur (26). Ovçulartəpəsi (V.B.Baxşəliyev, C.Marro, S.H.Aşurov), Oğlanqala (V.B.Baxşəliyev, L.Ristvet, S.H.Aşurov) abidələrində aparılan arxeoloji tədqiqatlar beynəlxalq səviyəli olmuş, ABŞ və Fransa arxeoloqlarının iştirakı ilə aparılmışdır. Aparılan arxeoloji tədqiqatlarla bağlı "Naxçıvan abidələri" enisklopediyası (2008) (27), "Naxçıvan tarixi atlası" (2010) (28), "Ərəbyengicə" (A.Seyidov, V.Baxşəliyev, 2010) (29), "Xələc" (A.Seyidov, V.Baxşəliyev, 2010) (30), "Naxçıvanda arxeoloji tədqiqatlar" (V.Baxşəliyev, L.Ristvet, H.Gopnik S.Aşurov, 2010) (31) və s. kitab və monoqrafiyalar nəşr olunmuşdur.

Müstəqillik dövründə Azərbaycanda arxeoloji tədqiqatlarla (32) bağlı bir çox konfrans və simpoziumlar da keçirilmişdir. "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (24-25 aprel 2009-cu il)(33), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik", "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri", "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (5-6 oktyabr 2007-ci il) (34) konfrans və simpoziumlarında edilən məruzələrdə Azərbaycan arxeologiyasının müxtəlif problemlərinə toxunulmuş, tədqiq olunmuş arxeoloji abidələrdən əldə olunmuş maddi-mədəniyyət nümunələri öyrənilmişdir.

Müstəqillik illərində Azərbaycan Respublikasının ərazisində əvvəlki dövrlərlə müqayisədə daha geniş planlı və sistematik arxeoloji tədqiqatlar aparılmışdır və bu arxeoloji tədqiqatlar uğurla davam etdirilir. Dövlətin göstərdiyi yüksək diqqət və qayğı sayəsində qədim tariximiz, maddi və mənəvi mədəniyyətimiz dərindən öyrənilir.

## ƏDƏBIYYAT:


1. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку, Элм, 1991.
2. Rzayev N.İ. Əcdadların izi ilə. Bakı, Azərnəşr, 1992.
3. Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı, Elm, 1992.
4. Əliyev V.H. Gəmiqaya abidələri. Bakı, Azərnəşr, 1992.
5. Алиев Т.Р. Циклопические сооружения на территории Азербайджана. Баку, Элм, 1993.
6. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Culfa bölgəsinin arxeoloji abidələri. Bakı, Elm, 1993.
7. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şərurun arxeoloji abidələri. Bakı, Elm, 1993.
8. Алекперов А.И. Терракота древнего Азербайджана. Баку. Элм, 1994.
9. Baxşəliyev V.B., Novruzlu Ə.İ., Naxçıvan və Babək bölgəsinin arxeoloji abidələri. Bakı, Azərbaycan, 1995.
10. Бахшалиев В.Б., Сеидов А.Г., Бабаев В.М. Археологические памятники Кывракского полосгорья. Баку, Элм, 1995.
11. Baxşəliyev V.B. Naxçıvan arxeolojisi. İstanbul, Arxeoloji va sanat, 1997.
12. Seyidov A.Q. Tarixdən səhifələr. Bakı, Qismət, 1999.
13. Seyidov A.Q. Naxçıvan tunc dövründə. Bakı, Elm, 2000.

14. Seyidov A.Q. Naxçıvanın ilk tunc dövrü abidələri və onların dövrləşdirilməsi (azərbaycan və ingilis dillərində). Bakı, Çaşıoğlu, 2000.
15. Ибрагимов В.И. Средневековый город Киран. Баку-Москва, 2000.
16. Керимов В.И. Оборонительные сооружения Азербайджана, Баку, Огуз ели, 1998.
17. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı, Elm, 2002.
18. Агаев Г.Г. Шахтахты в эпохи поздней бронзы и раннего железа. Баку-Москва, Агрыдаг, 2002.
19. Асланов Г.М., Ибрагимов В.И., Кашкай С.М. Древние некрополы Хараба-Гилана. Баку, Нурлан, 2003.
20. Seyidov A.Q., Baxşəliyev V.B. Nəhəcirdə arxeoloji araşdırmalar. Bakı, Elm, 2002.
21. Baxşəliyev V.B. Naxçıvanın Erkən Dəmir dövrü mədəniyyəti. Bakı, Elm, 2002.
22. Baxşəliyev V. B. Gəmiqaya təsvirlərini poetikası. Bakı, Elm, 2002.
23. Müseyibli N.Ə. Qədim sədərək. Bakı, Nafta-Pres, 2003.
24. Müseyibli N.Ə. Gəmiqaya. Bakı, Çaşıoğlu, 2004.
25. Baxşəliyev V.B. Naxçıvanın qədim tayfalarının mənəvi mədənyyəti. Bakı, Elm, 2004.
26. Azərbaycanda arxeoloji tədqiqatlar.2008. Bakı, 2009.
27. Naxçıvan abidələri enisklopediyası. İstanbul, Bakanlar media, 2008.
28. Naxçıvan tarixi atlası. Bakı. Kortaqrafiya fabriki, 2010.
29. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə. Bakı, Nurlan, 2009.
30. Seyidov A.Q., Baxşəliyev V.B. Xələc. Bakı, Elm, 2010.
31. Baxşəliyev V.B., Ristvet L., Gopnik H., Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar . Naxçıvan, Əcəmi, 2010.
32. Azərbaycanda arxeoloji tədqiqatlar.2009. Bakı, 2010.
33. Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan. Naxçıvan, 2009.
34. Naxçıvan bu gün: İslahatlar, perspektivlər. Naxçıvan, 2008.

## ARCHAEOLOGICAL INVESTIGATIONS IN THE EPOCH OF INDEPENDENCE OF NAKHCHIVAN

**Togrul Khalilov**

### Summary

In the article studied by archeological excavations in the epoch of independence of Nakhchivan. During this epoch, published in books and monographs, the spoken archeological resources. Is determined that the epokh of independence in attention and care shown by the state of archaeological research.

**Keywords: Azerbaijan, Nakhchivan, epoch of independence, archaeological research, ceramic.**

# АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ЭПОХУ НЕЗАВИСИМОСТИ В НАХЧЫВАНЕ

**Тогрул Халилов**

## Резюме

В статье даются краткие сообщения об изданных в Республике и за границей монографиях по истории и культуре Нахчывана, а также сведения о проведенных археологических исследованиях в годы независимости. Указывается, что в годы независимости, государство уделяло большое внимание и заботу археологическим исследованиям в Азербайджане.

**Ключевые слова: Азербайджан, Нахчыван, эпоха независимости, археологические исследования, керамика.**

# EPİQRAFİK İRSİN TOPLANILMASINDA AZƏRBAYCAN TƏDQİQ VƏ TƏTƏBBÖ CƏMİYYƏTİ NAXÇIVAN ŞÖBƏSİNİN VƏ NAXÇIVAN DÖVLƏT TARİX MUZEYİNİN ROLU

**Afaq Quluzadə**
afaqquluzadeh@mail.ru
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

**Açar sözlər: Naxçıvan, muzey, epiqrafika, kitabə, ekspedisiya.**

Orta əsrlər tarixi məsələlərinin araşdırılmasında digər yazılı qaynaqlarla yanaşı epiqrafik abidələr mühüm əhəmiyyət daşıyır. Epiqrafik yazıların – daş, saxsı, taxta, metal və başqa bərk material üzərində müxtəlif dillərdə həkk edilmiş kitabələrin muzeylərdə qorunub saxlanılması bir ənənə halını almışdır. İslam mədəniyyətində ilk muzey Kəbə olmuşdur. Hicri I əsrin ortalarından Məkkədəki Kəbə evinə ərəb sərkərdə və xəlifələri tərəfindən qiymətli və üzərində yazı olan əşyalar, sənədlər hədiyyə edilir və saxlanılmaq üçün verilirdi. Tədricən Kəbə nadir, çox qiymətli əşyaların, sənədlərin və kitabələrin saxlanc yerinə çevrilmişdi (1,10-11; 2, 3-6).

XI əsrdə Çində yüzlərlə daş lövhələrdə həkk edilmiş Qanunlar kitabını qorumaq üçün dünyanın ilk epiqrafika muzeyi yaradılmışdı (3, 29-33).

Rusiyada I Pyotrun dövründən başlayaraq muzeylərin antik eksponatlarla zənginləşməsinə xüsusi diqqət yetirilirdi. 1718-ci ildə I Pyotr əhalidən hər cür qeyri-adi qədim əşyalar, daş, dəmir və mis üzərindəki qədim yazıları almaq haqqında fərman vermiş (4, 542), arxeoloji tapıntılar üçün pul mükafatları təyin etmişdi (5).

Naxçıvanın memarlıq abidələri üzərində daş lövhələrdə həkk edilmiş, müxtəlif rəngli kaşılarla və kiçik ölçülü kərpiclərlə yığılmış kitabələr XIX əsrdən başlayaraq mütəxəssislərin diqqətini cəlb etmişdir. Bunun nəticəsi olaraq həmin əsrin 30-90-cı illərində rus və alman tədqiqatçılarının məqalə və əsərlərində bir neçə kufi xətli kitabələrin oxunuşu və tərcüməsi yer almışdır (6,14-16; 7; 8; 9; 10; 11). Abidələrin tədqiqi üçün oyanan maraq bir sıra elmi cəmiyyətlərin üzvlərinin Naxçıvana səfərlərini reallaşdırır. Tarixi faktlarının əhəmiyyəti və xətt xüsusiyyətlərinin zənginliyi baxımından fərqlənən ərəb-farsdilli kitabələr XIX əsrin sonlarından başlayaraq mühafizə edilmək üçün muzey fondlarına toplanılır. Bu gün Muxtar Respublikanın epiqrafik irsinin böyük bir qismi xarici ölkələrin muzeyləri ilə yanaşı Milli Azərbaycan Tarixi Muzeyində, Naxçıvan şəhərindəki "Açıq səma altındakı Muzey"də, Ordubad Tarix-diyarşünaslıq Muzeyinin və Naxşıvan Dövlət Tarix Muzeyinin fondlarında qorunur.

1871-ci ildə Tiflisdə Qafqaz Arxeoloji Komitəsinin yaradılması və 1881-ci ildə Tiflisdə çağırılan Arxeoloji qurultayın qarşıya qoyduğu vəzifələr Rusiya İmperiyasına daxil edilən Azərbaycanın, o cümlədən Naxçıvanın tarixi abidələrinə marağı bir daha artırır. Əsrin ortalarında olduğu kimi, rus

və əcnəbi mütəxəssislərin bu bölgəyə gəlişi davam edir. 1896-ci ildə Naxçıvana gələn arxeoloq Dumberq Xaraba Gilan qədim şəhər yerindən üzərində ərəb dilində kitabə həkk edilmiş iki mərmər lövhəni, 1913-1914-cü illərdə isə Qafqaz Tarix və Arxeologiya İnstitutunun əməkdaşı S.V.Ter-Avetisyan 80 pud (1280 kq) ağırlığında, ərəbdilli kitabələr yazılmış mərmər sənduqəni Qafqaz Muzeyinə (indiki Gürcüstan Dövlət Muzeyi) aparmışlar (12, 191).

1920-ci illərdə gənc Azərbaycan Hökumətinin verdiyi bir sıra qərar və qətnamələr, Azərbaycan Arxeoloji Komitəsi və Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti kimi elmi cəmiyyətlərin təşkili milli sərvətimiz olan maddi mədəniyyət abidələrinin və incəsənət nümunələrinin qeydiyyata alınması, toplanılması, mühafizəsi və tədqiqi sahəsində atılan mühüm addım oldu. Azərbaycan tarixinin hərtərəfli tədqiqində əhəmiyyət kəsb edən epiqrafik abidələr məhz bu illərdən sistemli şəkildə toplanılaraq öyrənilir.

ATTC-nin təşəbbüsü ilə, ölkəşünaslıq fəaliyyətinin birləşdirilməsi və genişləndirilməsi üçün 1924-cü ilin 21-24 sentyabrında Bakı şəhərində çağırılan I Ümumazərbaycan Ölkəşünaslıq qurultayının qətnaməsində xalq sənəti nümunələrinin toplanılması, qədim abidələrin dəqiq qeydiyyata alınması və mühafizəsi, ölkənin mərkəzi və yerli muzeylərinin zənginləşdirilməsi nəzərdə tutulurdu (13). Azərbaycan Arxeoloji Komitəsinin Nizamnaməsində qədim əşyaların muzeylərə verilməsi əsas müddəalardan biri idi. Ölkəşünaslıq qurultayı Azərbaycanın maddi mədəniyyət nümunələrinin qorunmasına və yerlərdə ölkəşünaslıq muzeylərinin təşkilinə güclü təkan verdi. Rayonlarda bu işlər Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti şöbələrinin vasitəsilə həyata keçirilirdi .

1920-ci illərdə Naxçıvan şəhərində ziyalı bir şəxs olan Balabəy Əlibəyovun "Diyari tarixi keçmişimiz" adlı muzeyi fəaliyyət göstərirdi. Onun 1887-ci ildə öz həyətində üstündə baramalar olan tut ağacı nümayiş etdirməsi haqqında məlumat verilir. B.Əlibəyovun uzun illər ərzində topladığı əntiq əşyalardan ibarət kolleksiya onun evinin iki otağında və dəhlizdə yerləşdirilmişdi. Maraqlananlar istədikləri vaxt buraya gəlib qədim əşyalarla tanış olurdular. Lakin bu illərdə Naxçıvanda dövlət muzeyi yox idi. Buna görə qurultaydan bir ay sonra Naxçıvan SSR Xalq Komissarlar Şurası 30 oktyabr 1924-cü il tarixli iclasında "Naxçıvan diyarında muzey təşkilini vacib saydı və müvafiq təşkilatlardan təlimat göndərilməsini " xahiş etdi .

Arxiv sənədlərinin araşdırılması göstərir ki, 1925-ci ilin sonunadək Naxçıvan XKŞ-nin qərarını həyata keçirmək mümkün olmamışdı. Bu məsələ həmin ilin may ayında təşkil olunan ATTC-nin Naxçıvan şöbəsinin diqqət mərkəzində olmuşdu. Öz fəaliyyətində Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin və Azərbaycan Arxeoloji Komitəsinin Nizamnamələrinə, I Ümumazərbaycan Ölkəşünaslıq qurultayı qətnamələrinə əsaslanan Naxçıvan şöbəsi diyarın hərtərəfli tədqiq edilməsi üçün dövlət muzeyinin yaradılmasını vacib hesab edirdi. Şöbənin idarə heyəti bir neçə dəfə təşəbbüs göstərsə də bu məsələ baş tutmamışdı (14).

Naxçıvan SSR XKŞ muzey təşkilini sürətləndirmək məqsədilə 1926-cı il yanvarın 26-da B. Əlibəyovun muzeyinin dövlət mülkiyyətinə qəbul edilməsi, onun ayda qırx manat əmək haqqı ilə ömürlük olaraq muzeyin müdiri təyin edilməsini qərara almışdı. Eyni zamanda mart ayında muzey eksponatlarının qəbul edilməsi üçün beş nəfərdən-Vahab Həsənzadə (ATTC yerli şöbəsinin sədri), Mirbağır Mirheydərzadə (şöbənin elmi katibi), Həsən Rəhmanov, Xəlil Hacılarov və Abbasqulu Əliyarovdan (Mərkəzi İcraiyyə Komitəsi) ibarət komissiya təşkil edilmişdi (15). Beləliklə, B.Əlibəyovun yaratdığı muzey şəxsi müəssisə çərçivəsindən çıxaraq dövlət müəssisəsi statusu almışdı.

Naxçıvanda bu muzeyin yenidən təşkili, formalaşması və fond yığımında ATTC-nin yerli şöbəsi müstəsna rol oynamışdı. Həm ATTC-nin yerli şöbəsi, həm də Naxçıvan muzeyi Xalq Maarif Komissarlığının tərkibində fəaliyyət göstərirdi. ATTC-nin Nizamnaməsinə əsasən Naxçıvan şöbəsi muzeyin işinə rəhbərlik etməli idi. Bunu nəzərə alan şöbə muzeyin fondunun yenidən qurulması və zənginləşməsinə çalışaraq martın 3-də yerli qəzet vasitəsilə əhaliyə müraciət edib qədim əşyaların pulla, yaxud təmənnasız (hədiyyə etməklə) TTC şöbəsinə verilməsini xahiş etmişdi (16). Bu müraciətdən sonra vətəndaşlar, xüsusilə ziyalılar fondun zənginləşməsi üçün təşəbbüs göstərdilər. Bu da muzeyin fond yığımına müəyyən dərəcədə müsbət təsir etdi. Şəxsi əşyalarını muzeyə hədiyyə edənlər sırasında Naxçıvanın tanınmış ziyalıları, o cümlədən Mirbağır Mirheydərzadə, Mircəfər Mirişli və b. var idi (17, 52). Muzeyə hədiyyə edilən əşyaların əksəriyyətinin üzərində ərəb və fars dillərində sahibinin adı və poetik misralar həkk edilmişdir.

1926-cı il mart ayının 17-də Naxçıvan Xalq Maarif Komissarlığının 82 saylı əmri ilə B.Əlibəyovun evində saxlanılan “asari ətiqə”ni siyahıya almaq üçün M.Mirheydərzadə, B.Əlibəyov və X.Hacılarovdan ibarət komissiya yaradıldı (18).

1925-26-cı illərdə Azərbaycanın qədim tarixinin öyrənilməsi məqsədilə ATTC AAK-la birgə ölkə ərazisində arxeoloji işlərin aparılması və 1926-cı ilin yay aylarında Xocalı-Gədəbəy və Qızılvəng mədəniyyətinin öyrənilməsi üçün bir neçə ekspedisiya təşkil edilməsini nəzərdə tutur. Naxçıvan şöbəsi də həmin ilin fevral ayında Xaraba Gilanda qazıntı aparmaq məqsədi ilə ATTC-dən mütəxəssis göndərməyi xahiş etmişdi (19,87).

Azərbaycan Dövlət Muzeyinin direktoru Davud Şərifovun qurultayda “Azərbaycanda muzey işinin təşkili” adlı məruzəsində göstərilirdi ki, elmi ekspedisiyalar öz işlərinin maddi nəticələrini müvafiq muzeylərə göndərməli, muzeylər isə bunlara yer ayırmaqla elmi işçilərə şərait yaratmalıdır. O, həm də muzey işinin inkişafı üçün əsas diqqətin muzey fondunun yaradılmasına verilməsini qeyd edirdi ( 20).

Beləliklə, 1926-cı ildən – AAK, ATTC və Naxçıvan şöbəsinin bir neçə üzvünün də iştirak etdiyi və İ.İ.Meşşaninovun rəhbərliyi ilə Qızılvəngdə aparılan qazıntılardan başlayaraq Şöbə, fəaliyyət göstərdiyi illər ərzində

tarixi-arxeoloji tədqiqatlardan aşkar edilmiş maddi mədəniyyət nümunələrinin, o cümlədən ərəb və farsdilli kitabələrin müəyyən qisminin muzey fonduna yığılmasına nail olmuşdu.

Qeyd etmək lazımdır ki, B.Əlibəyovun muzeyinin dövlət mülkiyyətinə qəbul edilməsinə baxmayaraq, muzey üçün bina ayrılmadığından o, əvvəlki kimi B.Əlibəyovun evində fəaliyyət göstərirdi. Lakin darısqal ev şəraiti ekspozisiya qurulmasını mümkünsüz edirdi. Bir neçə dəfə eksponatları inventarlaşdırmaq üçün komissiya təşkil edilsə də B. Əlibəyov buna icazə verməmişdi. Tətqiqatlar zamanı əldə edilən maddi mədəniyyət nümunələri, o cümlədən kitabələrin surətləri Xalq Maarif Komissarlığının Naxçıvan şöbəsi üçün ayırdığı otaqlardakı şkaflarda saxlanılırdı. 1926-cı ildə ekspedisiyanın tərkibində Naxçıvanda tədqiqat aparan AAK-ın elmi katibi V.M.Sısoyev elmi səfərin hesabatında muzey haqqında təəssüratını bölüşərək, onun inventarlaşdırılmasını və XMK-nın tərkibində statusunun möhkəmləndirilməsinin vacibliyini də göstərirdi (21,111).

Naxçıvan Dövlət Tarix Muzeyinin əsasını təşkil edən Balabəy Əlibəyovun muzeyinin kolleksiyasında, V.M.Sısoyevin yazdığına görə, üzərində mixi kitabə olan silindr şəkilli eksponat var idi. V.M.Sısoyev bu silindrin tarixinin xristian erasından min, bəlkə daha əvvələ aid ola biləcəyini ehtimal edirdi ( 21,110).

Naxçıvanda aparilan elmi tədqiqatlardan fonda daxil olan ilk epiqrafik material 1926-cı ilin iyun ayında Azərbaycan Arxeoloji Komitəsi, Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti və onun Naxçıvan şöbəsi tərəfindən Xaraba Gilan qədim şəhər yerində birgə aparılan arxeoloji qazıntıdan əldə edilmişdi. Kirəc materialı üzərində ərəb dilində yazılan və ATTC-nin üzvü İsa Əzimbəyovun oxuduğu 75 ədəd kitabə fraqmentinin 21 ədədi muzeyin fonduna verilmişdi (22, 309-310). Qazıntı zamanı üzərində arami yazısı olan dəri parçası da aşkar edilmişdi. Sonradan həmin eksponat Bakıya – SSRİ EA–nın Azərbaycan filialına göndərilmişdi (23). Xaraba-Gilan şəhər yerində aparılan sonrakı arxeoloji tədqiqatlar göstərdi ki, gəc üzərində yazılar seriya ilə hazırlanmış və ictimai binaların, evlərin daxildən bəzədilməsində (interyerində) istifadə olunmuşdur (24,122-125).

1926-cı ildə AAK-ın elmi katibi V.M.Sısoyev ekspedisiyanın planına uyğun olaraq diyarın rayon və kəndlərini gəzmiş, tarixi abidələrin qeydiyyatını aparmış, onlar üzərindəki ərəb və farsdilli kitabələrin estampını (surətini) çıxarmışdı. İsa Əzimbəyovun oxuduğu həmin kitabə mətnlərini V.M.Sısoyev rus dilinə tərcümə edərək hesabatında çap etdirib. Səfərdə V.M.Sısoyevi ATTC yerli şöbəsinin elmi katibi Mirbağır Mirheydərzadə müşayiət etmişdi.

1927-ci ildə Naxçıvana ikinci səfərində V.M.Sısoyev xalq heykəltəraşlığının bir nümunəsi olan daş qoç heykəllərinin qeydiyyatına və üzərindəki kitabələrin məzmununa diqqət yetirmiş, 25 belə abidə qeydə almışdı. O, AAK-ın iclaslarında müzakirə edilən və mübahisəli mövzu olan bu abidələ-

rin Ordubad rayonunun Düylün kənd qəbiristanlığındakı daş qoç heykəlinin, eyni zamanda bir çox digərlərinin timsalında türk tayfalarına mənsubluğunu bir daha öz hesabatında qeyd etmişdi (25).

Ekspedisiya üzvləri Bakıya qayıtdıqdan sonra M.Mirheydərzadə B.M.Sısoyevlə birlikdə başladıqları bu əhəmiyyətli işi davam etdirmişdi. V.M.Sısoyevdən fərqli olaraq, onun ərəb və fars dillərini mükəmməl bilməsi (eyni zamanda rus dilini də yaxşı öyrənmişdi) kitabələrin toplanması və qeydiyyatının ardıcıl aparılmasını asanlaşdırırdı. M.Mirheydərzadə dəfələrlə Naxçıvan diyarının ayrı-ayrı rayon və kəndlərində ezamiyyətdə olarkən, onlarla daş qoç heykəllərini qeydə almış, yerləşdiyi ərazi, üzərindəki kitabələr haqqında məlumat vermiş, estamplarını çıxarmışdır. İlk dəfə olaraq heykəllər üzərində işlənmiş təsvir və süjetli kompozisiyalardan bəhs etmişdir. V.M.Sısoyevin hesabatında Düylün abidəsinin ərəb dilindəki kitabəsinin tam mətni, o cümlədən tarixi verilməmişdir. Tədqiqatçılar bu abidənin tarixini XVI əsrə aid etmişlər (26; 26,75). M.Mirheydərzadə kitabənin tarixini oxuyaraq onun h. 790-cı ildə (mil.1389-1390), yəni buradakı XIV əsrə aid sənduqə formalı abidələrlə eyni dövrdə hazırlandığını yazmışdır. Qeyd edək ki, XIV əsr tarixli heykəllər yeganə deyil. Bunlardan birinin- Naxçıvan şəhərində qeydə aldığımız heykəlin üzərində h.792 rəqəmi beşguşəli ulduz daxilində həkk edilmişdir. Bu nümunələr Muxtar Respublika ərazisindəki daş qoç heykəllərinin tam qeydiyyatının aparılmasını və bu abidələrin "qəbirlər üzərində XV əsrdən - Ağqoyunlu və Qaraqoyunluların hakimiyyəti dövründə ucaldılması adətinin canlandığı" - fikrinə (27,44) yeni müstəvidən baxılması məsələsini ortaya qoyur.

1927-ci ilin may ayında M.Mirheydərzadə Şahbuz rayonunun Kənd Şahbuz kəndində 1,5m uzunluğunda olan XIV əsrə aid daşın və qəbiristanlıqdakı daş qoç heykəllərinin şəkillərini çəkmiş, üzərlərindəki kitabələrin estampını çıxararaq muzeyə vermişdir. M.Mirheydərzadənin yazdığına görə, 1934-cü ildə Naxçıvana gələn SSRİ EA-nın Azərbaycan filialı ekspedisiyasının üzvləri bu materialları Bakıya aparmışdır, muzeydə isə həmin tapıntılar barədə akt saxlanılır (23).

Azərbaycanı Öyrənən Cəmiyyət yerlərdə ərəb və farsdilli kitabələrin öyrənilməsinə xüsusi diqqət yetirirdi. 1928-ci il fevralın 29-da Cəmiyyətin beş nəfər üzvünün iştirakı ilə (A.R.Zifeldt, Ə. Ələkbərov, Rəfibəyov, F. Şabanov və Naxçıvan şöbəsinin sədri Hüseynov) keçirilən və Naxçıvan şöbəsinin fəaliyyətinə həsr olunan müşavirədə A.R. Zifeldt tarixi-etnoqrafik və arxeoloji materialların toplanılması və onların qeydiyyatına diqqət yetirməyi, Rəfibəyov incəsənət əşyalarının və pulların müəyyən sistemlə toplanılmasını, qəbirüstü daşların, qədim qabların şəkillərinin, eskizlərinin çəkilməsini təklif etmişdilər. Müşavirədə qarşıya qoyulan bu vəzifələrin yerinə yetirilməsi və toplanılan maddi mədəniyyət nümunələrinin vahid bir məkanda - muzeydə qorunması və tədqiq edilməsi üçün əlverişli bina lazım idi. 1928-ci ilin aprelində Naxçıvan Xalq Komissarları Şurasının Naxçıvan

muzeyinin Dövlət Muzeyi adlandırılması barədə verdiyi qərarı muzeyin yenidən qurulması və inkişaf etdirilməsi üçün imkan yaradırdı.

Xalq Maarif komissarı Namazovun sədrliyi ilə Naxçıvanı Öyrənən Cəmiyyətin 17 mart 1929-cu ildə keçirilən iclasında, XKŞ-nın həmin ilin 24 fevral tarixli qərarına və Cəmiyyətin yeni Nizamnaməsinə əsasən yerli şöbənin elmi katibinə Naxçıvan muzeyini təhvil götürmək tapşırılır. Eyni zamanda muzey üçün bina ayrılması ilə məşğul olmaq Namazova həvalə edilir. XMK-nın bu qərarından bir müddət sonra - Naxçıvan XKŞ-nin sədri Məmmədxanovun 37 saylı əmri ilə M.Mirheydərzadə 15 aprel 1929-cu il tarixdən Naxçıvan Dövlət Muzeyinə müdir təyin edilir.

Cəmiyyətin üzvləri muxtar respublikanın ayrı-ayrı rayon və kəndlərinə elmi səfərlərində tarixi abidələrin qeydə alınmasına, ərəb və farsdilli kitabələrin toplanılmasına xüsusi diqqət verirdi. Şöbə üzvləri ezamiyyətlərin nəticələri barədə hesabat verməklə yanaşı, qeydə alınan, öyrənilən abidələr haqqında mətbuatda vaxtaşırı məqalələr dərc etdirirdilər. Seyyid Səbrinin (28), Mirbağır Mirheydərzadənin (29,78-80) və Məhəmməd Rasizadənin (30,81-83) məqalələrində tarixi abidələr və onların üzərindəki kitabələr haqqında məlumatlar verilmişdir. Aparılan tədqiqatlar Naxçıvan Dövlət Tarix Muzeyinin fondunda və dövlət arxivlərindəki Naxçıvan şöbəsinin fəaliyyəti ilə bağlı sənədlərdə öz əksini tapmışdır.

1926-1929-cu illərdə ATTC (1927-ci ildən Azərbaycanı Öyrənən Cəmiyyət) Naxçıvan şöbəsinin bilavasitə rəhbərliyi və iştirakı ilə Dövlət muzeyinin bünövrəsi qoyuldu və maddi-mədəniyyət nümunələri hesabına zənginləşən muzey fondunda epiqrafik materiallar da təmsil olundu.

1929-cu ilin sonlarında yaradılan Azərbaycan Elmi-Tədqiqat İnstitutunun tarix-etnoqrafiya şöbəsinin maddi mədəniyyət bölməsi Azərbaycan tarixi və mədəniyyətinə aid bütün məsələlərin ətraflı surətdə tədqiq edilməsi üçün bir çox arxeoloji tədqiqatların aparılmasını fəaliyyət planına daxil etmişdi (31, 49). XX əsrin 30-cu illərində SSRİ EA Azərbaycan filialı ekspedisiyalarının Naxçıvanın bir sıra yaşayış məntəqələrinin yaxınlığında apardığı arxeoloji tədqiqatlarda muzeyin müdiri M.Mirheydərzadə də iştirak edirdi. Arxiv sənədlərindən məlum olur ki, o, ekspedisiyalardan qayıtdıqdan sonra XMK tərəfindən yenidən arxeoloji tədqiqatlar aparmaq, tarixi abidələri qeydə almaq üçün rayonlara göndərilir. Bu səfərlər zamanı muzey əhəmiyyətli əşyaların alınması da tapşırılırdı. M.Mirheydərzadənin muzeyə rəhbərlik etdiyi 1930-1945-ci illərdə tədqiqatlar iki istiqamətdə aparılmışdı: arxeoloji kəşfiyyat və epiqrafik materialların toplanılması.

Azərbaycanı Öyrənən Cəmiyyətin Naxçıvan şöbəsinin və Naxçıvan Dövlət Tarix Muzeyinin fəaliyyətini araşdırarkən məlum olur ki, Naxçıvan MR-in tarixi abidələrinin axtarışı, öyrənilməsi və tədqiqi prosesində yerli kadrlar həm bilavasitə M.Mirheydərzadənin iştirakı və rəhbərliyi ilə, həm də SSRİ EA Azərbaycan filialının ekspedisiyalarının tərkibində arxeoloji kəşfiyyat və qazıntı işləri ilə kifayətlənməmişlər. Bu səfərlərdə ərəb və farsdilli

kitabələrin öyrənilməsi də diqqət mərkəzində olmuşdur. M.Mirheydərzadə elmi katib işlədiyi 1926-1929-cu illərdə olduğu kimi, 1930-cu ildən etibarən bu sahədə fəaliyyətini davam etdirmişdir. O, kitabələrin qeydiyyatını aparmış, onlar haqqında yığcam, bəzi hallarda böyuk əhəmiyyət kəsb edən məlumat vermişdir. Fəxrəddin Cəfərovun yazdığına görə, Naxçıvan ərazisində olan yetmiş beş tarixi abidə və onlar üzərindəki kitabələrin siyahısı M.Mirheydərzadə tərəfindən tərtib edilərək muzey fondunda saxlanılır (32).

1934-cü ildə Ə.Ələkbərovun rəhbərlik etdiyi ekspedisiyanın Əbrəqunus rayonuna səfərində Əlincəçay xanəgahı abidələrində tədqiqatlar davam etdirilir. Xanəgah kompleksinin və buradakı mərmər qəbirüstü abidələrin hicri IX-XII əsrləri əhatə edən kitabələrinin estampları çıxarılır və fotoşəkilləri çəkilir. Türbənin minarəsindən qopub düşən kərpiclərdən nümunə olaraq Naxçıvan muzeyinə gətirilir (23).

M.Mirheydərzadə 1934-cü ildə şərqşünas K.N.Smirnovu, 1935 və 1939-cu illərdə epiqrafçı Ə.Ələsgərzadəni Naxçıvan səfərlərində müşaiyət etmişdi. 1936-cı ildə Ə.Ələkbərovun rəhbərliyi ilə işləyən ekspedisiyanın tərkibində İlanlı dağın zirvəsində olan yazıları qeydə aldıqdan sonra Ordubad şəhərindəki Came məscidinin kitabəsinin estampı çıxarılır, Anbaras məscidi öyrənilir və Sərşəhər məhəlləsindəki qədim çinar ağacının şəkilləri çəkilir. Çinar ağacının əkilməsi haqqında (h.1210–cu il) daş kitabə hazırda Ordubad Tarix-diyarşünaslıq muzeyindədir. M.Mirheydərzadə ekspedisiya zamanı toplanılmış bu materialların Naxçıvan muzeyinin arxivində saxlanıldığını hesabatında qeyd etmişdir. 1937-ci ildə M.Mirheydərzadə XMK-nın göndərişi ilə yenidən Qarabağlar kəndindəki memarlıq abidələrinin kitabələrinin tədqiqi üçün ezam edilmişdir.

M.Mirheydərzadənin uzun illər ərzində Naxçıvanın tarixi və epiqrafik abidələri sahəsində apardığı (bu məqalədə haqqında çox qısa bəhs etdiyimiz) mühüm tədqiqatları onun bu gün də əhəmiyyətini itirməyən, müxtəlif səbəblər üzündən nəşr edilməyən iki əlyazmasında toplanmışdır.

II Dünya müharibəsi illərində ölkə üzrə arxeoloji qazıntıların aparılması dayandırılır. Bu dövrdə muzeyin işində durğunluq yaranır. Müharibəyədək Naxçıvanda fəaliyyət göstərən inqilab və incəsənət muzeyləri öz ştatları olmadığı üçün tarix-etnoqrafiya muzeyi ilə birləşdirilmiş və 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası Naxçıvan Bazasının tərkibinə verilmişdi. Muzeyin ştatları isə Maarif Nazirliyinin sərəncamında idi. Bu da muzeyin əvvəlki kimi elmi tədqiqatla məşğul olmasına çətinlik törədirdi. Muzeyin öz fəaliyyətini bərpa etdirməsi üçün Naxçıvan MSSR Nazirlər Soveti 1949-cu ilin yanvar ayında İnqilab, İncəsənət və Kənd təsərrüfatı muzeylərinin bazası əsasında Birləşmiş Naxçıvan Dövlət Muzeyinin yaradılması haqqında qərar qəbul edir. Yeni təşkil edilən müəssisənin direktorunun ali təhsilli olması vacib hesab edilərək M.Mirheydərzadə müdir vəzifəsindən azad edilir. 1950-ci illərdə Azərbaycan hökuməti və dövlətinin gördüyü tədbirlər muzey quruculuğu sahəsində canlanma yaradır. 1957-ci ildə Azərbay-

can Tarixi Muzeyinin yaxından köməyi ilə Naxçıvanda muzeyin fəaliyyəti bərpa edilir. 1957-ci il aprelin 23-də Azərbaycan KP MK və Azərbaycan SSR Ali Sovetinin "Azərbaycanda mədəniyyət abidələrinin qorunması, öyrənilməsi, bərpa işlərinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında" qərarı ilə əlaqədar tarixi abidələr və diyarşünaslıq muzeyləri Elmlər Akademiyasının tabeliyindən çıxarılıb Mədəniyyət Nazirliyinin tabeliyinə verilir. 1959-cu ildə Mədəniyyət Nazirliyiniin Xüsusi Elmi-Bərpa İdarəsi Əlincəçay Xanəgahı abidələrinin bərpasına başlayır və yaxınlıqdakı qəbiristanlıqdan mərmərdən və yaşıl rəngli gaşdan hazırlanmış qəbirüstü abidələr tapılır. 1967-ci ildə muzey əməkdaşları Xanəgaha elmi səfərdən qayıtdıqda həmin abidələrdən biri - əmir Ərəbşahın qızı Qureyşin sənduqə formalı xatirə abidəsini muzeyə gətirirlər (33). Bundan bir qədər sonra daha iki mərmər sənduqə ekspozisiyada özünə yer tutur. Bunlar - kamil şeyx Hacı Hilalallahın qızı Mikeysə xanıma və əmir Xəlifənin oğlu əmir Şahmənsura məxsus abidələr XV əsr Naxçıvan daşyonma sənətinin ən nəfis nümunələrindəndir. Əmir Şahmənsurun sənduqəsi kitabə mətnlərinin yerləşdirilməsi baxımından seçilirsə, digər iki abidə ornament bəzəyinin nəfis tərtibinə görə nadir sənət nümunəsidir. Əmirzadə Qəzənfərin, Şeyx Əzəmin qəbirüstü abidələri, sarımtıl, ağ və çəhrayı mərmərdən olan (Xanəgah yanındakı çəhrayı rəngli mərmər başdaşılar haqqında 1926-cı ildə ATTC-nin üzvü arxeoloq Ə.Ələkbərov məlumat verir) başdaşıları kitabələrin ornament və terminlərinin, xətt xüsusiyyətlərinin öyrənilməsi üçün əhəmiyyət daşıyır. Xanəgahın, vaxtilə M. Mirheydərzadə və epiqrafçı Ə.Ələsgərzadənin qeydə aldıqları çeşmə kitabəsinin burada mühafizə edilməsi xüsusilə təqdirəlayiqdir, çünki, XVIII əsrə aid bu abidə Azərbaycanda xanəgahların su mənbəyi haqqında məlumat verən ilk daş sənəddir (34,85-87). Bu illərdən başlayaraq epiqrafik irsin toplanılması sahəsində muzeyin fəaliyyətində yeni mərhələ başlayır.

1968-ci il oktyabrın 1-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sərəncamı ilə muzey Naxçıvan Dövlət Tarix Muzeyinə çevrilir. Bu dəyişiklik muzeyin elmi tədqiqatlarda fəaliyyətini genişləndirməklə, tarix profilli elmi müəssisə kimi inkişafına təkan verir.

1960-cı illərdə epiqrafik abidələrin muzey fonduna toplanılmasında irəliləyiş yaranır. Muzeyin əməkdaşları Azərbaycan hökumətinin müvafiq qərarlarına uyğun olaraq Muxtar Respublika ərazisində tarixi abidələrin aşkarlanması və qeydə alınmasında əhəmiyyətli işlər görmüşlər.

Məlum olduğu kimi, 1969-cu ildə bir sıra tarixi yubileylərlə əlaqədar muzeylərə Ümumittifaq baxışının keçirilməsi nəzərdə tutulmuşdu. Həmin baxışda iştirak etmək üçün Naxçıvan Dövlət Tarix Muzeyində (fond, elmi yığma, kütləvi və təşkilat işləri üzrə) öhdəliklər qəbul edildi. Muzeyin fondları üç yüzdən çox etnoqrafik, epiqrafik və digər materiallarla zənginləşdi.

Muzeyin elmi şurasının protokollarından məlum olur ki, Naxçıvanın epiqrafik abidələrinin öyrənilməsinə xüsusi fikir verilmişdir. Baş elmi işçi Ə.Məmmədov "Naxçıvanın epiqrafik abidələri" mövzusunda yazdığı elmi

işlə əlaqədar abidələrin qeydiyyatını aparmışdır. O, Ordubad və Naxçıvan şəhərlərinin qəbiristanlıqlarından on beş abidənin, Naxçıvan şəhərindəki Cəfəriyyə məscidi kitabəsinin estamplarını çıxararaq muzeyin fonduna daxil edir. Hazırda bu estamplar muzeyin fondunda saxlanılır. Eyni zamanda daş qoç heykəllərinin qeydə alınması, kitabələrinin qeydiyyatının aparılması da nəzərdə tutulmuşdu (35).

Muzeyin elmi işçiləri sadəcə abidələrin qeydiyyatının aparılması, kitabələrin surətlərinin fonda toplanması ilə kifayətlənməmiş, onların təbliği ilə də məşğul olmuşlar. Muzeyin elmi şurasının sənədlərindən görünür ki, orta əsrlərə aid bir çox tarixi əhəmiyyətli abidələr – körpülər, Ordubad şəhərindəki Came məscidinin qapısı üzərindəki I şah Abbasın fərmanı, rayonun Vənənd kəndindəki Came məscidinin kitabəsinin fotoşəkilləri orta əsrlər tarixi şöbəsinin ekspozisiyasında nümayiş etdirilib. Bundan başqa, eksponatlar pasportlaşdırılaraq elmi təsviri verilmiş və fotoşəkillərdən ibarət neqativ fondu yaradılmışdır.

Bu gün Naxçıvan Dövlət Tarix Muzeyi bir neçə onilliklər ərzində məqsədyönlü şəkildə toplanılan maddi mədəniyyət nümunələrindən ibarət zəngin kolleksiyaları özündə saxlayır, ayrı-ayrı ekspozisiyalarda, müəyyən tədbirlərlə bağlı təşkil edilən sərgilərdə nümayiş etdirməklə onların tarixi əhəmiyyətini geniş ictimaiyyətə, tələbə və şagirdlərə, həmçinin xarici ölkə nümayəndələrinə çatdırır. Bu gün muzeyin fond və ekspozisiyalarında üzərində ərəb qrafikasının müxtəlif xətt növləri ilə həkk edilmlş kitabələr olan qəbirüstü abidələr, döyüş ləvazimatı, misdən hazırlanmış məişət əşyaları, Xaraba Gilan qazıntılarından əldə edilən gəc karniz və keramik qab parçaları, dərvişlərə məxsus əşyalar – yüzə yaxın maddi mədəniyyət nümunəsi qorunur.

Naxçıvanın qədim tarixi, mədəniyyəti, arxeologiyası və etnoqrafiyası, sənətkarlıq məsələlərinin öyrənilməsində arxeoloji tapıntılar, numizmatik nümunələr, xalçalar, bədii tikmələr, silahlar, milli geyimlər, bəzəklərlə yanaşı kitabələrin də əhəmiyyəti əvəzsizdr.

Xalqımızın milli sərvətinin toplandığı bu zəngin fondun qorunması və təbliği ilə yanaşı ayrı-ayrı kolleksiyaların, xüsusilə ərəb və farsdilli kitabələrin öyrənilməsi, düzgün oxunaraq tərcümə edilməsi, kitabələrdə əks edilən müxtəlif terminlərin izahı vacibdir. Fondda toplanan kitabə surətlərinin, foto-şəkil və neqativlərin öyrənilməsi də nəzərdən qaçırılmamalıdır. Bu işlərin yekunu olaraq ayrı-ayrı bukletlərlə yanaşı, kitabələrin elmi kataloqunun tərtib edilərək nəşr etdirilməsi ən aktual məsələdir.

## ƏDƏBIYYAT:

1. Михайлова А.И. Новые эпиграфические данные для истории Средней Азии IX в. ЭВ, V, М.-Л., 1951.
2. Михайлова А.И. К оформлению государственных актов времени Аббасидов. ЭВ, VII, М.-Л., 1953.

3. Алексеев В.М. Стела XI в.об основании первого эпиграфического музея. ЭВ, вып. XXIII, Ленинград, Наука, ( Ленинградское отделение), 1985.
4. Полное собрание законов Российской империи с 1649 г. Т. V, СПб., 1830.
5. Баранов П.И. Распоряжение Петра I о вознаграждении за археологические находки. Русская старина. 1972, №10.
6. Fraehn Ch.M. Üeber zwai inschriften in Nachitschewan. Bull. Se. Sankt-Petersburq. T. II, 1837.
7. Khanikoff M. Sur quelques inschriptions musulmanes du Caucase. Bull.h.ph. de J. Akademie. Smp. des scienses, d. Sankt-Petersburq, t. VIII, 1851.
8. Khanikoff M. Memoire sur les inschriptions musulmanes du Caucase. Journal Asiatique. V s., t. XX, Paris,1862.
9. Jakobsthal E. Mittelalterlixe Backsteinbauten zu Nachischewan in Araxesthale. Deutche Bauzeitung, S.A., Berlin, 1899.
10. Sarre F. Denkmaler persischer Baukunts. Berlin,1910.
11. Hartmann M. Iki kitabə. Azərbaycan MEA TİEA, inv. №1063[a].
12. Сысоев М.В. Нахичеванский край (Нах. ССР.). (Отчет о поездке летом 1927г.) IV. Хараба Гилан. Известия Азкомстариса, вып. IV, тетрадь 2, Баку, 1929.
13. Резолюции I Всеазербайджанского краеведческого съезда в Баку,21-24 сентября 1924 г. Изд. ООИА, Баку, 1924.
14. Naxçıvan MR MDA, f.1, siy. 1, iş 13, vər. 33, 29.
15. Naxçıvan MR MDA, f.1, siy. 1, iş 35, vər. 1.
16. "Şərq qapısı" qəzeti. №7 (145), 3 mart 1926.
17. Kəngərli S. Muzey elm və mədəniyyət toplusudur. Qobustan, 1999, №2.
18. Naxçıvan MR MDA, f.1, siy. 2, iş.17, vər.9
19. Сысоев М.В. Нахичевань на Араксе и древности Нах. ССР. (отчет о поездке летом 1926г.) Известия Азкомстариса, вып. IV, тетрадь 2, Баку, 1929.
20. Резолюции по докладу директора Азгосмузея Д.Шарифова от 24. IX. 1924г.: «О музейном деле в АССР». Резолюции I Всеазербайджанского краеведческого съезда в Баку,21-24 сентября 1924 г. Изд. ООИА, Баку, 1924.
21. Сысоев М.В. Нахичевань на Араксе и древности Нах.ССР. (отчет о поездке летом 1926г.) 9.Нахичеванский музей Балабека Алибекова.
22. Азимбеков И. (Меддаh). Мусульманские надписи Тифлиса, Эривани и Нах.ССР. Известия Азкомстариса, вып. IV, тетрадь 2, Баку, 1929.
23. M.Mirheydərzadənin Maddi Mədəniyyət Tarixi İnstitutuna (Leninqrad) 1938-ci ildə göndərdiyi hesabatdan. NDTM-in fondu.
24. Б.И. Ибрагимов. Средневековый город Киран. Баку – Москва, 2000.
25. Сысоев М.В. Нахичеванский край (Нах. ССР.). (Отчет о поездке летом 1927г.). Деглюн-Даста. Известия Азкомстариса, вып. IV, тетрадь 2, Баку, 1929.
26. Сафаров Ф.Я. Арабо-персоязычные надписи Нахичеванской АССР (XVI-XIXвв.) как историко-культурные памятники. Дисс. на соис. уч.ст. к.и.н., Баку, 1987, НАИИ НАНА, инв. №29.
27. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Т. III. Баку, 2001.

28. Seyyid Səbri. Ordubad qəzasında asari -ətiqə. “Şərq qapısı” qəzeti, 15 sentyabr 1926, №27 (165).
29. Mirheydərzadə M. Əbrəqunus dairəsi məşhur Əlincə çayı sahilində vaqe bir neçə kəndlərin və Əlincə qalasının tədqiqi. “Azərbaycanı öyrənmə yolu”, 1930, № 4-5.
30. Rasizadə M. Şərur dairəsinə səyahət haqqında qeydlər. “Azərbaycanı öyrənmə yolu”, Bakı, 1930, №4-5, s. 81-83.
31. Şərif Abid. Azərbaycanda böyük elmi mərkəz. İnqilab və mədəniyyət. Bakı, 1930, №2-3.
32. Cəfərov F. “Qırmızı taborçular”. Mirbağır Mirheydərzadə. (1877-1956). Vedibasar qəzeti, №18(85), 16- 31 avqust 2006.
33. İbrahimov K. Nadir eksponat. “Azərbaycan gəncləri”, 1967, 19 fevral, №22 (7298).
34. Quluzadə A. Əlincəçay xanəgahının çeşmə kitabəsi. Azərbaycan arxeologiyası. Bakı, Xəzər Universiteti, №3-4, 2002.
35. Naxçıvan Dövlət Tarix Muzeyinin fondu, muzeyin elmi şura protokolları.

## THE ROLE OF THE NAKHCHIVAN BRANCH OF AZERBAIJAN RESEARCH AND SOCIETY AND NAKHCHIVAN STATE HISTORY MUSEUM IN COLLECTING OF EPIGRAPHIC HERITAGE

**Afaq Guluzadeh**

### Summary

The article deals with the activities of Nakhchivan branch of the Society Studying Azerbaijan and Nakhchivan State History Museum in registration, collection, preservation and research of our national wealth – the epigraphic monuments in the territory of the Nakhchivan Autonomous Republic of Azerbaijan since 1920.

Author elucidates the employees’ activities of these organizations in the territory of the autonomous republic in detection and registration of historical monuments. It is stated that, the local staff were engaged in archaeological exploration and excavation works with direct participation and under the leadership of M.Mirheydarzadeh, as well as in the composition of the Azerbaijan branch of the USSR Academy of Sciences during the process of search, investigation and study of historical monuments in Nakhchivan Autonomous Republic. In these scientific trips the studying of Arabic and Persian language inscriptions have been in the focus of attention.

**Keywords: Nakhchivan, museum, epigraphy, inscription, expedition.**

# РОЛЬ НАХЧЫВАНСКОГО ОТДЕЛА ОБЩЕСТВА ОБСЛЕДОВАНИЯ И ИЗУЧЕНИЯ АЗЕРБАЙДЖАНА И НАХЧЫВАНСКОГО ГОСУДАРСТВЕННОГО ИСТОРИЧЕСКОГО МУЗЕЯ В СОБРАНИИ ЭПИГРАФИЧЕСКОГО НАСЛЕДИЯ

**Афаг Гулузаде**

## Резюме

В статье рассматривается деятельность Нахчыванского отделения Общества обследования и изучения Азербайджана, в частности вопросы сбора, регистрации, хранения и исследования эпиграфических материалов, собранных на территории Нахчыванской Автономной Республики с 1920 года.

Автор подробно освещает деятельность членов Общества, обнаруженные и регистрированные ими эпиграфические материалы. Члены Общества участвовали в археологических исследованиях, проводимых экспедициями М.Миргейдарзаде и Общества обследования и изучения Азербайджана Академии Наук Азербайджанской ССР.

Члены Нахчыванского отделения Общества обследования и изучения Азербайджана принимали непосредственное участие в процессе поиска, регистрации и исследования эпиграфических памятников Нахчывана. Особое внимание экспедиций было уделено изучению надписей на арабском и персидском языках.

**Ключевые слова: Нахчыван, музей, эпиграфика, надпись, экспедиция.**












Naxçıvan Dövlət Tarix Muzeyi fondunda saxlanılan epiqrafik nümunələr.

# Нахчыван – кладезь национальных ценностей

**Гусейн Гашимли**
(Нахычеванский Государственный Университет)

Территория Нахчыванской Автономной Республики, неотъемлемая часть Азербайджана, является одним из ранних центров человеческой цивилизации. В результате рхеологическими раскопок на данной территории открыты и изучены уникальные памятники от каменного века до позднего средневековья. Музеи, функционирующие сегодня в этом древнейшем крае, воссоздают полнейшее представление о богатом историческом прошлом края, о его литературно-культурных традициях и замечательных трудолюбивых людях.

Организация музейного дело в Нахчыване имеет особую историю. Еще в 1896 году талантливый начинающий писатель Джалил Мамедкулизаде, будучи учителем в Неграмской школе создал при ней краеведческий музей, который стал первым на территории Азербайджана.

Значительныу работы в области создания музеев в Нахчыване были проведены в советское время, а после приобретения Азербайджаном независимости, в этом направлении были осуществлены мероприятия более широкого масштаба. В настоящее время в Нахчыване официально функционируют свыше 20 музеев, окруженных всесторонней заботой со стороны государства. Имеются в Нахчыване также несколько уникальных музеев под открытым небом. Трудно переоценить научное и художественное значение галереи наскального искусства на высокогорье *Гемигая.* Огромной любовью пользуется в Нахчыване и далеко за его пределами Святыня Асхаби – Кавх. Местом паломничества стал в последнее время и мавзолей, связанный с именем пророка Ноя.

В 2002 году в городе Нахчыван, на огромной территории был создан еще один музей под открытым небом. В нем хранятся многочисленные каменные статуи и мемориальные надписи надгробных камней. Здесь же находится величайший шедевр средневековой архитектуры – мавзолей Момине – хатун, относящийся к XII веку. Примечательно, что внутри мавзолея экспонируются ценные материалы, связанные с историей государства Атабеков.

Одним из самых богатых и важных музеев края является Нахчыванский Государственный Исторический музей.Это первое научно-исследовательское и культурное учреждение на территории Нахчывана, долгое время функционировало в качестве небольшого музея, а в 1932 году было преобразовано в историко-страноведческий музей всего нахчыванского края. Именно на основе этого музея в 1968 году был создан вышеотмеченный Государственный Исторический музей.

В 2000 году исторический музей был перемещен в новое здание, отвечающее всем современным требованиям музейного дело. В настоящее время музей охватывает площадь более 2000 кв.м. Свыше сорока тысячи экспонатов, демонстрирующихся в 10 отделах, являются ценнейшими материалами по истории, материальной и духовной культуре Нахчывана, и в целом всего исторического Азербайджана.

Литературный музей Нахчыеванской Автономной Республики действует с 1967 года. В музее, который начал функционировать с 98 экспонатами, в настоящее время хранятся свыше 19 тыс. редких рукописей, отражающих многовековое богатое литературное наследие Азербайджанского народа. В музее собраны также уникальные образцы прикладного и изобразительного искусства, а также многие личные вещи известных поэтов, писателей, художников и других творческих деятелей Нахчывана.

Музей Азербайджанских ковров, созданный в 1998 году, содержит в настоящее время более 2 тысяч единиц всех видов коврового искусства Азербайджана. Кроме того, в музее демонстрируются многочисленные художественные предметы хозяйственно - бытового назначения, имеющие историческую ценность.

Среди музеев Нахчывана особое место занимают музеи, связанные с именами выдающихся общественно - политических деятелей края. Трудно переоценить значение музея *Гейдара Алиева*, общенационального лидера Азербайджанского народа. В музее демонстрируются интересные стенды, посвященные семье, детству, юношеству *Гейдара Алиева.* Экспонируются официальные документы и иные материалы, относящиеся к периоду его председательства Нахчыеванском Верховном Меджлисе в 1993-1994 годах. В музее бережно хранятся многочисленные журналы, альбомы и книги, отражающие жизнь и деятельность выдающегося государственного деятеля.

Привлекают внимание памятные дома – музеи славных сынов Нахчывана: известных научных, литературных, культурных и военных деятелей. С 1998 года в городе Нахчыеване функционируют дом- музей выдающегося писателя-сатирика и драматурга Джалил Маммедкулизаде, помимо того созданы также, такие музеи в селах Неграм и Джалилкенд, где он вел большую просветительную работу.

В 1972 году в городе Ордубаде открыт дом-музей известного писателя романиста *Мамеда Саида Ордубади*. С 1984 года в городе Нахчыване действует мемориальный дом-музей выдающегося поэта – драматурга, *Гусейна Джавида*. Излюбленным местом молодёжи в Нахчыване является дом-музей первого профессионального художника Бехруза Кенгерли, открытый в 2002 году. С не менее большим интересом посещается музей видного азербайджанского военачальника *Джамши-*

*да Нахчыванского,* созданный еще в начале 80-тых годов прошлого столетия.

С прошлым столетием связан также дом-музей всемирно известного азербайджанского ученого химика Юсифа Мамедалиева, в котором хранятся уникальные предметы, связанные с его жизнью и научной деятельностью.

В настоящее время в Нахчыване при различных ведомствях, учреждениях, организациях и вузах на общественных началах функционирует ряд музеев. Среди них особо выделяются музеи под названиями «Университетский мир», «История школы», «История физкультуры и спорта», успешно действующие при Нахчыванском Государственном Университете.

Широкая сеть музеев, действующая в Нахчыванской Автономной Республике служит в настоящее время делу изучения и сохранения в памяти народа, богатого исторического – культурного наследия, подвиги выдающихся личностей и играют важную роль в формировании и укреплении государственной сознательности, патриотического духа, высокой нравственности у подрастающего поколения.

# BÖYÜK ARXEOLOJİ KƏŞFLƏR
# GREAT ARCHAEOLOGİCAL DİSCOVERİES
# ВЕЛИКИЕ АРХЕОЛОГИЧЕСКИЕ ОТКРЫТИЯ

## QÜDRƏTLİ HÖKMDARIN SAXSI ORDUSU

**Elşad Bağırov**
**(Bakı Dövlət Universiteti)**

Arxeologiya elmi yaranan gündən heyrət doğuran və möcüzə kimi görünən silsilə kəşflərlə müşayiət olunmuşdur. Qədim Misir fironu gənc Tutanxamonun sərvətlərlə dolu yeraltı məqbərəsinin, səkkiz əsr daşlaşmış vulkan külü altında uyuyan Pompey şəhərinin, şumer hökmdarlarının dəhşətli dəfn mərasimindən söhbət açan Ur müharibələrinin, hər bir əfsanənin ulu keçmişlə bağlı real hadisə olduğunu sübut edən Troyanın arxeoloji qazıntılarla üzə çıxarılması bu elmin geniş imkanlarını və perspektivlərini dünyaya bəyan edən böyük kəşflərin cüzi bir qismidir.

Yaşamaqda və inkişafda olan arxeologiya elminin böyük kəşfləri İkinci dünya müharibəsindən sonrakı illərdə daha da çoxalmışdı. Təkcə keçən



əsrin 50-60-cı illərində tarixi Azərbaycan torpaqlarında Mingəçevir qazıntılarının uğurlu nəticələri, dünya mədəniyyət xəzinəsinə daxil olan Qobustan qayaüstü incəsənət nümunələrinin aşkara çıxarılması, orta əsrlərin mühüm ticarət və mədəniyyət mərkəzləri kimi tanınmış Gəncə və Beyləqan şəhər yerlərinin, çoxtəbəqəli Kültəpə və Qaraköpəktəpə komplekslərinin Urmiya gölü sahilindəki və Həsəntəpə abidəsinin tədqiqi önündə daş dövrünün ən qədim çağlarına aid misilsiz maddi mədəniyyət nümunələrini qoruyub saxlayan 1,5 milyon yaşlı Azıx mağara düşərgəsinin qeydə alınıb öyrənilməsi təkcə Azərbaycan və ya Qafqaz arxeologiyasının yox, dünya arxeologiyasının böyük önəmli hadisəsi kimi qiymətləndirilmişdir.

Son onilliklərin diqqəti cəlb edən böyük arxeoloji kəşfləri və nailiyyətləri arasında qədim Çin imperatoru Sin Şi Xuandiyə məxsus möhtəşəm sərdabə ərazisində başlanan qazıntılar xüsusi yer tutur.

İmperator Sin Şi Xuandi eramızdan əvvəl III əsrdə hökmranlıq etmişdi. Qədim Çin tarixçilərinin yazdığına görə ölkəni vahid hakimiyyət altında birləşdirən, müstəbid üsul idarəsi yaradan Sin Şi Xuanya Şimal və cənub istiqamətlərdə uğurlu müharibələr apararaq Çinin qüdrətini əsaslı şəkitldə möhkəmlətmişdi. Onun hunlara qarşı hərbi əməliyyatları da müvəffəqiyyətli olmuş, onların Xuanxe çayı hövzəsindən sıxışdırılıb çıxarılması ilə nəticələnmişdi. Dövlətin şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə Sin Şi Xuandi tarixə «Böyük Çin səddi» adı ilə düşən nəhəng müdafiə istehkamlarının tikintisini davam etdirmiş və başa çatdırmışdı.



Hal-hazırda möhtəşəm səddin uzunluğu qərbdən şərqə 2700 km-dir. Güman edilir ki, Sin Şi Xuandinin hökmranlığı dövründə onun uzunluğu 4 min km-ə çatdırılmışdı. Hündürlüyü 10 m-ə yaxın olan bu misli görünməmiş divarın üstündə eyni vaxtda iki cəng arabası yanbayan hərəkət etməyə, 6 süvari döyüşçü sərbəst at çapmağa qadir idi. Mənbələrə görə tikintiyə 2 milyon adam cəlb olunmuşdu.

Axirət dünyaya böyük inam bəsləyən despot hakim hələ sağlığında özü üçün ağlasığmaz ölçüdə nəhəng sərdabə - «əbədi saray» tikdirməyə başlamışdı.

Sərdabə kompleksinin tikilməsi üçün Veyşuy çayının sahilində 60 kv km-ə bərabər geniş sahə açılmışdı. Qədim Çin tarixçisi Sım Tsyanın yazdığına görə hökmdar sərdabəsinin tikintisinə Çinin ayrı-ayrı əyalətlərindən 700 minədək adam gətirilmişdi.

Əsas sərdabənin yerləşdirilməsi üçün Mişan dağı başdan-başa yarılmış, onun divarları başdan-başa qalın tunc lövhələrlə örtülmüşdü. Görülən geniş miqyaslı işlərlə sərdabə ərazisi böyük bir yeraltı şəhəri xatırlatmışdı. Burada qiymətli daşlardan, qızıl və gümüşdən yarpaqları olan çiçəkli bağlar,

çəmənliklər salınmış, civədən axar çaylar və göllər yaradılmışdı. İstək və səlahiyyətlərinin hüdudunu bilməyən hömkdar, canlı həyatda ornu nəşələndirən, ruhunu oxşayan hər bir şeyi sirli «axirət dünyası»na aparmaqla əbədi yaşarlığını təmin etməyə can atmışdı.





Gələcək əbədi mənanın ətrafına ikiqat möhkəm divarlar çəkilmişdi.

Qüdrətli və eyni zamanda çox qəddar hökmdar Sin Şixyandiyə məxsus qədim sərdabənin yerləşdiyi ərazi haqqında məlumatlar arxeoloq-alimlərə çoxdan bəlli olsa da, onun nəhəng ölçüləri, mürəkkəb quruluşu və möhtəşəmliyi uzun müddət onları uzun vaxtı böyük xərclər tələb edən rəsmi qazıntılardan çəkindirmişdi. Yalnız gözlənilməyən kiçik bir təsadüfi hadisə müəyyən vaxtdan sonra tədqiqatçılarla bu sirli abidəyə qazıntı işlərinə başlamağı məcbur etmişdi.

1974-cü ildə yerli kəndlilər məşhur sərdabənin yerləşdiyi ərazidə təsərrüfat işləri apararkən içərisi gildən düzəldilmiş döyüşçü heykəlləri ilə dolu dərin xəndəyə rast gəlmişdilər. Böyük ustalıqla təbii ölçülərdə hazırlanmış heykəllərinin sayı bir neçə yüz olmuşdu. Sirli və qəribə tapıntılar istər-istəməz arxeoloq alimləri maraqlandırmış, onları burada qazıntı işlərinə başlamağa sövq etdirmişdi. Qazıntılara başçılıq Çinin tanınmış arxeoloqu Yuan Çunqa tapşırılmışdı.

On il davam edən ilk arxeoloji tədqiqatlarla qeyd olunan yerdə hər biri fərdi görkəmə malik 7 mindən artıq döyüşçü heykəli, atlara qoşulmuş cəng arabalarının döyüş sursatı nümunələri və saysız-hesabsız digər tapıntılar aşkar edilmişdi.

Maraqlıdır ki, bütün heykəllər tuncdan düzəldilmiş əsl silah nümunələrilə təchiz olunmuşdu. Diqqəti cəlb edən digər cəhət ondan ibarət idi ki, bütün döyüşçü heykəllərin üzü şimala - hökmdar sərdabəsinin ehtimal olunan yerləşdiyi yerə istiqamətlənmişdi. Güman edilir ki, aşkar olunan çox saylı döyüşçü heykəlləri sərdabəni qoruyan xüsusi ordu hissəsini təmsil etmişdi.

Qazıntılar zamanı ətraf yerlərdə bir sıra möhtəşəm tikinti qalıqları, vaxtı ilə hökmdar sərdabəsinin ağır tikintisində işləməyə məcbur edilmiş amansızcasına öldürülmüş minlərcə adamın basdırıldığı yerlər də aşkarlanmışdır.

Nəzərə çatdırmaq lazımdır ki, ilk tədqiqatlar zamanı, bilavasitə hökmdarın özünəməxsus möhtəşəm sərdabə açılmasa da görülən işlər az miqyasına görə əsrin ən böyük və dəyərli arxeoloji axtarışlarından biri kimi tanınmışdır.

## Ədəbiyyat

1. Yusifov Y.B. Qədim Şərq tarixi. Bakı, 2005, s. 493-513.
2. История древнего востока / под ред. В.И.Кузищина. Москва, 1979, с. 380-430.
3. Евсюков В.В., Комиссаров С.А. Атеистические чтения - Цинь Шихуан и его гробница. Москва, 1987, № 16, с. 86-109.
4. 100 великих археологических открытий. Москва, 2008, с. 289-293.

# KÖMƏKÇİ TARİXİ FƏNLƏR
# SUBSIDIARIES
# ВСПОМАГАТЕЛЬНЫЕ ДИСЦИПЛИНЫ

## NAXÇIVAN ZƏRBXANASININ AZƏRBAYCANIN DÖVLƏTÇILIK TARIXINDƏ YERI VƏ ƏHƏMIYYƏTI

**Qənirə Pirquliyeva**
pirquliyeva@mail.ru
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu

**Açar sözlər: Naxçıvan, sikkə, qızıl, gümüş, mis.**

Azərbaycanın ən qədim şəhərlərindən olan Naxçıvanda fəaliyyət göstərən zərbxana öz «məhsullarını» dünya pul sistemində və sikkə işində hələ erkən orta əsrlərdən tanıtmışdır. Belə ki, Sasanilər dövründə üzərində “Nax” və yaxud “Naxç” yer adları pəhləvi əlifbası ilə göstərilən gümüş draxmalar XIX əsrin I yarsından etibarən dünya numizmatika elmində qəbul edilmişdir. Bu sikkələr imperiyanın bir çox ərazilərində tamhüquqlu, yəni mərkəzləşmiş dövlət tərəfindən zərbinə və dövriyyəsinə izacə verilən, ikonoqrafik və metroloji baxımdan qəbul edilən standartlara tam uyğun olan draxmalardır. Dünya alimlərinin sasani sikkələri ilə apardıqları 200 ilə yaxın olan araşdırmalarında bu günə qədər müəyyən mübahisələr doğuran məsələlər vardır. Bu sıradan bəzi «alimlər» “Nax” və “Naxç” adlı zərbxananın ümumiyyətlə Naxçıvana aid olmadığını iddia edirlər. Amma bu iddianın heç bir elmi əsası yoxdur. Hətta bu yer adının Şərq ölkələrində digər analogiyası olmadığını bilərək toponimin harada yerləşməsini belə göstərmirlər.

Naxçıvan zərbxanasının ilk gümüş sikkələri Sasani hökmdarı I Xosrov tərəfindən (531-579) hakimiyyətinin 1-ci, 4-cü illərində, II Xosrov (590-628) tərəfindən hakimiyyətinin 9-cu və 27-ci ilində zərb edilməsi haqqında ilk məlumatlar Y.A.Paxomov tərəfindən çap edilmişdir. Bu sikkələr müasir Ermənistanın Leninakan şəhərində keçən əsrin ortalarında bir dəfinənin tərkibində aşkar edilmişdir. Alimin araşdırmalarına əsasən həmin dəfinədə olan sikkələrin 4,8%-i məhz Naxçıvanda zərb edilmişdir. Maraqlıdır ki, Y.A.Paxomov qeyd edir ki, dəfinənin əsas kütləsi Cənubi Qafqazda deyil, başqa yerlərdən gətirilərək yığılmışdır və bu proses zamanı ehtimal ki, Naxçıvan zərbxanasının yerli məhsulları da onlara əlavə edilmişdir (5; s.11-12). Naxçıvan zərbxanasının demək olar ki, VI əsrdən başlayaraq XIX əsrin I yarısına qədər kiçik fasilələrlə fəaliyyət göstərməsi haqqında dünya numizmatik elmi ədəbiyyatında kifayət qədər geniş məlumatlar vardır. Bu baxımdan xüsusi olaraq Rusiya alimlərinin XIX-XX əsrin əvvəllərində apardıqları

araşdırmaları qeyd etmək lazımdır. Rusiyada şərq numizmatikasının əsasını qoyan görkəmli alim-numizmatlardan A.Markov yazmış olduğu əsərlərdə Naxçıvanda zərb edilən və dünyanın bir çox yerlərində aşkar edilən sikkələr haqqında geniş sikkəşünaslıq analizi verməsə də onun qısa məlumatları bu gün Azərbaycan numizmatikası, eləcə də dövlətçiliyi tarixinin öyrənilməsi üçün kifayət qədər əvəzedilməz dəyərə malikdir (3). Bu zərbxananın eramızın I minilliyinə aid olan nümunələri alimlərin fikrincə dünya pul sistemində həmin dövrün sikkələrindən heç nə ilə fərqlənmirlər (11; s.180). Bu isə bir daha Naxçıvanın ən qədim zamanlardan geosiyasi və geostrateji baxımdan çox vacib bir məkan olması, dövlətçiliyimizin tarixində mühüm yer tutması, tarixin ayrı-ayrı dönəmlərində, siyasi hadisələrin gedişində Azərbaycan işğal edildikdə məhz ilk növbədə Naxçıvanın tanınması, ona önəm verilməsi pul zərbi işində də öz əksini tapmışdır. Nəzərə alaq ki, dünyanın siyasi və iqtisadi tarixində ticarət yolları və onların istiqamətləri həmişə geosiyasətdə və geostrategiyada, mədəniyyətlərin asimilliyasiyasında və yayılmasında əsas yer tutur. Naxçıvanın yerləşdiyi ərazi həmişə digər xalqların xüsusilə işğalçıların diqqət mərkəzində olmuşdur.

Numizmatik baxımdan hər hansı bir ölkənin işğalı prosesinin başlanması və sona çatması məsələsində sikkə zərbi işi həmişə birinci yerdə durmuşdur. Görünür bu səbəbdəndir ki, dünyanın ən qədim imperiyalarından biri olan Sasanilər də Azərbaycanı işğal edərkən və bu işğalı sona yetirərkən orada dövlətçiliyin ilk atributunu, yəni sikkə zərbi hüququnu ilk öncə digər Azərbaycan şəhərlərindən əvvəl Naxçıvana vermişlər. Müqayisə üçün qeyd etmək olar ki, Baqavanda (Bakıda), Partavda (Bərdədə) və digər Azərbaycan şəhərlərindən bir neçə il əvvəl sasani hökmdarı I Xosrov pul zərbi işini məhz Naxçıvanda başlamışdır (1; 4; 6).

Ümumiyyətlə, numizmatik analizlər nəticəsində Naxçıvanda zərb edilən ayrı-ayrı dövrlərə aid sikkələr bəzi vaxtlarda çox maraqlı və təkraredilməz faktlar üzə çıxarır. Bu qəbildən İran alimi S.C.Təbətəbai «İslam sikkələri» adlı əsərində Naxçıvan şəhərinin zərbxanasının XIV əsrə aid çox maraqlı sikkəsi haqqında məlumat vermişdir. Burada Naxçıvanda Məhəmməd Xudabəndə Olcaytu İlxaninin adından zərb edilmiş bir qrup mis və gümüş sikkələr haqqında elmi təsvirdə Naxçıvanın adı Naxvana kimi oxunmuşdur. «Naxvana» etimoloji tərcümədə nax tayfalarının yaşadığı məkan kimi qəbul edilir. Digər bir fakt həmin sikkələrin üzərində rəsmi dövlət dininin şiyəlik olduğunu göstərən müsəlman kəliməsi ilə bərabər 12 İmamın adının zərb edilməsi öz əksini tapmışdır. Müəllifin fikrinə görə Azərbaycanda Səfəvilərdən öncə məhz Olcaytu sultan qısa müddətdə şiyəliyi dövlət dini səviyyəsinə qaldırmaq üçün cəhd göstərmişdir və bunu sübut edən az miqdarda sikkələr Azərbaycan ərazisində - Naxçıvanda zərb edilərək dövriyyəyə buraxılmışdır. Bu fakt öz-özlüyündə Hülakilər dövründə hansısa dini-siyasi səbəblərdən, ehtimal ki, sufi təriqətinin Ərdəbildən digər ölkələrə yayılmasının təsiri altında məhz Naxçıvanda bu cür «cəsarətli və inqilabçı» addım atıl-

mışdır. Olcaytu sultanın hakimiyyəti illərində Naxçıvan paytaxt statusu daşımırdı. Buna baxmayaraq Azərbaycanın Hülakilər dövründə ikinci mədəni və iqtisadi mərkəzi olan Naxçıvanda bu sikkələrin zərb edilməsi həqiqətən buranın bütün imperiya üçün çox vacib bir yer olmasını sübut edir.

Digər maraqlı faktlardan biri S.C.Təbətəbainin əsərində Naxçıvanda ayrı-ayrı illərdə elmə adı o qədər də məlum olmayan və hələ də hakimiyyətdə olmuş hökmdar kimi qəbul edilməyən Elxanilərdən Əhməd Təkudarın adından hicri 671, 673-cü illərdə Naxçıvanda zərb edilmiş iki ədəd gümüş dirhəm haqqında məlumat vardır (9; s.120-123). Göstərdiyimiz hər iki numizmatik fakt ayrı-ayrı zamanlarda böyük imperiyaların hakim dairələrinin Naxçıvana xüsusi yer vermələri, Azərbaycan məsələsi ortada olanda bir çox mütərəqqi addımlar, bəzi hallarda qeyri-adi islahatlar üçün buranı seçmələri bir daha sübut edir ki, Naxçıvan Azərbaycanın ən önəmli yerlərindəndən biri olmuşdur.

Əmir Teymurun həm Azərbaycana bütövlükdə, həm də Naxçıvana (o cümlədən Əlincə qalasına) nə qədər önəm verməsi tarixdə məlumdur. O, işğalları zamanı və Teymurilər imperiyasını yaradarkən heç yerdə 14 il müharibə aparmamışdır. İstisna yalnız Naxçıvan ərazisidir. Bu haqda, yəni Əlincə qalasını Əmir Teymurun 14 il müddətində mühasirədə saxlaması və sonda boş bir əraziyə kinayəli şəkildə daxil olması bununla da onun qələbəsinin «Pirrin qələbəsi» qədər məğlubiyyətə bərabər olması faktları hökmdarın öz tarixçiləri tərəfindən qeyd edilmişdi. (2; 10) Buna baxmayaraq Əmir Teymur Naxçıvanın adından gümüş təngə və mirilər davamlı olaraq zərb etdirmiş və bu pullardan bütün imperiyada istifadə edilmişdir.

Naxçıvan zərbxanasının ən məhsuldar və intensiv iş prosesi Atabəylər-Eldəgizlər dövrünə təsadüf edir. Belə ki, XI-XIII əsrin əvvəllərində bütöv Azərbaycan ərazisində dövriyyədə iki böyük dövlətin sikkələri istifadə edilmişdir (1; s.35-38). Bunlardan faiz nisbəti ilə götürdükdə birinci yerdə Atabəylər-Eldəgizlər, ikinci yerdə Şirvanşahlar dövlətinin bilon-kredit dirhəmləri dururlar. Hər iki dövlətin sikkələri Səlcuqlar imperiyasında Qafqazda, Orta Asiyada, Anadoluda zaman-zaman dövriyyədə olmuşlar. Atabəylər-Eldəgizlər dövlətinin hakimiyyəti zamanı kredit dirhəmlər əsasən Naxçıvanda zərb edilmişdir. Metroloji baxımdan eyni dövrdə dövriyyədə olan Atabəylər dövlətinin sikkələri nisbətən mükəmməl olaraq, demək olar ki, ya dördkünc, ya da dairəvi formada olurdular. Eyni tərkibli Şirvanşahların bilon sikkələri tamamilə fərqlidirlər. Belə ki, bu sikkələr bir-birini təkraretməyən formalarda olaraq, standart çəki nisbətinə məruz qalmamışlar. Buna baxmayaraq hər iki dövlət arasında iqtisadi münasibətlərdə belə sikkələrdən kifayət qədər istifadə edilmişdir. Bu faktı həm tarixi Şirvanşahlar dövləti ərazisindən aşkar edilən Atabəylərin adından zərb edilən sikkələr, həm də əksinə Atabəylər dövlətinin ərazisindən aşkar edilən sikkələr sübüt edir.

Naxçıvan zərbxanasının sonuncu sikkələri xanlıq dövründə buraxılmışdır. Digər xanlıqların mis fuluslarından köklü şəkildə fərqlənməyən bu cür

pul nominalları daha çox elə Naxçıvanın daxili bazarlarında istifadə edilmişdir.

Numizmatik materiallara əsasən Naxçıvanın və onun zərbxanasının Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri vardır. Bu zərbxana tariximizin bütün sınaqlarından çıxmış, intensiv olaraq çalışmış və demək olar ki, ölkəmizin ən vacib, gərgin vaxtlarında xalqın dəyər vahidlərinə olan ehtiyaclarını ödəmişdir.

## ƏDƏBIYYAT:

1. А.Ализаде .Социально-экономическая история Азербайджана 13-14 вв. Баку, 1956.
2. Г.Алиева. Материалы к каталогу монет Тимура, чеканенных в городах Западного Ирана и Азербайджана.-Нумизматика Узбекистана том 1.Ташкент,1990.
3. А.Марков. Инвентарный каталог мусульманских монет. СПБ,1896.
4. Сейфеддини М. Средневековые монетные дворы Азербайджана (1968-1983). Баку, 1994.
5. Пахомов Е. А. Монетные клады Азербайджана, Грузии и других республик, краев и областей Кавказа. Вып. 8. Баку, 1956.
6. Пахомов Е.А.Монетное обращение Азербайджана в XII-XIII вв. В сб. посв., памяти академика Н.Марра. Баку, 1946.
7. Пиркулиева Г.Денежное обращение и метрология монет Азербайджана конца XIV-нач. XV вв. Баку, 2001.
8. Пиркулиева Г. Медные монеты Азербайджана. Баку, 2007.
9. S.Təbətəbai. İslam sikkələri.Tehran 1386( fars dilində).
10. Клавихо Руи де Гонзалес. Путешествие ко двору Тимура в Самарканд в 1403-1406 гг. Сб. отделения русского языка и словесности Императорской АН. Т.1. М. 1881.
11. E.Zambaur. Manuel de genealogieet de chronologie pour l histore de l islam. 2 parte. Hanovre 1927.

## THE SIGNIFICANCE AND SPOT FOR STATEMENT HISTORY IN MINT OF NAKHCHIVAN

**Pirgulieva Q. A.**

**Summary**

Refer to works of native and foreign wises has been explained about special significance and spot for mint of Nakhchivan in this article.

Nakhchivan which situated over the international ways among of Fore Asia and Eastern countries had been special place in patrol and mint of coin. From Sasanids era to XIX century there had been mint in coin.

**Keywords: Nakhchivan, coin, gold, silver, bronze.**

# МЕСТО И ЗНАЧЕНИЕ НАХЧЫВАНСКОГО МОНЕТНОГО ДВОРА В ИСТОРИИ ГОСУДАРСТВЕННОСТИ АЗЕРБАЙДЖАНА

**Пиргулиева Г.А.**

## Резюме

В статье на основании опубликованных работ местных и зарубежных ученых-нумизматов и историков произведена попытка уточнить историческое значение и особое место монетного двора Нахчывана. Нахчыван, находясь на перекрестке дорог между восточными и переднеазиатскими странами, во все времена занимал особое место в денежном обращении и монетном деле нашей страны. Здесь, с периода Сасанидов началась чеканка монет и продолжалась до захвата ханства Российской империей.

**Ключевые слова: Нахчыван, монета, золото, серебро, медь.**

# TƏLƏBƏLƏRƏ KÖMƏK
# FOR STUDENTS
# В ПОМОЩЬ СТУДЕНТАМ

## ARXEOLOJİ LÜĞƏTİN TƏRTİBİNƏ DAİR
## (yaşayış yerləri mövzusu üzrə)

**Tarix Dostiyev**
dostiyev.tarikh@mail.ru
(Bakı Dövlət Universiteti)

*Müasir dövrdə arxeologiyanın inkişafı, əhalinin müxtəlif zümrələrində ona marağın artması bu elm sahısində işlədilən başlıca məfhum və istilahların mənasını izah edən lüğətin tərtibini gündəmə gətirir. Belə bir izahlı lüğətin hazırlanması tarixçi tələbələr, eləcə də gənc arxeoloqlar üçün də əhəmiyyətlidir. Bunu nəzərə alaraq hazırlanacaq izahlı lüğətin materialarının ayrı-ayrı mövzular üzrə Azərbaycan arxeologiyası jurnalında dərc olunmasını məqsədəuyğun hesab edirik. Jurnalin hazırkı sayında "Yaşayış yeri" mövzusu ilə əlaqəli istilahların izahı verilir.*

**Açıq arxeoloji kompleks -** Arxeoloji qazıntılar nəticəsində birgə üzə çıxarılan, eyni zaman kəsiyində mövcud olduğu ehtimal olunan, lakin sübut edilməyən arxeoloji komplekslər. Bu ilk növbədə yaşayış yerlərində üzə çıxarılan mədəni təbəqə yatımındakı arxeoloji komplekslərə şamil edilir.

**Açıq düşərgə -** İbtidai insanların təbii sığınacaq olmayan ərazilərdə saldıqları müvəqqəti yaşayış məskəni. Azərbaycan ərazisində xronoloji baxımdan ən qədim açıq düşərgə aşel dövrünə aid edilir. Misal olaraq Qayalı, Hacıdərə, Əlibayramlı və Şişquzey düşərgələrini göstərmək olar.

**Aerofotoçəkmə metodu -** Arxeoloji abidələrin, xüsusilə də yaşayış yerlərinin tədqiqində tətbiq olunan metod. Yüksək nöqtədən obyektin müxtəlif hissələrinin, sahələrinin əlaqəsinin daha yaxşı müşahidə olunması prinsipinə əsaslanır. Yüksəklikdən çəkilmiş şəkillər hətta məlum abidələrdə yeni əlamətləri, xüsusiyyətləri aşkarlamağa imkan verir. Qədim yaşayış yerlərindəki tikililər hətta ətraf ərazi ilə qarışaraq müşahidə olunmaz xarakter aldıqda belə aerofotoşəkillərdə onlar torpağın tərkibinə görə müəyyənləşdirilir. Aerofotoçəkmə metodunu ilk tətbiq edən Böyük Britaniyada P.Şerp olmuşdur. O, hava şarında uçmaqla Stounxenc abidəsinin görünüşünü yüksəklikdən çəkmişdir. XX əsrin əvvəllərində bu metodu O.Q.S. Krondford və mayor Allen Böyük Britaniyada, Per Puadebar isə Suriyada uğurla tətbiq etmişlər. Kosmonavtikanın uğurları kosmik fəzadan daha keyfiyyətli çəkiliş-

lərin edilməsini təmin etmiş, arxeoloqların öz tədqiqatlarında bu imkanlardan yararlanmaq perspektivlər açmışdır.

**Akropol –** yunan dilində işlədilən, arxeoloji ədəbiyyatda rast gəlinən termin. Şəhərin təpə üzərində salınmış, möhkəmləndirilmiş hissəsi. Bir növ Narınqalaya uyğun gəlir.

**Arxeoloji tip –** Artefaktlarda mühüm, səciyyəvi əlamətlərin sabit uyğunluğu. Bu zaman oxşarlıq xronoloji, məhəlli, texnoloji, etnik və digər amillərlə şərtlənmişdir.

**Arxeoloji hərfiyyat (axtarış) –** (ingiliscə field archeology, rusca археологические обследование) – Yer üzərində müşahidə olunan arxeoloji abidələrin qazıntı aparmadan ilkin tədqiqi. Bu abidələrdən bəziləri qabarıq relyefi ilə (qalalar, şəhərgahar, "təpə tipli yaşayış yerləri" və s. ) asanlıqla aşkar edilir, bəziləri isə relyefə malik olmayıb təsərrüfat və torpaq işləri görülərkən üzə çıxarılır.

**Arxeoloji kompleks –** (ingiliscə archeological association, rusca археологический комплекс) Arxeoloji tədqiqatlarda birgə tapılan, eyni zaman kəsiyində mövcud olmuş maddi mədəniyyət qalıqları.

**Artefakt –** (ingiliscə artefact, rusca артефакт) İnsan tərəfindən hazırlanmış əşya, inşa edilmiş qurğu, tikili və s. buraya bəzək əşyalarından yaşayış evinə, qala divarlarına qədər müxtəlif kateqoriyalar daxildir. Təbii obyektlərə xüsusi forma verildikdə o da artefakt adlandırıla bilər.

**Bayırşəhər –** Orta əsrlərdə şəhər qala divarlarından bayırda formalaşan sənətkar, xırda tacir və şəhər yoxsullarının yaşadığı məhəllələr, rabat islahının sinonimi.

**Buzlaq dövrləri** - Yerin geoloji soyuq iqlim və geniş sahəli qalın materik buzlaqları ilə səciyylənən dövrlər. Azərbaycan ərazisində Böyük Qafqaz dağlarında Üst Abşeron yaşlı (Qusar-Şahdağ) və Orta – Üst Antropogen yaşlı (Şahnabad) buzlaşma izləri məlumdur. Antropogendə dörd buzlaq dövrü olmuşdur: Güns, Mindel, Riss və Vürm.

**Buzxana -** Orta əsrlərdə soyuducu funksiyasını yerinə yetirən tikili. Nisbətən yaxşı qalmış buzxana qalıqları Naxçıvan şəhərində tədqiq edilmişdir. XIV əsrin əvvəllərinə aid edilən həmin abidə bişmiş kərpicdən düzbucaqlı biçimdə inşa olunmuş, uzunluğu 20 m, eni 9 m, salamat qalmış hündürlüyü 9 m-dir.

**Bürc –** (Ərəb sözüdür) (ingiliscə tower, rusca башня) Qədim və orta əsrlərdə şəhər qala divarında müşahidə və müdafiə qülləsi, qala çıxıntısı. Ayrıca qəsr və qalalar da bürclərlə möhkəmləndirildi. Divarların möhkəmliyini artırmaqla yanaşı bürclər həm də müdafiənin təşkilində mühüm əhəmiyyətə malik idi. Bürclər daşdan, çiy kərpicdən və bişmiş kərpicdən inşa olunur, qədimdə və antik dövrdə düzbucaq və kvadrat biçimli, orta əsrlərdə isə yarımdairəvi və dairəvi olurdu. Bəzi orta əsr şəhərlərində, eyni zamanda həm dördkünc, həm də yarımdairəvi bürclərə rast gəlinir. Misal üçün Gəncə şəhər yerində aparılan arxeoloji qazıntılar zamanı həm dördkünc, həm də

yarımdairəvi bürclər aşkara çıxarılmışdır və dördkünc bürclərin daha qədim olduğu bildirilir. Bir qayda olaraq şəhərin daha çox təhlükə gözlənilən divarlarında bürclər daha çox və sıx yerləşdirilirdi. Məsələn Dərbənd qalasındakı 73 bürcdən 46-sı şimal divarında idi.

**Çubuqhörmə ev** - Dirək və çubuqdan hörülərək hər iki üzünə gil vurmaqla inşa olunmuş bəsit yaşayış evi. Qədim və orta əsr yaşayış yerlərinin arxeoloji qazıntılarından məlumdur. Belə evlərin üzə çıxarıldığı abidələr sırasında Canaxır qədim yaşayış yerini, Bəndəvan orta əsr şəhər yerini, Sərkərtəpə kənd tipli yaşayış yerini və s. göstərmək olar.

**Çöl konservasiyası -** (ingiliscə field conservation, rusca полевая консервация) Arxeoloji qazıntılar zamanı üzə çıxarılan artefaktın təbii amillərin təsiri altında dağılmasının qarşısını almaq, onun ömrünün uzadılması üçün görülən möhkəmləndirici işlər. Çöl şəraitində həm təbii konservasiya metodlarından, həm də süni konservantların vasitəsi ilə konservasiya işləri aparılır.

**Daş dövrü** - (ingiliscə Stone Age, rusca каменный век)- Bəşər tarixində ən uzun, metalın insanlara məlum olmadığı, əmək alətlərinin daşdan, sümükdən, ağacdan hazırlandığı ən erkən texnoloji dövr. Azərbaycanda daş dövrü 2 milyon il bundan əvvəl başlamış e.ə.IV minillikdə başa çatmışdır. Daş dövrü öz növbəsində olmaqla üç dövrə bölünür. Paleolit, mezolit və neolit.

**Dendroxronologiya -** Arxeologiya tədqiqatlarda mütləq xronologiyanı əldə etmək üçün, təbiət qanunlarına əsaslanan metod. Həmin metod ağacların gövdəsində hər ilə uyğun gələn konsentrik dairələrin hesablanmasına əsaslanır. Bir qayda olaraq isti və günəşli, kifayət qədər rütubətli illərdə ağacın gövdəsindəki dairə qalın, əksinə soyuq və quraqlıq keçən illərdə dairə nazik olur. Arizon dendroşkalası əsasında 7 min il çərçivəsində hadisələrin təqdim sisteminə dəqiq uyğunlaşdırmağa imkan verir. Misal üçün Novqorodun taxta döşəmələrin dendroxronologiya ilə öyrənilməsi X əsrin ikinci yarısından XV əsrin ortalarınadək mütləq xronoloji şkalanın müəyyənləşdiilməsində həlledici rol oynamışdır.

**Dəmir dövrü –** (ingiliscə İron Ağe, rusca железный век) Arxeoloji dövrü təsnifat sistemində tunc dövrünü əvəz edən sonuncu mərhələ. Əmək alətlərinin və silahların əsasən dəmirdən hazırlandığı arxeoloji dövr. Dəmir istehsalının ilk mərkəzi Anadolu ərazisi hesab olunur və Hetlər dəmir istehsalının sirrini ilk dəfə kəşf edən xalqdır. Oykumenanın müxtəlif bölgələrində dəmir dövrünün balanğıçı fərqli olub əsasən e.ə. II və I minilliklərə təsadüf edir. Azərbaycanda başlanğıçı e.ə. II minilliyin sonuna aid edilir.

**Düşərgə -** Daş dövrünün yaşayış məskəninin qalıqları. Bu termin elmi ədəbiyyatda XIX əsrdə ibtidai insanların müvəqqəti xarakterli yaşayış yerlərini ifadə etmək üçün işlədilib. Kənd tipli yaşayış yerlərindən fərqli olaraq düşərgələrdə dayanaqlı yaşayış evləri olmurdu. Paleolit dövründə ibtidai insanlar düşərgələrini coğrafi şəraitin imkan verdiyi hallarda mağaralardan

qayaaltı sığınacaqlardan, qayaaltı boşluqlada istifadə olunurdu. Düzən ərazilərdə ov mövsümü ilə əlaqədar müvəqqəti açıq düşərgələ də salınırdı.

**Eneolit -** (latınca aeneus- mis, yunanca litos- daş sözlərində əmələ gəlib) Mis –daş dövrü. Arxeoloji dövrü təsnifata görə eneolit daş dövründən tunc dövrünə keçid mərhələsidir. Azərbaycanda eneolit dövrünün xronoloji çərçivəsi e.ə. VI miniiliyin ikinci yarısından IV minilliyin yarısınadək olan dövrü əhatə edir.

**Ərk qala -** Qədim və orta əsrlərdə şəhər topoqrafiyasında önəmli yer tutan, şəhər hakiminin və ya hökmdarının iqamətgahının yerləşdiyi etibarlı qala divarları ilə qorunan hissə. Ərk qala həm də İçqala və ya Narınqala adlanır. Ərkqala həm də Təbriz şəhərində XIV əsrin əvvəlində vəzir Taəddin Əlişahın inşa etdirdiyini, islamın ən böyük mehrabı sayılan məscidin qalıqlarının yerli əhali tərəfindən adıdır. XVII əsrdə divarları və minarəsi bərpa edilmiş, ətrafında Təbriz qarnizonu üçün binalar tikdirmişdir. Qacarlar dövründə Ərk qalada dövlət cəbbəxanası və taxıl anbarları yerləşdirilmişdir.

**Gövurqala** - Azərbaycan və digər türkdilli ölkələrdə islamaqədərki bəzi istehkamlı yaşayış məskənlərinin xarabalıqlarına verilən ad. Azərbaycanda Gövurqala Naxçıvan Muxtar Respublikasından, Ağdam, Oğuz, Qəbələ, Şəki rayonlarından məlumdur.

**Xanəgah** - (fars mənşəli) Müsəlman Şərqində sufilərlə bağlı, İslamın mənəvi aspektlərinə, mərasim və ayinlərinə ciddi riayət olunan məkan. Sufilərin bir qismi həmişə xanəgahda yaşayır, bir qismi isə sufi ideyalarını yaymaq üçün ölkədən-ölkəyə gedir, müvəqqəti yaşayış üçün xanəgahlarda özünə sığınacaq tapırdı. Xanəgahlarda tədris işləi aparılır, ilahiyyatçıların diskussiyaları olur, əsərlər yazırdı. Əsasən karvan yollarının üzərində inşa olunan xanəgahlar ölkənin sosial- iqtisadi, mədəni – ideoloji həyatında mühüm rol oynayırdılar. Xanəgahların plan- kompozisiya sxemi onların təyinatı ilə bağlı olmuşdur. Xanəgah kompleksinə yaşayış üçün istifadə olunan hücrələr, ibadətlə bağlı tikililər- məscid və minarə, ayinlərin icracı üçün zikrxana, ümumi toplantı üçün salon-camaatxana, təsərrüfat təyinatlı yadımçı binalar daxildir.

**İçqala** - Böyük qalanın içərisindəki kiçik qala, qalaça və ya Ərkqala.

**İmarət**- (ərəb mənşəli) Böyük və bədii tərtibatlı yaşayış binası, mülk.

**İnşaat qatı** - Mədəni təbəqədə eyni vaxtda istifadə olunmuş tikili qalıqları kompleksi və ona müvafiq gələn yatım. Yaşayış yerlərinin arxeoloji tədqiqi zamanı eyni vaxtda fəaliyyət göstərmiş tikinti qalıqlarının bütün qazıntı sahəsi boyunca tam təmizlənərək üzə çıxarılmasına, onların bir- biri ilə bağlılığının müəyyənləşdirilməsinə xüsusi önəm verilir.

**Kalipter** - (yunan mənşəli) Novşəkilli və ya yarımsilindir formalı kirəmit tipi.

**Karvansara** - (fars mənşəli) Ticarət yolları üzərində orta əsrlərdə inşa olunan, karvanların və yolçuların gecələməsi, istirahəti, ticarət əməliyyatları üçün inşa olunan xüsusi təyinatlı bina. Bir qayda olaraq karvansaranın iri

həyəti, karvanla gələnlərin istirahəti üçün hücrələr, karvandakı yük və minik heyvanlarının saxlanması üçün yer, ticarət mallarının yerləşməsi üçün anbar olurdu. Bir qayda olaraq karvansaralar qapalı plan quruluşuna malik olub divarları yarımdairəvi bürc çıxıntıları ilə möhkəmləndirilirdi. Karvansaralar orta əsr şəhərlərində də inşa olunurdu. Arxeoloji tədqiqatlarla öyrənilmiş orta əsr karvansara qalıqlarına misal olaraq Naxçıvan diyarında, Culfa yaxınlığındakı, orta əsr Xaraba-Gilan şəhər yerindəki, Cənubi Azərbaycanda Mərənd şəhəri yaxınlığındakı karvansaraları göstərmək olar.

**Kəhriz** - (fars mənşəlidir) Antik dövrdə və orta əsrlərdə qurunt sularını toplamaq və uzaq məsafəyə aparmaq üçün yeraltı hidromühəndis qurğusu. Kəhriz gümana quyusu ilə başlanır, sonra digər quyular qazılır və lağım atılırdı. Kəhrizin kürəsi bişmiş kərpic və ya daşdan hörülürdü. Qayalıq ərazidə isə kürənin hörülməsinə ehtiyac qalmırdı.Azərbaycanda kəhrizlərdən e.ə.I əsrdən istifadə olunduğu ehtimal edilir. Arxeoloji tədqiqatlarda kəhriz qalıqları Gəncədə, Şəmkirdə, Bakıda aşkarlanıb tədqiq edilmişdir.

**Kərpic**- (ingiliscə bric, rusca кирпич) Kvadrat, dördbucaqlı və ya düzbucaqlı biçimdə qəliblənmiş gildən hazırlanmış tikinti materialı. Kərpicin arxeoloji qazıntılardan iki növü məlumdur: çiy və bişmiş. Çiy kərpic (ingiliscə mood bric, rusca сырсовый кирпич) Azərbaycanda neolit dövründən məlumdur və Azərbaycanda çiy kərpicin inşaat materialı kimi tətbiqi e.ə. VI minilliyinə aid edilir. Bişmiş kərpicdən ilk istifadə e.ə.I minilliyin ikinci yarısından məlumdur. Ən qədim nümunə Şəmkir şəhərinin Qaracəmirli kəndi yaxınlığında tədqiq olunan e.ə.V-IV əsrlərə aid saray kompleksindən məlumdur.

**Kəsik** - (ingiliscə section, rusca разрез) Yaşayış yerinin mədəni təbəqə yatımının stratiqrafiyasını səciyyələndirməyə imkan verən qatların üzərinin çılpaqlanması.

**Kirəmit** - Gildən qəliblənərək hazırlanan dam örtüyü materialı. Şaxtaya və istiyə davamlı olması ilə fərqlənir. Azərbaycan memarlığında dam örtüyündə kirəmitdən ilk istifadə e.ə.I minilliyin ortalarına aid edilir.

**Körpü -** Çay, şəhər xəndəyi üzərindən keçmək üçün daşdan və ya bişmiş kərpicdən inşa olunmuş mülki tikili. Sadə biraşırımlı körpülərlə yanaşı möhtəşəm çoxaşırımlı körpülər də ucaldılırdı.

**Köşk** - Möhkəmləndirilmiş, bağ- bağça içərisində inşa olunmuş, bədii tərtibata malik ev, imarət, qəsr. Bağlarda istirahət üçün üstüörtülü, yanları açıq tikili də köşk adlanır. Köşk tipli bina qalıqlarının qədim nümunəsi Cənubi Azərbaycanda antik dövrə aid edilən Qaleh Zohak yaşayış yerində qeydə alınıb. XIII əsr mənbəsi Naxçıvandakı köşklərin çoxu “qüllə kimi üç və dörd mərtəbəli” olduğunu bildirir.

**Qala** - (ərəb sözüdür) 1. Həm sürətli hücum, həm də uzun müddətli mühasirə zamanı içində qapanıb düşmənə müqavimət göstərmək üçün zəruri müdafiə tikililəri və vasitələri olan istehkam. Azərbaycanda ən qədim qalalar erkən tunc dövrünə aid edilir.

2. Qala istilahı bəzən şəhər mənasını da bildirir.

**Qalaça** - Kiçik müdafiə tikilisi. Bəzən siklop tikililərinə də qalaça deyirlər.

**Qala şəhər** - Hərbi zərurətdən meydana çıxmış, möhkəm qala divarları ilə möhkəmləndirilmiş şəhərlər. Belə şəhərlərin səciyyəsi xüsusiyyəti hər şeydən əvvəl müdafiə funksiyasının daha önəmli olmasındadır.

**Qapalı arxeoloji kompleks** - Arxeoloji tədqiqatlar nəticəsində birgə üzə çıxarılan, eyni zamanda kəsiyində mövcudluğu şübhə doğurmayan, toxunulmamış axeoloji komplekslər. Dəfinələr, qarət olunmayan qəbir abidələri, təbii fəlakət nəticəsində əmələ gəlmiş mədəni təbəqə yatımı və s. belə komplekslərdəndir.

**Qaradam** - Azərbaycan ərazisində yaşamış tayfaların inşa etdikləi ev tipi. Qaradamın divarları daşdan, çiy kərpicdən, möhrədən hörülür, dam örtüyündə tüstünün çıxması, gündüzlər isə işığın düşməsi üçün baca olurdu.

**Qazma** - Yaşayış evinin ən qədim və bəsit növlərindən biri. Dördbucaqlı və ya dairəvi biçimli yerdə qazılıb, üzərinə tirlər ataraq torpaqla örtürdülər. Qazmanın içərisində adətən ocaq və digər məişət qurğuları olurdu.

**Qazıntı** - (ingiliscə excavation, rusca раскоп) Arxeoloji məfhum olaraq yaşayış yerində və ya qəbir abidəsində tədqiqatın başlıça növü. Qazıntı yaşayış yerində həyat mənzərəsinin, qəbir abidələrində dini görüşlərin, adət və ayinləin bərpasına, bir sözlə abidənin öyrənilməsinə xidmət edir. Abidənin növündən asılı olaraq müxtəlif tədqiqat metodları tətbiq olunur. Qazıntı prosesində abidə, bir qayda olaraq, dağıdılır. O hesabatlarda, məqalə və kitablarda öz əksini tapmış olur. Bu səbəbdən arxeoloqdan böyük ehtiyat, güclü diqqət və son dərəcə məsuliyyət tələb olunur.

**Qəsr -** (ingiliscə castle, rusca замок) Qalın, möhkəm divarı olan, bürclərlə möhkəmləndirilən yaşayış və müdafiə üçün nəzərdə tutulan istehkam tikilisi. Bir qayda olaraq qəsrlər müdafiə üçün əlverişli ərazidə inşa olunur, ətrafına müdafiə xəndəyi çəkilirdi. Qəsrlərin içərisində uca müdafiə qülləsi, yaşayış, dini və təsərrüfat təyinatlı tikililər olurdu.

**Qüllə -** Qədimdə və orta əsrlərdə müdafiə təyinatlı möhkəm konstruksiyalı hündürlüyü ilə fərqlənən kiçik sahəli müdafiə tikilisi. Daşdan, möhrədən, çiy və bişmiş kərpicdən inşa edilirdi. Qədimdə əsasən dördbucaq, orta əsrlərdə isə dairəvi biçimdə inşa olunurdu. Bəzən qəsrlərin içərisində ondan iki dəfə hündür bir neçə qatlı qüllə olurdu. Xüsusilə Abşeron qəsrləri üçün belə qüllənin olması səciyyəvidir.

**Liman -** (yunan mənşəli) dəniz və daxili su hövzələrinin sahilində gəmilərin yan alması, durması, müvafiq olaraq yük vurulub boşaldılması üçün körpü və digər zəruri tikililərlə təchiz olunmuş məntəqə, port. Su altı arxeoloji tədqiqatlarla liman qalıqları Dərbənddə, Bilgəhdə qeydə alınıb öyrənilmişdir. Xüsusilə Dərbənd limanı orta əsrlərin ən böyük limanlarından biri olmuş, müsəlman Şərqinin Şərqi Avropa ilə ticarətində mühüm rol oynamışdır.

**Mağara düşərgəsi -** ibtidai insanların mağaralarda saldığı yaşayış məskəni. Paleolit dövrü üçün xüsusilə səciyyəvidir.

**Mezolit-** (yunan mənşəli) Orta daş dövrü deməkdir. E.ə. 12-ci minillikdən e.ə. 8-ci minilliyə qədər olan dövrü əhatə edir. Mezolit dövrü ox və kamanın kəşfi, daşişləmədə mikrolit texnikasının geniş yayılması ilə əlamətdar olmuşdur. Azərbaycanda mezolit dövrü başlıca olaraq Qobustandakı abidələr əsasında öyrənilmişdir.

**Mədəni təbəqə** - (ingiliscə cultural layer, rus dilində культурный слой) Arxeologiya elminin əsas məhfumlarından olub hər hansı bir qədim və ya orta əsr yaşayış məskənində insan fəaliyyətinin nəticəsində formalaşmış tikinti, təsərrüfat və məişət qalıqlarının yatımıdır və yaşayış yerlərinin öyrənilməsində, tarixi prosesin mənzərəsinin bərpasında mühüm vasitədir. Mədəni təbəqə uzunmüddətli və mürəkkəb bir prosesin nəticəsində, təbiət və antropogen amillərin təsiri altında formalaşır. Bir qayda olaraq mədəni təbəqə bir-biri ilə sıx bağlı iki tərkibdən ibarətdir: a) tikili qalıqları; b) təsərrüfat və məişət fəaliyyətinin nəticəsində əmələ gələn yatım. Mədəni təbəqə qədim yaşayış məskənində mövcud olmuş həyat nəticəsində tarixən təşəkkül tapmış təbəqələşmə sistemi olub dövrün sosial-iqtisadi, siyasi və mədəni-dini durumuna dair çox zəngin informasiya potensialına malikdir. Mədəni təbəqənin qalınlığı yaşayış yerinin xarakterindən, mövcud olduğu müddətdən və istifadə olunan inşaat materialdan asılı olaraq 20-30 sm-dən 20-30 m-dək ola bilər.

**Məhəllə** - (ərəb mənşəli, ingiliscə district, rusca квартал) Şəhər və ya şəhər tipli iri yaşayış məskəninin bölündüyü ərazi vahidlərindən biri.

**Möhrə** - (ingiliscə pise, rusca глинобит) qəliblənməmiş gil inşaat materialı. Neolit, eneolit və tunc dövrlərinin inşaat sənətində geniş tədbiq olunub.

**Mustye –** Paleolitin dövrü təsnifatında aşel dövrünü əvəz edən, paleolitin orta mərhələsinə uyğun gələn, neandertal adamların yaşadığı dövr. Azərbaycanda mustye dövrü 120-35 min il bundan əvvəlki dövrü əhatə edir.

M**ütləq xronologiya -** Müəyyən təqvim sistemi üzrə ifadə olunmuş tarixlərin dəqiq müəyyənləşdirilməsi. Mütləq xronologiya nə vaxt sualına dəqiq cavab tələb edir. Misal üçün, hicri 618-ci ilin səfər ayının 4-də (miladi 30.03.1221) monqollar hücumla Marağa şəhərini alaraq böyük qırğın törətmişlər.

**Neolit -** (yunan mənşəli) Yeni daş dövrü mənasını bildirir. Azərbaycanda neolit dövrü VII-VI minillikləri əhatə edir. Neolit dövrünü səciyyələndirən başlıca əlamətlər aşağıdakılardan ibarətdir: istehsal təsərrüfatına keçid (toxa əkinçiliyi və heyvandarlıq, möhrə və çiy kərpicdən inşa olunmuş dayanıqlı evlər, keramika istehsalına başlanılması, cilalı baltaların meydana çıxması və geniş yayılması, toxuculuğun meydana gəlməsi). Azərbaycanın neolit dövrünün öyrənilməsində Şimali Azərbaycanda Göytəpə, Qobustan abidələri, Cənubi Azərbaycanda Hacı Firuz mühüm əhəmiyyət kəsb edir.

**Nisbi xronologiya -** Müəyyən bir məlum hadisəyə əsaslanmaqla tarixin müəyyənləşdirilməsi. O halda özünü doğruldur ki, hazırkı vaxtla həmin hadisə arasındakı zaman kəsiyi məlum olsun. Arxeoloji tədqiqatlarda nisbi xronologiya geniş tətbiq olunur və əsasən stratiqrafik və tipoloji metodlara əsaslanır. Stratiqrafiya metodu qədim yaşayış yerlərində mədəni təbəqə yatımı ardıcıllığının izlənilməsini tələb edir. Abidədə mədəni təbəqələrin yerləşmə vəziyyətinə görə onun nisbi xronologiyası müəyyənləşdirilir.

**Ovdan –** (fars mənşəli) Yağış, suxur və kəhriz sularının toplanması üçün inşa olunan su tutarı. İki hissədən: yerüstü və yeraltı hissələrdən ibarət olur. Adətən giriş baştağla işlənir. Suyun toplandığı yeraltı hissəyə maili pillələr aparır. Ovdanlar orta əsrlərdə şəhərlərin su təchizatında, habelə karvanların su ilə təminatında mühüm rol oynamışdır.

**Paleolit -** (yunan mənşəli) qədim daş mənasını verir. Daş dövrünün erkən mərhələsi. Bəşər tarixinin ən uzun dövrü olub üç milyon il bundan öncə başlayıb e.ə.12-ci minilliyə qədər davam etmişdir. Paleolit dövrü bəşər tarixində bir sıra əhəmiyyətli kəşflərlə əlamətdar olmuş, bu dövrdə antropogenez prosesi nəticəsində müasir fiziki tipli insan formalaşmışdır.

**Pleystosen** - Böyük buzlaq dövrünə uyğun gələn geoloji dövr. Pleystosenin başlanğıcı iqlimin ümumi soyuması, villa frank faunasının, fil, camış və atın meydana çıxması və digər əlamətlərlə səciyyələnir. İbtidai insanın (Avstrolopiteklər) və paleolit arxeoloji mədəniyyətlərinin təşəkkül tapması da bu dövrə təsadüf edir. Pleystosenin başlanğıcı kalii- arqon metodu ilə 3, 5 milyon ildən əvvələ aid edilir. Bu dövrün sonunda buzlaqlar çəkilməyə başlayır və e.ə.8300-cü ildə buzlaqlar əvvəlki mövqelərinə qayıdırlar.

**Rabad** - (ərəb sözüdür). Orta əsrlərdə şəhərin ətrafında əsasən sənətkar, xırda tacir və yoxsul təbəqələrinin məskunlaşdığı ərazi. Azərbaycanda şəhərlərin ətrafında rabadın formalaşması ərəb işğalından sonrakı dövrə təsadüf edir. Bəzən rabad da qala divarları ilə möhkəmləndirilirdi.

**Rəmə** - Azərbaycanın bəzi bölgələrində qədim yaşayış məskənin xarabalıqlarının əmələ gətirdiyi təpə rəmə adlandırılır.

**Siklop tikilisi** - (yunan mənşəli termin) eneolit, tunc və erkən dəmir dövrlərində əsasən iri qaya parçalarından yapışdırıcı məhlul istifadə etmədən inşa olunmuş müdafiə tikililəri. Xarakter etibarı ilə meqalitik tikililərə aid edilir. Yerli əhali tərəfindən siklop tikililər “ qala”, “ qalaça”, “ düzülü daş” adları ilə adlanır. Azərbaycan Respublikasında Naxçıvan diyarında, Şəmkir, Gədəbəy, Tovuz, Daşkəsən rayonlarında arxeoloji tədqiqatlarla qeydə alınıb.

**Siklop hörgüsü**- (ingilis dilində cyclopean masonry, rusca циклопическая кладка). Qeyri-düzgün formalı, iri qaya daşlarından yapışdırıcı məhlul istifadə etmədən, daşları qurama üsulu ilə sıx bir- birinə yığmaqla icra olunan hörgü.

**Stratiqrafiya**- (latınca stratumi, yunanca qrafo sözlərindən). Təbəqələri yazıram mənasını bildirir. Arxeologiya elminin əsas məfhumlarından olub mədəni təbəqənin quruluşu və xarakteri, ardıcıllığını izləməyə imkan verir. Təsərrüfat, istehsalat qalıqlarına, maddi mədəniyyət elementlərinə, rənginə və strukturuna görə mədəni təbəqənin qatları fərqlənir. Abidənin stratiqrafiyasının müəyyənləşdirilməsində mədəni təbəqənin şaquli kəsiklərinə xüsusi əhəmiyyət verilir. Belə ki, şaquli kəsiklərdə mədəni təbəqənin qatlarının sərhədlərini müəyyənləşdirmək, quyu, çuxur, xəndək və digər qazıntı işlərinin, eləcə də aparılan inşaat işlərinin qalıqlarını aşkarlamaq nisbətən asan olur.

**Stratiqrafik metod-** Bu metod XIX əsrin ortalarında geologiya elmindən arxeologiyaya gətirilmişdir. O zaman geologi stratiqrafiyadan istifadə etmək bir sıra paleolit abidələrinin nisbi dövrünü müəyyənləşdirməyə imkan vermişdir. Bir qayda olaraq mədəni təbəqənin alt qatları yaşayış məskəni tarixinin erkən çağlarını, üst qatları isə sonraki dövrləri əks etdirir. Müvafiq olaraq çoxtəbəqəli abidələrdə alt mədəni təbəqə qədim, üst mədəni təbəqə isə nisbətən cavan olur. Stratiqrafik metod həm də tədqiqatçılara ayrı-ayrı maddi mədəniyyət abidələrinin meydana gəlmə, yayılma və aradan çıxma tarixlərini dəqiqləşdirməyə imkan verir.

**Şəhərgah- (**fars mənşəli) Şəhər yeri mənasını verir. Qədim və orta əsr şəhərlərinin xarabalıqları. Əksər hallarda ətraf ərazidən qabarıq relyefli, xüsusilə istehkam tikililərinin qabarıq relyefi ilə fərqlənir. Azərbaycan Respublikası ərazisində ən qədim şəhərgah tunc dövrünə aid edilir.

**Şəhristan-** (fars mənşəli) türkcə içərişəhər, ərəbcə mədinə istilahlarının sinonimidir. Qədimdə və orta əsrlərdə şəhər topoqrafiyasında əsas hissə, şəhər sakinlərinin əksəriyyətinin yaşadığı, ictimai-dini binaların cəmləşdiyi sahə. Bir qayda olaraq möhtəşəm qala divarları ilə qorunurdu. Düzən ərazilərdə düzbucaq və ya kvadrat planda inşa olunur, dağlıq və dağətəyi ərazilərdə isə relyefə uyğunlaşdırılırdı.

**Şəhər yeri** – Qədim və orta əsr şəhərlərinin xarabalıqları. Əksər hallarda ətraf ərazidən qabarıq relyefli, xüsusilə istehkam tikililərinin qabarıq relyefi ilə fərqlənir. Azərbaycan Respublikası ərazisində ən qədim şəhər yeri tunc dövrünə aid edilir.

**Təpə** - (ərəbcə tell, türkcə hüyük) Uzun müddət mövcud olmuş yaşayış məskənindən əmələ gəlmiş təpə. Adətən təpə inşaat materialı kimi çiy kərpicdən istifadə olunan ərazilərdə formalaşırdı. Çiy kərpic ucduqdan sonra inşaatda istifadəyə yararlı olmurdu. Nəticədə ərazi düzləndirilərək yeni tikililər ucaldılırdı.

**Təpkeş** – yaşayış yerlərində aparılan arxeoloji qazıntılar zamanı mədəni təbəqənin tədqiqində tətbiq olunan, onun üfüqi qatlarla tədqiqinə imkan verən əsas qazıma üsulu.

**Tor** – (rusca сетка, ingiliscə grid layont) çöl arxeoloji tədqiqatlarında qazıntı sahəsinin tor üzrə kvadratlara bölünməsi metodikası maddi mədəniyyət qalıqlarının və tapıntıların qeydiyyatını asanlaşdırır.

**Tunc dövrü** – (ingiliscə Bronze Age, rusca бронзовый век) Arxeoloji dövrü təsnifat sistemində üç dövrdən biri. Bu dövr əmək alətlərinin və silahların başlıca olaraq tuncdan hazırlandığı tarixi mərhələni əhatə edir. Azərbaycanda e.ə. IV minilliyin ortalarından II minilliyin sonunadək davam etmişdir.

**Yaşayış yeri –** Qədim və orta əsrlərdə mövcud olmuş yaşayış məskəninin xarabalıqları. Düşərgədən fərqli olaraq yaşayış yerləri uzun müddət mövcud olmuş, dayanaqlı yaşayış evləri və təsərrüfat tikililərinə malik yaşayış məskəninin xarabalıqlarıdır. Arxeoloji qazıntılarla tədqiq olunmuş belə yaşayış yerlərinin ən qədimi neolit dövrünə aid olub istehsal təsərrüfat ilə məşğul olan icmaların yaşadıqları yaşayış məntəqələrinin xarabalıqlarıdır. Şimali Azərbaycanda Göytəpə, Cənubi Azərbaycanda Hacı Firuz bu tip abidələrin ən qədimidir.

**Üfüqi stratiqrafiya** – (ingiliscə horizontal stratigraphy, rusca горизонтальная стратиграфия) Bir müstəvi üzərində olan arxeoloji obyektlərin qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsi.

**Yoxlama qazıntısı** – (ingiliscə sondage, rusca шурф) Abidənin stratiqrafiyasını müəyyənləşdirmək üçün aparılan kiçik sahəli qazıntı. Bir qayda olaraq sahəsi kiçik, dərinliyi nisbətən böyük olur. Mədəni təbəqə yatımı haqqında təsəvvür əldə etməyə imkan verir.

## ƏDƏBİYYAT

Azərbaycan arxeologiyası. Altı cilddə. Bakı, 2008, cild I, VI.
Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. Bakı, 2007.
Azərbaycan Sovet Ensiklopediyası. On cilddə.
Авдусин В.Ф. Полевая археология СССР. Москва, 1980.
Брей У., Трамп Д. Археологический словарь. Москва, Прогресс, 1990, 368 с.
Мартынов А.И., Шерр Я.А.Методы археологического исследования. Москва, 1989.
Smith J.W. Foundations of Archaeology. New York, 1976.
Journal of Archaeological Sciense - // www. elsevier.com/locate/jas

# BİZİM MÜSAHİBƏ
# OUR İNTERVİEW
# НАШЕ ИНТЕРВЬЮ

**Müsahibimiz görkəmli etnoqraf,**
**AMEA Naxçıvan Bölməsi Etnoqrafiya,**
**Tarix və Arxeologiya İnstitunun direktor müavini,**
**AMEA Müxbir üzvü Hacı Qadir Qadirzadədir.**

**Hörmətli Qadir müəllim, elm yolunu seçməyiniz nə ilə bağlıdır?**

Bu sorğunun mənim üçün bir yığcam cavabı var- Rəbbim seçdi mən oldum. Amma maraqlananlar üçün bir az geniş cavab vermək olar. 1968-ci ildə II kursda oxuyarkən mən də daxil olmaqla bir qrup tələbə Bakı şəhərində keçirilən tələbələrin Ümumittifaq konfransında mükafata layiq görüldük. Elə həmin ildə arxeoloq Vəli Əliyevlə tanış oldum və sonrakı illərdə arxeoloji qazıntılarda iştirak etdim. 1971-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialinin ilk buraxılışı oldu və mən tarix ixtisası üzrə ilk fərqlənmə diplomu aldım. O dövrdə ehtiyac olmasına baxmayaraq nəyə görəsə məni institutda saxlamadılar və təyinatım üzrə Cəhri kənd orta məktəbində müəllim işləməyə başladım. Müəllim işlədiyim dövrdə elmi əlaqələrim daha da genişlənmişdi. Arxeoloji qazıntılarla yanaşı Naxçıvana gələn etnoqraflar-Teymur Bünyadov, Həsən Quluyev, Qiyasəddin Qeybullayev, Qəmərşah Cavadov, Şahpələng Quluyev, A. Trafimova və digərləri ilə bir-



likdə etnoqrafik ekspedisiyalarda iştirak edirdim. Hər dəfə mənə təkidlə dissertasiya mövzusu ilə məşğul olmağı təklif edirdilər.

1975-ci ilin mayında Naxçıvan Elm Mərkəzinin rəhbəri, hörmətli akademikimiz Məhərrəm Məmmədyarov sifariş edib məni çağırtdırdı və dedi ki, Bakıdakı etnoqraflar səni işə götürməyi xahiş ediblər. Mən səni kiçik elmi işçi vəzifəsinə götürmək istəyirəm. O vaxtı elmi strukturdan xəbərim olmadığı üçün kiçik sözündən xoşum gəlmədiyinə görə dedim ki, fikirləşərəm. Bir neçə gündən sonra məni yenidən çağırdıqda dedim ki, nəyə görə məni baş laborant deyil kiçik elmi işçi götürürsünüz? Məhərrəm müəllim ucadan gülüb dedi ki, biz hər gələni kiçik elmi işçi götürmürük. Bu baş laborantlıqdan yüksəkdir. Beləcə başladı mənim elmi fəaliyyətim. 1976-cı ildən Moskva şəhərində, SSRİ EA Etnoqrafiya İnstitunda elmi araşdırmalar apardım. Bugünkü vəziyyət də bəllidir.

**Maraq dairənizdə etnoqrafiya ilə yanaşı daha nə var?**

Etnoqrafiya, etnologiya həyatın bütün sahələrini əhatə etdiyindən bizim maraq dairəmizdə olan digər sahələr də bu və ya digər cəhətdən onunla əlaqəlidir. Lakin bunlar içərisində dini-mifoloji amillər üstünlük təşkil edir. Maddini qalıcı, keçici, aldadıcı hesab etdiyimdən şəxsi həyatımda ruhi-mənəvi cəhətlərə böyük önəm verirəm. Bilirəm ki, hər bir tədqiqat sonunda insanlığa xidmət etməli, onun həyat tərzini dəyişməli, ruhi zənginliyə gətirib çıxarmalıdır. Biz bütün insanlığı bu düşüncə ətrafında birləşdirə bilsəydik dünyada hər cür qovğalara, ərazi və mədəniyyət istismarına yer qalmazdı. Mənim üçün hər bir araşdırma, o cümlədən etnoqrafik məsələlər maddinin mənəviyə xidmətindən keçər. O mənəvidən ki, o Rəbbanidir. Özgə sözlə desək maddi və mənəvinin vəhdətində insan amilinin dayanması başlıca şərtdir. Ruhi zənginlikdən, yaranmışı Yaradana xatir sevməkdən zövq alıram. Bunların bir qismini "Həzrət insan" kitabımızda vermişdik. Bütün araşdırmalarımda maddi, mənəvi və ruhi dünyanın vəhdətinə çalışıram.

Tənhalığa meyilliyim güclüdür. Bu vəziyyətdə daha çox rühi aləmlə bağlı olmaqla özümün nə dərəcədə zəif yaradıldığımı, möhtac və zəif olduğumu hiss edirəm. Bu anda daha çox yaranışla Yaradan arasında əlaqə qurulur. Nə dərəcədə qorxuramsa bir o dərəcədə qürurlanıram. Buradan başlanır həzz dünyam, aşiqin məşuqa, təşnənin suya çatması, can quşunun canana, əmanətin sahibinə yönəlməsi, bağışlandığını hiss edib günahlarından titrəyərək goz yaşları içərisində qıvrılan bir qulun məqama çatıb dünyadan qopması və mükafatı olan ruhi həzz alma.

İmkan olduqca ruhi və mənəvi düşüncələrimi yazmağa calışıram.

**Qadir müəllim, elmdə yetirmələriniz varmı?**

Yetirməsiz alim barsız və kölgəsiz ağacdan da pisdir. Mən həyatımın 33 ilini şöbə müdiri və elmi işlər üzrə direktor müavini vəzifəsində keçirmişəm. Bu müddət ərzində birbaşa rəhbəri olduğum 5 nəfər dissertasiya müdafiə etmiş və tarix üzrə fəlsəfə doktoru adı almışdır. Onlarla elmi işə opponentlik

etmişəm. Eyni zamanda çox sayda mütəxəssisin yetişməsində əməyim olmuşdur.

**Siz, həyatda nəyə daha çox dəyər verirsiniz?**

Nəfsinə, əlinə, dilinə, belinə sahib olmaq, qul haqqını gözləmək, özüözünə hesabat vermək, bilmirəm deməyi, üzr istəməyi, günahlarını etiraf etməyi bacarmaq, elmin səninlə bitməyəcəyini bilmək, könül sındırmamaq. Milli-mənəvi dəyərlərə əməl etmək və qoruyub saxlamaq, elmə müqəddəs vəzifə kimi baxmaq, yaranmışı Yaradana xatir sevmək, vəzifənin, övladın, mal-dövlətin keçici olduğunu, imtahan üçün verildiyini unutmamaq, ibadətdə, iman və təqvada sabitqədəm olmaq. Məncə bunlari gözləyə bilsək yetər.

**İlk müəlliminiz kim olub?**

İlk müəllimim deyərkən nəyi nəzərdə tutursunuz? Məktəbdə ilk müəllimim rəhmətlik Abbas Abbasov olub. Bütovlükdə həyat dərsi almışam. Çox zor və məşəqqətli həyat dərsi. Mənim aldığım dərsin görünən, görünməyən, maddi-mənəvi və ruhi tərəfləri var. Elə yönlər var ki, mən onu axtarıb tapmışam, elə uca məqamlar vardır ki, onlar məni tapıb, düşünə bilmədiyim mənə verilib. Etnoqrafiya sahəsində Moskva məktəbini şüküranla yad edirəm. Mənim üçün xərcləndikcə çoxalan mənəvi və ruhi dünyam üçün Allahıma şükürlər olsun! O mənə düşünə bilmədiyimi verib. İçərimə Özünün, Hz.Peyğəmbərimizin, Hz. Əli və Əhli-Beytinin sevgisini doldurub, elmin şəhərini və onun qapısını göstərib, Onların sayəsində bir qulunu sevib və sevdirib. Elmi lədunundan dadızdırıb.

**Yaxşı tədqiqatçı etnoqrafı necə təsəvvür edirsiniz?**

Bu sual bir az çətindir. Məncə özünü etnoqraf hesab edənlər xalqın maddi və mənəvi mədəniyyətinə dərindən bələd olmaqla ciddi nəzəri biliyi, müqayisə aparmaq, elmi təhlil etmək, genetik əlaqələri müəyyənləşdirmək, peşəsini sevmək, yerli materiallardan, rəvayət, söylənti və digər məlumatlardan tarixi mənbələrə və əksinə davranmağı bacarmalıdır. Çöl materialları əvvəlcədən tərtib edilmiş sorğu vasitəsi ilə toplanılmalıdır. Nəzəri məsələlərlə məşğul olanlar problemi dərindən öyrənməli, onu bütün yönləri ilə tədqiqata cəlb etməyi bacarmalıdır.

Nədənsə həmişə düşünmüşəm ki, etnoqrafik araşdırma aparmağın ən yaxşı yolu tədqiqata cəlb olunmuş regionu dərindən bilmək, oradakı adət və inamlara əməl etmək, bayram və mərasimlərin iştirakçısı olmaqdan ibarətdir.

**İş və şərait amilinə necə baxırsınız?**

Tədqiqatın aparılmasıında hər ikisi əsas şərtdir.

**Yenidən peşə seçsəydiniz bir də etnoqrafiyanı seçərdinizmi?**

Etnoqrafiya mənim həyatımın vacib sahələrindən birinə çevirilib. 42 ildir eyni yolda gedirik, həyatımın çox hissəsi onunla bağlıdır. Mən peşəni bir dəfə seçmişəm və mənim məzara qədərki yoldaşımdır.

**Övladlarınızın Sizin yolunuzu davam etdirməsini istəyərdinizmi?**

Çox düşünürdüm ki, məndən sonra uzun illər boyu topladığım kitabların, arxiv materiallarımın taleyi necə olacaqdır? Qızım, tarix üzrə fəlsəfə doktoru Türkan Qədirzadə bu narahatlığımı aradan qaldırdı. Hazırda o, Doğu Anadolu və Naxçıvan qarşılaşdırmaları istiqamətində araşdırmalar aparır.

**Elm olaraq etnoqrafiya Sizə nə vermiş və Siz bu elmə nə vermisiniz?**

Elm olaraq etnoqrafiya mənə bugünkü Hacı Qadiri vermiş, mən isə həyatımın 42 ilini bu elmə vermişəm. Bu illər Naxçıvan etnoqrafiyasını dərindən öyrənmiş, bir çox gənc alimlərdə bu istiqamətdə maraq oyatmış, onlara əlimdən gələn köməyi etmişəm. Elmi tədqiqatlarımın nəticələri monoqrafiyalar və elmi məqalələr şəklində ölkəmizdə və xaricdə nəşr olunmuşdur. İnsanın özünə qiymət verməsi olduqca çətindir. Bir onu deyə bilərəm ki, elm üçün, Vətən üçün, xalq üçün əlimdən gələni etməyə çalışmışam. Həqiqi qiyməti isə xalq və zaman verir.

**Maraqlı müsahibəyə görə təşəkkür edirəm.**

***Müsahibəni apardı: Bəhlul İbrahimli***

# BİZİM ARXİVİMİZDƏN
# FROM OUR ARCHIVE
# ИЗ НАШЕГО АРХИВА

## BIR ARXEOLOQ VAR IDI...



Qardaşxan Aslanovu yaşadığı dövrə görə Azərbaycan arxeoloqlarının birinci nəslinə aid etmək olar. Bu nəsil iki dünya müharibəsi görmüş, müstəqilliyin əvəzsiz hisslərini keçirmiş, sabaha ümid yeri qoymayan repressiyanın acısını dadmış, öz işinə çox diqqətlə, "pedant" səliqəsi ilə yanaşan ziyalılar idi.

Aslanov Qardaşxan Məmməd oğlu 04 may 1912-ci ildə Bakı şəhəri, Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsində anadan olmuşdur. Özünün dediyinə görə əslləri Dağıstandan, orada təriqətcə şiələr yaşayan Miskincə kəndindən idi. İlk təhsilini Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyevin məktəbində almışdı.

1933-cü ildə Lassal adına Balaxanı Neft Texnikumunu bitirdikdən sonra neft mədənində qazmaçı, sarğıçı ixtisaslarında işləmişdir.

Sovetlər Birliyində repressiyanın tüğyan etdiyi 1937-ci ildə Bakı Dövlət Darülfününun (indiki Bakı Dövlət Universitetinin) tarix fakültəsinə daxil olmuşdur. Tarix fakültəsinə daxil olsa da Qardaşxan müəllim ədəbiyyatı, poeziyanı çox sevirdi. O, Tofiq Fikrət, Nazim Hikmət və Hüseyn Cavidin pərəstişkarı idi, saatlarla onların şeirlərini əzbərdən deməyə hazır idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını 8 yaşında qarşılamış Qardaşxan müəllim türkçülük ruhunda boyümüşdü. Tələbə yoldaşlarının hamısı, xüsusən də rayonlardan olan tələbələr onun kimi məlumatlı deyildi. Bakıdan olan tələbələr Çarizmin devrilməsini, bolşeviklərin gəlişini, İngilislərin Bakını işğal etməsini, Qafqaz İslam Ordusunun zəfər yürüşünü və Cümhuriyyətin yaranmasını öz gözləri ilə görmüş, tarixi hadisələrin canlı şahidi olmuşdular. Universitet tələbələri milli ruhun oyanış dövrünün yetirmələri idilər. Onların hər birinin söhbəti, gördükləri tariximizin bir səhifəsi idi.

Boyük Vətən Müharibəsinin başlanması Qardaşxan müəllimə təhsilini bitirməyə imkan vermədi. Tələbə ikən, 1941-ci ildə - Darülfünunun dördüncü kursunda olarkən Böyuk Vətən Müharibəsinə getmiş, zenit batalyonunda vuruşmuş, 20 sentyabr 1945-ci ildə "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdu. Müharibədən sonra təhsilini davam etdirərək 1948-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetini tarixçi ixtisası ilə bitirmişdir.

1948-1952-ci illərdə Azərb. SSR EA Tarix muzeyində fond müdiri, 1952-ci ildən isə Azərbaycan SSR EA Tarix İnstitutunda baş elmi işçi vəzifəsində işləmişdir.

1963-cü ildə "Azərbaycanın ilk orta əsr abidələri" (I-VII əsrlər katakomba qəbirlərin materialları əsasında) mövzusunda dissertasiya mudafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. O dövr üçün ən böyük və unikal tapıntıları ilə Sovetlər Birliyində çox tanınmış Mingəçevir qazıntılarında yaxından iştirak etmiş, buradan əldə edilmiş arxeoloji tapıntıların elmi-müqayisəli təhlilinə, katakomba və küp qəbirlərin quruluşuna, avadanlığına, dövrləşməsinə, daş alətlərin, möhürlərin elmi interpretasiyasına onlarla məqalə həsr etmiş, "Qədim Mingəçevir" kitabının həmmüəlifi olmuşdur. Maraq dairəsi olduqca geniş olan Q.M.Aslanov qliptika, möhürlər, qədim musiqi alətləri, daş heykəllər və qayaüstü təsvirlərin də elmi tədqiqi ilə məşğul olmuşdur. Mingəçevirdən sonra Azərbaycanın müxtəlif regionlarında arxeoloji qazıntılar aparsa da Q.M.Aslanov, əsasən Abşeron və Naxçıvanın qədim dövr abidələrinin tədqiqi ilə məşğul olmuşdur.

Q,M.Aslanovun rəhbərlik etdiyi (1980-1990) AMEA Tarix institutu Arxeologiya və Etnoqrafiya sektorunun Xaraba-Gilan arxeoloji ekspedi-





siyası Naxçıvan MR Ordubad rayonu ərazisində son tunc və ilk dəmir dövrünə aid Xalı-Keşan, Muncuqlutəpə, Mərdangölü və Dəlmə nekropollarını tədqiq etmiş, Naxçıvanın qədim tarixinə aid zəngin arxeoloji material aşkara çıxarmışdır. Tədqiqatın nəticələri B.İ.İbrahimov və S.M.Qaşqayla həmmüəllif olduğu "Xaraba-Gilanın qədim nekropolları" kitabında əks olunmuşdur.

Azərbaycanın demək olar ki, hər yerində arxeoloji tədqiqatlar aparmış Qardaşxan Aslanov müxtəlif dövrlərə aid abidələr, onların xarakterik cəhətləri və genetik əlaqələri haqqında fenomenal yaddaşa, dolğun biliyə malik idi. Bir sözlə, Qardaşxan müəllim gəzən ensiklopediya idi. İndi biz arxeoloji tədqiqatlar zamanı aşkar etdiyimiz tapıntının analoqunu elmi ədəbiyyatda axtarırıqsa Qardaşxan müəllim, bu analoqların nə vaxt, hansı abidədə və kim tərəfindən tapıldığını bütün təfərrüatı ilə deyirdi. Bu böyük alimin tədqiqat dairəsi təkcə arxeologiya ilə məhdudlaşmırdı. Onun etnoqrafiyaya aid yüksək elmi məzmunlu tədqiqat işləri vardır. Qardaşxan müəllimin tədqiqatları əsasən tarixi etnoqrafiya ilə bağlı idi. O, qədim inamlar, kultlar, qədim ayinlərin keçirildiyi zaman istifadə olunan əşyalar və bəzəklər, onların semantikası haqqında saatlarla danışa bilərdi.

Qardaşxan Aslanov bir insan kimi olduqca mülayim təbiətli və ünsiyyətli adam idi.Uşaqla uşaq idi, böyüklə böyük! Tez küsüb, tez barışan idi, kin saxlamazdı. Ölümündən çox illər keçməsinə baxmayaraq tədqiqat apardığı rayonlarda camaat indi də onu xatırlayır. Qardaşxan müəllimin xasiyyətini fərqləndirən əsas cəhətlər sadəlövhlük və incə yumor hissinin olması idi, o qədər atalar sözü bilirdi ki, bəzən cavabı da atalar sözü ilə verirdi.

Qardaşxan müəllimi Abşeron abidələrinin bilicisi və Mingəçevir abidələrinin tədqiqatçılarından biri kimi Sovetlər Birliyində yaxşı tanıyırdılar.

Q.M.Aslanov aşkar edilmiş qiymətli tapıntılar haqqında Almaniyada, Avstriyada, Polşada və Rusiyada nüfuzlu jurnal və məcmuələrdə məqalələr nəşr etdirmişdir. Təkcə tariximizi deyil, etnoqrafiyamızı da dərindən bilən Q.M.Aslanovun qədim dəfn adətləri, qədim musiqi alətləri və qədim sənət sahələri haqqında da maraqlı məqalələri vardır. Ruhunda daima incə yumor gəzdirən Qardaşxan müəllim elə Ümumdünya yumor günündə də -01 aprel 1992-ci ildə vəfat etdi.

***Bəhlul İbrahimli***
***Tarix üzrə fəlsəfə doktoru***



# XRONİKA, RƏYLƏR, XƏBƏRLƏR
# CHRONICLES, REVIEWS, INFORMATIONS
# ХРОНИКА, РЕЦЕНЗИИ, СООБЩЕНИЯ



**“Son tunc-ilk dəmir dövründə Cənubi Qafqazda və qonşu rayonlarda qarşılıqlı mədəni əlaqələr”.** Beynəlxalq simpozium. 21-25 oktyabr 2010-cu il, Almaniya, Vittenberq şəhəri. Almaniyanın məşhur universitetlərindən biri olan Halle-Vittenberqdəki Martin Lüter Universitetinin, Klassik Arxeologiya Şöbəsinin və Qara Dəniz Arxeoloji Mərkəzinin birgə təşkil etdiyi beynəlxalq simpoziumun (“Exchange and Cultural Contact from Late Bronze to Early İron Age in Southern Caucasus and neighboring regions”) işi maraqlı elmi dinləmələr və gərgin müzakirələr şəraitində keçdi. Simpoziumda Almaniya, Amerika Birləşmiş Ştatları, Rusiya, Azərbaycan, Gürcüstan, Türkiyə və başqa ölkələrdən gəlmiş görkəmli arxeoloqlar iştirak edirdilər. Məruzələr zamanı Cənubi Qafqazda aparılan yeni arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş son tunc-ilk dəmir dövrünə aid arxeoloji abidələr və tapıntılar nümayiş olundu. Müzakirələrdə sual doğuran bəzi məqamlara aydınlıq gətirildi. Simpoziumun gedişatında aşağıdakı məruzələr dinlənildi:



Vladimir Erlikh (Moskva, Rusiya), “The transition from the Bronze to the Iron Age in the North-West Caucasus in the light of Communication with Transcaucasia”, Mehmet Işıklı (Erzurum,Türkiye), “Some comments on the Late Bronze Age processin the Erzurum Region”, Christian K. Piller (Münih, Almaniya), “The Transition from Late Bronze Age to Early İron Age in Northern İran and its connections to the Sourthern Caucasus”, Stephan Kroll (Philadelphia, USA), “The İron Age II to III transition (Urartian Period) in Northwestern Iran as seen from Hasanlu”, Aleksandr Skakov (Moskva, Rusiya), “О формировании Бзибской - колхидской культуры”, Sabine Reinhold (Berlin, Almaniya), “Die Spätbronzezeit im Nord-und Westkaukasus als Periode der Formierungneuer Kultureller Gruppierungen”, Revaz Papuaşvili (Tbilisi, Gürcüstan), “Früheisenzeiliche Graber ausder Nekropole Caisi in der Zentralkolchis”, Nino Kobalia (Tbilisi, Gürcüstan), “Suspension with doglike head from Colchis”, Giorgi Makharadze (Tbilisi, Gürcüstan), “Восточная Колхида в конце II-в начале I тыс. до н. э.”, Vakhtang



Japaridze (Tbilisi, Gürcüstan), “Zur Verbreitung und zum Charakter derinner kolchischen Siedlungen des 2.-1. Jt. v. Chr.”, Rene Kunze (Tübingen, Mannheim, Almaniya), “Studien zum Kleinfundspektrum der Siedlungen von Udabno (Ostgeorgien). Zum Stand der Archäeologischen und Naturwissenschaftlichen Untersuchungen”, Sabina Brodbeck-Jucker (Berlin, Almaniya), “Zur Keramik von Udabno in Ostgeorgien”, Gabriele Kastl (Tübingen, Almaniya), “Der Didi Gora nahe Tsnori im Alazani-Tal in der Spatbronze-Früheisenzeit”, Nadine Ludwig (Münih, Almaniya), “Neue Untersuchungsergebnissezur keramik Ostgeorgiens”, Təvəkkül Rəsul Əliyev (Bakı, Azərbaycan), “The demographic situation in the south-east Caucasus in the Late Bronze and Early İron Ages period”, Lauren Ristvet (Philadelphia, USA), Hilary Gopnik (Atlanta, USA), Səfər Aşurov (Bakı,Azərbaycan), “The Origins of Political Complexity in Nakhchivan: 2008 Excavations and Survey at Oğlanqala”, Səfər Aşurov (Bakı, Azərbaycan), “The Late Bronze and Early İron Age Sites in Sharur”, Ceyhun Eminli (Bakı, Azərbaycan), “The elements of Scythian culture in Azerbaijan”, Madrid Surxayev (Bakı, Azərbaycan), “Monuments of the Early Stage of Late Bronze Age”, Bəhlul İbrahimli (Bakı, Azərbaycan), “The Late Bronze and Early İron Age graves of Nakhchivan”, Əkbər Bədəlov-Ceyhun Eminli (Bakı, Azərbaycan), “The Monuments of Late Bronze and Early İron Ages in Nakhchivan”.

Azərbaycan alimlərinin çıxışları son illərdə respublikada geniş miqyasda aparılan arxeoloji tədqiqatlara həsr olunmuşdu. Respublikamızda arxeoloji tədqiqatlar aparan xarici ölkə alimlərinin çıxışları da Azərbaycan arxelogiyasının yeni nailiyyətlərini simpozium iştirakçılarının diqqətinə çatdırdı. Gənc alimlərimizin (Madrid Surxayev, Ceyhun Eminli) ingilis dilində çıxış etmələri diqqətəlayiqdir. Ümumiyyətlə, Azərbaycanı təmsil edən alimlər (B. İbrahimli, S. Aşurov, Ə. Bədəlov, C. Eminli, T. Əliyev, M. Surxayev) öz məruzələrində nəinki qədim Azərbaycanın, həmçinin Cənubi Qafqaz və Yaxın Şərqin qədim tarixinə aid bir sıra mühüm məsələlərə aydınlıq gətirdilər. Simpoziumun sonunda yaxın şəhərlərə təşkil olunmuş ekskursiyalar zamanı alimlər Almaniya şəhərlərinin görkəmli yerləri və muzeyləri ilə tanış oldular.



***Madrid Surxayev***

**10 – 11 noyabr 2010-cu il tarixdə Türkmənistanın paytaxtı Aşqabad şəhərində " Yeni Dirçəliş və Böyük dəyişiliklər dövründə Türkmənistanın Arxeologiyası və Etnoqrafiyası – Qazanılan nailiyyətlər və perspektivlər"** mövzusunda Beynəlxalq Elmi Konfrans keçirildi. Konfransın işinə 30 – dan artıq ölkənin tanınmış alimləri qatılmışdı.

Azərbaycan kofransda Bakı Dövlət Universitetinin professoru, tarix elimləri doktoru Qüdrət İsmayılzadə və AMEA Folklör İnstitutunun əməkdaşı Əli Şamilov ilə təmsil olunmuşdu.

Plenar iclasdan sonra konfrans öz işini problemin ayrı - ayrı sahələrinə həsr olunmuş 4 böyük bölmədə davam etdirdi. Azərbaycan numayəndələri Qudrət İsmaylzadə " Xəzəryani mədəni mərkəzlərin qarşılıqlı təsir amiləri", Əli Şamilov isə "Azərbaycanda türkmənlər adlanan etnik qruplar" adlı məruzələrlə çıxış etdilər. Hər iki məqalə böyük maraqla dinlənildi. Konfrans iştirakçıları asudə vaxtlarda Aşqabadın görməli və gəzməli yerləri ilə tanış oldular.

***Qüdrət İsmsyılzadə***

**"Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" mövzusunda respublika konfransı (16-17 iyun 2010-cu il).** 1919-cu il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin nəzdində yaradılmış "İstiqlal" muzeyinin bazası əsasında 1920-ci ildə təşkil olunmuş Milli Azərbaycan Tarixi Muzeyi elmi tədqiqat və mədəni-maarif müəssisəsi olmaqla Azərbaycan tarixinin ən qədim dövründən başlayaraq müasir zamana qədər maddi və mənəvi mədəniyyət nümünələrinin toplanılması, qorunması, tədqiq və təbliğində böyük işlər aparır. Muzeyin zəngin fondlarında Vətən tarixinə aid 300 mindən çox zəngin maddi mədəniyyət nümunələri mühafizə edilir.

2010-cu il iyulun 16-da Milli Azərbaycan Tarixi Muzeyində muzeyin yaradılmasının 90 illik yübleyinə həsr olunmuş silsilə tədbirlərdən biri "Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu" mövzusunda respublika konfransı açıldı. Konfransı açan Muzeyin direktoru, akademik Nailə Vəlixanlı əvvəlcə muzeyin yaranması tarixi haqqında məlumat verdi.

Konfransda tariximizin obyektiv tədqiq, təbliğ və təqdim olunmasının vacibliyi vurğulanmış, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında muzeylərin mövqeyi və qarşılaşdıqları problemlər, bu problemlərin aradan götürülməsi yolları araşdırılmışdır. Tədbirdə AMEA-nın tabeçiliyində olan muzey nümayəndələri ilə yanaşı, Mədəniyyət və Turizim Nazirliyinin tərkibində olan 40-dan artıq şəhər və rayonun tarix və tarix-diyarşünaslıq muzeylərinin rəhbər işçiləri də iştirak etmişlər. Konfransın ilk günü Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, hal-hazırda erməni təcavüzü nəticəsində düşmən taptağı altında qalmış qədim mədəniyyət ocağımız Qarabağın tarix və mədəniyyətini muzey materialları əsasında təbliğ və təqdim edən sərginin aşılışı olmuşdur.

***Bəhman Kərimov***

**“Azərbaycan Arxeologiyası” jurnalı təbrik edir.**

**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, tarix elmləri doktoru Maisə Nurbala qızı Rəhimovaya**

*Əziz və hörmətli Maisə xanım!*

“Azərbaycan Arxeologiyası” jurnalının Redaksiya heyəti çoxsaylı oxucuları ilə birlikdə Sizi, Azərbaycanın görkəmli alimini və istedadlı elm təşkilatçısını yubiley iliniz münasibəti ilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, elmi-təşkilati fəaliyyətinizdə yeni uğurlar arzulayır. Qoy yüksəklərə qaldırdığınız Azərbaycan Arxeologiyası həmişə Sizə dayaq olsun!

**“Azərbaycan Arxeologiyası” jurnalı təbrik edir.**

**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
“Antik dövr Arxeologiyası”
şöbəsinin müdiri, tarix elmləri doktoru,
AMEA-nın müxbir üzvü İlyas Atabala oğlu Babayevə**

*Əziz həmkarımız İlyas müəllim!*

“Azərbaycan Arxeologiyası” jurnalı Sizi, Antik dövr Arxeologiyası üzrə tanınmış mütəxəssis alimi, gözəl və təcrübəli pedaqoqu, səmimi və qayğıkeş insanı anadan olmağınızın 75, elmi-pedagoji fəaliyyətinizin 50 illik yubileyi münasibəti ilə təbrik edir, Sizə gümrahlıq, cansağlığı, sonu görünməyən axtarış yolarında böyük uğurlar arzulayır!